Sahib Camal

Qaçaq Şamil

MÜCRÜ
NƏŞRİYYAT

Naşir: *Müşfiq XAN*
Redaktor: *Vahid Aslan*
Ön sözün müəllifi: *Vaqif Yusifli*
Texniki redaktor: *Xanım Anela*
Dizayn və qrafika: *Fərid İlham*

Sahib Camal. "Qaçaq Şamil". Tarixi mənzum roman. Mücrü nəşriyyatı. 344 səh.

Tanınmış şair Sahib Camalın "Qaçaq Şamil" mənzum romanı gərgin axtarışın nəticəsi kimi real hadisələrə əsaslanaraq yazılmış tarixi bir əsərdir. Romanda təsvir olunmuş Qaçaq Şamil obrazı yadellilərin zülmü və işgəncələri ilə barışmayan Xalq Qəhrəmanı obrazıdır. İnanırıq ki, bu roman dəyərli oxucuların böyük marağına səbəb olacaqdır.

Bu kitabın işıq üzü görməsində maddi və mənəvi dəstək göstərən Məmmədəliyev Şahin Şamil oğluna müəllif öz dərin minnətdarlığını bildirir.

Bu kitab "**Mücrü**" nəşriyyatının "**Poeziya**" seriyasında nəşr edilmişdir**. Müəllifin** və "**Mücrü**" nəşriyyatının rəsmi razılığı olmadan kitabın, yaxud onun hər hansı bir hissəsinin təkrar çapı **qadağandır**.

ISBN: 9789241221191

© Sahib Camal / 2021
© "Mücrü" nəşriyyatı / 2021

Şeirimizin Sahib Camalı

Tanımadığım, heç bircə misrasını da oxumadığım bir şairlə – Sahib Camalla tanış oldum. Mənə üç şeirlər kitabını və bir də "Qaçaq Şamil" adlı tarixi mənzum romanını təqdim elədi. Hərarətin qırx dərəcəsində Bakıda, Əhmədli metrosundan üzü yuxarı, bir çayxanada oturub söhbət elədik. Öyrəndim ki, Sahib Camal – məndən on üç yaş kiçik olan bu səmimi insan Gədəbəy rayonunun Böyük Qaramurad kəndində dünyaya göz açıb. Gəncə Dövlət Üniversitetinin dil-ədəbiyyat fakültəsini bitirib. İndiyə qədər Gədəbəydə öz fənnindən dərs deyir. Ancaq Sahib Camal həm də şairdir. Çayxanadakı bir saatlıq söhbətimizdə mən qarşımda təkcə bir dil-ədəbiyyat müəllimini deyil, həm də istedadlı bir şairi gördüm. O, əyalətdə yaşasa da müasir ədəbiyyatımızda baş verən bütün proseslərə, ələlxüsus şairlərimizin yaradıcılığına yaxşı bələddir.

1975-ci ildən şeirləriylə mətbuatda çıxış edir. İlk şeirlərinə ünlü şairlərimiz – İlyas Tapdıq və Musa Ələkbərli xeyir-dua veriblər. İndiyə qədər doqquz kitabı çapdan çıxıb, amma içi mən qarışıq tənqidlərdən heç biri Sahib Camalın bu doqquz kitabından, ümumiyyətlə onun yaradıcılığından xəbərimiz olmayıb. Əlbəttə, bölgələrdə şeir yazan, şeir kitablarını çap elətdirən çoxlu müəlliflər yaşayır, təbii ki, onların çoxuna ŞAİR demək mümkün deyil. Böyük şairimiz Mirzə Ələkbər Sabir deyirdi ki: – "Şeir bir gövhəri-yekdaneyi qiymətdir, Salmaram vəsfi-düruğ ilə onu qiymətdən". Sahib Camalı o çoxluqdan fərqləndirən bircə şey var – o, ürək dililə danışır və bu

ürək bütün hüceyrələrinə qədər şeir içindədir, bütün qanını bədəninin, ruhunun hər tərəfinə səpələyir. Və mən o bir saatlıq söhbətdən sonra bir günümü onun şeirlərini və poemasını oxumağa sərf etdim və sonra dərindən nəfəs aldım ki, bir şairi kəşf etdim. Dostum İslam Sadığın onun kitablarından birinə yazdığı ön sözdəki belə bir fikiriylə tam razılaşdım ki: – "Sahib Camaldan danışıram. O Sahib Camaldan ki, şeirlərinə kəkotu qoxusu hopub, misralarında bulaq sularının duruluğu var. Ancaq onun şeirləri bəzən Gədəbəy dağlarında çaxan şimşəklər kimi uğuldayır, guruldayır, oxuyanların qulaqlarında əks-səda verir". Əlbəttə, mən İslam Sadıq kimi, belə bədii-poetik cümlələr işlədə bilmərəm, amma İslamın duyduqlarını təsdiq edirəm.

Sahib Camal məndən xahiş etdi ki, onun yaxınlarda çapdan çıxacaq "Qaçaq Şamil" tarixi mənzum romanına ön söz yazım. Amma onun şeirlərindən söz açmamaq günah olar. Çünki bu yazının lap əvvəlində qeyd edirəm ki, Sahib Camal istedadlı şairdir. Belə şairi bir və ya bir neçə şeirindən də tanımaq olar ki, o, doğrudan da bu tərifə layiqdir.

Vətən haqqında, konkret desəm, Vətənimiz haqqında ABBAS SƏHHƏTDƏN üzü bəri yüzlərlə, minlərlə şeirlər yazılıb. Və yazılacaq da. Sahib Camalın Vətənə həsr etdiyi şeirini də təzəliyinə, poetik kamilliyinə görə bəyəndim:

Əlimin silahı, göyrücdən olan,
Bir belin sapını Vətən bilirəm!
Elimin əlində hey, gücdən olan,
Əkini, səpini Vətən bilirəm!
VƏTƏN!

Dağlara söykənən başı ucanın,
Bu daşa, qayaya gözü acanın,
Qaratel cavanın, ağsaç qocanın,
Sözünü, gapını Vətən bilirəm!
VƏTƏN!

Sevgin çox, çatarmı, bir nədir mənə?
Təkcə mən bilirəm, hər nədir mənə,
Onda bax dağ-daşın gör nədir mənə,
Bir quru çöpünü Vətən bilirəm!
VƏTƏN!

Ümumiyyətlə Sahib Camalın Vətənə həsr etdiyi şeirlərdə forma ilə məzmunun ahəngdarlığını hiss etdim. Yəni bu şeirlərdə təzə, orijinal deyimlər, təşbihlər gördüm, ən başlıcası isə, vətənpərvərliyin özünəməxsus məzmun çalarını… Təfərrüata varmadan mən Sahib Camalın "Bu il yenə Xocalını itirdim", "Dərdimi hör, a millət", "Hamı Qarabağa nağıl danışır", "Gedim", "Qarabağın adıdır" və s. şeirlərini bizim o illərdə (işğal illərində) yaşadığımız əhval-ruhiyyənin, intizarımızın, həsrətli anlarımızın poeziya dililə ifadəsi kimi mənalandırıram. Və ümid edirəm ki, Sahib Camal yeni Azərbaycanımızın işğaldan azad

olunmuş Qarabağımızın gerçək həyatından da gözəl şeirlər yazacaq.

Sahib Camalın "Mən dərdimi sevirəm" şeirlər kitabı, zənnimcə, onun əvvəlki kitablarının mükəmməl sonluğudur. Çünki bu kitabda Sahib Camalın bir şair kimi yetkinliyini, poetik axtarışlarının uğurlu nümunələrini görürəm. "Mən dərdimi sevirəm" – bu şeir Sahib Camalın könül aləmini ifadə edən şeirlərdən biridir. Dərd insanın mənəvi aləminin gerçəkliyidir. Hər bir insanın özünə görə dərdi mənalı olur. Ancaq bu dərdi heç də patoloji ağrı səviyyəsinə endimək olmaz. Çünki: "Dərdi sevmək tamam başqa sevgidir, Yaranandan mən dərdimi sevirəm". Çünki:

Öyrənirsən, məndən öyrən gəl dərdi,
Ürəyimdə Vətən dərdi, el dərdi,
Qönçə idi, eyləmişəm gül dərdi.
Qorunandan mən dərdimi sevirəm!

Doğrudan da, S.Camalın "dərdli şeirləri" onun bir şair kimi mənəvi aləminin bütün çalarlarını ifadə edir, təkcə şəxsi, subyektiv aləmini, lirik "mən"in keçirdiyi hiss və həyacanlarını deyil, həyata, gerçəkliyə münasibətinin məqamlarını, anlarını da əhatə edir. Şair dərdinə özündə bir gözəllik axtarır:

Pəncərəni, qapını qır,
Çap edənin çapını qır,
İynəsini, sapını qır,
Dərdi tikmə gözlərinə.

Göz yaşını içə qısqa,
Çıxsın, axsın qoy bir sısqa.
Bənövşə bük ondan başqa,
Heç nə bükmə gözlərinə.

Sahib Camal gözəl qoşmalar, gəraylılar müəllifidir. Məlumdur ki, bugünkü poeziyamızda xalq şeirinin bu uzunömürlü janrlarına tez-tez, həddindən artıq müraciət olunur, gözəl, mükəmməl qoşmalar, gəraylılar da var, amma qoşmanı, gəraylını gözdən salan xeyli sayda nümunələr də. Unudulur ki, qoşma və gəraylı yazmaq heç də qafiyələri düzmək nəsə bir fikir ifadə etmək deyil. Qoşma mədəniyyətinə, hətta deyərdim, estetikasına bələd olmadan yazılan qoşmaların ömrü bir günlükdür. Oxusunlar Qurbanini, Tufarqanlını, Aşıq Ələsgəri, Aşıq Şəmşiri, Səməd Vurğunu, Süleyman Rüstəmi, Bəxtiyar Vahabzadəni, Hüseyn Arifi, Məmməd Arazı, Məstan Günəri, Məmməd Aslanı, Hüseyn Kürdoğlunu… Sahib Camalın bir sıra qoşmaları məhz Azərbaycan şeirində qoşma ənənələrinin uğurlu davamıdır. Mən onun qoşmalarında XXI əsrin qoşması necə olur sualının doğru-düzgün cavabını görürəm. Bir misal:

Oxu, kəklik

Səsin üstə çox soruldu sorğular,
Çöl çəməndir, çəmən çöldür səsinə.
Başın üstə qarıldaşdı qarğalar,
Qar-qarıyla elə güldü səsinə.

İçdə olan dərdim, qadam dil açdı,
Bunun üçün elə şadam, dil açdı,
Gör dərdinə neçə adam dil açdı,
Neçəsi də sevinc böldü səsinə.

Yer daşını, suyunu da iç yerdə,
Uçma göyə, hər nə uçsan uç yerdə.
Dinləmədim belə səsi heç yerdə,
Tamarzıyam neçə ildir səsinə.

Oxu kəklik, onda günün birində,
Dağa-daşa qon da günün birində.
Bəlkə, elə sonda günün birində,
Sevdiyim qız durub gəldi səsinə.

Şeirdə DİL faktoru birinci sırada durur. Şeirin gözəllyini illk növbədə, onun dilində axtarmaq lazımdır. Əli Kərim – o, böyük şairimiz "Üçüncü atlı" poemasında Azərbaycan dilinin gözəlliyi, zərifliyi haqqında yazırdı: "Bu gözəl dilini yaratmış güman, İlahi damağı çağ olan zaman. Bu dil zəriflikdə uşaq nəfəsi, Gözəllik utanar bu incə dildən". Mən sübut etmək istəmirəm ki, Sahib Camalın şeir dili əlüyyül-əladır, yox, onun şeir dili safdır, təmizdir, kələ-kötür ifadələrə, mücərrəd anlaşılmayan sözlərə, söz birləşmələrinə rast gəlmədim.

Onun sevgi şeirlərində də yaşarı hisləri, duyğuları izlədim. Yaşı "ekvator xəttini" keçsə də, bu şeirlər elə bil gənclik dadır. Yəni şair özünü aldatmır, yalandan sevgi uydurmur, demək istəyir ki, sevginin və eləcə sevənlərin yaşı qocalıq bilmir.

İstəyinin neçəsinə çatmışam,
Neçəsinə çatmamışam o qızın!
Bilməmişəm, necə deyib sözünü,
Necəsinə çatmamışam o qızın!

Nə vaxt dadsam, ayrılığı bal dadıb,
Sevincinin dəymişi də kal dadıb,
Ayağımı ayrı yollar aldadıb,
Küçəsinə çatmamışam o qızın!

İncə, şux bir zarafat qatılıb bu sevgi şeirinin içinə. Amma əsl sevgi şeiridir. Yaxud, bir kitabının adını "Qaldır kirpiyini, gözünü görüm" qoyub. Elə bu tək misra sevgi, məhəbbət qoxuludur.

Nəhayət, keçək əsas mətləbə. Gözəl lirik şeirlərini oxuyandan sonra düşündüm ki, Sahib Camalın "Qaçaq Şamil", özünün tarixi mənzum roman adlandırdığı bu əsəri – 344 səhifəlik əsəri oxuyub başa çatdıra biləcəyəmmi? Amma oxudum və əziz oxucular, sizə də məsləhət görürəm ki, oxuyasınız. Şairin hünəri, mən deyərdim, zəfəri təkcə lirik şeirlər yazması deyil. Onda Füzuli o gözəl qəzəllərindən sonra gərək "Leyli və Məcnun"u yazmayaydı. Onda gərək Səməd Vurğun "Komsomol poeması"nı qələmə almayaydı, onda gərək Bəxtiyar Vahabzadə "Şəbihicranı" yaratmayaydı. Poemaya mənzum roman hər hansı şairin dünyanı, cəmiyyəti, həyatı daha geniş lövhələrlə, poetik ucalıqla poeziyaya bəxş etməsinin möhtəşəm nümunəsidir. Sahib Camal "Qaçaq Şamil" mənzum roman yazıb və bununla sübut etmək istəyib ki, bir var həyatı və gözəlliyi bir anın içində yaşayasan, bir də var gerçəkliyi

və tarixi hadisələr içərisində qələmə alasan, həm də təsvir etdiyin hadisələr, insan obrazları poetik biçimdə təsvir oluna. Bu yolda Nizami ənənəsi var.

Azərbaycan ədəbiyyatında "Qaçaq Nəbi" ənənəsi var (Süleyman Rəhimovun "Qafqaz qartalı" romanını, Süleyman Rüstəmin "Qaçaq Nəbi" pyesini xatırlayır) və bu ənənə bir əsrdən artıqdır davam edir.

Qaçaqlıq mövcud quruluşlara qarşı üsyan deməkdir… Sahib Camalın qəhrəmanı Şamil də ötən əsrin qırxıncı illərində ictimai quruluşdan, sovet imperiyasından narazı qalan bir şəxsdir və ətrafına da özü kimi incidilmişləri, narazıları yığır. Onun yurd sevgisi, vətən sevgisi, elə-obaya məhəbbəti sonda qaçaqçılıqdan əl çəkib hökümətə təslim olmaqla tamamlanır. Ümumiyyətlə, müəllif Şamilin simasında ağıllı düşünən və ağıllı qərarlar verən bir insan obrazını yaradıb. Şamilin və onun dostlarının elə o dövrdə ermənilinin mahiyyətini dərk etmələri və onlara qarşı mübarizəsi doğru və inandırıcıdır.

Hər hansı mənzum romanda təkcə hadisələrin təsviri əsas deyil. Baş verən hadisələrə münasibət də mühüm şərtdir. Məsələn, müəllifin "Savaş" fəsli bu məfhumun köklərini, mahiyyətini açıqlayır:

Artıq yavaş-yavaş qaş qaralırdı,
Günəş saralırdı, gün daralırdı!
Gün də əyilirdi axşama doğru,
Ay da doğmaq üçün çəkirdi ağrı!
Dağlar yatmaq üçün hazırlaşırdı,
Günəş batmaq üçün hazırlaşırdı.

Günün çəkilirdi əli qaşından,
Qızlar çəkilirdi bulaq başından ...
Əlini çəkirdi aşıqlar sazdan!
Belə də baxanda göylər bir azdan,
Ulduz yağışına tutulacaqdı,
Hər yerə qaranlıq atılacaqdı.
Hər yer susacaqdı bu qaranlıqdan,
Gözü içməyən də su qaranlıqdan.
Gecə öz-özünə karıxacaqdır.
Axşam səhər üçün darıxacaqdır.
Dondurub dodaqda öz gülüşünü,
Göydə gəzəcəkdi Ay Günəşini ...
İşıqlar içində işığı arı,
Boylanıb bir ayrı işığa sarı ...
İşıq gəzəcəkdi işıq içində,
Sözünü saxlayıb aşıq içində ...
Hələlik sazına sarılacaqdır.
Gecənin ürəyi yarılacaqdır...

Yaxud "Səs" fəslində səs insanın mənəvi varlığı, ifadə vasitəsidir. Fiziki səs yox…haray, çağırış, fəryad:

Səhər açılmışdı, dan sökülmüşdü,
Gün də ucalmışdı bir adam boyu.
Soyuqdan əsirdi, çay bükülmüşdü,
Dumduru olmuşdu bulağın suyu ...
Uçurdu yenə də quş öz göyündə,
Zirvədən baxırdı qartal dərəyə ...
İtirdi, batırdı o dağ küyündə,
Az qalırdı durub o daş yeriyə ...

Sanki heç üstündən yel keçməmişdi,
Duman yerindəydi, dağ yerindəydi ...
Hava udmamışdı, su içməmişdi,
Elə bil yüz ölçüb bir biçməmişdi.
Ayaq titrəməmiş, əl əsməmişdi,
Heç nə ölməmişdi, sağ yerindəydi.
Qara yerindəydi, ağ yerindəydi,
Hər nə var kefi lap çağ yerindəydi!
Çəmənlər durmuşdu daraq əlində,
Güllər telə dönüb daraqlanırdı.
Dağlar oxuyurdu vərəq əlində,
Çöllər kitab olub varaqlanırdı ...

"Qaçaq Şamil" Azərbaycanda qaçaqlığın son pillə-sidir, desəm, yanılmaram. Düzlüyün, həqiqətin, ədalətin bu yolla təsdiqidir və Sahib Camal bu fikri öz mənzum romanında təcəssüm etdirib. Ona uğurlar arzulayıram!

Vaqif Yusifli,
Filologiya elmləri doktoru.

Proloq

Torpaq var olanın, torpaq varlığın,
Lap ən birincisi, ilki, köküdür.
Torpaq azadlığın, torpaq darlığın,
Özünü özünə çəkən çəkidir.
Bir mamırdan tutmuş ağaca qədər,
Üst-üstə gəl, nə var, aranlı, dağlı.
Tək bir toxdan tutmuş min aca qədər,
Torpaqdan asılı, torpağa bağlı.
Ömrünü-gününü daşımaz, ölər,
Dünyada nə varsa, torpaqla sağdır.
Başımız üstündə yaşamaz, ölər,
Göyün üzünə də torpaq bir bağdır.
Daş-qaya heç olmaz, nə bir dağ olar,
Su olmaz, olsa da, harada durar?
Qırmızı, nə sarı, göy, nə ağ olar,
Dünya bir şəkildə – qarada durar.
Su sudan, od oddan, yol yoldan küsər,
Axtarıb tapasan çətin hər yanı.
Qalmaz yer üzündə ağdan bir əsər,
Qaralıq bürüyər bütün hər yanı.
İstisi, sərini, soyuğu üstdə,
Ürəkdən ayrılan damardır, qandır.
Torpaq bir bədəndir ayağı üstdə,
O bədəndə duran ürəkdir, candır.
Dünyaya bir dövlət, bir varsa torpaq,
Dünyada hər şeydən torpaq baş olur.
Torpaqdan yaranan nə varsa, torpaq,

Torpaq özü ölsə, qaya, daş olur.
Torpaq suyun, yelin, torpaq işığın,
Başında dayanır, başında durur.
Göy də Günəş adlı bir yaraşığın,
Gözündə dayanır, qaşında durur.
Özünü eyləyir gerçək çəməndə,
Hər ot üstündəki yarpağa görə.
Göyçəkləşir, durur göyçək çəməndə,
Açan hər bir çiçək torpağa görə.
Sevinci soyuyan, dərdi odlanan,
Torpaqdan götürür canına qanı.
Torpağın üstündə canlı adlanan,
Nə var, mənimsəyir torpaqdan canı.
Torpağı adamsız torpaq da olmaz,
Torpağı adamı torpaq eyləyir.
Bir çiçək də olmaz, yarpaq da olmaz,
Ağacı da ağac yarpaq eyləyir.
Adamın başında ağlı olanda,
Kim deyir, torpağı dərdə çevrilir?
Torpaq adamına bağlı olanda,
Adamına görə yurda çevrilir.
Qışda da çiçəyi solmur ki onun,
Göyərdikcə otu açır yarpağı.
İkinci bir adı olmur ki onun,
Adına deyirlər Vətən torpağı.
Üstündə olan göz adamı olur,
Yanır elə, nə bir ocağı sönür.
Onun özünün öz adamı olur,
Adamlaşan torpaq Vətənə dönür.
Altında durmağa bir damı olan,

Hava sərin olur, su sərin olur.
Üstündə həmişə adamı olan,
Torpaq şirinləşir, şipşirin olur.
Solur çiçəyi də solan torpağın,
Solmaq nədir, ölür, canından keçir.
Adam da Vətəni olan torpağın,
Üstündə hər damla qanından keçir.
Qaranlığa qalxıb, işığa enmir,
İsti odu, soyuq daşında durur.
Bir iynə boyda da aşağı enmir,
Bütün sevgilərin başında durur.
Gözü elə toxdur bu sevginin də,
Bütöv sevgilərdir bütün sevgisi.
Ayrı adı yoxdur bu sevginin də,
Adına deyirlər Vətən sevgisi.
Hər şey məhsuludur insan ağlının,
İmanı, dini də Vətən üçündür.
Yarandığı gündən insan ağlının,
Ömrü də, günü də Vətən üçündür.
Gül-çiçək yazının, qar-qışının da,
Başı uca dursun, üzü ağ olsun.
Burnu qanamasın bir daşının da,
Üstündə adamı Vətən sağ olsun.
Çoxalır, dikəlir igidlərinə,
Ömrünü uzadır səbrinə görə.
Dayanır, söykənir igidlərinə,
Millətə çevrilir qəbrinə görə.
Bütövü yarıya bölmür, heç bölmür,
Ölüb də, sonra da dirilən millət.
Öldürə bilmirlər, ölmür, heç ölmür,

Yeriyir Tanrıda dirilən millət.
Yaşayır özü də diri, dipdiri,
Yaşayır, Tanrının xoşuna gəlir.
Yaşayır, yuxarı qaldırır yeri,
Göylər də aşağı – quşuna gəlir.
Səsin hesabına, küyün gücünə,
Yollar öz yolunu yollu böyüdür.
Quş öz balasını göyün gücünə,
Qanadlı böyüdür, qollu böyüdür.
Başını qaldır da, bir o göyə bax,
Buludun arxası, köməyi göydür.
Əlini üzməyir bu yerdən də yox,
Nə olsun, içməyi, yeməyi göydür.
Soyuğu, istisi bir yerdə olan,
İçəri, eşikdir bu Yer kürəsi.
Sağlamı, xəstəsi bir yerdə olan,
Məzardır, beşikdir bu Yer kürəsi.
Hər yaxın, yadına bu Yer kürəsi,
Bütün daşımızın, damımızındır.
Hər millət adına bu Yer kürəsi,
Mənimdir, sənindir – hamımızındır.
İlinə, ayına əs gününə də,
Vətəndaş olmur ki hər yoldan ötən.
Nə bir yaxşı günü, pis gününə də,
Tək yaşayanına görədir Vətən.
Göndərmir bir yaxşı gündən Vətənə,
Qürbətdən Vətənə çox mənim deyir.
Uzaqda olanlar gendən Vətənə,
Məndən, səndən də çox Vətənim deyir.
Üzü də , gözü də qürbətə dönür,

Olmur nə kölgəsi, nə bir işığı.
Get-gedə özü də qürbətə dönür,
Qürbətdə qürbətin dolanışığı!
Bazardan-bazara köçür qürbətdə,
Gəlib son bazarı Vətəndən keçir.
Keçir ömrü-günü, keçir qürbətdə,
Axırda məzarı Vətəndən keçir!
Könlündə, dilində, sözündə qalır,
Bir ölmək arzusu, bir sağ arzusu.
Danışır-danışır gözündə qalır,
Öləndə bir ovuc torpaq arzusu.
Hər nəğmədən gözəl bir nəğmə dili,
İki el arası get-gələ dönür.
Yadından çıxır da öz doğma dili,
Babasının dili yad dilə dönür.
Millət onda olur, onda büsbütün,
Səsini, sözünü yad dildən almır.
Kökündən üzülən sonda büsbütün,
Yad birinə dönür, özündə qalmır.
Bu ağır yaradır hər yaradan çox,
Yaxşı nümunədir zülmə, zillətə.
Çoxlu var-dövlətdən, pul-paradan çox,
Qürbət bunu verir zəif millətə.
Boş vurur sinə də, ürək boşdadır,
Ön əgər budursa, axır nə olsun?
Ağıl ayaqda yox, ağıl başdadır,
Çoxu ayağına baxır, nə olsun!
Bir sözü yuxulu, bir sözü ayıq,
İstidən qalxanlar, soyuqdan düşür.
Gəlsə, gəlməsə də ağlına layiq,

Çoxu başdan girir, ayaqdan düşür.
Sinədə ürəyi bir daş imişkən,
Dönür qurbanlığa, dolur qurbanı.
Tək-tək oyananlar Sabir demişkən;
Oyanmayanların olur qurbanı.
Gözündə işıq da qaranlıqdırsa,
Sayı olmayacaq, say o millətin.
Bütün adamları qurbanlıqdırsa,
Onda vay halına, vay o millətin.
Çölündən içinə yollanacaqsa,
Görəcək iç heç yox, çölsə yaxşıdır.
Qula dönə-dönə qullanacaqsa,
Belə bir milləti ölsə, yaxşıdır!
Bu biri sevincdir, o biri qəmdir,
Ağalar ağappaq, qullar qaradır.
Ağalar yaratmır, ağalar kimdir?
Qullar dünyasını qullar yaradır.
Nə bir qayğı çəksin, nə dərdə qalsın,
Yiyə dura bilmir igid adına.
Nə qədər edirsə, yadına salsın,
Tək bircə igidi gəlmir yadına.
Haydan hay salınıb, haray səpilmir,
Canında nə ağrı, nə qorxu olmur.
Haqqında yazmağa bir söz tapılmır,
Tarixi yazılmır, tarixi olmur.
Yaşamır ömrünü bir varlıq kimi,
Silinir tarixdən bu cür millətlər.
Baxır bu dünyaya bir darlıq kimi,
Tutur, əvəz edir yerini bütlər.
Durmur, öz yerində yeri sürüşür,

Bələnir tarixi büt tarixinə.
Yerində, yurdunda itlər hürüşür,
Döndükcə tarixi it tarixinə.
Adam var, nə olsun, yadam yerinə,
Qalx göyə, aşağı düş, adamı var.
Dünyada qoyulur adam yerinə,
Heç olmasa, onun beş adamı var.
Mənə elə gəlir, milləttək qalır,
Dünyada igidi, qoçağı olan.
Olur əlbəyaxa, qələbə çalır,
Yağıya əlində bıçağı olan.
Canına söykənir cana-can olur,
Hər an var anında belə adamlar.
İgidə çevrilir, qəhrəman olur,
Yurdun dar anında belə adamlar.
Doğma, həm yadına belə deyirlər,
Həsrəti də qoçaq, qəmi də qoçaq.
Hər halda adına belə deyirlər,
Kimi dəli olur, kimi də qaçaq.
Gəlir bu günə də yol gələ-gələ,
Dərdə yuvalanan bir yurddan gəlir.
Gör haradan-hara dəlilik hələ,
Koroğludan o yan, Qorquddan gəlir.
Bircə varağında sağ yeri yoxdur,
Tanrı haqqı verib Ana Qadına.
Tarixdə ağaran ağ yeri yoxdur,
Dəlilik yazılıb Türkün adına.
Bax öz gözünlə gör, görünür üzü,
Görsək güzgüsündə, bərk aynasında.
Birbaşa birləşib özündə özü,

Dəlilik bütövdür Türk dünyasında.
Göz qoyar bir dərdə dəliliyinə,
Özünü edəndə dərk böyük olur.
Başlayar bir yerdə dəliliyinə,
Özünə dönəndə Türk böyük olur.
Əriyər qar, qırov Azərbaycandan,
Öz andını qurar "Quran"ın üstdə.
Gəlib keçər Bütöv Azərbaycandan,
Özünü saxlayar Turanın üstdə.
Baxmaz heç bir Əli, Vəliliyinə,
Özü öz yolunun olar xəstəsi.
Başlayar özünün dəliliyinə,
Yaradar yeni bir Qaçaq dəstəsi.
Sonuncu olmayıb heç yüz il öncə,
Dağının düzünün Qaçaq dəstəsi.
Necə ki iki yüz, üç yüz il öncə,
Var idi özünün Qaçaq dəstəsi.
Nəğmədir, nəğməyə nəqaratdır bax,
Oxuyur tarixi sevincdən, qəmdən.
Onun hər birisi ibarətdir bax,
Bir Qaçaq Nəbidən, Qaçaq Kərəmdən.
Yerində olduqca ərən, ər yeri,
İçdən basdırılıb, ölüb guyalar.
Bir millət yaradıb onun hər biri,
Kütləni əzdikcə imperiyalar.
Qışa qış, yaza yaz, yaya yaysa da,
İlki ilklərdəndir, sonu sonlardan.
Özünü nə qədər güclü saysa da,
İmperiyalar da qorxub onlardan.
Qoya bilməyib bir cığırmı, izmi,

Gəlib toy adına saxlayıb yası.
Ərəb xilafəti, fars şovinizmi,
Qorxub rusun da rus imperiyası.
Gələn yadelliyə nə ölüb, nə də
Əyilməyib, onu atdan tək salıb.
Qorxudan Babəkdən Qaçaq Məcidə,
Hər kəs dırnaq salıb, hər kəs tük salıb.
Çağlaya-çağlaya, düz axa-axa,
Yalandan çağlayıb, nə axıb onlar.
Dirinin gözünə dik baxa-baxa,
Ölümün gözünə dik baxıb onlar.
Yadlar yara vurub, yaraladıqca,
Talayıb talançı müqavilələr.
Yad əl para-para paraladıqca,
Böldükcə yalançı müqavilələr.
Qanı bahasına olsa da belə,
Ölüb bu ölümə qarşı durublar.
Canı bahasına olsa da belə,
Durub, bu bölümə qarşı durublar.
Yox nə bir imanı, nə bir dini də,
Şərdir, heç xəbəri yoxdur xeyirdən.
Rusun əli ilə bir erməni də,
Bu az imiş kimi çıxıb böyürdən.
Yundur, ipi hələ əyirdilməmiş,
Deyən, dəlinəndə əyri dəlinmiş.
Qulağından çəkib böyürdülməmiş,
Hələ böyürəcək böyrü dəlinmiş.
Eyləyib qəlbinin göynərtisini,
Ölçündən içəri, biçindən çölə.
Böyürdə-böyürdə böyürtüsünü,

Çıxarmaq lazımdır içindən çölə.
Üz tuta bilməsin heç bir qapıya,
Qorxub da, sözünü, oy, böyürməsin.
Burdan Rusiyaya, nə Avropaya,
Böyürməsin, bir də qoy böyürməsin.
Dava hazırlaya, bu dava üçün,
Hanı Cilli Cavad, Mustafa ağa.
Bu yurd, bu el üçün, bu oba üçün,
Qoymuşdu yaxşı ad Mustafa ağa.
Bənzəyir bu dağda bu qaya bəyə,
Bir daş göz dağıdır yüz min dığaya.
Yol ver Gizir oğlu Mustafa bəyə,
Yol ver Qazan xandan Məcid ağaya.
Qaçaq Məcid, Məcid ağa,
Gəlmişdir öz gülləsinə.
Gülləsi öləndən sonra,
Ölmüşdür öz gülləsinə.
El üçün mülk adamıdır,
Silkində silk adamıdır,
Dünyanın ilk adamıdır,
Gülmüşdür öz gülləsinə.
Dağına düzünü vura,
Könlünə közünü vura,
Sonda da özünü vura,
Bilmişdir öz gülləsinə.
Belə gəlsin, elə keçsin,
Yaxası yad ələ keçsin.
Özünü nə belə keçsin,
Silmişdir öz gülləsinə.
Haradan-haraya iki,

Yarıdan-yarıya iki,
Dərdini qaraya iki,
Bölmüşdür öz gülləsinə.
Seçib bir-iki mərdini,
Qalanının yüz dördünü.
Dərdi olanın dərdini,
Dəlmişdir öz gülləsinə.
Burda ayrılıram bu qoçaqlardan,
Sözümlə köçürəm Qaçaq Şamilə.
Bir az söz açsam da bu qaçaqlardan,
Birbaşa keçirəm Qaçaq Şamilə.
Açıram göylərə söz qanadımı,
Söz alıb uçuram o Şamildən ki,...
Ona qaldırıram mən öz adımı,
Artıq söz açıram o Şamildən ki,...
Qanında, canında qaçaq adını,
Möhür vuranların ən sonuncusu.
Adının yanında Qaçaq adına,
Yiyə duranların ən sonuncusu.

Savaş

Artıq yavaş-yavaş qaş qaralırdı,
Günəş saralırdı, gün daralırdı!
Gün də əyilirdi axşama doğru,
Ay da doğmaq üçün çəkirdi ağrı!
Dağlar yatmaq üçün hazırlaşırdı,
Günəş batmaq üçün hazırlaşırdı.
Günün çəkilirdi əli qaşından,
Qızlar çəkilirdi bulaq başından ...
Əlini çəkirdi aşıqlar sazdan!
Belə də baxanda göylər bir azdan,
Ulduz yağışına tutulacaqdı,
Hər yerə qaranlıq atılacaqdı.
Hər yer susacaqdı bu qaranlıqdan,
Gözü içməyən də su qaranlıqdan.
Gecə öz-özünə karıxacaqdır.
Axşam səhər üçün darıxacaqdır.
Dondurub dodaqda öz gülüşünü,
Göydə gəzəcəkdi Ay Günəşini ...
İşıqlar içində işığı arı,
Boylanıb bir ayrı işığa sarı ...
İşıq gəzəcəkdi işıq içində,
Sözünü saxlayıb aşıq içində ...
Hələlik sazına sarılacaqdır.
Gecənin ürəyi yarılacaqdır.
Bir az ağrıyacaq bu ağrıdanmı ?
Ürəyinə düşən ya qorxudanmı ?
Gecədə bir ürək qalmayacaq da,

İşığa bir istək qalmayacaq da...
Baxıb qaranlığa itlər hürəcək,
Arabir arada gör nə sürəcək ?
Olmayan səssizlik, olmayan sükut,
Birara da uçub əl boyda bulud.
Ayın qabağını gəlib tutacaq,
Sevincdən uğunub, gülüb tutacaq.
Onun o üzündə Ay darıxacaq,
Onun bu üzündə çay darıxacaq.
Mən də elə-belə qalmayacağam,
Ürəyim sinəmdə oy! Darıxacaq.
Qaranlıq üstünə gəlib düşəndən,
Toranlıq gözünü oyub eşəndən.
Qoyub dincəlməyə suyunu bulaq,
Bir az böyüdəcək boyunu bulaq
Qalxacaq, enəcək duruluğuna,
Yenə də dönəcək duruluğuna.
Ulduzlar göyündə parıldayacaq,
Çaylar yatağında şırıldayacaq.
Nə cüyür qaçacaq, nə quş uçacaq,
Qönçə olan çiçək səssiz açacaq.
Heç kim görməyəcək bu açılmağı,
Başına alacaq xoş qoxu dağı.
Bu qoxuya görə dağ xoşlanacaq
Bağça xoşlanacaq, bağ xoşlanacaq.
Gedəcək hər tərəf bir xoş yuxuya,
Hər şey xoşlanacaq bir xoş qoxuya ..
Təkcə bir gecənin özündən başqa,
Saçından, qaşından gözündən başqa.
Gözünün çimrini alacaq hər şey,

Özünün yerində olacaq hər şey.
Gəlib bürüyəcək neçə şər yanı,
Qaşının altından çıxıb hər yanı.
Görmək istəyəcək, göz görməyəcək,
Dil belə qaranlıq söz görməyəcək.
Açacaq, solacaq danışmağına,
Peşman da olacaq danışmağına.
Özünə baxaraq bir anlığına,
Gecə utanacaq qaranlığına ...
Yalvarıb düşəcək dildən, ağızdan,
İşıq istəyəcək Aydan, ulduzdan!
Düşüb işığında o ay yanacaq,
Durub qaranlığa peşmanlanacaq.
Salıb qaranlığa necə özünü
- Deyib: Qınayacaq gecə özünü.
Hələ bir göz boyda işığa görə,
Bəlkə də, utanıb girəcək yerə.
Fikri çox uzağa, uzaq gedəcək,
Dönüb özü ilə savaş edəcək.
Qaranlıq köçəcək işıq tərəfə,
Gecə də keçəcək işıq tərəfə.
Axır çalmaq üçün qələbəsini,
Sınağa çəkəcək tələbəsini ...
Bax sevgi nədirsə, aşıqdan ötrü,
Gecə can verəcək işıqdan ötrü.
Özü də olacaq savaş meydanı
İşıqla tutacaq birbaş meydanı.
Uzaqdan baxacaq Dan ulduzuna,
Göylərin ən parlaq işıq qızına.
Bu baxmaq ona bir təhər gələcək,

Boğulacaq, ona qəhər gələcək.
Yenə işığına uçacaq səhər,
Günəş görünəcək, açacaq səhər.
Olacaq bu yerlər, o göylər ayna,
Dünyaya gələcək işıqla dünya.
Adamlar çıxacaq söz savaşına,
Hər şey başlayacaq öz savaşına.
Barışıqlı dava-dalaş olacaq,
Dünyada olmayan savaş olacaq.
Dağla döyüşəcək o dağın çəni,
Heç də olmayacaq bu döyüş yeni.
Yarandığı gündən bəşər döyüşür,
Onsuz da dünyada döyüşür hər şey!
Bu xeyir döyüşür, bu şər döyüşür,
Durub öz yerində döyüşür yer-göy!
O dərədən axan o su savaşır,
O bulaqdan çıxan o su savaşır.
İşığın çoxunu, bolunu gəzir,
Dünyaya gəlməyin yolunu gəzir.
O dağ boyasını dəyişir hər gün
Nə günlə qovuşur o bulaq çayla.
Diriliyi üçün döyüşür hər gün,
Qaya döşündəki o ot qayayla.
O dağın döşündə cığır döyüşür
O yağış buludla yağır döyüşür.
Döyüşdədir hər gün bu üz o üzlə
Döyüşdədir hər gün ləpə dənizlə.
Bir bax ağların da, qaraların da,
Hər gün döyüş gedir aralarında.
Savaşır, savaşsız olmur ki, olmur,

Çiçək də savaşsız açmır, nə solmur.
Savaş olmayanda şimşək də çaxmır,
Bulud da savaşsız dolmur ki, dolmur.
Yay güzə uduzur yeri gələndə,
Qış yaza uduzur güllər güləndə.
Savaşır kağızda qələm yazıyla,
Savaşır döşündə aşıq sazıyla ...
Hər gün kəkliyindən, otundan olur,
Savaşır yal-yamac qoyun-quzuyla ...
Sel axır, savaşır dərəsi ilə,
Ürəyi sinədə döyüşə çıxır.
Hər şey; ancaq bu Yer kürəsi ilə,
Uduzur, yenə də döyüşə çıxır.
Elə-belə uçmur, qanad da açmır
O quş da o göydə uçur savaşla.
Saçmır qoxusunu, savaşsız saçmır,
O gül qönçələnir açır savaşla .
O göyün işi də o quşdan keçir,
Hər gün qarşılaşır o Göy savaşla.
Savaşla gəlir də, savaşdan keçir.
Savaşla yaranır, hər şey savaşla,
Düşə bilməyəndə sevincə yaxın.
Ürək də, sinə də dərdlə savaşır,
Bu da bir axındır, bu da bir axın.
Uzaqda o qürbət yurdla savaşır,
Dovşanla savaşır, dovşana baxın.
Nədəndirsə, qurd da qurdla savaşır,
Savaşır gecəylə səhərə kimi.
Doğanda da Günəş bu başdan doğur.
Qatıb-qarışdırır sevincə qəmi,

O göz o kirpikdən, o qaşdan doğur.
Alın savaşdadır olduğu gündən,
Yanaq savaşdadır solduğu gündən.
Dünya savaşdadır verdiyi gözlə,
Ayna savaşdadır gördüyü üzlə.
Baxır bu aynaya bu adam da ki,
Ağlayır bir savaş, gülür bir savaş.
Gəlir bu dünyaya bu adam da ki,
Doğulur bir savaş, ölür bir savaş.
Bu necə ölümdür? Arada da heç,
Ölür, elə ölür can görünməyir.
Onun çıxardığı yarada da heç,
Bir dənə də olsun qan görünməyir.
Olmasa, yaxşıdır, daha yaxşıdır,
Bir döyüş, bir vuruş, bir də bir savaş
Dağlar çəkmək üçün aha yaxşıdır,
Göydə bir savaş var, yerdə bir savaş.
O ay gecəsini səhər eyləyir,
Alır yuxusunu, səhər eyləyir.
Savaşsız ha çıxmır Günəş o dağdan,
Sən də çıx dünyaya gənəş o dağdan.
Savaş et özünün savaşına çıx,
Savaşla dünyanın o başına çıx.
Yanırsan, ay ocaq, közünlə savaş,
Yazırsan, ay şair! Sözünlə savaş.
Ayrı birisidir savaşı edən,
Savaşı törədən, yaradan ayrı.
Savaş görməyəcək buradan gedən,
Bir çəpər çəkəcəm aradan ayrı.
Bir dərdə düşəcək, savaş bir dərdə,

Alacam canını çəpərləyəcəm.
Arada qalacaq savaş hər yerdə,
Tutub dörd yanını çəpərləyəcəm.
Asılı qalacaq sonun əlindən,
Hər gün qarşısına gecə çıxacaq.
Bir adam tutmasın onun əlindən,
Görüm onda ordan necə çıxacaq?
Görəcəm qanı var, qanı çıxırmı?
Qan nə olan şeydir bilirmi o da?
Görəcəm onun da canı çıxırmı?
Görəcəm yaşayıb ölürmü o da?
Görüm bu dərdimi götürsə ürək,
Sevəcəm, öpəcəm dərdimi gündə ...
Qalacam meydanda hər gün təkbətək,
Savaşa-savaşa savaşla mən də !..
Oxuyub öyrənə biləcəm, bəlkə,
Adam qanı varmı, onun qanında?
Bəlkə, bilməyəcəm, öləcəm, bəlkə.
Axan soyuq qormu, onun qanında?
Məni görən kimi yox, yox solacaq,
Qanını tökəcəm, qandan edəcəm.
Yarandığı günə peşman olacaq,
Ona bu dünyanı zindan edəcəm.
Yarandığı gündən bu savaş ki var,
Çıxıb iman-dindən bu savaş ki var!
Ölüm var bu dağlar, bu daşlar üçün,
Ölüm hazırlanır savaşlar üçün.
Oğulsan qanını yu savaşların,
Ayrı işi yoxdur bu savaşların.
Gəzib qapı-qapı qapı döyəndir,

Qana susayanda adam yeyəndir.
Bu savaş həm ölüm, bu savaş həm qan,
Onu törədəndən gözləmə vicdan!
Açılır, solmurmu, tutduqlarından?
Heç peşman olmurmu, tutduqlarından?
Ürəyin dəlinsin, canın sökülsün,
Ey savaş, sənin də qanın tökülsün!
O qədər baxmışam qansızlığına,
Baxım bircə yol da cansızlığına.
Qoyub ürəyini, qıyıb canını,
Ölən var yolunda töküb qanını.
Nə edim sən də ki belə savaşsan,
Hələ yaşayırsan, hələ savaşsan.
Yaşayır tozunda, tüstündə adın,
Adın var, sənin də üstündə adın.
Hər gün danışılan sözdə böyüyən,
Doğulan kimi də tez də böyüyən.
Sığmayıb yerinə, nə də göyünə,
O anda susayan adam iyinə ...
O yandan yeməyə adam axtaran,
Bu yandan köməyə adam axtaran.
Yaşayan elədən-belə yaşayan,
Necə yaranıbsa, elə yaşayan.
Ölçüyə gəlməyən müharibələr,
Gələndə ölçüsüz-biçisiz gəlir.
Utanıb ölməyən müharibələr,
Ölmür, onu edən adamlar ölür.
Uzadır hər ölüm onun ömrünü,
Olmur da ki, bölüm onun ömrünü.
Yaşayır bir adam can verən kimi,

Açılır, gül olur qan görən kimi.
Bir düz işi yoxdur, hər işi əyri.
Özünə də olmur heç elə xeyri.
Dağın zirvə dərdi yeli qanadır,
Düşüb dərə dərdi seli qanadır.
Çağlayır, sellənir qanı çıxdıqca,
Böyüyür, tellənir qanı çıxdıqca.
Ömrünü-gününü ikiyə bölür,
Yaşadır hər şeyi diri yaşadır.
Göydəki o bulud xeyirə ölür,
O öz ölümüylə yeri yaşadır.
Çiçəklər cürbəcür olur dünyada,
Ölümün xeyirə ölməyi də var.
Ulduzlar düzülsün göz-göz o göydə,
Səhərlər açılsın, baxışlar ölsün,
Buludlar dirilsin tez-tez o göydə,
Tökülsün torpağa yağışlar ölsün.
Qoy bu bulaqların suyu ölməsin,
Çiçəklər dirilsin onun yerinə
Axsın çaya dərə boyu ölməsin,
Sular dayaq olsun biri-birinə ...
Ölümünə dönür su axmayanda,
Axsın, axa-axa yaşasın sular!
Gözlərindən sönür su baxmayanda,
Baxsın, baxa-baxa yaşasın sular!
Ağaran ocağın altında qalsın.
Qaralan tüstündə ölüm gəzməsin,
Qoy ölüm torpağın altında qalsın,
Torpağın üstündə ölüm gəzməsin!
Hər şey ölə bilər, ürək öldümü,

Dünyanı öldürər ürək ölümü.
Çıxam qarşısına duram gəldimi?
Özüm qarşılayab gərək ölümü.
Axıdım gözümdən su dünya üçün
Suyumla eyləyim ölümü dümdüz.
Çünki bu dünyada bu dünya üçün
Ölüm hazırlanır gecə və gündüz!
Gəzirəm ölümü əlimə keçmir,
Ölürəm ölümün ölümə keçmir.
Keçir odum-közüm keç deyən kimi,
Görmədim ki, keçsin heç deyən kimi.
Öldürmək eşqiylə yanan bu ölüm,
Nə qandıran, nə də qanan bu ölüm!
Cürbəcür yozulur, yozuma dönür,
Bu yer də, o göy də tozuma dönür.
Elə keç deyirəm külümə keçmir,
Yanıram közümü saxlayır altda.
Məni iç deyirəm, ölümə içmir,
Aşağı endiri bir neçə qatda.
Üstümdən, başımdan əsir bir yel də,
Sözümü ağzımda kəsir bir dil də.
Qorxudan ağzımda dilim quruyur,
Böyrümdə, başımda ölüm quruyur.
Tələsir ölməyə ölümün özü,
Ölümə gülürəm, görmürmü gözü? ...
Sənə verəsiyəm mən öz qanımı.
Ay ölüm, gəl azca susa ölümə!
Özüm bilirəm ki, mən öz canımı,
Borcluyam bir dənə qısa ölümə!
Yerinə dolmuşam diriliyimin,

Göz yaşım özümün, gözümün ola!
Yiyəsi olmuşam diriliyimin,
Ölüm də olanda özümün ola!
Mən ki öləcəyəm öləndə birdən
Ölüm, götürərsən ölümü yerdən!
Yadından çıxmasın salım yadına,
Gələrsən üstümə ölü öyməyə.
İstəmirəm olsun insan adına,
Qoymazsan kimsənin əli dəyməyə.
Qar olub yağaram, yağışlamaram
Sən də bir yağış ol, buluduma gəl.
Dirimi də heç cür bağışlamaram,
Dəyərsə ölümə ikinci bir əl.
Qaşınma qan verən nə yaram yoxdur,
Yanıram, acımı tüstümdən götür.
Demə, dil deməklə heç aram yoxdur,
Bacar dil deməyi üstümdən götür.
İlki diriltmişəm, sonu öldürüm,
Görüm neynəyirəm qoy görüm ondan.
Savaşım, ölümlə onu öldürüm,
Savaşsız qoy sənə can verim ondan.
Gəl yaxamdan asıl, gəl əlimdən tut,
Bu yaxam yaşasın, bu əlim ölsün.
Gəl dirimdən yapış, gəl ölümdən tut,
Qoy hər şey yaşasın, bir ölüm ölsün.
Dərd deyib adına heç kəs yanmasın,
Mən yanım, külümü öldürüm, ölüm!
Çətin qanan varsa, məni anmasın,
Qoy ölüm, ölümü öldürüm, ölüm.
Sevinc ilə dolan hər ürək udsun,

Deyim hamısını bir-bir qalmasın.
Sevgi ilə dolsun, xoş istək tutsun,
Könlündə savaşa bir yer qalmasın.
Yanmağı, sönməyi əlinizdədir,
Qoymayın, adlansın savaşlı dünya.
Sizin dirinizdə, ölünüzdədir,
Qoy baş-başa qalsın bir daşla dünya.
Yansın külə dönsün bütün silahlar,
İnsanlıq adına gülsün sabahlar.
Bu dərdlər o üzə ötürülsün qoy,
Dərdə sulanmasın, bir göz dolmasın.
Bir kol da qalmasın, götürülsün qoy,
Qonşu arasında çəpər olmasın!
Yarandığı kimi olsun bu dünya,
Sərhədlər, çəpərlər yığışdırılsın.
Göydə buluduna dolsun bu dünya,
Yerdə bulağına sığışdırılsın.
Yağışın suyuna bulud boğulsun
Utansın bir azca, baxsın boyuna!
Bulağın suyuna çaylar doğulsun,
Dənizlər doğulsun çayın suyuna.
Yerində qoyulsun hər şey yerinə,
Bu dağ-daş, bu təpə, bu dərə olsun!
Bağlana-bağlana biri-birinə
Hər şeyin savaşı bu cürə olsun!
Yerində yeri var hər birisinin,
Dayaz da yaxşıdır, dərin də yaxşı!
Ayrı yeri vermə gör birisinin,
Hər nə var özünün yerində yaxşı!
Qoyaq işimizin üstünə bir əl,

Görək işimizi görək yerində ...
Bircə yol əlini üstünə qoy gəl,
Döyünür sinəmdə ürək yerində ...
Hər nə var, qovuşsun öz sevincinə,
Heç kimin, heç nəyin olmasın qəmi.
Sevinsin özünün göz sevincinə,
Hər yer azad olsun o göylər kimi.
Yanıram, nə qalır külümdən başqa,
Bu işıq, bu hava, su müharibə.
Sonunda nə qalır ölümdən başqa,
Düşünəndə nədir bu müharibə!
Ona sənə ölüm, mənə ölümdür,
Ayrı adı yoxdur, yenə ölümdür.
Qoymaram ki, bir kəs yiyəlik etsin,
Özüm yiyəsiyəm bu düşüncəmin.
Çaylar dənizinə qoy axsın getsin,
Özünü suyunda yu düşüncəmin.
Yağış diri-diri yağdı da, getdi,
Şimşək diri-diri çaxdı da, getdi,
Bulud diri-diri çıxdı da, getdi.
Günəşdi doğdu da, yaxdı da, getdi,
Aydı gecəsində baxdı da, getdi.
Ulduzun gündüzü yoxdu da ... getdi.
Dur, gözlə yolunu öləcəyinin,
Gedəcəyin budur çıxdı da, getdi,
Vay halına sənin gələcəyinin.
Beş deyil, on deyil, bəlkə, dərd əlli,
İnanıb sevincin güləcəyinə
Hamı göz dikibdir gələcəyinə,
Yapışıb dünyadan hamı dördəlli,

Heç kim inanmayır öləcəyinə ...
Gəzir axıtmağa qan ki bu dünya,
Elə bil ürəyi yatıb duracaq.
Onunki olacaq sanki bu dünya
Guya bu dünyanı tutub duracaq.
Canını sökməyə nəsə tapmırmı?
Canı öz canına cansızlıq edir.
Qanını tökməyə nəsə tapmırmı?
Adam adamına qansızlıq edir.
Qoymayım yanmağa, təki yanmasın,
Qoy yanım dünyanın oduna nə var!
Yansın, bir yananda iki yanmasın,
Yaxşılıq, ya pislik adına nə var!
Ərisin, qarışsın qarı suyuna,
Açılsın çayının tutulan gözü.
Girsin bulağının duru suyuna,
Bir az təmizlənsin dünyanın özü.
Kirlənib buludun, yağışın, çənin,
Kirləndirib, sonra cırıblar səni.
Qırılmamış yerin qalmayıb sənin,
Bir gör neçə yerdən qırıblar səni?
Özün yuyunmasan, özün yumasan,
Səni kim yuyacaq kirlənən dünya ...
Cırılan yerini özün yamasan,
Düşüb neçə şərə şərlənən dünya ...
Şərin xeyirinin tutub yerini
Göydən düşüb, sonra yerdən yaranıb.
Şərləyə-şərləyə biri-birini,
Elə adamın da şərdən yaranıb.
Gün o gün ola ki, bundan daha çox,

Xeyirdən baxasan, şərdən çıxasan.
Elə öz gücünü başqa gücə yox,
Özün öz batdığın kirdən çıxasan.
Adamın xeyirlə şərsiz barışa,
Xeyir yağa şərdən olan dağına.
Şər olan suyuna xeyir qarışa,
Heç qara salmaya kölgə ağına.
Axa, dayanmaya bu axar sular,
İşığına dönə arılığının.
Dənizlə qovuşa ən axır sular,
Altından qol çəkə duruluğunun.
Tikana görəmi, kola görəmi?
Bənövşə torpağa boynunu əyib.
Kol da gördüyü bu hala görəmi ?
Çönüb bənövşəyə qoynunu əyib!
O bağın döşündə bitməkdən ötrü,
O çiçək o qədər bağla döyüşüb.
O dağın üstündə bitməkdən ötrü,
O qaya o qədər dağla döyüşüb.
Haraya baxıram, harda oluram,
Hər yerdə gözümdə döyüş görünür.
İstidən çıxıram, qarda oluram.
Dağıma, düzümə döyüş görünür.
Döyüşlə açan gül, döyüşlə solur.
Dünyada cürbəcür döyüşlər olur.
Çöldən necədirsə, elə də durur,
Ən birinci içi ölür adamın,
Elə də yaşayır, belə də durur,
Yüz ölçü, bir biçi ölür adamın!
İrəlisi olur, gerisi olur,

Dirim ölü düşür, ölüm dirilir.
Biri o birinin dirisi olur,
Odum ölən kimi külüm dirilir.
Özümdən inciyən, küsən bir ölüm,
Dirimdən başlayır, ölümdən keçir.
Qapımın ağzını kəsən bu ölüm,
İçimdən başlayır, çölümdən keçir.
Elə-belə köçmür, köçəndə də ki,
Köçür, köçmür, köçü ölür adamın!
Ölüm belə seçir seçəndə də ki,
Hər birindən üçü ölür adamın.
Qaşımız, gözümüz görünür ordan,
Gözlərinə çəkib ağlayır bizi ...
Saçımız, üzümüz görünür ordan,
Göz yaşına büküb ağlayır bizi ...
Boyu neçə dağın boyu boydadır,
Özünə qalmayıb boyu bir ovuc!
Suyu dənizlərin suyu boydadır,
Özününki deyil suyu bir ovuc!
Öldürəndə canı, tökəndə qanı,
Bu qan da bizdədir, qaç da bizdədir,
Yoxdur, heç də bunun o yan bu yanı,
Necə olur olsun, suç da bizdədir!
Basıb sinəsinə sevinci mindi,
Qucağımıza bax, qucumuza bax!
Batıb içimizə qalmışdı indi,
Çıxıb üzdə üzən gücümüzə bax!
Bu dünyanın göycə, yercə günü var,
Günüdür Günəşin darandığı gün!
Bütün yarananın bircə günü var,

Bir günü, o da ki yarandığı gün!
Heç də öz üstündə alıb geyinmir,
Pencəyini heç kəs, donunu heç kəs!
İlkini üstündən salıb geyinmir
Nə olacaq bilmir sonunu heç kəs!
Hər günün ömründə bir günü ölür,
Öz gününə görə gəlir dünyaya ...
Gəlir eləsi var, xeyirə gəlir,
Eləsi var şərə gəlir dünyaya!
Suyun günü suda boğulduğu gün
Dərdini dənizlə böldüyü gündür.
Doğulanın günü doğulduğu gün,
Ölənin də günü öldüyü gündür.
Yazın ömrü-günü gül-çiçəkdirsə,
Qışın ömrü-günü borandır-qardır.
Hər şeyi yaşadan bu istəkdirsə,
Onun da dünyada bir günü vardır.
Olur olum adlı Yer-göyün hamı,
Gəzir ölüm adlı bir səs dünyada.
Sonunu görsə də, hər şeyin hamı,
Sonunu gözləmir heç kəs dünyada ...
Ürəyi sınacaq, ya qırılacaq,
Görmür heç nəyinin sonunu heç kəs.
Nəyi kirlənəcək, ya cırılacaq,
Bilmir pencəyinin, donunun heç kəs!
Dərdini yer-göyü saxlamayacaq,
Üstünə yağacaq yağış-qar onun!
Bədəni heç nəyi saxlamayacaq,
Əynindən düşəcək nəyi var onun!
Baxmayıb əyninin çılpaqlığına,

Çılpaq daşlar bir də çılpaqlanacaq.
Ağlının, beyninin çılpaqlığına,
Düşdüyü bir dərdə çılpaqlanacaq.
Çətin ki qulağı eşidə onun,
Eşitsə, qulağı sözlə dolacaq.
Dünyada bir ancaq işi də onun,
Geyinib-soyunmaq işi olacaq.
Yoxdur, arasında elə fərqi çox,
Ağlayanda çılpaq, güləndə çılpaq.
Belə də baxanda elə fərqi yox,
Doğulanda çılpaq, ölləndə çılpaq!
Yerində göynəyir bütün göynəklər,
Bircə yaman olur ölüm göynəyi.
Köhnəlir, cırılır bütün köynəklər,
Təkcə köhnəlməyir ölüm köynəyi.
Dərdi sevincinin əzir sonunu,
Ağlayır gözü də ölüm axtarır.
Dünyada nə varsa, gəzir sonunu,
Ölümün özü də ölüm axtarır.
Ömrü-günü qatır diriliyinə,
Axır çayı səssiz coşur, nə daşır.
Həmişə can atır diriliyinə,
Dirilik savaşmır, ölüm savaşır.
Görəndə adamın ürəyi yatır,
Sığmır geyiminə bu sırtıq ölüm.
Gəlib, gəlib axır, gəlib də çatır
Yer-göyün sonuna bu artıq ölüm.
Əlinin olanda ona bəsdir ki,
Birində dirilik, birində ölüm!
Yerində gələndə nəyi pisdir ki,

Yaxşıdan yaxşıdır, yerində ölüm!
Elə öz çıxdığı yerdən durulan,
Dumduru axan da su düşüncədir!
Hərdən bomboş olan, hərdən durulan,
Belə də baxanda su düşüncədir.
Gedimi-gəlimi haqda düşünür,
Ancaq yaxınına düşənmir ölüm.
Hamının ölümü haqda düşünür,
Öz ölümü haqda düşünmür ölüm!
Doğub torpağına dənin olacaq,
Bu işıq, bu külək, su yaşamağım!
Dönüb yarpağına sənin olacaq,
Xoşuna gələcək bu yaşamağım!
Özün bitirdiyin ağacdan, otdan,
Dəndən yaranıbsan, torpaq, a torpaq.
Yerdə hər bulaqdan, göydə buluddan,
Məndən yaranıbsan, torpaq, a torpaq!
Batmağın da olub, lap doğmağın da,
Axşam da görübsən, dan da görübsən!
Dolmağın da olub, lap yağmağın da,
Bax belə qada da, qan da görübsən.
Başlayıb amansız müharibələr,
Adam adamından aman diləyib.
Bu dinsiz-imansız müharibələr,
Gün olub ki, səni qana bələyib.
Sınıb qanadları göydəki quşun,
Açan hər çiçəyin açıb qoxusu.
O ağacın, otun, o dağın, daşın,
Yatmayıb gözündən qaçıb yuxusu.
Sazı döşündəydi aşıqlanmışdı,

Ruhu oxuyurdu kəndin, şəhərin,
Dünya bir dan boyu işıqlanmışdı,
Gözü açılmışdı artıq Səhərin.
Durmuşdu həmişə olduğu kimi,
Gecə yatmamışdı yenə bu dağ-daş!
Dolmuşdu Günəşin dolduğu kimi,
Şamil də durmuşdu yuxudan o baş!
Başından düşmüşdü köz qapaqları,
Yanan dünyasında ocaqlar sönüb.
Sanki çıxacaqdı göz qapaqları,
Gözü döyünürdü ürəyə dönüb.
Boyu bənzəyirdi bir dağ boyuna,
Dağ-dərə baxırdı, Şamil çaxırdı.
Dönüb çay suyuna, bulaq suyuna,
Sularla bir yerdə Şamil axırdı.
Gözlərində yoxlayacaq,
Boğulduqca bir yaş onu.
Bundan sonra saxlayacaq,
Bu dağ onu, bu daş onu.
Quşları işıq saçacaq,
Göy gözəl-göyçək olacaq.
Yazı gələcək, açacaq,
Yayı gül-çiçək olacaq.
Gecə ayı yandıracaq,
İşığı haqdan gələcək.
Göy yerini qandıracaq,
Aşığı haqdan gələcək.
Qoşulacaq küləklərə,
Əsib, şəri daşlayacaq.
Oxuyacaq çiçəklərə,

Aşıqlığa başlayacaq.
Sevincinə çevriləcək,
Dərdin aşığı olacaq.
Qürbət eşqi çevriləcək,
Yurdun aşığı olacaq.
Tək qalacaq hər ikisi,
Gəlib ona kim isinə?
Oxşayacaq musiqisi,
Səsi bulağın səsinə.
Heç nə onu atan deyil,
Nəyi var haqdan açacaq.
Onsuz bu səs batan deyil,
Səsi bulaqdan alacaq.
Cavanlığı qocalacaq,
Sevincinə dərd sönəcək.
Böyüyəcək, ucalacaq,
Kolu ağaca dönəcək.
Bal qatacaq, bal səsinə,
Oxuyacaq bu gülləri.
Sevgisinin sinəsinə,
Toxuyacaq bu gülləri.
Bu axan sel-su dağların,
Günü axıb, il olacaq.
Əzəl-axır bu dağların,
Sevinci Şamil olacaq.
Gün Batıya endiyitək,
Şamilə enəcək ellər.
Şamil elə döndüyütək,
Şamilə dönəcək ellər.
Sığınmışdı göydə quşun,

Turacına, kəkliyinə.
Ömrü uzun dağın-daşın,
Haqdan olan təkliyinə.
Bu dağlara, bu daşlara,
Saz çalmışdı, söz tutmuşdu.
Baxıb göydəki quşlara,
Təkliyini unutmuşdu.
Bilirdi ki, elə-belə,
Verməyəcək ömrü sona.
Yol getdikcə eldən-elə,
Qayıdacaq ellər ona!
Sabahındır, elə bilmə
Dünənindir savaş, Şamil.
Söz deyirəm bircə kəlmə,
Bil sənindir savaş, Şamil!

Səs

Səhər açılmışdı, dan sökülmüşdü,
Gün də ucalmışdı bir adam boyu.
Soyuqdan əsirdi, çay bükülmüşdü,
Dumduru olmuşdu bulağın suyu ...
Uçurdu yenə də quş öz göyündə,
Zirvədən baxırdı qartal dərəyə ...
İtirdi, batırdı o dağ küyündə,
Az qalırdı durub o daş yeriyə ...
Sanki heç üstündən yel keçməmişdi,
Duman yerindəydi, dağ yerindəydi ...
Hava udmamışdı, su içməmişdi,

Elə bil yüz ölçüb bir biçməmişdi.
Ayaq titrəməmiş, əl əsməmişdi,
Heç nə ölməmişdi, sağ yerindəydi.
Qara yerindəydi, ağ yerindəydi,
Hər nə var kefi lap çağ yerindəydi!
Çəmənlər durmuşdu daraq əlində,
Güllər telə dönüb daraqlanırdı.
Dağlar oxuyurdu vərəq əlində,
Çöllər kitab olub varaqlanırdı ...
Əl qoy ağrıma da, gəl qadama da,
Olmur elə-belə ağrıma dolmaq!
Heç qismət də deyil hər adama da,
Burda da dağlara oxucu olmaq.
Hardasan, cavab ver, sən ey dağları
Daş-daş, qaya-qaya oxuyan adam?
Əkib ağac-ağac açan bağları
Gül-gül, yarpaq-yarpaq toxuyan adam.
Ürəyi döyünür, beyni düşünmür,
Axı eyni olmur bütün adamlar.
Ayrı cür düşünür, eyni düşünmür,
Yox, məni anlaya çətin adamlar.
Qoynuna almışdı xəyallar onu,
Şamil baş vurandan bu xəyallara.
Xəyala salmışdı xəyallar onu,
Verirdi canından su xəyallara!
Həsrəti yox idi bir dağının da,
Yaylağa köçmüşdü, el yaylaqdaydı.
Bu kənd adamının ayağının da,
Biri arandaydı, biri dağdaydı.
Sevgi bəslədikcə adamı ona,

Adamına baxıb yurd sevinirdi.
Adamı da baxıb burda hər yana,
Olurdu gözləri dörd sevinirdi ..
Eyni açılmışdı ağacın, quşun,
Ömründə ən yaxşı gün yaşayırdı.
Elə adamı da bu dağın, daşın,
Dönüb sevincinə şən yaşayırdı.
Təkcə dolanmışdı qışında təklik,
Baxırdı, hər yanı yel iylənirdi.
Zirvəsində qartal, daşında kəklik,
Açırdı yazında, gül əylənirdi.
Dillər danışırdı,gözlər gülürdü,
Heç yerdə bir dənə qəm görünmürdü.
Baxıb paxıllıqdan çox dərd ölürdü,
Burda elə-belə çən sürünmürdü.
Gecə də köçürdü, köç dəyişmirdi,
Qaranlıq üstündən götürülürdü.
Hər səhər eyni cür heç dəyişmirdi,
Mal-qoyun örüşə ötürülürdü.
Dolub-boşalırdı sərniclər südlə,
Hər sağın vaxtında sağın olurdu.
Gedirdin, gəlirdin bu gəllə-getlə,
Axırda hər nə var dağın olurdu.
Balığa verirdi çay öz suyundan,
Uçurdu göylərdə, quş sevinirdi.
Uca görünürdü quşlar boyundan,
Qaya sevinirdi, daş sevinirdi.
Torpaq daşımırdı, daş qaldırmırdı,
Gözəllik enmişdi göy meşəsinə.
Bənövşəsi ona baş qaldırmırdı,

Kolu baş əyirdi bənövşəsinə.
Vaxtında olurdu, olmurdu ki gec,
Vaxtında bitirdi burda nə bitsə ..!
Xoşluqla olurdu burda hər iş-güc,
Xoşluqla edirdi həy şey nə etsə ...
Təpənin düşmürdü əli qaşından,
Buna hərə bir cür həvəs salırdı.
Yel səsi gəlirdi dağın başından,
Dərəyə enirdin su səs salırdı.
Çöldə yüz-yüz, min-min səs odlansa da,
Bir səsdən dəyirdi iç bir-birinə ...
Hamısı bir yerdə səs adlansa da,
Səslər oxşamırdı heç bir-birinə ...
Çöl çölün səsiydi, düz-düzün səsi,
Güz güz, yaz yaz, yay da yay səsindəydi.
Günəşin səsiydi gündüzün səsi,
Gecə səssizliyi ay səsindəydi ...
Deyib durmamışdı hər kəs sözündə,
Sözünü düz deyən kəs qalmamışdı.
Çox şey dolanmışdı bu yer üzündə,
Qulaq eşitməyən səs qalmamışdı.
Özü öz önündə köks ötürmüşdü,
Dünyaya min cürə səs yayılmışdı.
Bu yeri, bu göyü səs götürmüşdü,
Ona eyləməyib bəhs, yayılmışdı.
Hər günün üstündən hər gündə bir söz,
Qulaq kar olardı eşitməsəydi.
Baxırdın hər yana bu göy, bu yer söz,
Ölərdi söz sözü üşütməsəydi.
Dilində, ağzında üşüyən sözlər,

Düşüb soyuğuna xəstələnərdi.
Özü öz buzunda üşüyən sözlər,
Özü öz odunda tüstülənərdi.
Girib qucağına uzan da, yat da,
İsti nəşəsi var səssizliyin də ...
Səssiz heç nə yoxdur: burada hətta
Özünün səsi var səssizliyin də ...
Hər zili ordadır, pəsi ordadır,
Orda bir Tanrının səsi yoxdur, yox.
Yaxşısı ordadır, pisi ordadır,
O göyün üzündə səslər çoxdur, çox ...
Bir yandan bulanar, bulanlıq olar,
Bir yandan da açar səs durular, səs.
Bir yandan da batar, bir anlıq olar,
Dünyada yüz belə səs yorular, səs.
Söykənəcək olmur, hər söykənəcək,
Durub yaşasa da nəfəs-nəfəsə ...
Olub bir-birinə bir söykənəcək,
Söykənib dolanar bu səs o səsə ...
Biri qəmlə, biri sevinclə gəlir,
Yaxşılar yaranır, pislər doğulur.
Nəfəslər boğulur, həvəslər ölür,
Bir gündə o qədər səslər doğulur!
Çay axır axdıqca suyu uzanır,
Səsi çıxmır düzdə boğulan kimi.
Yolu uzandıqca boyu uzanır,
Tezcə də böyüyür doğulan kimi!
Yağır selə dönür, axır bir yana,
Bulud səs çıxarır yağış səsində,
Kirpik arasından baxır hər yana,

Göz də ki danışır baxış səsində ...
Bulaq bulaq olmaz, bulaq kor olar,
Başında yüz oğlan, qız üşütməsə.
Qulaq qulaq olmaz, qulaq kar olar,
Gündəlik bir yeni söz eşitməsə.
Elə bilir ondan əzəl səs yoxdur,
Birinci o gəlib dünya üzünə ...
Yer üzündə ondan gözəl səs yoxdur,
Hamının xoş gəlir səsi özünə ...
Gedir, çıxıb gedir ayrı havalar,
Qalsa da başında öz havan qalır.
Düşür söz üstündə olur davalar,
Söz sözü qocaldır, səs cavan qalır!
Nə qədər səs olur, olsun yenə də,
Hər səsdən ucadır Tanrının səsi.
Düşüb o səsdən ver hər bir sinə də,
Dünyadan qocadır Tanrının səsi!
Qaranlıq ömrünü gecə çəkirsə,
Ayrılıb odundan his hisi çəkir!
Söz sözü özünə necə çəkirsə,
Elə də özünə səs səsi çəkir!
Baxışları itən, gözləri qalan,
Yerlərdə o qədər kəslər yaşayır!
Yiyələri ölən, özləri qalan,
Göylərdə o qədər səslər yaşayır!
Hoy edə bilmirsə, bu kəs o kəsə,
O, el qınağına gələ də bilər.
Əgər səs vermirsə, bu səs o səsə,
O səs yerindəcə ölə də bilər ...
Heç ola bilərmi, necə olar ki,

Dünyaya bizimlə gəlməsin səslər.
Ölər bir qaranlıq, gecə olar ki,
Ölməyə qoymayaq, ölməsin səslər!
Yol gəlir yolunu kəsə tutubdur,
O çiçəkdə bir səs, bu bağda bir səs.
Durub bir-birini səsə tutubdur,
Bu dərədə bir səs, o dağda bir səs.
Gününü, ayını üşütmür, bəlkə,
Bu səs birincidir, yoxsa son səsdir!
Bizim qulağımız eşitmir, bəlkə,
Bu yer bir səsdirsə, o göy on səsdir!
Hər yerdə götürüb üzünə çəkib,
Bu yer güldən daşa səsdən yaranıb!
Haradan səs gəlib özünə çəkib,
O göy başdan-başa səsdən yaranıb.
Dolu da oxuyub, boş da oxuyub,
Olubdur bəs səsi, bəsi adamın.
Adam da oxuyub, quş da oxuyub,
Tanrıya xoş gəlib səsi adamın.
Zili kökdən düşür, pəsi səslənir,
Axşam kölgə səsi, dan işıq səsi.
Canlı-cansız nə var, səsi səslənir,
Tək insan üçündür danışıq səsi.
Bu biri olmasa, o biri olmaz,
Bu həvəs o biri həvəsdən doğur.
Qalmağa, olmağa bir yeri olmaz!
Yaranır dil sözdən, söz səsdən doğur.
Yanır istisinə, ocaq aparır,
Tanınır tüstüsü hisinə görə.
İt hürür, it kimi səs də çıxarır,

Canavar ulayır səsinə görə.
Gedib də özünə bu gələn yerin,
Olarmı gedəni geri gəlməsin.
Dünyası da ölər səs ölən yerin,
Necə çıxır çıxsın, səslər ölməsin!
Qoy olsun bu göyün, yerin səsindən,
Ayrı ana səsi, bacı səsi var.
Bir xəbər də yoxdur şirin səsindən,
Bir baxın, gör necə acı səsi var.
Gözünüz önünə gətirin bir an,
Məntək qardaş ölür, bacı ağlayır.
Belə ağlamayıb hələ heç zaman,
Ağlayır, bax yaman acı ağlayır!
İstədiyi kimi söz də yeməyib,
Dünyanı götürüb səsinə insan.
Daş-qaya deməyib, ağac deməyib,
Hər şeyi gətirib səsinə insan.
Açıb çiçəyini qura-qura o,
Arada açmağa gülü qalmayıb.
Gözəl-göyçəyini qura-qura o,
Nədən olubsa da, səsdən olmayıb.
Daşları yalayıb, yalanıb axıb,
Bir belə axmaqdan yorulub sular!
Səsinin üstündə bulanıb axıb,
Səsinin altında durulub sular!
O göyün üzünə o bulud bir üz.
Yağışına yağmaq həvəsi verir.
Çayın çay səsi var, dənizin dəniz,
Təkcə bulaq suyu bu səsi verir.
Suçlayıb səsinə uya biləsən,

Hər bir səssizliyin heçində səs var.
Gərək sən o səsi duya biləsən,
Sükutun özünün içində səs var!
Çatmır ki, hər yerə gedən ayaq da,
Hər yerə birinci səs çatır ancaq ...
Dodaqdan, ağızdan, dildən uzaq da,
Oldumu, o anda səs yatır ancaq ...
Götürüb dünyanı səslər o qədər
Yığmaqla qurtarmır dağ-dərə səs var.
Zil-orta üstündə pəslər o qədər ...
Bölünüb bu səslər: üç yerə səs var.
Bu qaşın, kirpiyin, gözün özü də,
Altdan qıfıllanıb, üstdən yaranıb.
Bir sözlə, dünyada sözün özü də,
Səsdən törəyib də, sözdən yaranıb.
Göydə Ay doğulub, ulduz doğulub,
Yerdə dağ-dərəyə, bəndə səs düşüb.
Elə ki, bir oğul, bir qız doğulub,
Şəhərə səs düşüb, kəndə səs düşüb!
Elə danışıb ki, özü olmayıb,
Altdan deyib, sonra üstdən yaranıb.
Danışmağa ayrı sözü olmayıb,
Danışanlar bir bu səsdən yaranıb.
Gəzir savaş adlı söz iki ildir,
Başına götürüb bu səs dünyanı.
Dünyanı dolanır düz iki ildir,
Qoymayır almağa nəfəs dünyanı.
Özündən gedibdir, özünə gəlmir.
Bu dünya qalıbdır gör nə günündə,
Nəfəsini belə çəkə də bilmir,

Savaş qabağında, savaş önündə ...
Kövrəlib ürəyi yaşla dolsa da,
Hər adam ağlayır gözünə görə.
Hər söz özlüyündə bir səs olsa da,
Hər sözün səsi var özünə görə.
Sevinc də təklənir, qəm də təklənir,
Yaxşı da yaranır, pis də yaranır.
Hər söz öz kökünün üstə köklənir,
Hər söz öz səsinin üstə yaranır.
Yaxşı ki mənim də səsim var, səsim,
Mən də yaranmışam səsimin üstə.
O qədər səsimə artıb həvəsim,
Durub daranmışam səsimin üstə.
Baxmışam, səsim də, mən də diriyəm,
Mən də öləcəyəm səsim öləndə.
Yox, yox, o səslərdən yaxşı biriyəm,
Çalıb-oxuyuram səsim gələndə.
O açan çiçək də, ot da, yarpaq da,
Qoy mənim səsimi daş da anlasın.
Bu boyda dünya da – yer də, torpaq da,
Göy də qulaq assın, quş da anlasın.
Yazım gülə-gülə bunları mən də,
Hər sözün üstünə bir səs yükləyim.
Elə bilə-bilə bunları mən də,
Özümü səsimin üstə kökləyim.
Dindirə-dindirə səsləri sözlə,
Bir səsin üstünə neçə söz atım.
Utana-utana elə bir üzlə,
Sözü uzatmayım, səsi uzadım!
Özüylə öyünsün köhnə tanışım,

Hər yerin üstünə bir səs göndərim.
Elə bir nəfəsə səsdən danışım,
Hər şeyi söz edim, səsə döndərim.
Yaxınlar dinləsin qoy mən dəlini,
Uzaqda olana səs də eyləyim.
Öyrənə-öyrənə səsin dilini,
Hamı söz danışsın, mən səs söyləyim.
Su-su dolanım da dənizi, çayı,
Səs-səs oxuyub da söz-söz öyrənim.
Gecə qaranlığı, ulduzu, ayı,
Könül-könül sevim, göz-göz öyrənim.
Təki üz-gözünü bulud almasın,
Üzündən oxuyum gündüz Günəşi.
Yarımçıq qalmasın, yarım olmasın,
Bu ay-il işidir, deyil gün işi.
Yandırsın, özünü közə döndərsin,
Özündən üzülsün neçə-neçə səs,
Yaratsın özünü sözə döndərsin,
Yan-yana düzülsün neçə-neçə səs.
Baxdığı aynanın səsinə dönür,
Qayıdıb gələndə adam səsinə ...
Böyüyüb dünyanın səsinə dönür,
Köklənə biləndə adam səsinə.
Həmişə oyaqdır, deyil ki yatan,
Hələ bundan belə min il səsim var.
Nəinki özümə hamıya çatan
Sinəmin altında könül səsim var.
Gəzir bu dünyanı hərədə bir səs,
Eşidir hərədən bir səs, üzürəm.
Zirvədə bir səs var, dərədə bir səs,

Mən ki bu dağları səs-səs gəzirəm.
Könlümün havası o səsdən keçir,
Hər yerdə bir yeni səs axtarıram.
Dərdimin davası o səsdən keçir,
Hər dərdə bir yeni səs axtarıram!
Səsidir tanıdan bu yeri, göyü,
Səsindən tanınır hər şey dünyada.
Yaxşısı tanıda bilmir heç nəyi,
Pisindən tanınır hər şey dünyada ...
Adamın belini, gözünü bükən,
Təpik, yumruq səsi, sillə səsi var.
Min ölüm səsinə özünü bükən,
Bir də bu dünyada güllə səsi var.
Özü də soyuqdur, səsi də soyuq,
Gələndə dünyanı soyudur bu səs.
Özü də ayıqdır, səsi də ayıq,
Əsəndə, axanda bu külək, bu səs.
Təkcə üşüməyir bədəndən, candan,
Adam var könüldən, gözdən üşüyür.
Üşüyür damardan, soyuyur qandan,
Adam da var, soyuq sözdən üşüyür.
Mən gör öyrətmişəm özümü nəyə,
Düşmüşəm, olmuşam ayıq sözlərə.
Bu niyə belədir, görəsən, niyə?
Dünya qoyun açıb soyuq sözlərə ...
Səs də, söz də axıb könülə dolar,
Kim deyir səs ancaq qulaq üçündür.
Su olmasa, nə çay, nə dəniz olar,
Kim deyir ki, bir su bulaq üçündür.
Yaşasa da olar, içsə də olar,

Görünmür heç yaşam, ölüm gözünə.
Özgəsinə necə gəlsə də olar,
Xoş gəlir adamın səsi özünə.
Ölüm sevincə yox, ana yaxşıdır,
Ola bilmərəm ki, özüm baş daşım.
Olsa ölən günü, daha yaxşıdır,
Səsim sinə daşım, sözüm baş daşım.
Torpaq olum, verim boy bu dünyada,
Acım yayılmasın, ölüm pislənsin.
Mən öləndən sonra qoy bu dünyada,
Özüm səslənməyim, qəbrim səslənsin.
Danışdırdı, nə də güldürdü məni,
Bu gözlə, kirpiklə, bu qaşla öldüm.
Sinəmdəki ürək öldürdü məni,
Saxlaya bilmədim, bu başla öldüm.
Gözdən qaçırmadım bir izini də,
Dünyanın çox işi boynuma düşdü.
Gördüm beş işindən hər beşini də,
Qaldırdım qolumu, qoynuma düşdü!
Doğma gözlə baxdı özgələrinə,
Nə qədər eylədim mənə baxmadı.
İz saldı dərdimin cizgilərinə,
Nədənsə bu işə səsim çıxmadı.
Soyuq baxışları məni üşütdü,
Ələndi başımdan çəni eləcə.
Qulağım eləcə bir səs eşitdi,
Savaşa çağırdı məni eləcə.
Gəldim görə-görə düz uşaqlıqdan,
Düşmədim bir ayrı söz həvəsinə ...
Elə buna görə düz uşaqlıqdan,

Qulağım öyrəndi savaş səsinə ...
Kükrədim, çağladım, boşaldım, doldum,
Savaşdım hər cürə tay-tuşlarımla.
Gah qələbə çaldım, gah məğlub oldum,
Yol gəldim bu yerə tay-tuşlarımla.
Böyüyə-böyüyə aralandılar,
Böyrümdən, başımdan seyrəldi onlar.
Hərəsi bir yanda sıralandılar,
Dağımdan, daşımdan seyrəldi onlar.
Baxışı ağlasa, gözü gülsə də,
Bilmədim ağladı, güldü səsləri.
Səsləri gəlmədi hərdən gəlsə də,
Çox çox uzaqlardan gəldi səsləri.
Ürəyi onları hara apardı?
Səsi qulağımda qaldı onların.
Küləyi onları hara apardı?
Əksi bulağımda qaldı onların.
Savaşa-savaşa düz uşaqlıqdan,
Uydu hərəsi bir savaş səsinə ...
Olub yaxşı olan yüz aşıqlıqdan,
Qovuşdu hər dərə bir daş səsinə ...
Dağlara səs saldı aşıqlıqları,
Onlar sazını da bu dağda çaldı.
Geri qayıtmayan uşaqlıqları,
Bu dağda böyüdü, bu dağda qaldı.
Bir göycə, bir yercə dəcəlliyinə,
Göz qoydu dünyanın göyünü gördü.
Dözməzdi tək bircə dəcəlliyinə,
Uzaqlar onların nəyini gördü.
Keçdi çox qovğadan, qanlardan dağlar,

Tapmadı bircə yol canı xəstəlik.
Qayğı gözləmədi onlardan dağlar,
Qayğılar göstərdi hələ üstəlik.
Duyğulardan keçir, duyğu alınca,
Öz duyğusu dönüb duyğu istəyir.
Özləri gediblər qayğı dalınca,
Uzaqlar onlardan qayğı istəyir.
Üşüdür, isidir duyğular onu,
Adam öz-özünə duyğulananda ...
Dörd yandan bürüyür qayğılar onu,
Özü bir qayğıya qayğılananda ...
Heç o yaşamır ki, ürəkdən ötrü,
Güləndə ürəkdən gülə bilir ki?
Özünü öldürür çörəkdən ötrü,
Bu adam yaşayır elə bilir ki ...
Çəkməyə qalmayır yeri bir qolluq,
Gedir keçə-keçə neçə dağ-dərə.
Ona "can" deyəni atır bir yolluq,
Gedir "can" deməyə ögey, yad yerə.
Yad yerdə yaşayır, yurddan danışır,
İçindən, çölündən ögeylik yağır.
Burda nə var ona ögey yanaşır,
Hər yerdən gözünə ögeylik baxır.
Ağlayır göz yaşı gözünə çatmır,
Ağlayır könlündə bitən sözünə.
Uzadır əlini özünə çatmır,
Dili ancaq çatır Vətən sözünə ...
Onu təkcə qoymur tək düşüncəsi,
Gəlib ürəyində bitəndən keçir.
Onu aldadılmış ilk düşüncəsi,

Axır düşüncəsi Vətəndən keçir.
İlk dəfə danlayır özü-özünü,
Durub uzaqlardan Vətəni öyür.
O indi anlayır Vətən sözünü,
Getdikcə könlündə Vətən böyüyür.
Artıq seçə bilir ağı qaradan,
Dilinin bal sözü, qənd yeri olur.
Nisgili qalmayır puldan, paradan,
Ancaq Vətən ona and yeri olur.
Dərdini köksünə əyib düşünür,
Sevinci yığışmır kişiliyinə ...
Vətən kişilikdir deyib düşünür,
Yad ellər sığışmır kişiliyinə ...
Baxdıqca alışır gözü qürbətə,
Bu yerə gəldiyi gündən sınanır.
Birinci tanınır özü get-gedə,
Özü tanındıqca Vətən tanınır.
Sevinci vətənlə dolsa da onun,
Dərdini daşıyır vətəndən uzaq.
Vətən ürəyində olsa da onun,
Yer-göyü yaşayır vətəndən uzaq.
Bir sevinc sökürsə, beş dərd hörürsə,
Könlünə bir edir, beş yer eləmir.
Görür öz yerində nə iş görürsə,
Burda elə-belə baş girələmir.
Dünyada bir çöl var, bir də ki bir iç,
Bir susur, bir dinir dostları haqda.
Ayrı cür düşünmür, düşünməz də heç,
O belə düşünür dostları haqda ...
Bu dağda bu yamac, bu çöl, bu ətək,

Qalxır dağa, enir dərəyə sarı,
O öz dostlarını düşündüyü tək,
Onu da düşünür, yəqin dostları ...
Hər gün ürəyinə sevgi döşənir,
Gününü ayrı cür başa vurmur da ...
O ancaq həmişə belə düşünür,
Belə düşünmək heç onu yormur da ...
Dostlarsız qalmışdı bu yazı Şamil,
İndi səsləri çox uzaqdan gəlir.
Belə götürəndə ən azı Şamil,
Düşüncəsi boyda düşünə bilir.
Olub dağ yolları yarı yollarda,
Hara getsə, onu tək buraxmayır.
Ürəkdən bağlıdır bu doğma yurda,
Darıxdığı yoxdur, heç darıxmayır.
Çıxır dağ başına yeri gələndə,
Yaxınlıq eyləyir yellərlə Şamil!
Danışa da bilir bir su dilində,
Düşəndə dərəyə sellərlə Şamil!
Axır dərə boyu, axır sel boyu,
Düşüb bu sulara axır ürəyi.
Özü çıxmasa da, çıxır ilboyu,
O dağı birinci çıxır ürəyi.
Olubmu heç dərdi onu incidə,
Ən sonda bu onun sevinci olub.
Sonuncu da olmur, heç ikinci də,
Hər yerdə həmişə birinci olub.
Heç nə görə bilməz, nə sıza bilməz,
Könlündən sızılıb bu onun elə.
Tanrı yazdığını kim poza bilər,

Alnına yazılıb bu onun elə ...
Çox-çox uzaqlardan gələn bir səsin,
Özü gör özünə necə yol çəkib ...
Qolu işləməyib burda heç kəsin,
Tanrı yazısına özü qol çəkib ...
Çata, ya çatmaya bir səsə qismət,
Bu səs aşkar, ya da xəlvət olubdur!
Yaxşı ki, olmayıb heç kəsə qismət,
Bu yazı Şamilə qismət olubdur!
Özü öz əliylə köçürüb özü,
Heç də ola bilmir söz yazısına!
Həm də ki neçə yol keçirib özü
Baxış yazısına, göz yazısına ...
Eldə fağır durub, fağır oturub,
Fağırlıq verməyib ürəyinə o ...
Özü ağır durub, ağır oturub,
Ağırlıq verməyib ürəyinə o ...
Ağlının, hissinin öcünə dönüb,
Öz olur bir ögey səsdən öclənib.
Sevib sevgisinin gücünə dönüb,
Güc alıb bir doğma səsdən güclənib.
Cansız daşına da sağ kimi baxıb,
Seçməyib bu dağı o dağdan heç an!
Baxıb, hamısına dağ kimi baxıb,
Qaçmayıb qaradan, nə ağdan heç an ...
Sözündən sözünə gül də saxlayıb,
Düşüb bu dağlarda səs savaşına ...
Özündən özünə gücdə saxlayıb,
Getməyə dünyanın düz o başına.
Heç öz sevgisindən doyanmaz da o,

Bu candan, bu qandan gedə də bilər.
Heç bircə axşam da dayanmaz da o,
İstəsə, bu dandan gedə də bilər.
Kimə, nəyə lazım belə işgəncə,
Dünya əzəlindir, bir də sonundur.
Sıxır ürəyini bu cür düşüncə,
Necə olur olsun, ürək onundur.
Yaşaya bilərmi, ondan ayrı yox,
Həmişə olacaq onun gərəyi,
Lazımdır bu gündən sabahına çox,
Gərək ki, saxlasın sağlam ürəyi.
Elə saxlasın ki, dursun sapsağlam,
Dolanda da sağlam dolsun sinədə ...
Çırpınsın sapsağlam, vursun sapsağlam
Döyüntüsü sağlam olsun sinədə.
Bir sözü bişməsin səsindən uzaq,
Hey dalınca olsun söz istəyinin.
Qoy heç nə düşməsin səsindən uzaq,
Səsinə çevrilsin öz istəyinin.
Olur ki kövrəlir, kövrək səs verir,
Bu səsi öyürlər, o səs öyünür.
Hər səsə birinci ürək səs verir,
Durmayır sinədə, ürək döyünür.
Səs də var, az qalır həvəsə, vallah,
Olduğu yuvadan, binədən çıxa.
Elə də olur ki, o səsə, vallah,
Az qalır ki, ürək sinədən çıxa.
Demirsən, buzlanır, donur dodaq da,
Deyirsən üşüyür ağızda bir səs.
Yazmırsan yüz səsin qalır qıraqda,

Yazırsan, isinir kağızda bir səs.
Biri açır, biri solur dünyada,
Bir qardaşlıq, bir də savaş səsi var.
Adamlar cürbəcür olur dünyada
Hərənin öz eşqi, öz həvəsi var.
O yana, bu yana gedək də, gələk!
Gəl gəzək dünyanı bir yerdə səs-səs.
Kimdə necədirsə, öyrənək, bilək
Qalıb yaşamağa, ölməyə həvəs.

Acı soraq

Carçı car çəkmişdi bu səhər kəndə,
Bu səsdən dəymişdi kənd bir-birinə ...
Gözlər ağlayırdı görün nə gündə,
Sanki olmuşdular bənd bir-birinə!
Çatdırmaqdan ötrü elə olmuşdu,
Gəzib qapı-qapı çəpər aşmışdı.
Bu acı xəbəri hələ olmuşdu,
Deyə bilməmişdi, carçı çaşmışdı.
Bu gün üz-üzəydi yol vermir səhvə,
Dünən ürəyinə daman xəbərlə!
Xoş xəbər gətirən carçı bu dəfə,
Getmişdi hər evə yaman xəbərlə.
Bu acı xəbərdən acılanmasın,
Göz olmamışdı ki, dolmamış olsun!
Alçalsın, eləcə ucalanmasın,
Olub bir də onu olmamış olsun.
Elə bu xəbəri eşidən kimi,

Çoxu yerindəcə donub qalmışdı!
Olmuşdu onu da üşüdən kimi,
Quş öz budağında qonub qalmışdı!
Təşvişə düşmüşdü gəlinlər, qızlar,
Onları sıxırdı qardaş, ər dərdi.
Gülər gözlərində donmuşdu buzlar,
Qarşılamamışdılar belə hər dərdi.
Çoxuna bu xəbər dan gəlirdi, dan,
Çoxu da inanmaq istəmirdi heç.
Çoxunun qəlbindən qan axırdı, qan,
Gəl axan qanları bir-birindən seç.
Pencəkdən, şalvardan, köynəkdən, dondan,
əyninə geyirdi, əyni dərdiydi.
O dərddən bezirdi, dərd də ki ondan,
Hamısının dərdi eyni dərdiydi.
Bir az göy, bir az da yer dərdliydilər,
Dərdləri onları kürləşdirirdi.
Adamlar hamısı bir dərdliydilər,
Dərdləri onları birləşdirirdi.
Gözlər dolub, üzlər ağarmışdılar,
Daha qalmamışdı dərdin kəsiri.
Dünəndən rayona çağırmışdılar,
Tapdığı, Ellazı, uzun Misiri.
Getdiyi oğlana sona olmağa,
Getmişdi bu qızlar təzə toyluydu.
Günləri qalırdı ana olmağa,
Onlar el diliylə desək boyluydu.
Bu nə kişilikdi sevdiyi oğlan,
Sevdiyini belə qoyub gedirdi.
Hökmüdür, görəsən, bu hansı ağlın,

O, ondan yarımçıq doyub gedirdi.
Eləsi varıydı qızlar içində,
Hələ əynindəydi gəlinlik donu.
Elə xoşbəxtiydi bax bu üç gündə,
İndi gəlinliyi sıxırdı onu.
Baxırdı, ölürdü gəlinliyinə,
Utanırdı qara bağlamağa da ...
Heyifi gəlirdi gəlinliyinə,
Ürəyi gəlmirdi ağlamağa da ...
Ürəklə sevmişdi sevəndə onlar,
Könlünü vermişdi məhəbbətinə.
Axı bu qapıdan girəndə onlar,
And içib girmişdi məhəbbətinə.
Deyirlər ağa yox, qaraya gedir,
Sevgiləri gedir sinə dağında ....
Belə sevdikləri haraya gedir?
Bu nədir bu andın qarşılığında!
Axı bu sevginin yolunda bir vaxt,
Canından keçmişdi axı onlar da ...
Olub bu sevginin balında bir vaxt
Axı and içmişdi, axı onlar da ...
Belə tez-tələsik hara gedirlər,
Aparan bəs nədir onları belə ...
Onlar ki dünənin gəlinidirlər,
Niyə olsun, niyə sonları belə ...
Düşünə bilmirdi heç ayrı cürə,
Bu cür düşünürdü, bu cür gəlinlər!
Bilmirdi olacaq köç ayrı cürə,
Bu ocağa dönən bu pir gəlinlər!
Dərdini yeyəcək dərdi deyəndə,

Sığınıb öz göyçək sona adına.
Atasız körpəsi ana deyəndə,
Göynəyəcək donub ana adına.
Özləri dönəcək sevgi daşına,
Nə çörək yeyəcək, nə su içəcək.
Hər gün uşaqları yığıb başına,
Atanız gələcək dərsi keçəcək.
İl-ay keçirəcək, gün keçirəcək,
Ancaq keçirəcək gününü belə ...
Ərləri tərəfə yön çevirəcək,
Görəcək günlərin yönünü belə ...
Deyərdi oğluna hər gün bu sözü,
Oğul, oxşayırsan, sağ ol atana!
Məktuba yazıb da bir gün bu sözü,
Göndərək gəl burdan, oğul, atana!
Bax səni atandan ayırmaq çətin,
Ata köküdəsən, soyun atandır.
Atana bənzəyir sirin-sifətin,
Boyuna baxıram boyun atandır.
Dodağın sözlənib, dilin sözlənib,
Hər kəlmən, söhbətin, sözün onundur.
Bax, bax baxışında atan gizlənib,
Gözünə baxıram, gözün onundur
Gecələr yuxusuz mən qalmışam, mən,
Yenə də mən sənsiz ömür sürmürəm.
Nə olsun laylanı mən çalmışam, mən,
Heç səndə özümdən heç nə görmürəm.
Görən necə gəlir bu göy, yer ona,
Dolana bilirmi o bizsiz mağıl?
Ancaq sevinirəm ona, bir ona,

Nəyin var atana oxşayır, oğul!
Düşünür-daşınır, birdən çaşırdı,
Çox şeylər gəlirdi düşüncəsinə ...
Elə bil indidən hazırlaşırdı,
Özünün ən dadlı işgəncəsinə ...
Yayın istisində soyuqda yox, yox,
Bəs niyə soyuyub buzlaşmışdılar?!
Beş günün, beş ayın elə də çox yox,
Gəlini olub da qızlaşmışdılar.
Doğrudanmı geri döndü bu sonda,
Bəlkə, ulduzları söndü dedilər.
Axı ərsizlikdən indi bu evdə,
Həm gəlin idilər, həm qız idilər ...
Həsrət qalmışdılar bir ər boyuna,
Bilməyib sevincin solacağını ...
Hardan biləydilər burdan o yana,
Bilmirdilər heç nə olacağını ...
Baxdılar, yüz dərdi daşıdılar da,
İyrənə-iyrənə tək yaşamağa ...
Axır elə oldu, yaşadılar da,
Öyrənə-öyrənə tək yaşamağa ...
Qaldı sac üstündə, çörəyi yandı,
Bilmədi heç külə boyandığını.
Biləndə ərinə ürəyi yandı,
Ölüm qarşısında dayandığını.
Danışdı, deyəsən, sözünə düşdü,
Bitir ölüm adlı mühəribə dən,
Axdı yanağından üzünə düşdü
Gözü su içmədi müharibədən!
Birinə yar oldu, birinə bacı,

Bitirmədi heç nə ölümdən başqa!
Əkdi müharibə ölüm ağacı,
Gətirmədi heç nə ölümdən başqa ...
Dərər, dəstə bağlar, onu kim iylər,
O çəməndə açan o gülü solsa.
Olsa, bu gəlinlər, görəsən, neylər,
Neylər, onlar üçün bu ölüm olsa?!
Gəlib bu gününə axıb bu yöndən,
Gələcək dururdu, anlar dururdu.
Sabahkı ömrünə baxıb bu gündən,
Gəlinlər özündə xəyal qururdu!
Gəzdirib üstündə göz balasının,
Çox idi dərdinə baxıb solanlar.
Atasızlığına öz balasının,
Sevinmirdi təzə ana olanlar.
Dönmüşdü ayrılıq şaha bu kənddə,
Onun bu şahlığı gözünə dolsun.
Elə ev yox idi daha bu kənddə,
Carçı qapısını döyməmiş olsun.
Deyirdi gəlişin de, kimə xoşdur,
Hamı görən kimi carçı Qədiri.
Gəlmişdin dünən də belə olmuşdu,
Bu gün apardılar gəlib Bədiri.
Beş gündü etmişdi toyunu hələ,
Bir kimsə bilmədi o nədən getdi.
Görüşə bilmədi anası ilə,
Qayıtmadı bir də o gedən getdi.
Qadınlar doğacaq öz göz yaşından,
Yaylıq daşıyacaq kişisiz kəndlər.
Papaq seyrələcək kəndin başından,

Necə yaşayacaq kişisiz kəndlər.
Deyil ki, bu gedən köç də özünün,
Nə olsun bu hava, bu müharibə.
Gedən kişilərin heç də özünün,
Deyil torpağında bu müharibə ...
Sözün hökmü dilə olduğu yerdə,
Özündən uzaqdı, çoxu bu nədən?
Axı nədən belə olduğu yerdə ...
Nədən belə olsun, axı bu nədən?
Versəm, güllə dəyən sinəm olacaq,
Nə çoxdur ürəyi yaralananım.
Heç kəsin yox, axır mənim olacaq,
Sinədə ürəyi paralananım.
Burda bu yer-torpaq, orda göydüsə,
Burda daşdan, orda quşdan dəyəcək!
Dəyəndə nə fərqi, əgər dəydisə,
Ayaqdan, sinədən, başdan dəyəcək.
Dözmək də olmurdu, niyə dözmürdü,
Atası vuranda bircə silləyə ...
Torpağa enirdi, göyə dözmürdü,
Öləndə öləcək bircə gülləyə.
Bəlkə də, bilmirdi çevriləcək o,
Bu uzaq ellərin qəhrəmanına.
Ağlına gəlmirdi çevriləcək o,
Qürbətdə Vətənin açan danına ...
Dolub ürəyinə onun sevgisi,
Vətən, ver sinədə nə qədər olsa!
Qaldırım, olmayım sonun sevgisi,
Adını yenə də nə qədər olsa ...
Vətəni görürdü, heç nə görmürdü,

Varı düz beləydi, yoxu düz belə.
Ayrı düşüncəyə dəyər vermirdi,
Belə düşünürdü çoxu düz belə.
Yad idi onlara sayru düşüncə,
Yanıb boğularsan öz tüstündə də.
Olmurdu onlarda ayrı düşüncə,
Belə düşünürdü yol üstündə də ...
Əliylə gör necə sevgilisinin,
Dalıyca atdığı su yadındaydı.
Gözündən son gecə sevgilisinin,
Balınca atdığı su yadındaydı.
Özütək göstərir güzgü hər şeyi,
Olurmu güzgüyə baxıb ağarmaq.
Çıxarmaq olsa da artıq hər şeyi,
Olarmı o günü yaddan çıxarmaq?
Çəkdim ha içimə, hava dolaşdı,
Bilmədim ağlayım, gülüm altında ...
Dirilik üstündə dava-dalaşdı,
Durmuşam dar üstə, ölüm altında ...
Özümün ölməyim o yana dursun,
Bir yerdə ölürəm ölümlə hər gün.
Üz-üzə gəlməyim o yana dursun,
Göz-gözə gəlirəm ölümlə hər gün.
Varmı qürbət üçün canından keçən,
Varsa, mən də keçim, məni öyrətsin!
Varmı, görən, ondan gözü su içən,
Varsa, mən də içim, məni öyrətsin!
Heç kim deyə bilməz ölmədiyini,
Ölüm darağıyla daranıb hamı.
Onsuz da, dünyada bilmədiyini,

Öyrənməkdən ötrü yaranıb hamı.
Büsbütün dərslərin tərsi keçilir,
Ölüb-öldürməyin dağılır çəni,
Burda mənə ölüm dərsi keçilir,
Burda öyrənirəm müharibəni.
Yananın oduna heç nə görünmür,
Darıxır çoxluğun yeri azlıqdan.
İnsanlıq adına heç nə görünmür,
İnsanlıq can verir insansızlıqdan.
Sular durulmayır, bulanır ancaq,
Deyilmir heç harda ürək, can sözü.
Durmadan hər yerdə dolanır ancaq,
Müharibə sözü, ölüm, qan sözü.
Özünü gör necə boyayıb qana,
Özünün üstündə özü göz olub.
Deyəndə bal kimi yayılır cana,
Ölüm sözü necə şirin söz olub.
Nədən danışasan, ayrı söz yoxdur,
Ölümdən danışmaq adətdir burda ...
Yanmağa özündən ayrı köz yoxdur,
Ölməklə öldürmək sənətdir burda ...
Yoxdur, düzəltdirən nə qapı, ayna,
Hörgü hördürən yox, hörgü hörəsən ...
Tamam bambaşqadır burdakı dünya,
Öldürməkdən başqa nə iş görəsən.
Gərək ağladasan, güldürməsən də,
Elə bilmə səni güldürəcəklər.
Axı neyləyəsən, öldürməsən də,
Öləcəksən, səni öldürəcəklər.
Burda ölüm ağa, insan kölədir,

Zalımla, zülümlə barışmalısan.
Burda qanun belə, qayda belədir,
Olan hər ölümlə barışmalısan.
Yoxdur, onun heç bir xeyri həyata,
Yersizdir, göysüzdür harda ki həyat.
Həç nəyi oxşamır ayrı həyata,
Başqa cür həyatdır burdakı həyat.
Tanrının bir qara bağlamağından,
Bağlanır, açılmır öz başından da.
Gəlir ölüm iyi ağlamağından,
Axır ölüm iyi göz yaşından da.
Özünün vurduğu yaraya getsə,
Neçə-neçə gedim-gəlimdən keçir.
Haralarda olsa, haraya getsə,
Keçir, müharibə ölümdən keçir.
Özün də qoymursan yeri gələndə,
İndi uyğun gəlmir ağrıma qadam.
Quşa da qıymırsan, yeri gələndə,
Görən, necə qıyır adama adam?!
Olub ki, deyibsən ağa qara da,
Yanıb boğulasan səni tüstünə.
Çağırsan gələrəm, olsan harada,
Öl, ölüm, ağlayım, gəlim üstünə ...
Utanım yerinə heç bir ölürsən,
Öldünmü, ağzını bağlayan olmaz.
Sən elə namərdsən, bunu bilirsən,
Səni məndən başqa ağlayan olmaz.
Gələ özü kimi, gələ olanda,
Olmaya nə quldan, nə şahdan ölən.
Ölüm gözəl olur belə olanda,

O da olmalıdır Allahdan gələn.
Durub alt-üst sözlər söyləyənlərin,
Görsün qəzasını qoy Tanrı özü!
Allahla Allahlıq eyləyənlərin,
Versin cəzasını qoy Tanrı özü!
Dilimə danışsam, sözümə dinsəm,
Anama deyin ki, mən gəlirəm, mən.
Ölməyib salamat geriyə dönsəm,
Onda nə edəcəm, mən bilirəm, mən.
Ən çətin ayaqda, söz ayağında,
Mən ağ geyməyəcəm, qara geyəcəm.
Durub kəndimizin düz ayağında,
Qaldır ayağından öpüm deyəcəm.
Burda qazanmadım ölümdən heç nə,
Ucalmaq yerinə əydim qəddimi.
Ən azı gəlməsə əlimdən heç nə,
Bağrıma basacam ana kəndimi.
Qoy birinci deyib elə bu üzdən,
Salamat saxlayıb anamı mənə.
Neçə yad baxışdan, yüz çirkli gözdən,
Qoruyub dumduru sonamı mənə ...
Ağacını ağac, daşını da daş,
Eli ki el kimi saxlayıb mənə ...
Bulağını bulaq, quşunu da quş,
Gülünü gül kimi saxlayıb mənə.
Sevincə döşənmək yoxdur onlarda,
Dərdə döşənirdi hamısı bu cür.
Ayrı cür düşünmək yoxdur onlarda,
Onlar düşünürdü hamısı bu cür.
Nə can söyləyirdi, nə can deyirdi,

Coşub qaynayırdı bu müharibə.
Qurtarmaq bilmirdi, qan-qan deyirdi,
Qanla oynayırdı bu müharibə.
Dərdi sudan dərin, küləkdən sərin,
Sevincin cavabı min sual idi.
Yağdan yağlı, baldan şirin şipşirin,
Olsa onlarınkı xoş xəyal idi.
Götür ol həvəsli, olma həvəssiz,
Qoy göyü göyünə, yeri yerinə ...
Biri səsli keçir, o biri səssiz,
Günlər də bənzəmir biri-birinə.
Günlərə nə vardı öz köçündəydi,
Hələ gedirdilər yönləri belə.
Bir gün qansız, bir gün qan içindəydi,
Yola verirdilər günləri belə.
Hər tərəfdə cansız can görünürdü,
Həm də görünürdü canlı döyüşlər ...
Haraya baxırdın qan görünürdü,
Döyüşlər gedirdi, qanlı döyüşlər.
Elə də olurdu bulanırdılar,
Axırdılar, ancaq durulmurdular.
Yüz fikrin başına dolanırdılar,
Belə düşünməkdən yorulmurdular.
Yadına düşmürdü gülmək onların,
Danışıqları da öz dilindədir.
Elə bilirdilər ölmək onların,
Öldürmək onların öz əlindədir.
Qandan oxuyurdu quş mahnısını,
Qandan danışırdı, quş qan dilində.
Candan oxuyurdu daş mahnısını,

O qaya da, daş da öz can dilində ...
Qanlı tək baxırdı dağ dumanına,
Bulağından uzaq çay çağlayırdı.
Hər yan bələnmişdi insan qanına,
Çəməndə çiçəklər qan ağlayırdı.
Kiminin uçurdu candan can quşu,
Vermək istəmirdi can içindəydi.
Kiminin sinəsi, kiminin başı
Qana bulanmışdı, qan içindəydi.
Ölümdən hey mahnı oxudurdular,
Ölən oxuyanın öz canı idi.
Havayı havaya axıdırdılar,
Bu axan onların öz qanı idi.
Ağlayırdı kimi, gülürdü kimi,
Xeyir nə gün olsa, şər nə gün olsa.
Hər günün səhəri açılan kimi,
Şükür deyirdilər, hər nə gün olsa.
Bir buluda dönüb dolanda onlar,
Dönüb də şimşəyə sıyrılırdılar.
Arada sakitlik olanda onlar,
Qələmə, kağıza sarılırdılar.
Biri anasına məktub yazırdı,
Biri bacısına, sevgilisinə ...
Bir də baxırdın ki, məktub hazırdı,
Heç kim verməmişdi vaxt itkisinə.
Bilir pozduğunu pozan nə pozub,
O burda yazılıb başdaşlarına ...
Anasına məktub yazan nə yazıb,
Birinci oxudu yoldaşlarına ...
“Birinci salamlar məndən, ay ana,

Öpürəm mən səni salamdan sonra.
Yaman nigaranam səndən, ay ana.
Sonra, Vətən adlı qalamdan sonra!
Burda ölən çoxdur, gözdən uzaqda,
Orda ölən varmı, itən neçədir?
Yaman darıxıram sizdən uzaqda,
Söylə, sən necəsən, Vətən necədir?
İtirən özünü tapa bilirmi,
Elə kim danışır, belə kim dinir?
Minən adam onu çapa bilirmi,
Mənim Boz atımı indi kim minir?
O atın belində çox yardım çəni,
Oldum dərə-təpə, dağ atlı oğlan.
Belə çağırardı böyüklər məni,
Deyirdilər, gəlir Ağ atlı oğlan.
Bəlkə, heç kəs onu duya bilməyib,
Kişnəyib özünün aran səsinə.
Bəlkə, ayağını qoya bilməyib,
Hələ heç kəs onun üzəngisinə!
Deyəndə göynəyir dilimin ucu,
Söylə, o dağların qarı necədir?
Bir də o mən əkən alma ağacı,
Meyvə gətiribmi, barı necədir?
Əsirmi, əsəndə üz verirmi, üz,
Dağlar göstərirmi üz yellərinə?
Məndən ayrı özgə üz görürmü, üz,
Məndən salam olsun güz yellərinə.
Palıdın, fıstığın, dəmir ağacın,
Cökənin, vələsin boyuna salam.
Mən acdım, acanda salama acın,

Olsun o bulağın suyuna salam.
Atsın, dərd verməsin sənə onları,
Atam sinəsindən dərd asmayıb ki?
Gəlib-gedən varmı yenə onları,
Mən gedən yolları ot basmayıb ki?
Sən özün də gördün, fəsil oldu bu,
Gəldim, qəfil gəldim elə bir vaxtda.
Heç yola bənzəmir, ayrı yoldu bu,
De, kimsə yatırmı, mən yatan taxtda?
Sər toy döşəyimi, toy balıncımı,
Sən Allah, eyləmə özünə dərd, yat.
Başının altına qoy balıncımı,
O toy yorğanımı üstünə ört, yat.
Təki müharibə ora getməsin,
Sağlıq evimizə-eşiyimizə.
Təki o yerlərdə heç nə itməsin,
Bəlkə, biz də döndük beşiyimizə ...
Bu günlər o günü qaytaran deyil,
Verməyim qoy hədər sualım çoxdur.
Onsuz da, deməklə qurtaran deyil,
Sualım o qədər, sualım çoxdur!
Yazdığım suala gülürəm, ana,
Düşünürəm gəldim hardan buraya!
Cavab gəlməyəcək bilirəm, ana,
Nə cavab olacaq ordan buraya ...
Sən elə bilmə ki, sözə qıymıram,
Gülürəm, halımı dayandırıram.
Cümləmin sonunda sual qoymuram,
Burda sualımı dayandırıram.
Bir, beş, on deyib də suallarıma,

Yanmaq istəyirəm mən öz közümdən.
Burda son deyib də suallarıma,
Yazmaq istəyirəm indi özümdən.
Bilmirəm sözümə necə başlayım,
Yazım mən özümdən, nə yazım ona!
Yazdığım sözümü necə xoşlayım,
Burda nə atım var, nə sazım, ana!
O sən görən dünya yoxdur burada,
Burda dünya dəyib biri-birinə ...
Müharibə, ölüm haqda burada,
Silah götürmüşəm sazın yerinə ...
Bəzən olur quru söz həvəsinə,
Dərdimi gül edib qoxuyuram da ...
Səsimi qatıram güllə səsinə,
Olur hərdən-birdən oxuyuram da ...
Əvvəlki hansıdır, axırki hansı ...
Dərdə ağlamaq var, dərdə gülmək var.
Qismətin olacaq baxır ki hansı,
Burda öldürmək var, bir də ölmək var.
Adından çıxarır, olmur yer-göyü,
Yarı böldürəndə insan insanı.
Yadından çıxarır nə var, hər şeyi,
Burda öldürəndə insan insanı.
Dadır eyni dadı, tamı götürür,
Onu hər adamın canı götürmür.
Kim olur, bu qanı hamı götürür,
Onu yalnız ana qanı götürməz!
Yalandan özümü nə öyüm, ana,
Üstümdə dayanıb o göyüm, ana.
Bircə o var hələ sağ-salamatam,

Sənə nə söyləyim, nə deyim, ana.
Yerdə güllər solar, qəlbini sıxma,
Göydə bulud dolar,qəlbini sıxma.
Sağlıqla gələrəm yanına bir gün,
Hər şey yaxşı olar, qəlbini sıxma!
Basıram bağrıma, öpürəm səni,
Heç nəyə ağrıma, öpürəm səni.
Gəl burda ayrılaq, salamat qal di ...
Bütün kəndimizə məndən salam de!”
Oxuyub qurtardı öz məktubunu,
Köksünü ötürdü bu əsgər oğlan.
Üstündə yük olan söz məktubunu,
Üstündən götürdü bu əsgər oğlan.
Ölümü öldürən, pozan əsgər də,
Götürüb qələmi ələ yazmışdı ...
Bacısına məktub yazan əsgər də,
Yazdığı məktubu belə yazmışdı ...
O da öz yurduna qalam demişdi,
Demişdi gülümsən, bacım Hamaya!
O da ən birinci salam demişdi,
Salam göndərmişdi o da hamıya.
Əriyib dağ qarı, selə dönübmü?
Mən gələndə toza qarışmışdı o.
Açıb qönçələri gülə dönübmü ?
Əkdiyi gülləri soruşmuşdu o.
Eyləyib köç hara tərpənməyib ki,
Hər axşam əliylə yatırdığı daş.
Yerindən heç hara tərpənməyib ki,
Həmişə üstündə oturduğu daş!
Görən, qoyunları necə saxlayır,

Qızıl it işini görə bilirmi ?
Ağ it çöl-çəpəri necə yoxlayır,
Boz it qaraltıya hürə bilirmi?
Deyirsənmi ölsün, ay qardaş, bacın,
İnəklər örüşə ötürülürmü ?
Mənsiz götürməyə çatırmı gücün,
Qazanlar ocaqdan götürülürmü ?
Ona borcluyuq biz lap ölənədək,
İkimiz də təkik, oğul, qız təkdir.
Məni əvəz eylə mən gələnədək,
Anama dayaq ol, anamız təkdir.
Dağ idi qaməti, hələ qəddi də,
Ona əl atanlar sillə yedilər.
O cür atamızı otuz yeddidə,
Aparıb nahaqdan güllələdilər.
Qoymadıq bilinə, saxladıq gizli,
Qaldı könlümüzdə cığırı, izi.
Xəlvətə düşəndə ağladıq gizli,
O gündən bu həyat təklədi bizi.
Fələk onu elə çaldı sağ-soldan,
Heç vaxt sağalmadı aldığı yara.
İki hörük hördü, saldı sağ, soldan,
Birini ağ hördü, birini qara ...
Nə dərd daşıyardı özünə qalsa,
Sızladı, göynədi bir bizə görə .
Bəytək yaşayardı özünə qalsa,
Bunları eylədi bir bizə görə ...
Dərd-qəm göndərirəm sənə bir sinə,
Anamdır alt qatı, bacı, ay bacı!
Amanat vermişəm anamı sənə,

Anam amanatı, bacı, ay bacı!
Qoy görüm namərdi, məni qınama,
Ucalsın deyib də, heç ucalmasın.
Sənə göndərdiyim dərdi anama,
Sevinc edib danış, qoy qocalmasın.
Baş alıb çox gedib yalanlar axı,
Doğrunu qəfəsə salıblar indi.
Ərini əlindən alanlar axı
Oğlunu əlindən alıblar indi.
Söylə, hər günündə, hər anındasan,
Gözlərindən yaşmı, nə tökür anam?
Bəlkə, sən biləsən, sən yanındasan,
Allah bilir indi nə çəkir anam.
Könlünü alacaq bu məktub onun,
Oğlun məktub yazıb söylə anama.
Sevinci olacaq bu məktub onun,
Bunu bir muştuluq eylə sən ona ...
Sevinclə baxacaq bilirəm öpüb,
Heç olmaya dərdi ölsün bir anda.
Köksünə sıxacaq bilirəm öpüb,
Ağlayan gözləri gülsün bir anda.
Hər gün oxşayacaq gözüylə onu,
Bilirəm savaba batacaq məktub.
Gecə yatıracaq özüylə onu,
İsti qucağında yatacaq məktub.
Onunla bir yerdə yemək yeyərək,
Adımı çəkəcək bir dil deyimi.
Hər gün bu məktuba oğlum deyəcək,
Məktubdan alacaq mənim iyimi.
Güvənə bilməyib yerə, nə göyə,

Özündən qıraqda saxlamayacaq.
Birdən inciyərəm, küsərəm deyə,
Heç vaxt o məktuba ağlamayacaq.
Ona xoş gələcək, ona xoş, yəqin,
Bu yaz çəkiləcək dağların çəni.
Qalmayacaq daha yerim boş, yəqin,
Əvəz eyləyəcək bu məktub məni.
Yaz kimi gələcək qışım anama,
Olmayacaq onda daha bir acı.
Bağışla qarışdı başım anama,
Soruşa bilmədim halını, bacı!
Meylini salmışdın oyuncaqlara,
Mən səni balaca uşaq bilirdim.
Bənzədirdim gülü açan bağlara,
Üzümə-gözümə işıq bilirdim.
Mən gələndən ömrün bir il qazanıb,
Yekə qızsan, on beş yaşa çatıbsan.
Yəqin, indi bir az boyun uzanıb,
Böyüyübsən, boya-başa çatıbsan.
Könlümdəki qəmdə ata əvəzi,
Gələndə toyunu özüm edəcəm.
Olub qardaş, həm də ata əvəzi,
Gələndə toyunu özüm edəcəm.
Gözlə, gələcəyəm qışda yox ancaq,
Ömrünün yazına-yayına görə.
Gələ biləcəyəm, qışda yox ancaq,
Gözlə, bacı, məni, toyuna gözlə!
Hər qəmdən, kədərdən sıyrılmalıyam,
Öpürəm ürəklə, sağollaşıram.
Səndən ayrılıram, ayrılmalıyam,

Bu arzu, istəklə sağollaşıram”.
Məktubunun sözü bu sözlə bitdi,
Üstəlik altından yazdı tarix də!
Düşündü altı ay tez gəldi, getdi,
Bir anlıq xəyalı azdı tarixdə!
Yanırmı bir işıq, yanır da sönür,
Yol gedir hər ocaq oddan küləcə ...
Keçir keçə-keçə, tarixə dönür,
Tarixə çevrilir hər gün beləcə ...
Yazır öz andını içdiyi yoldan,
Gərək ola əmrə hazır hər əsgər!
Yazır döyüşlərdə keçdiyi yoldan,
Əsgər məktubunu yazır hər əsgər.
Hər birisi yazır öz məktubunu,
Yazır atasına, ya qardaşına.
Göndərir, eyləyib söz məktubunu,
Olur vətəninin qurban daşına.
Ayrı bir əsgər də bir başqa cürə,
Qələmə almışdı sevgilisini.
Yazıb yazısını özünə görə
Şeirə salmışdı sevgilisini!
- Sən sözdə batırsan, söz içindəsən,
Gözəllər içində xanım, sevgilim!
Sən ki ürəyimin düz içindəsən.
Belə də yazmışdı canım, sevgilim!
Onu sən edirsən mən hər nə etsəm,
Çəkdiyim hər dərdə döyüşlərdəsən!
Məni buraxmırsan haraya getsəm,
Mənimlə bir yerdə döyüşlərdəsən.
Səndən boşaldığım, dolduğum üçün,

Mənim qaralmağım səni əyməsin.
Mənim ürəyimdə olduğun üçün,
Çalışıram güllə sənə dəyməsin!
Tökülər üstünə neçə yığma səs,
Qalarsan pis gündə, ölə bilərsən.
Qulağın eşitsə, bircə doğma səs,
Yad səsdə, yad ündə ölə bilərsən.
Səsimə səs verən, haray qoparan,
Yalnız sənsən, bir də sənin sevgindir.
Döyüşdən, döyüşə məni aparan,
Göydə Allah, yerdə sənin sevgindir.
Yadımdan çıxmayır el-gün həmişə,
Qoşulub ömrümə günümlə gedir.
Sənin məhəbbətin, sevgin həmişə,
Gücümə çevrilib mənimlə gedir.
Oturub-dururam sənin eşqinlə,
Gözlərin oxşayır Günəşə sənin.
Cəbhələr yarıram sənin eşqinlə,
İgidin oluram həmişə sənin.
Sevgim var bir sinə, yalanı yoxdur,
Nəğmə söyləyirlər igidliyimə.
Sözümün bir dənə yalanı yoxdur,
Qibtə eyləyirlər igidliyimə ...
Girdiyim döyüşlər məni göstərir,
Keçdiyim ömürdən, gündən danışır.
Hər döyüşdən sonra məni göstərir,
Hamı birnəfərtək məndən danışır.
Yerli-yersiz deyən özümü öydüm,
Daha çox danışdım özümdən, çox, çox.
Öydüm, ancaq olan düzümü öydüm,

Bunda artıq elə o yan, bu yan yox.
Hər yanda gül üzün gəldi üzümə,
Heç vaxt get demədim, gəl səni gördüm.
Çəməndəki güllər güldü üzümə,
Hər yanda bir ancaq gül səni gördüm.
Bir azca sözlərim yerinə düşdü,
Səndən danışmadım, məni bağışla,
Neynim, danışmağım gününə düşdü,
Məni bağışlama, günü bağışla!
Mənə elə-belə baxma ötəri,
Sözüm adınadır, sazım adına.
Dəydiyim könlünü almaqdan ötrü,
Oturum, bir qoşma yazım adına ...
Ayrı nə söz deyim, sənə nə lazım,
Üz-gözünü sənə döndərim, oxu.
Ağızdan çıxarım, kağıza yazım,
İstəyirsən onu göndərim, oxu!
Üzünə güləcək başdan-ayağa,
Sənin özünün də üzün güləcək.
Xoşuna gələcək başdan-ayağa,
Ürəyin gedəcək, gözün güləcək.
“Səni səsləyirəm, səni, sevgilim”,
Sözümə açılan bir səhər göndər!
Çox olub dağından çıxan Günəşim,
Düzümə açılan bir səhər göndər.
Nə olsun özümün qardaş-bacım var,
Özümün şirinim, ağrım-acım var.
Mənim ona böyük ehtiyacım var,
Üzümə açılan bir səhər göndər.
Hikkən-hirsin olum, acığın olum,

Gəl gir qucağıma, qucağın olum.
Yanım sənin üçün, ocağın olum,
Közümə açılan bir səhər göndər.
Ağlayan yoluma, gülən yoluma,
Dərdindən ağlayıb ölən yoluma,
Sizə sarı gedən-gələn yoluma,
İzimə açılan bir səhər göndər!
Çəkdiyin qarada qoy səni görsün,
Vurduğun yarada qoy səni görsün,
Olsam da harada, qoy səni görsün,
Sözümə açılan bir səhər göndər!
Düşüm selə-suya, üzmək öyrənim,
Durum ayaq üstə, gəzmək öyrənim,
Azca ayrılığa dözmək öyrənim,
Dözümə açılan bir səhər göndər!
Könlümə toxunub çitim, ipəyim,
Üzündən oxunub çitim, ipəyim.
Özündən toxunub çitim, ipəyim,
Bezimə açılan bir səhər göndər!
Buraxıb getmişdin gücümə məni,
Saxlama özümün öcümə məni.
Gəl durub gözləmə gecimə məni,
Tezimə açılan bir səhər göndər!
Getməyə yolumu salsın qoy dünya.
Alsın ürəyimi, alsın qoy dünya,
Ayağım altında qalsın qoy dünya,
Dizimə açılan bir səhər göndər!
Açılsın çiçəyi, solsun, solsun ki,
Boşalsın buludu, dolsun, dolsun ki,
Ürəyimdən olsun, elə olsun ki,

Özümə açılan bir səhər göndər!
Hələlik bu qədər, bu qədər bəsdir,
De, ayrı mən səni nə deyə öyüm?
Demə, dediklərim bir quru səsdir,
Səndən nə istəyim, ayrı nə deyim?!
Bir gözümdən batıb, birindən doğsan,
Könlüm işığına nə deyə çatar.
Bütün işıqları üst-üstə yığsan,
Ucalıb gedər də o göyə çatar.
Sən bir çiçəyə dön, mən bir arıya,
Dönək sevgimizin arılığına.
Olaq bu sevgidə yarı-yarıya,
Gəl çəkək bu dərdi yarılığına.
Duraq göz üstündə iki qaş kimi,
Bu yol könlümüzün başından düşsün.
Qoy alsın qoynuna bizi quş kimi,
O göylər özünün quşundan düşsün.
Yazmağa yaxşı söz gəzdi ha gözü,
Üzünün-gözünün məktubuna, o.
Gətirdi ən sonda yazdı bu sözü,
Bitirdi özünün məktubunu, o.
Bükdü ən birinci, bükdü kağıza,
Ürəyinə qoydu belə məktuba.
Tez çatmağı üçün onun o qıza,
Bir ağız da açdı hələ məktuba.
Ağız açdı ona elə gəldi ki,
Sevgidən olmadı, o qızdan oldu.
O sözü deyəndə elə bildi ki,
Kağızdan olmadı, ağızdan oldu.
Ürəyi töküldü o qızdan ötrü,

Bir qəmlik o qıza yazığı gəldi.
Yazdığı bir parça kağızdan ötrü,
Qələmə, kağıza yazığı gəldi.
Görüm ölsün, itsin belə ölüm də,
Buraxdı da, getdi mən yazığı tək.
Gəldi gözlərinə hələ ölüm də,
Göründü dünyanın ən yazığı tək.
Məktublar yazılıb gedirdi burdan,
Gör neçə anaya, neçə ataya.
Qurtardı özünü elə bil dardan,
Saldı məktubunu əsgər qutuya.
Döndü geri əsgər dincəlsin deyə,
Uzandı, başını qoydu balınca.
Sinədə yox idi sanki ürəyi,
Getmişdi məktubun deyən dalınca.
Fikirlər üstünə yamanca cumdu,
İstədi kitabtək onu oxuya.
Özü də bilmədən gözünü yumdu,
Fikirlər içində getdi yuxuya.
Sinəsi çırpındı yadına düşdü,
Yuxuda o qızı görmək istədi.
Alışdı bir sevgi oduna düşdü,
Əl atıb saçını hörmək istədi.
Göynədi yuxusu çəkildi göyə,
Gözünü açdı ki, bu bir yuxudur.
Sızladı, çatmadı əli heç nəyə,
Ürəyi döyündü, dili oxudu.
Həsrətdən ömür-gün toxuyan əsgər,
Çəkmədi gözünü ölümdən dedi.
Həmişə sevgidən oxuyan əsgər,

Bu dəfə nə dedi, ölümdən, dedi.
“Gəl səni öldürüm, ölüm, ay ölüm”
Mən də qoy əlimi batırım qana.
Gül, səni güldürüm, gülüm, ay gülüm,
Gülüşlə qoy gəlsin ləçəyin cana.
O göyə çəkilmə, bu yerə görün,
Sevincin açılsın, qəmini soldur.
Guya ağlayırsan, bu cürə görün,
Gözlərini sevinc yaşıyla doldur.
Bilirəm ürəyin, canın gecədir,
Bircə gündüz yoxdur canında sənin!
Sənin qanın varmı, qanın necədir?
Adam qanı varmı, qanında sənin?
Səndə adam qanı olsaydı əgər,
Qanın qaralardı, bəlkə, dünyaya ...
Deməzdim işığın qalsaydı əgər,
Ləkəsən, deyilsən kölgə dünyaya ...
Gəzir ölümünü yüz ayağıyla,
Adamlar yığılıb kölgəliyinə.
Gəlib görüşünə öz ayağıyla,
Hamısı dağılıb kölgəliyinə.
O ağac kökünü salıb dərində,
Guya sərinləyir, guya dincəlir.
Heç yerə tərpənmir qalıb yerində,
O dağın döşündə qaya dincəlir.
Gündüz günəşindir bütün gün boyu,
Gecələr ulduzdan, aydan ötrüdür.
Sonda dənizindir çayların suyu,
Bulağın da suyu çaydan ötrüdür.
Axşam bir qarışıq, dan bir qarışıq,

Dirimizdə, həm də ölümüzdədir.
Can bir qarışıqdır, qan bir qarışıq,
O da içimizdə, çölümüzdədir.
Ona can atmaqdan bezməyib də heç,
Həmişə can atıb, can ona doğru.
Damarda durmağa dözməyib də heç,
Qan olub axanda qan ona doğru.
Yadından çıxıbmı, qoyub gedibsən?
Ürəyin məndədir, gəl onu apar.
Çölündən, içindən oyub gedibsən,
Gəl gör nə gündədir, gəl onu apar!
Götürəndə onu elə götür ki,
Sürüşüb sinəmdən yerə düşməsin.
Gətirəndə onu elə gətir ki,
Sözünün dalına ağzın bişməsin.
Ağzını yandırsan elə ilk sözdə,
Sözün qalmayacaq deməyə bir də.
Içdəkitək göstər özünü üzdə,
Dayan necəsənsə, durduğun yerdə.
Hər yerdə yerini bilən adamın,
Hər yerdə özünün yeri olacaq.
Yerində danışan, gülən adamın,
Deməyə sözünün yeri olacaq.
Elin dar günüdə haraya getsə,
Yanmağa közünün yeri olacaq.
Gözəl qarşılanıb haraya getsə,
Getməyə üzünün yeri olacaq.
Könlü istədiyi sözü qoşacaq,
Çiçək də açacaq bir çöl boyu, o.
Qəlbi çağlayacaq, özü coşacaq,

Dalğalı olacaq bir göl boyu, o.
Elə götürəcək, ayırmayacaq,
Nəyi var hər yana paylaşdıracaq.
Yaxın gətirəcək, ayırmayacaq,
Dərdini sevinclə taylaşdıracaq.
Salamat durumda, sağ görünüşdə,
Çıxıb buluduna göylənən yağış.
Dumduru durulub ağ görünüşdə,
Yağıb torpağına əylənən yağış.
Biri qızılquşdur, biri durnadır,
Bölək özümüzə gəl səsi ayrı.
Biri telli sazdır, biri durnadır,
Yağış səsi ayrı, sel səsi ayrı.
Özün üçündürsə, əgər öz səsin,
Qocalıb sözünün qarı səsinə.
Kəsin düz yarıdan, səsimi kəsin,
Gəlim qonaq olum yarı səsinə.
Necə çıxır çıxsın, bir fərq eyləmir,
Xoş gəlir hər şeyin səsi özünə.
Oxu deməsinlər zildən söyləmir,
Səsim, yaraşdırma pəsi özünə.
Allah birdir, birsiz oxumamışam,
Mənim ki zilim zil, pəsim pəs olub.
Heç vaxt yerli-yersiz oxumamışam,
Oxuyanda da ki səsim səs olub.
Göyəcək sevinci dərdinə yatıb,
Yiyə dura-dura ölmədi əsgər.
Düşündü sevinci dərdinə qatıb,
Ayrı cür düşünə bilmədi əsgər.
Dərdini buraxıb özünə yaxın,

Azacıq ayrıldı xəyalından da.
Əlinə, üzünə, gözünə yaxın,
Bir anlıq sıyrıldı xəyalından da.
Sıyrıla bilməzdi başqası olsa,
Yaxşı ki o hələ sıyrıla bildi.
Ayrıla bilməzdi başqası olsa,
Dərdinin üstündən ayrıla bildi.
Tutmalıydı elin adını uca,
Axı döyüşürdü, o əsgər idi.
Özü uşaq idi, dərdləri qoca,
Halı dəyişirdi, o əsgər idi.
Özünə gör nəyi? Dərdi dərd etdi,
Az qaldı ki, ağlı başından gedə.
Düşünə-düşünə yuxuya getdi,
Gözlərini yumdu bu fikirlə də.

Şamil

Bu gün Şamilgildə susmuşdu hamı,
Nitqi qurumuşdu qohum-qardaşın.
Səsini içinə qısmışdı hamı,
Çayı yaranmışdı gözlərdə yaşın.
Yer yoxdur bu dərdə, nə çağlamağa,
Yer olsa, durmaz da, hey axardılar.
Birdən yuxarıdan bu ağlamağa,
Yaxşı baxmazdılar, pis baxardılar.
Qaşlıq qalmamışdı daha qaşda da,
Səssiz ağlamaqdan bezmişdi gözlər.
Gizlinə düşəndə axtarmışdı da,

Arada Şamili gəzmişdi qızlar.
Dosdoğma ağızdan çıxan səs qərib,
Bundan sonra bəxti yardır Şamilə.
Qızlar arasında sevgi göstərib,
Könül verəni də vardır Şamilə.
Yanırdı ürəyi közdən yayınıb,
Ona gül dərirdi, çiçək dərən qız.
Düşəndə gizlinə gözdən yayınıb,
Onu izləyirdi ürək verən qız.
Sinəsində gizli söz gəzdirirdi,
Söz açа bilmirdi görərlər deyə.
Düşəndə hər yana göz gəzdirirdi,
Göz açа bilmirdi görərlər deyə.
Ağlına gətirmək istəmirdi də,
Necə yaşayacaq Şamildən uzaq?
Bu dərdi götürmək istəmirdi də,
Çünki daşıyacaq Şamildən uzaq.
Çıxıb olduqları uca yurda da,
Baxırdı Şamilin bacılarına.
Gizli ürəyində acıyırdı da,
Göynərtilərinə, acılarına.
Deyəsən, Şamilin bacıları da,
Azacıq da olsa, sanırdı bunu.
Bir an silinirdi acıları da,
Özlərinə yaxın sanırdı onu.
Özləri bilmədən hər gün bir az da,
Yaxınlaşırdılar bu yaxınlığa.
Heç nə gəzmirdilər ağda, nə bozda,
Düşüb üzürdülər bu axınlığa.

Gülüş çəkilmişdi dodaqdan, üzdən,
Dünən gülən gözlər bu gün yorğundur.
Yaman qaralmışdı tək bircə sözdən,
Danışa bilmirdi dillər durğundur.
Götürüb sazını çalsınmı aşıq,
Çalsın nə oxusun, nə desin axı?!
Savaşa gedirdi dünənki uşaq,
Bu bir həqiqətdir, deyil ha yuxu.
Sazını "Cəngi"yə kökləyib, bəlkə,.
"Misri", "Qəhrəmanı" çalsın ya aşıq.
Zalım ayrılığı təkləyib, bəlkə,.
Sevincin könlünü alsın ya aşıq.
Dağda öz qoynunu otaran çoban,
Tütəyini nə cür səsləndirsin bəs ?
Qoyunu tütəklə qaytaran çoban,
Səsləndirsə, nə cür gələcək bu səs!
Yatsa gələcəkmi gözünə yuxu,
Dərd çəkən dərdini necə çəkəcək?
Görən, bitəcəkmi səpdiyi toxum,
Əkinçi yerini necə əkəcək?
Əvvəl işləyə də, sonra dişləyə,
Torpağı bələyə tərinə gərək.
Gecəsini gündüz edib işləyə,
Bir adam onunun yerinə gərək.
Çölündən başqaydı, içindən başqa,
Dünyanın bu şəkər, qənd adamları!
Əkindən savayı, biçindən başqa,.
Nə iş tutasıydı kənd adamları!
Burda yiyəsiydi hər kəs sözünün,
Heç vaxt bilməzdilər yekəlik nədir!

Səhər açıldımı hər kəs özünün,
İşinin, gücünün dalınca idi.
Baxmazdı gördüyü işə aşağı,
Andını gördüyü işə içərdi.
İşiylə olardı başı aşağı,
Ot biçən otunu gedib biçərdi!
Sağıb inəyini inək sağanda,
Sağdığı südünə qatıq çalardı.
Yorulmaq bilmədən belə baxanda,
Hərə öz işinə meyil salardı.
Qulaqlar gedərdi su gedişində,
Çaylar da axardı öz axarında.
Çətinlik çəkməzdi heç kəs işindən,
Gedərdi hər bir iş düz axarında.
Ayrılıq, seçkilik yox idi burda,
Öz işində idi hamı, bir sözlə.
Tanrı da seçmirdi, qoymurdu darda,
Baxırdı hamıya ancaq bir gözlə ...
İşindən, gücündən heç də doymayıb,
Hamı gedişində, gəlişindəydi.
Şamil də heç nəyə məhəl qoymayıb,
O da öz gücündə, öz işindəydi.
Ürəyi acıyla dolsa da belə,
Axmadı çağırış vərəqəsinə.
Gözünün ucuyla olsa da belə.
Baxmadı çağırış vərəqəsinə.
Olmadı bir dənə könül yıxmağı,
Elə fərqi yoxdur ağladı, güldü.
Soyuqqanlı olub belə baxmağı,
Onun özünə də qəribə gəldi,

Elə bil sözünü yelə deyirdi,
Bacım da, o qız da qorxur ölərəm.
Gülüb ürəyində belə deyirdi,
Müharibədir də, gedib gələrəm.
Kağızı qol çəkib özü almışdı,
Gedirdi, arada azalırdı vaxt.
Getməyə sanılı günlər qalmışdı,
Keçirdi, tarixə yazılırdı vaxt.
Qoy onu görməsin, gecə gedəcək,
Bu dağdan, qayadan, bu daşdan Şamil.
Haradan keçəcək, necə gedəcək,
İşini görürdü bu başdan Şamil.
Nə desən olardı, olmayan yerdən,
Bundan sonra onun nə çağlamağı.
Ağlaya bilərdi anası birdən,
Görmək istəmirdi bu ağlamağı.
Vermək istəmirdi onu heç kimə,
Dağ adlı arxası, dayağı onu.
İstəsə sevincə, istəsə qəmə,
Apara bilərdi ayağı onu.
Baxmaq istəmirdi deyən sözünə,
Könlü ayrılmırdı yurddan Şamilin.
Yaxın buraxmırdı dərdi özünə,
Zəhləsi gedirdi dərddən Şamilin.
Hərdənbir olmuşdu, darıxmışdı o,
Yazın çiçəyinə, qışın qarına.
Yarandığı gündən buraxmışdı o,
Hər şeyi Tanrının ixtiyarına.
Havayı deməyib sözü heç nəyə,
Sözdə də demişdi, gələn yaxşıdır.

Yaxşı deməmişdi özü heç nəyə,
Demişdi ki, Allah bilən yaxşıdır.
Günlər qınanırdı, o qınanmırdı,
Heç vaxt keçirmirdi günü havayı.
Gedirdi, heç ayrı yol tanımırdı,.
Allahın qoyduğu yoldan savayı.
Baş-başa verib öz yaxşı, pisiylə,
Ölçüb-biçilirdi tay-tuşlarından.
Qeyri-adi olan düşüncəsiylə,
Şamil seçilirdi tay-tuşlarından.
Gün ha keçirmirdi o elə-belə,
Nə var sevgisinə bol göstərirdi.
Özündən beş-on yaş böyüyə hələ,
Elə olurdu ki, yol göstərirdi.
Olur ağılları öz başlarında,
Ağ olmayırdılar heç vaxt üzünə.
Elə-belə görüb tay-tuşları da,
Ağsaqqal bilərdi onu özünə.
Əyninə ağ-boz da, qara da geyir,
Geyindiyi nə var, öz yerindəydi.
Kimdən, nədən deyir, nə üçün deyir,
Həmişə dediyi söz yerindəydi.
Bulaqtək durulur, çaytək daşırdı,
Bir azdan Günəş də od saçasıydı.
Bir göz qırpımında dağlar aşırdı,
El sözüylə desək, od parçasıydı.
Axıb ürəyinə nə dolmalıydı,
Axanda axırdı,
Şamil su idi.
Axı bundan ayrı nə olmalıydı?

Şamil Şamil idi,
Şamil bu idi.
Geyirdi əyninə, elə gəlmirdi,
Yazda çiçək donu, qışda qar donu.
Qıraqdan baxanlar görə bilmirdi,
Bircə yol da olsun fikirli onu.
Ömrün bu günündə şax dayanırdı,
Kişi çətinliyə əyilməz deyə.
Ayrılıq önündə şax dayanırdı,
Getmirdi elə bil müharibəyə.
Ölümün olduğu bu var ayaqda,
Ölü də, diri də o olmalıdır.
Gendə qalmamışdı bu dar ayaqda,
Gedənin biri də o olmalıdır.
Ana-nənələrin dualarına,
Yanaşa bilmirdi qorxaqlıq ona.
Baxırdı keçmişə-babalarına,
Heç uyğun gəlmirdi qorxaqlıq ona.
Deyirlər, o gün bir yağış yağmışdı,
Tutmuşdu hər yanı sel bölmə-bölmə.
Doğanda anası belə doğmuşdu,
Qorxaq da deyildi anadan gəlmə.
Canına, qanına öyünsün gərək,
Öyünməli idi, öyünməyirdi.
Qurd ürəyi idi ondakı ürək,
Sinədə boş yerə döyünməyirdi.
Gəldi də, o dağa bir çən də getdi,
Elə bil hər şeyi bilib gedirdi.
Gözünü yumurdun, bir gün də getdi,
Ömür də yel kimi gəlib keçirdi.

Bir gün yaşamayıb yurddan qıraqda,
Dayanıb durmuşdu soyuna bağlı.
Gəzməzdi dərdini dərddən qıraqda,
Sevinci də elin toyuna bağlı.
Bir yerdə idilər, neçə il idi,
Çıxarıb çöllərə heç atmazdı da.
Çox yaxşı bilirdi, sevinc, dərd nədir,
Uzatsa, heç nəyə əl çatmazdı da.
Sevinci yaşaya, nə dərdi ölə,
Sevinciylə dərdi birdir içində.
Çıxara bilməzdi dərdini çölə,
Dolaşıb qalmışdı dərdi içində.
Sevirdi, o dərdə sevgisi sonsuz,
Dərd də daşıyırdı o dərd onunla.
Yaşaya bilməzdi bir gün də onsuz,
Hər gün yaşayırdı, o dərd onunla.
Soy onun dərdiydi, kök onun dərdi,
Enmişdi göylərdən yerlərə bu dərd.
Bu dərd deyildi ki, tək onun dərdi,
Bir soyun, bir kökün dərdiydi bu dərd.
Çiçəklər açdığı, solduğu kimi,
Dərdlər də açılır, solur dünyada.
Ürəklər cürbəcür olduğu kimi,
Dərdlər də cürbəcür olur dünyada.
Dərd var can çəkirsən onu çəkməyə,
Dərd var bir günlükdür, dərd var ömürlük.
Dərd var yer gəzirsən, onu əkməyə,
Yeri nə daşlıqdır, nə də dəmirlik.
Nə bar verən olar, nə də gətirən,
Üzündən-gözündən öp, lalə bitməz.

İnsan ürəyidir onu bitirən,
Ən münbit torpaqda səp, lalə bitməz.
Ürəyində nə var, bilib də onun,
Özünə köçməyən bir günü olmur.
Gözü baxa-baxa gəlib də onun,
Dərdindən keçməyən bir günü olmur.
Dəysə də, düz gəlib ürəyə dəyən,
Gəlməyə bir ayaq yeri saxlayır.
Özü ölməməyə görədir deyən,
Adamı öldürmür, diri saxlayır.
Qul olaram dərdə ürəkdən ayrı,
Nə lazım, hər dərdi sancaq ürəyə.
Göyərməz heç yerdə ürəkdən ayrı,
Var nə dərd səpilər ancaq ürəyə.
Az qalır ürəyi dərdi göynədə,
Adam var ürəyi çaylaq daşıdır.
Adam var yaşamır sevinciylə də,
Adam da var onu dərdi yaşadır!
Dərd dərddən doğulur, dərd dərddən gəlir,
Neynəsin, gəlməyə ayaq yeri yox.
Özü də bilir ki, indi nə bilir,
Onda bildiyinin mində biri yox.
Göylərə sarıdır səmti, axarı,
Gəlib ürəyinə dolan dərdinin.
Ayaqdan aşağı, başdan yuxarı,
Özü ortasında qalan dərdinin.
Bilirdi, yenidir, təzədir-tərdir,
Beş gün olar-olmaz dərdi yaşayır.
Ürəyi çəksə də, kədəri, dərdi,.
Bütün ağrıları başı daşıyır.

Gözdə durmayanda, gözdən gedəndə,
Göz yox, gözdən olan yaşın ağrısın.
Adam da adama qarğış edəndə,
Ən birinci deyir:"Başın ağrısın".
Nə sevinci varsa, ona əkilir,
Şamil yaranmışdı özü yurd üçün.
Darıxırdı, görüm necə çəkilir,
Sanki darıxırdı indi dərd üçün.
İstəyirsən onu arxala, önlə,
Çətin ki ayrıla, çətin dərdlərdən.
Dava dərdi idi dərdi düşmənlə,
Bu dərd seçilirdi bütün dərdlərdən.
Dərd də deyib-gülür, haqq gülən kimi,
Çəkilib haqq olur, düşdümü ələ.
Əkilir o anda dərd gələn kimi,
Sevinci əkilən görmədim hələ.
Dərd alıb, kiməsə dərd verməyibsən,
Alsan da, o qoyma dönsün, dağ olsun.
Ömründə bircə yol dərd görməyibsən,
Ay Şamil, özün sağ, dərdin sağ olsun.
Buluda dönərdi dolarkən Şamil,
Yağışı gözündən olardı onun.
Elə bu fikirdə olarkən Şamil,
"Çəkməliyəm, - dedi, - dərdini sonun".
Muğayat olmalı artıq gözümdən,
Elin göz yaşını qurutmalıyam.
Qıraq tutmalıyam dərdi özümdən,
Olan nə dərdim var, unutmalıyam.
Sevib torpağımı, sevib yurdumu,
Bu el-oba üçün çalışmalıyam.

Özümünkü edib mən öz dərdimi,
Özüm öz dərdimə alışmalıyam.
Əsməsin üzünə nə acı yellər,
Dərd çəkən nə bir qız, gəlin olmasın.
Sevincə boylansın bu doğma ellər,
Kədər mənim olsun, elin olmasın.
Bəsdir, çox qul olduq ərəbə, farsa,
Baxıram, göy qalxır, yer mənə enir.
Bu dağda, dərədə nə varsa, varsa,
Nə varsa, bir qalxıb bir mənə enir.
Yayına alışır, qışına sönür,
Baxma bu dünyanın qocalığına.
Yağış buludundur, buluda dönür,
Sular yüksələndə ucalığına.
Dünya hər adamın gözü boydadır,
Dünyanı saxlayır göz yüksəkliyi.
Özünə görədir, özü boydadır,
Dünyada hər şeyin öz yüksəkliyi.
Səsini bu dağa durma yay, Şamil,
Qoy bu dağ, bu dərə səsinlə dolsun.
Dünyada sənin də, Şamil, ay Şamil,
Öz doğma el-oban yüksəyin olsun.
Yüz səhrada, gördün yüz bağda gördün,
De, hansını gördün bir güldən yüksək?
Yüz zirvədə gördün, yüz dağda gördün,
Heç hansı olmadı bu eldən yüksək.
Gətir də yan-yana illərə düzül,
Günündən, ayından, ilindən yaşa.
Nə qədər yaşasan, əlli il, yüz il,
Elindən qaynaqlan, elindən yaşa.

Mən kiməm, götürüm, verim hamıya,
Ayrıca bu daşdır, bu da ki dəmir.
Qohuma, qonşuya-görüm hamıya,
Allah qismət etsin salamat ömür.
Biri qışı sevir, biri də yazı,
Çölündə yay gəzir, güz də içində.
Aşıq ellər gəzir əlində sazı,
Şair eldən yazır, söz də içində.
Hardansa eşidib, bəlkə, qulağın,
İlin il əli var, ayın ay əli.
Çaya zorla çatır əli bulağın,
Dənizi saxlayır çayın çay əli.
Kefdir, vallah, kefdir dəniz, kef dəniz,
Heç vaxt çay suyunun hoyundan keçmir.
Bulaq keçə bilir, dəniz, of, dəniz,
Ölürsə, bir içim suyundan keçmir.
Ayağı görünmür, qolu görünmür,
Boş halında deyil, hey dolundadır.
Dənizin heç hara yolu görünmür,
Bulaq yolundadır, çay yolundadır.
Bir də açılacaq, o gül solsa da,
Yaz kimi yox, bulaq indi yay kimi.
Sinəmdə ürəyim dəniz olsa da,
Mənim də yolum var bulaq, çay kimi.
Mən istəməsəm də, istəyir ürək,
Bu gündən dolanım, o aydan keçim.
Hər birinin canı sudandır, gərək,
Gərək o bulaqdan keçəm, o çaydan içəm.
Onunla yaşayar, onunla ölər,
Tanıdar adamı üstündəki ad.

İstəsə, düşmənə çevrilə bilər,
Bir an da yüz doğmam, bircə nəfər yad.
Oxusaq oxuyaq öz nəğməmizi,
Demirəm, yanmayaq, odlardan qaçaq.
Könlümüzcə sevib öz doğmamızı,
Ancaq gəlin qaçaq, yadlardan qaçaq.
Yox, yox, heç qaçmayaq, hara qaçırıq,
Yox, var gücümüzə onları qovaq.
Biz niyə onlara qucaq açırıq,
Bizə pis baxanın gözünü ovaq.
Qovaq, qovanda da elə qovaq ki,
Bir gücü qalmasın geri dönməyə.
Ovaq, ovanda da elə ovaq ki,
Olmasın bir sözü bir də dinməyə.
Yurdun o başı nə, bu başındakı,
Oğullar içində acıq yeyirdi.
Yaddaşında idi, bu yaşındakı,
Şamilin yaddaşı çox şey deyirdi.
Bu ürək mənimdir, bu göz mənimdir,
Əlində qalmışıq bu başsızların.
Birinci özüməm, bu söz mənimdir,
Yaddaşı qurusun yaddaşsızların.
Bir azca duruxdu Şamil bu yerdə,
Özünə bir sual vermək istədi.
Özündən özünə çevrildi bir də,
Özündə özünü görmək istədi.
Axı ona susmuş dəcəllər, kürlər,
Həmişə gözləri gülmüşdür onun.
Özü də bilmədən bu cür fikirlər,
Ağlına haradan gəlmişdir onun.

Özünə baxardı Şamil doyunca,
Çünki mat qalmışdı, özü-özünə.
Gözünə baxardı Şamil doyunca,
Əgər baxa bilsə, gözü gözünə.
Baxardı özünə, özündə nə var,
Baxardı gözünə, gözündə nə var.
Baxardı, görürmü o gözü kimsə,
Baxardı, duyurmu o özü kimsə...
Yerdəki ağac da, göydəki quş da,
Gedən getdi, nə var gələn də gedər.
İyirmi beş yaşlı Şamil bu yaşda,
Düşünürdü səksən yaşlılar qədər.
Başını buraxıb, ey, düşünürdü,
İpini atmışdı düşüncələrin.
Şamil düşünürdü, hey düşünürdü,
İçinə batmışdı düşüncələrin.
"Ürəyim, oxuma ağrıdan ona,
Ey tarzan, əlinə götür o tarı.
İgidlik verəcək, doğrudan, ona,
Əyninə geydiyi əsgər paltarı.
Çal, tarzan, oxuma, sən çalmaqda ol,
Qoy özü oxusun, bax səsi baldı".
Şamil gördü ona açılıb bir qol,
O sözü də deyən dostu Calaldı.
Calal dedi:" Qardaş, görmə sən darı,
Yurdundan şən çıx da, yurduna şən gəl."
Şamil tez çevrilib Calala sarı,
" Calal, xoş gəlibsən, həmişə sən gəl".
Calal aşdı, daşdı, görmədi Şamil,
Ötəri üzünə baxdı Calalın.

Dostlar qucaqlaşdı, görmədi Şamil,
Gözündən göz yaşı axdı Calalın.
Göydə dalaşdılar yerin yerinə,
Xəyaldan xəyala qonub qaldılar.
Heç nə demədilər biri-birinə,
  Bir an yerlərində donub qaldılar.
Qısaca başladı belə sözünə,
"Necəsən?", - birinci Şamil dilləndi.
Gəldi handan-hana Calal özünə,
"Yaxşıyam, bir sənsən fikrimdə indi".
"Calal, mən Şamiləm, haqdan bilirəm,
Sən dost anlayansan, sən dərd qanansan.
İndi bilmirəm ki, çoxdan bilirəm,
Canı yanımcılsan, canı yanansan".
Şamilin bu sözü onu kövrəltdi,
Bir az duyğulandı bu sözdən Calal.
Nə kövrəltmək, hətta özündən etdi,
Bir damcı yaş tökdü hər gözdən Calal.
Elə bil ki, hər yan döndü bu yaşa,
Hər yerdə yarandı su kövrəkliyi.
Sanki hazırladı yeni savaşa,
Şamili Calalın bu kövrəkliyi.
Elinin həm ürək, həm dirəkliyi,
Həmişə hər yerdən hoyuna çatdı.
Götürüb Calaldan bu kövrəkliyi,
 Şamil üstəlik öz gücünə qatdı.
Yatmayan adama gündüz, nə gecə,
Yatan da yatacaq tezi, ya geci.
Şamildə qovuşdu bu güc o gücə,
Sərtlik gücü ilə, kövrəklik gücü.

Onsuz da, olmayıb gözə rahatlıq,
Axıblar hər yana axışlarıyla.
Azacıq verdilər sözə rahatlıq,
Bir az danışdılar baxışlarıyla.
Bir cümlə üstündə söz-sözə durub,
Onlara gəlmədi, söz yana axdı.
Üz-üzə dayanıb, göz-gözə durub,
Dinməzcə o buna, bu ona baxdı.
Onlar bu sükuta de, neyləsinlər,
Çökdü aralığa, sükut söz oldu.
Artıq nə desinlər, nə söyləsinlər?
Sakit, bu söz daha sakit söz oldu.
Altında ayağı, üstə başı var,
Sükutu başqadır sükutsuzluğun.
Onun da öz ömrü, yaşayışı var,
Ömrü qarışqadır sükutsuzluğun.
Dostlar, deyən, sükut dərsinə gəlib,
Sükut, bir də sükut, bir də sükut var.
İndi, deyən, hər şey tərsinə gəlib,
Göydə sükutsuzluq, yerdə sükut var.
Sıxılıb sözünə, çatmayıb dili,
Qalıb məsəlində, misalında bu.
Görünür, bax bu gün görünür, bəli,
Şamilin, Calalın timsalında bu.
Özünü ayırıb sükut içindən, Bu
dəfə söhbətə Calal başladı.
"Ay Şamil, halıyam könül köçündən,
O yazda yazladır, qışda qışladır.
Sən indi gedirsən, müharibədir,
Düşmən amansızdır, özünü qoru.

Bilmirik, gedən gün ömürdən gedir,
Ömür zamansızdır, özünü qoru.
İgidik, igidlik canında olsun,
Hər gün igidliklə qur həyatını.
Çalış həmişəlik yanında olsun,
Özündən yan etmə avtomatını.
Qohumuq, ondan da dostluğumuz çox,
Biz həm əmioğlu, həm də qardaşıq.
Bizim ayrı olan bir günümüz yox,
Sevincdə sirdaşıq, qəmdə sirdaşıq".
Bu an üz tutaraq Şamil Calala,
"Xüsusi yerin var qəlbimdə, Calal.
Qurmuşam könlümdə dağlardan qala,
Qürbət nə olsa da, Vətən baldır, bal.
Harada olsam da, hara getsəm də,
Mənimlə olacaq bu qala yenə.
Bülbüləm bu yurda, harda ötsəm də,
Bilirəm, dönəcəm bu bala yenə
Səndən nəyi danım, niyə gizləyim?
Mən öz içimdə iç, çölümdə çöləm.
Sənə ki bəllidir əyilməzliyim,
Yaxşı tanıyırsan, mən ki Şamiləm.
Susaram qürbətə, dinərəm yurda,
Çox uzundur bu yol, ay Əmi oğlu.
Bir gün generaltək dönərəm yurda,
Məndən arxayın ol, ay Əmi oğlu!
Yol ver bu ürəkdən bu gözə qədər"
Deyəndə alnına azca tər gəldi.
Bu söhbətə qədər, bu sözə qədər,
Kövrəlməyən Şamil bir az kövrəldi.

Birdən öz-özünə necə oldusa,
"Deyiləm ki mən öz başıma", – dedi.
İçdən, çöldən hansı gücə oldusa,
Dedi, özündən də bir qoşma dedi.
"O gedir, yerində salamat qalsın,
Bu dağı, dərəsi, düzü Şamilin.
Bu yurd, bu el-oba, bu həyat qalsın,
Yaşayacaq yolu, izi Şamilin.
Dirənişi yurda dirəyindədir,
Şələsi həmişə kürəyindədir.
Yanğın sinəsində, ürəyindədir,
Sönməzdir ocağı, közü Şamilin.
Ocaq sözünün o, köz sözünün o,
Sözlər sırasında söz sözünün o.
Üstündə durubdur öz sözünün o,
Birdir, bir olacaq sözü Şamilin.
Anında sökülür, dan danında da,
Anında an olur an anında da.
Qardaş yanında da, dost yanında da,
Ağdır, ağappaqdır üzü Şamilin.
Külü kül-kül olub közdən çıxacaq,
Dili dil-dil olub sözdən çıxacaq.
Gözü eli üçün gözdən çıxacaq,
İşığa dönəcək gözü Şamilin.
Getmir ki, davaya bir dava üçün,
Bir ev-eşik üçün, bir yuva üçün,
Qoçtək döyüşəcək el-oba üçün,
Qurbana dönəcək özü Şamilin.
Cütünü, təkini kəsməyə gedir,
Ağırlıq yükünü kəsməyə gedir.

Faşizmin kökünü kəsməyə gedir,
Məqsədi də budur, düzü, Şamilin".
Sanki meydan açdı bu yerə, göyə,
"Qüdrətdən səngərli, qalalı" Şamil.
Bu cür yanaşmaqla müharibəyə,
Heyrətə gətirdi Calalı Şamil.
Su kimi içildi hər söz dalbadal,
Əmioğulları xeyli danışdı.
Böyüdü, kiçildi hər söz dalbadal,
Artdı nağılları, xeyli danışdı.
Ərən ikisi də, ər ikisi də,
Şairləşmişdir, həm aşıqlaşmışdır.
Danışa-danışa hər ikisi də,
Özləri bilmədən uşaqlaşmışdır.
Məhəl də qoymadan bu hallarına,
Yanıb canların da od tutmuşdular.
Beş vura, baş vura bu hallarına,
Dostlar özlərini unutmuşdular.
Bilməzdi əyilmək, bükülmək nədir,
Həmişə düz idi qaməti, boyu.
Kökündən geriyə çəkilmək nədir,
Soyuna bağlıydı Şəmsoylu soyu.
Anası xaqan da, bəy də doğmuşdur,
Diridən diridir bu Şəmsoylular.
Yerdən törəmişdir, göy də doğmuşdur,
Göytürkdən bəridir bu Şəmsoylular.
Elə seçiblər ki, yolu babalar,
Ha get, olmayacaq bu yolun sonu.
Belə danışmışdı ulu babalar,
Bilirdi Şamil də, Calal da bunu.

Axdı yanlarından, keçdi sular da,
Yenə onlar kimi durulmadılar.
Çox an kəsiyində danışdılar da,
Heç də bir-birindən yorulmadılar.
Bilmədilər, gəlib gün necə keçdi,
Saata baxdılar, saat yeddidir.
Anı xoş keçməyən ömür-gün heçdir,
Keçmədisə, həmin ömür-gün nədir?!
Sanki yaşadılar bir toyu dostlar,
Ömrə günəş doğdu, dan yaşadılar.
Bir yerdə oldular günboyu dostlar,
Yaşadılar, gözəl an yaşadılar.
Baş-başa qoyanda yanır köz-közə,
Düşməyir bir dənə külünə zədə.
Göz-gözə baxanda, durub üz-üzə,
O an yaddan çıxdı müharibə də.
Daha yaxşı olsun olduğundan da,
Gələn hər axşamı, səhərləri də.
Gün keçib, gün axşam olduğundan da,
Olmamışdı elə xəbərləri də.
Qolsuz-qanadsızın nə işi göydə,
Heç uça da bilməz o bu halında.
Baxıb görmədilər Günəşi göydə,
Çoxdan gizlənmişdi dağın dalında.
Qoyunlar-quzular bu teyləteydə,
Mələşirdilər öz havalarına.
Çoxdan çəkilmişdi quşlar da göydən,
Uçub girmişdilər yuvalarına.
Günün bu halında Calal dilləndi,

"Di sağ ol, mən gedim, gün axşam oldu.
Gedim, dədəm məni gözləyir indi."
Yenə də Calalın gözləri doldu.
Baxıb bir-birinə duruldular da,
Duruldular sinə-sinəyə dəyib.
Bu ona, o buna sarıldılar da,
Sonra ayrıldılar "Hələlik! ", – deyib.
Yola salmışdı ki Şamil Calalı,
Şamili səslədi kənd cavanları.
Qarakişi, Oruc, Qurban misalı,
Hamısı qol açdı Şamilə sarı.
Qəmət güldü, Ziyad o yandan güldü,
Gəldi Həmid, Söyün əl-ələ verib.
Əmiraslan, Nəsib arxadan gəldi,
Şamil qürurlandı onları görüb.
Oldular həm çöl bir, həm də ki iç bir,
Hər biri eşidib bir anda gəldi.
Gəldilər cavanlar iki bir, üç bir,
Sonra Qədim gəldi, Güman da gəldi.
Asılı olmadı özlərindən heç,
Anidən elə bir məclis quruldu.
Gəl indi onları bir-birindən seç,
Damaqlar çağ oldu, keflər duruldu.
İzləyici oldu onlara bu an,
Qoca, qarı gəldi, uşaq da gəldi.
Bir yanda səsləndi zurna, balaban,
Bir azdan məclisə aşıq da gəldi.
Qoşuldu göy üzü durna səsinə,
Göylər azad oldu sükutdan daha.
Qarışdı saz səsi, zurna səsinə,

Cavanlar o ki var, oynadılar ha.
Yazıq o insandır, deyib gülməyə,
Demək də, gülmək də insan varıdır.
Başları qarışdı deyib gülməyə,
Bir də gördülər ki, gecə yarıdır.
Dözməyib yatmağa gedibdir qızlar,
Gənclər yatırıblar bu boyda köyü.
Yerini dəyişib bir-bir ulduzlar,
Gəlib ortalayıb ay da ki göyü.
Sevincdəndir yalnız qaynamağımız,
Qaldıraq, qoy dursun o döşdə bu saz.
Bizə bəs eyləyər oynamağımız,
İndi də aşığı oxudaq bir az.
" Koroğludan oxu, ay aşıq, oxu",
Dilləndi bayaqdan dinməyən Güman.
Aşıq da oxudu, onun da axı,
Əsgərlikdə idi qardaşı Duman.
"Sən özün olubsan Korluğa işıq,
Acıqlan acığa, səngi, Koroğlu!
Coşdu, bir oxumaq oxudu aşıq,
Gəncləri titrətdi" Cəngi Koroğlu".
Verdi, ürək-candan səs-səsə verdi,
Bizim el-obaya sən bir yaraşıq.
Hərəsi bir yandan səs-səsə verdi,
Oxu, qadan alım,oxu, ay aşıq.
Ballandı səsinin baltək dadı da,
Oxudu, oxudu, elə oxudu.
Elə oxudu ki, yorulmadı da,
Elə bil səsini saza toxudu.
Deyəsən, səsində Qırat çapırdı,

Səsinin astası, nə ləngi gəldi.
Çapır, dəliləri bir-bir tapırdı,
Bu cəngi üstündən bir cəngi gəldi.
Büdrəmək bilmirdi bir söz dilində,
Yanmışdı sözünə Koroğlunun o.
Sazı qılınc kimi tutub əlində,
Dönmüşdü özünə Koroğlunun o.
Özünü qoymuşdu dəli yerinə,
Kotan çeynəyirdi, zəncir yeyirdi.
Sanki üz tutub da dəlilərinə,
Koroğlu deyirdi, gör nə deyirdi.
"Uca-uca dağ başında,
Yaz bir yana, qış bir yana.
Titrəşir ağzım içində,
Dil bir yana, diş bir yana.
Nə edək, oğullar edək,
Faşizmin bağrını didək.
Partiyaya kömək edək,
Dörd bir yana, beş bir yana."
Dostlarına baxıb bir öyünürdü,
Gendən ona baxan o gözə qədər.
Ürəyi dostlarla bir döyünürdü,
Dostlarla bir idi bu sözə qədər.
Elə bil qar yağdı, dağı qar aldı,
Aşıq atdı bu cür ortaya sözü.
Yerindən dik durdu, qanı qaraldı,
Xoşuna gəlmədi partiya sözü.
Aşağı əyildi bir az qəddi də,
Qanlar axıtmışdı çox bu partiya.
Ata-babasını otuz yeddidə,

Sürgün eyləmişdi bax bu partiya.
Tutub aparıblar bilib-bilməzə,
Tamam da olmayıb hələ dörd ili.
Elin dili ilə gedər-gəlməzə,
Sürgün edilmişdir Məhəmmədəli.
Deyəndə də dedi zorla sözünü,
Aşıq oxumadı, saz çalınmadı.
Dostların yanında zorla özünü,
Tox tutmaq istədi, bu alınmadı.
Düşündülər, görən ona nə oldu,
Heç nə almadılar dostları ondan.
Birdən-birə bir az gözü də doldu,
Ağıllar kəsmədi heç nə bu sondan.
İbrahim əlini əlinə vurdu,
Ordan Qədir, Həmid yenə çoşdular.
Burdan Həsən, Barat ayağa durdu,
Dostlar Şamil ilə sağollaşdılar.
Həmişəki kimi bir tonda durub,
Səsiylə səs saldı arana, dağa.
Ağayana durub, ən sonda durub,
Duasını dedi Qibləli ağa.

Düşüncələr

Çatırdı, bu idi çatacağı da,
Çox uzaqdan gələn ün kimi ona.
Hər hansı addımı atacağı da,
Artıq aydın idi gün kimi ona.
Haraya gedəcək, necə gedəcək,
Gedəcək yerinə ayna batmışdı.
Gündüz gözləyəcək, gecə gedəcək,
Deməli, sözünü hələ udmuşdu.
Şamil tələsmirdi, ölümdür sonu,
Yad torpağı üstdə igid olmağa.
Qayğılı görünən dostlarsa onu,
Hazırlaşırdılar yola salmağa.
Baxırdı, gözlərdə dərd sürünürdü,
Barı açılardı, bu çən ötsəydi.
Baxırdı, bu yolda qan görünürdü,
Onun olacaqdı, bu yol getsəydi.
Ürəyi qisasdan doğmuşdu onun.
Qorxudan deyildi bu düşüncələr.
Qəzəbi o qədər boğmuşdu onu,
Ağrıdan deyildi bu düşüncələr.
Yeri göynəyirdi, yeri qalmışdı,
Ağrısı qalmışdı çox uzaqlarda.
Bu dərd onu yaman geri salmışdı,
Özü var, dərmanı yox uzaqlarda.
Suyu tökülürdü bu yaraların,
Qaysaq bağlamışdı eləsi də var.
Qanlı yarasıdır gör haraların,

İçində yüz ağlar el səsi də var.
Hələ gəlib çatıb bir neçəsi də,
Özünün dosdoğma babalarından.
Düzüb ürəyinə hələ yatıb da,
Deyiblər, eşidib davalarından.
Heç öz aranında gözü olmadı,
Dağına, daşına çəkildi Şamil!
Yandı, sevincinə közü olmadı,
Dərdinin başına əkildi Şamil!
Çiyninin üstündə başı dik oldu,
Hər yerdə özünü o məğrur tutdu.
Yol getdi, getdiyi yolda tək oldu,
Yol getdi, yolunda bir uğur tutdu.
Hara ayaq basdı, dəydi hər yerdə,
Həmişə ayağı yol uğuruna.
Heç vaxt üz tutmadı sevincə bir də,
Ürək verdi dərdin ən ağırına.
Səsinə keçmişin ünü səs qatdı,
Bu dərddən boylandı ötən dərdinə.
Götürdü üstəlik, yeni dərd qatdı,
Bir kök, bir soy, bir yurd–Vətən dərdinə.
Durdu ayaq üstə, hazırda durdu,
Hər şeydən keçməyə yurduna görə.
Gəldi göz önünə türkün Boz qurdu,
Uladı bir xalqın dərdinə görə.
O dağın altından çənlər keçirdi,
Çatlamaq üzrəydi, vaxt az qalmışdı.
Keçirdi yel kimi günlər, keçirdi,
Artıq düşünməyə vaxt az qalmışdı.
Hələ uşaqlıqdan gördüyü işi,

Onun vərdişiydi götür-qoy etmək.
Olardımı ona, olmazdır, əşi!
Elə-belə gəlib bu yerdən ötmək.
Başının üstündə Göyü vardısa,
Ayağında Yeri itməmişdi ki.
Sevgiylə bitmişdi, nəyi vardısa,
O, burda ayrı cür bitməmişdi ki.
Hərdən öz özünə demişdi,- Şamil,
Oğulsan, bu dərdi çək bircə gündə.
Yurdundan uzağa nə ay, nə də il,
Ayrı düşməmişdi tək bircə gün də.
Heç indiyə qədər yurdundan uzaq,
Düşməsi ağlına gəlməmişdi də.
Bilmişdi hər nədir qar, boran, sazaq,
Heç nədir ayrılıq, bilməmişdi də.
Ağlaya, üstündən gülə üstəlik,
Dərdindən sıyrılmaq çətin olacaq.
Sevdiyi o qızdan hələ üstəlik,
Bilirdi, ayrılmaq çətin olacaq.
Olmasın bircə yol candan keçdiyin,
Sənə ulamasın bircə yol Boz qurd.
Havasını udub, suyun içdiyin,
O da ola vətən, o da ola yurd.
Olmaya özünü qınamadığın,
Durub öz ağrında keçəsən candan.
Gedib uzaqlarda tanımadığın,
Başqa el uğrunda keçəsən candan.
Çəkə bilməyəsən sən öz dərdini,
Olarmı dünyada bundan böyük dərd?
Çəkir dağda duman, çən öz dərdini,

Varmı bu məndəki candan böyük dərd?
Gəlir üzübəri dönüb min aha,
Keçmişdən çəkilən çəkimdən gəlir.
Gəlirmi, gəlməyir ayrı yerdən ha,
Bu dərd mənə, deyən, kökümdən gəlir.
Nə baş qaldırır o, nə də baş əyir,
Məndə o olası hökm hardadır.
Gözdən çox ucadır, göylərə dəyir,
Budağım burdadır, köküm hardadır!
İstəyim bir göydür, mən də bir quşam,
Bir vaxt bu torpaqda qara daş idim.
Kökümdən çıxalı soyuqlaşmışam,
Kökümə bükülüm, kökümə gedim.
Səhərlər çıxanda, axşam yaxanda,
O Günəş beşimdir, ikimdir mənim.
O gövdə üstündə belə baxanda,
Açan bir yarpaq da kökümdür mənim.
Yarası göynəsə, göynəyi bişsə,
Sağlamlıq istəyər xəstə həkimdən.
Ölər, bir dəfəlik aralı düşsə,
Budağım gövdəmdən, gövdəm kökümdən.
Tapım öz kökümdə, qaçım özümü,
Ayrı kökə, soya ürək qoymayım.
Açam bu dağında, açam, özümü,
Aralı düşməyə gərək qoymayım.
Bu dərə öz axar suyundan çıxıb,
Burda olub biri uralananın.
Kökündən ayrılıb, suyundan çıxıb,
Olmur sonu ondan aralananın!
Ürəyin göynəsin, nə gözün dolsun,

Ucalıb, nə varsa, burda boy boydur!
İstər ağac olsun, istər daş olsun,
Hər şeyin özünə öz soyu soydur!
Soruşun, onlara su verdi gözüm,
O bulaq, o da çay, o da ki dəniz!
Üstümüzdə adam adı var bizim,
Daş qədər olmayaq niyə axı biz.
Gözümüz dolmaya ürəyimizdən,
Necə ilki sevək, sonu sevməyək?!
Sevgimiz olmaya ürəyimizdən,
Ona bağlanmayaq, onu sevməyək.
Dilində şirin də, acı da durur,
Bülbülün gül üstdə ötən sevgisi.
Bütün sevgilərdən ucada durur,
Durur çox ucada Vətən sevgisi!
Bir gözü ağlayar, bir gözü dolar,
Açar, nə saralar, nə solar sevgi.
Uzaqdan-uzağa sevgimi olar,
Vətəndən uzaqda nə olar sevgi.
Nə eyni açılmaz, nə üzü gülməz,
Vətəndən uzaqda adam neyləyər.
İyrənərsən, heç də xoşuna gəlməz,
Bələnər sevginə, için göynəyər.
Tapmasın, buraxsın səni dərd təki,
Qoy olsun, olsa da səsim, küyüm o.
Özü də göynəyər, göynəməzmi ki,
Səni də göynədər göyüm-göyüm o.
Elə boşalarsan dolmayan yerdən,
Dönüb gurultuna, iniltinə də.
Elə göynəyərsən olmayan yerdən,

Özün mat qalarsan göynərtinə də.
Yadına salarsan, yadın çəkilməz,
Çoxalar, daha da göynəyin, adam.
Heç yerdə öz doğru adın çəkilməz,
Adına deyərlər göynəyən adam.
Yandırar oduna, qalar ha səni,
Yox yerə tökülməz dövlət başına.
Oyundan-oyuna salar ha səni,
Oyunlar gətirər qürbət başına.
Düşüb göz yaşına dərdin bulaşar,
Verərlər bir başqa ad oyununa.
Ayağın büdrəyər, qıçın dolaşar,
Oynaya bilməzsən yad oyununa.
Olar yaşadığın ömür havayı,
Göyərməz əkdiyin bir yarpaq da nə.
Bitir, bitirsən də dərddən savayı,
Bitirə bilərsən, yad torpaqda nə.
Yenə sal meylini bu dağda çənə,
İnanmıram, ondan uca ad olsun.
Vətən ola bilməz heç vaxt o sənə,
Bir şeyin ki adı qürbət, yad olsun.
Olmayıb qürbətdə bitən əbədi,
Bu bitmək özünü üzmək üçündür.
Vətən əbədidir, Vətən əbədi,
Qürbət müvəqqəti gəzmək üçündür.
Heç nə yazmamışam mən bir düzündən,
Ayıra bilməz ki, bu çağdan məni.
Boran özümdəndir, tufan özümdən,
Nə ayıra bilər, bu dağdan məni?
Mənsiz boşalmayıb, dola da bilməz,

O qara bulud da, o ağ mənimdir.
Olmayıb heç kimin, ola da bilməz,
Ölür günümədək o dağ mənimdir.
O mənə yaxadır, mən ona sancaq,
Baxacam göz dolu doyub da ona.
Ona can verəcəm, ona mən ancaq,
Öləcəm başımı qoyub da ona.
Ağlaya haqqımda, gülə haqqımda,
Gələ harayıma belə bir haqda...
Ölsəm, yoxdur axı elə haqqım da,
Ölə də bilmərəm ondan uzaqda.
Qatıb bir-birinə sevincdən, qəmdən,
Nəyi var, onu da daşımalıyam.
Tək onu seçib də könlümə həmdəm,
Hələ mən onda çox yaşamalıyam.
Dilində, sözündə götür-qoy edib,
Seçdi öz yolunu bir kərə Şamil!
Çox şeyi özündə götür-qoy edib,
Düşündü-daşındı bu cürə Şamil.
Yanırdı, bir anlıq qaraldı, söndü,
Nəslinin keçmişi gəldi yadına!
Soyuna boylandı, kökünə döndü,
Sığındı biryolluq Şəmsoy adına.
Baxsın gözləriylə qoy, görsün qoyun,
Ona babaları hardan baxırdı.
Bir ucunda odur bu kökün, soyun,
Bir ucu uzağa gedib çıxırdı.
Bir gündə ağzının qurumuş dadı,
Bir soyun köç edən köçündə idi.
Köküylə bir yerdə onun da adı,

On altıncı əsrin içində idi.
Olub öz doğması, öz yadı ilə,
Hamıya doğmadır özünün əsli.
Ancaq tanınırdı öz adı ilə,
Bu eldə bir idi Şəmsoylu nəsli.
Kökündən açılmış açılan qəmi,
Bağlayan ağlıydı öz kökünə də.
Bu dağa, bu daşa olduğu kimi,
Şamil çox bağlıydı öz kökünə də.
İrəli getmişdi öz yaşından o,
Şamil çoxdan gəlib keçmişdi onu.
Bircə dəfə çəkib öz başından o,
Dumduru su kimi içmişdi onu.
Meylini salmayıb qeyri dərslərə,
Yazıb, oxumuşdu əsil dərsini.
Baxmayıb heç yerdə ağlı tərslərə,
Yaxşı öyrənmişdi nəsil dərsini.
Burdan keçmişinə durub baxırdı,
Bilirdi, kim olub dünəninədək.
Adını sayırdı, gedib çıxırdı,
Hətta yeddi arxa dönəninədək.
Onu görən kimin ürəyi yatsa,
Yanacaq ürəyi, qanı, canı ya.
Hərdən düşünürdü, bir əl uzatsa,
Çatacaq Şəmsəddin Lahıcanıya.
Gedəcək bu yolla haraya qədər,
Yoluna dirilib, yoluna verib.
Gəlib öz yolunu buraya qədər,
Gəlib, düz də gəlib, əyri də gəlib.
Ona göstəriblər, ondan o yana,

Dünyanın üzünü o göstərəcək.
Əyrisinin çıxıb, bundan o yana,
Yolların düzünü o göstərəcək.
Teylənəsi olsam, teyləməyəcək,
Heç də bu ayaqla, bu qolla məni.
Heç kəsə etibar eyləməyəcək,
Özü öyrədəcək bu yolla məni.
Düşsəm yad yolundan, iyrənməliyəm,
Varmı qapısına gəlmədiklərim?
Hələ çox oxuyub, öyrənməliyəm,
Bildiyimdən çoxdur bilmədiklərim.
Bu qoca türkün bir qolu nəslimin,
Özüm olmalıyam sözü, həm səsi.
Tarixindən mənə ulu nəslimin,
O qədər yer qalıb öyrəniləsi.
Giley etməmişik oğulsuzluqdan,
Ancaq çox yatmışıq yad ayağına.
Ağlımız olmayıb, ağılsızlıqdan,
Hər şeyi atmışıq yad ayağına.
Düşmüşük, qalmışıq bayaq altında,
Yandırıb kül edib odlar da bizi.
Qalmaq öyrənmişik ayaq altında,
Gəlib ayaqlayıb yadlar da bizi.
Candan yurd demişik, yuva demişik,
Getdiyimiz yoldan cığır, iz çıxıb.
Elə olub yada tova demişik,
Dediyimiz tova yaddan tez çıxıb.
Düşünsək, dünyaya belədir hər an,
Cütdən yaranmışıq, təkdən gəlmişik.
Gərək yadımızdan çıxmasın bir an,

Törəyib biz, hansı kökdən gəlmişik.
Canımızdan alıb, olub “birimiz”,
Boşaldıb eşq adlı yükümüzü kim?
Kim olub tarixi düşmənlərimiz,
Kəsmək istəyibdir kökümüzü kim?!
Niyə deməmişik güldən ağır söz?
Barmaq silkələyib yanımamışıq.
Niyə yadımızdan çıxarmışıq tez,
Biz niyə onları tanımamışıq?
Danışmaq yerini tanımaq üçün,
Danışmağa nə var nağıldan başqa.
Adama birini tanımaq üçün,
Ayrı nə lazımdır ağıldan başqa.
Hələ ki olmayıb bizdən dünyada,
Bu qədər istək var yada ki biz də.
Çox şeylər yaranır sözdən dünyada,
Allaha çox şükür o da ki biz də.
Yaxşı nə var, ona baxmışıq gendən,
Bizdə söz gətirib, söz aparmaqdır.
Belə yaranmışıq yaranan gündən,
Bizimki söz alıb, söz qoparmaqdır.
Deyəsən, yanıldım, yox mən nə dedim,
Belə ha olmayıb babalarımız.
Dünən Babək idim, Koroğlu idim,
Tarixdə çox olub davalarımız.
Əyilib qarşımda göy, bəy olmuşam,
Bu yer də qaytarmaz bəyliklərimi.
Bəydən törəmişəm, hey bəy olmuşam,
Saymaqla qurtarmaz bəyliklərimi.
Gərək mən aparım özümü bəytək,

Atam bəy balası, babam bəy olub.
Deyəndə də deyim sözümü bəytək,
Yurd - yuvam bəy olub, obam bəy olub.
Keçib bu dünyanın ağ, qarasından,
Əkilib torpağa əslim bəy kimi.
Gəlib bu dünyanın gör harasından,
Düşüb bu dağlara nəslim bəy kimi.
Bu dağda suyum var, bu dağda havam,
Yaranıb, yer-yurd var burda hər səsə.
Durub, əyilməyib necə ki babam,
Əyilən deyiləm mən də heç kəsə.
Elə qorxum yoxdur, ondan elə çox,
Gətirdiyi sevinc, qəm olur, olsun.
Qanlı imperiya – SSRİ yox,
Ondan da artığı – kim olur, olsun.
Üzümü tutub da bilər-bilməzə,
Çoxdan yanıyıram onu mən axı.
Babamı aparıb gedər-gəlməzə,
Yaxşı tanıyıram onu mən axı.
Şair, alim, molla, aşıq deməyib,
Yaxşını qanına qaltan eləyib.
Qoca, cavan, körpə, uşaq deməyib,
Əlinə keçəni qana bələyib.
Üstündə gör necə ürək ağrıdıb,
Öldürüb, gör neçə candan yaradıb.
Sayıb da bir neçə ürək ağrıdıb,
Qurduğu dövləti qandan yaradıb.
Soyumuzu bir-bir söküb yaradıb,
Şamil, kökün göynər hər bir ağrında.
Bizim qanımızı töküb yaranıb,

Yenə qanmı tökək onun uğrunda?
Bu sular, havalar bağışlayandır,
Nə qınayar bizi, nə danlar bizi.
Bağışlar, babalar bağışlayandır,
Ancaq bağışlamaz bu qanlar bizi.
Yad döydü, yad əllə şillələndilər,
Şillələyən oldu haqqın düşməni.
Sürgünə getdilər, güllələndilər,
Özləri də oldu xalqın düşməni.
Ürəyim, bu suyun gəl yuyun üstə,
Səndə mən olmayan heç mənmi olar?
Getdilər beş inək, on qoyun üstə,
Görəsən, belə də düşmənmi olar?
Son qoyuldu birgə dostlarına da,
Badələr boşaldı, nə də doldular.
Oturub-durduğu dostlarına da,
Dərd orasıdır ki, düşmən oldular.
Ən yaxşını seçdi, heç kim bilmədi,
Döndü bir nağıla bu düşmənçilik.
Necə oldu, keçdi, heç kim bilmədi,
Atadan oğula bu düşmənçilik.
Bu dərd üstlərini haradan aldı,
Bilmədilər, hardan atıldı bu daş!
Başqası o yana, şübhəli qaldı,
Elə də oldu ki, qardaşdan qardaş.
Durmazsan sən bir də beləcə durub,
Sənə mən ağlayım, mənə gül, ürək!
Tərpənmə bu dərdə, beləcə durub,
Dayan da, yerində üzmə gəl, ürək!
Axsın damarıma, qoy qanın dolsun,

Bircə parça ətdən ayrı sən nəsən!
Qalib gələsiyəm, kim olur, olsun,
Məni, ay ürəyim, bircə sən desən.
Ayrı yerdə vurma, çırpın, orda vur,
Mən səni sinəmdən salsam, ölərəm.
Sinəmin altında möhkəm dayan, dur,
Tək bircə gün sənsiz qalsam, ölərəm.
Vallah yeri yoxdur burda yalanın,
Sənsiz heç ömrüm də, günüm də olmaz.
Hamısı sənindir mənim olanın,
Səninki olmayan mənim də olmaz.
Dağın yaşamağı çənə lazımdır,
Olub başıma dərd daşımağım da.
Sənin yaşamağın mənə lazımdır,
Səninkidir mənim yaşamağım da.
Mən gülməyən yerdə sən də gülməzsən,
Bir yerdə ağlayıb, güləsiyik biz.
Mən ölsəm, heç yerə qaça bilməzsən,
Öləndə bir yerdə öləsiyik biz.
Sevincə, ya dərdə yol gedəsiyik,
Açacaq, solacaq gülümüz də bir.
Beləcə bir yerdə yol gedəsiyik,
Dirimiz də birdir, ölümüz də bir.
Öz ölən canına and içir, içsin,
Mən özüm ölümü öldürəcəyəm.
Qoymayacam, əvvəl içimə keçsin,
Birinci çölümü öldürəcəyəm.
Onsuz, çox olacaq ağlayan, gülən,
Sonda ağlayanı güldürəcəyəm.
Bununla hər yerdən üstümə gələn,

Gedimi-gəlimi öldürəcəyəm.
Qoymayacam, eşqim sönə onda mən,
İstəsəm, sevgimə toy da quracaq.
Qalsam, qalacağam yenə onda mən,
Ölsəm, ölümə o yiyə duracaq.
Minimin, birimin yiyəsi kəndim,
Ən isti yerimin yiyəsi kəndim.
Səndən getsəm, mənə ölüm olacaq,
Ölümün, dirimin yiyəsi kəndim.
Bir az hava yeri, bir az su yeri,
Ürəyimdə bir az səbir yeri var.
Mənə məskən qoyub gedib bu yeri,
Səndə əcdadımın qəbir yeri var.
Sənsiz mənimki nə... qəm ola bilər,
Sən mənə ömürsən, günsən, a kəndim.
Mənə səndən yaxın kim ola bilər?
Mənim ən yaxınım sənsən, a kəndim.
Qaralıb göylərin üzü gör necə,
Ürəyim qoşulub bu axınlığa.
Bax gözlərinlə gör bizi, gör necə,
Ayrılıq qısqanır bu yaxınlığa.
Dağılan saçını özü hörüb də,
Elə köpər, şişər qısqanc ayrılıq.
Şıltaqlıq eyləyir bizi görüb də,
Olub dəymədüşər, qısqanc ayrılıq.
Olacaqsan ərşə çəkilən yuxum,
Sinənə çəkilən mənim dağımdır.
Nə qorxum olacaq, ayrı nə qorxum,
Mənim qorxum səndən ayrılığımdır.
Ümidli olub da bir göz yaşına,

Səndən uzaq dərdə qol verməyəcəm.
Əl basıb bir soyuq, qara daşına,
And içirəm, buna yol verməyəcəm.
Məni tək buraxmaz, dərdim ölsə də,
Ağlaram, gözümdə yaşa gələr bu.
Gəlməz elə-belə, əgər gəlsə də,
Canım bahasına başa gələr bu.
Sinədə çırpınan, vuran ürək də,
Varsa, döyünəcək qan olan yerdə.
İşıq da, hava da, su da, çörək də,
Hər şey can üçündür can olan yerdə.
Çox yaşı olmazdı onda Şamilin,
Yeddi-səkkiz yaşı onda olardı.
Yaxşı yadındadır, ona o ilin,
Hər günü sancılar, sancaq olardı.
Olub babaları əvvəllər harda,
Harda yaşayıblar, harda ölüblər.
Kim əkib onları bu doğma yurda,
Nə vaxt, necə gəlib, hardan gəliblər?!
Elə bağlanmışdı el-obasına,
Ürəyi kitabtək varaqlanmışdı.
Suallar vermişdi öz babasına,
Şamil bununla çox maraqlanmışdı.
Təmiz istək qatıb bir boykökünə,
Sevib, sevgisini gizlətməmişdi.
Heç yerdə, heç kimdən, öz soykökünə,
Olan sevgisini gizlətməmişdi.
Könlünə bir yeni sevgi salmışdı,
Ürəkdən dolmuşdu bir ada-sana.
Kökündən, soyundan ləzzət almışdı,

Çox şey danışmışdı babası ona.
Babası demişdi: “ Şamil, ay bala,
Şəmsoylu nəslidir bizim nəslimiz.
Deyirəm bu sözü, yadında saxla,
Göytürklə bağlıdır bizim əslimiz”
Geyinsəm əynimə, heç gəlməz, dar ki,
Bir igid kürküdür geydiyim bu kürk.
Hamı hökm eyləyər yerə, nə var ki,
Göylərə hökm edib tarixdə Göytürk.
Lazım imiş, görən, belə köç kimə,
Biz ki bu dünyada türkün səsiyik.
Qarışacağımız yoxdur heç kimə,
Göytürkük, biz onun törəməsiyik.
Özünə yol olub saldığı izdə,
Özü bilib, başqa bunu kim bilib?
Olan duyğumuz da, düşüncəmiz də,
Nəyimiz var, bizə Göytürkdən gəlib.
Sözünü salmayıb dilindən yerə,
Qorxunu eyləyib tərk at belində.
Qılıncı əlindən düşməyib yerə,
İgidlik göstərib türk at belində.
Mən bir yurd ozanı, bir el aşığı,
Gövdəmdə cavanam, kökümdə qoca.
Heç vaxt olmamışam başı aşağı,
Türk olmağım edib başımı uca.

Elin Qaçaq Şamili

Durub Məmmədrza yenə o başdan,
Örüşə çıxarmış mal – qoyununu.
Dözüm götürərək qayadan-daşdan,
Birinci içmişdi bulaq suyunu.
Göylük çiləmişdi göy dənizinə,
İşığa qurmuşdu yurd-yuvasını.
Düşüb dan üzünün ən təmizinə,
İçinə çəkmişdi dağ havasını.
Baxmışdı, baxmaqdan doymamışdı heç,
Bu şəhərə belə, günəşə belə,
Quşu da oyansın qoymamışdı heç,
Bu belə olmuşdu, həmişə belə.
Çöldə tanımazdı bir kol, bir tikan,
Onunla başlardı dağlar toyunu.
Qonşunun qoyunu çəpərdə ikən,
Yaylıma gələrdi onun qoyunu.
Hər səhər verərdi bu arxaca güc,
Ona xoş baxırdı doğma da, yad da.
Yaylımdan dönəndə əlində sərnic,
Onu qarşılardı Xanım arvad da.
Coşamı, daşamı bu qaydada da?
Bu arxac kənd idi, ona həm şəhər.
Arxacın yaşamı bu qaydada da,
Təkrar olunurdu hər gün, hər səhər.
Çalışıb edərsən biri yüz olar,
İrəli bilirdi hər şeydən işi.
Elin dili ilə desək düz olar,

“Eldə bir idi, bir Məmmərzə kişi”.
İlk ona açırdı tər bənövşələr,
Bu sular, bu çaylar, çağlar onunla.
Yuxulu oyanır yaşıl meşələr,
Ayağa dururdu dağlar onunla.
Kim deyir, əlini üz o zirvədən?
Dağ-dağa uyuşub, baxın düz-düzə.
Hələ gör haradan, düz o zirvədən,
Olurdu onunla qartal üz-üzə .
Hər şey yerindədir, sünbül, süsən də,
Qırpma kirpiyini, göz sal hər yerə.
Tutacaq yerini sən neyləsən də,
Təpə təpə kimi, dərə də dərə.
Ya bir yalan kimi, ya gerçək kimi,
Sən elə bilirsən, Göy, Yer adamın.
Adam da belədir; daş, çiçək kimi,
Özünün yeri var hər bir adamın.
Həmişə deyilən söz yerindədir,
Bir bax, Əli Əli, Vəli də Vəli.
Nə zaman baxırsan öz yerindədir,
Ağıllı ağıllı, dəli də dəli.
Batıb yuxusuna batan batırdı,
Ucdaydı, ucdan da uc ucdakılar.
Oyanan oyanır, yatan yatırdı,
Öz yerində idi arxacdakılar.
Hamı bilirdi ki, qazancı nədən,
Ədil yer almışdı alın tərindən.
Ellaz, Möhvət dönmüş müharibədən,
Təzə qayıtmışdı dava yerindən.
Aran özünü gil, dağ-daşdan qurub,

Düşüb kənd kənd, şəhər şəhər yerinə.
Məmmərzə kişi də o başdan durub,
Hər gün tələsirdi səhər yerinə.
Şəmsoylu yurdunda o ad daşıyır,
Yad kəslər bu yurda girməmək üçün.
Elə gəlirdi ki, ona yaşayır,
Yerini heç kəsə verməmək üçün.
Kökündə kim olub, kimlər dardadır,
Sayını sayırdı Oğuzdan bəri.
Yaxşı da bilirdi necə, hardadır,
Qaranlıqda yeri, işıqda yeri.
Yurd salıb bir binə qurduğu yeri,
Güldürsə yaxşıdır, gülsə yaxşıdır.
Oturduğu yeri, durduğu yeri,
Kim olursa olsun, bilsə yaxşıdır.
Günəş dan yerini yolduğu kimi,
Gecə də göydə ay, yerdə şam yeri.
Səhərin öz yeri olduğu kimi,
Yeri var axşamın, bir axşam yeri.
Yanan olmamışdı onun közündə,
Çatmışdı Məmmərzə hələ bu yaşa.
Bir göz qırpımına onun gözündə,
Hər gün qarışırdı axşam o başa.
Görəndə gözünə inanmamışdı,
Bu gün olmamışdı bu belə deyən.
Könlünə, gözünə inanmamışdı,
Kimsə var otüstü bu şehə dəyən.
Biraz üşənmişdi, üşənməyinə,
Bu şeh üstə bu iz göydənmi düşdü?
Arada vaxt tapır düşünməyinə,

Düşüncəsi onu düşündürmüşdü.
Olar ikən elə bu düşüncədə,
Qulağına tanış səs də gəlmişdi.
Könlünü oxşadı bu səs necə də,
Nə olsun bir azca asta gəlmişdi.
Əsim-əsim titrək əssə də bu səs,
Ağlamışdı göydə, gülmüşdü yerdə.
Arada sussa da, kəssə də bu səs,
Biraz ara verib gəlmişdi bir də.
Üstdən çəkilmişdi çoxdan çox qəmi,
Ağızdan çıxmışdı sanki bir kefə.
Zəif gəlməmişdi bayaqkı kimi,
Yüksəkdən gəlmişdi bu səs bu dəfə.
Bu səsdə bir sevgi bəslənmişdir də,
Ürək deyirdi ki, bu bəstəyə ax.
Hələ arada bir səslənmişdir də,
– Ay Məmmərzə əmi, ehey, bəri bax!
Kənddə bir nəfər də qalmamışdı gənc,
Davaya getməkdən ərinməmişdi.
Gözə dəyməmişdi heç də bir ins-cins,
Yan-yörədə heç kəs görünməmişdi.
Kimsə görməmişdi adam adına,
Baxsa da Məmmərzə dörd bir yanına.
Hardansa düşmüşdü bu səs yadına,
Doğmalıq salmışdı onun canına.
Bir dənə ögeylik yoxdur bu səsdə,
Bu səs doğma idi, doğmadan doğma.
Şirinlik, həzinlik çoxdur bu səsdə,
Bu səs nəğmə idi, nəğmədən nəğmə.
Bu səsin səsindən qopa bilmirdi,

Bilmirdi gözünə nə dolduğunu.
Nə eyləyirdisə tapa bilmirdi,
Bu səs yiyəsinin kim olduğunu.
Dağda gizlənmişdi, düzə çıxmırdı,
Göstərmirdi, çıxsın həvəs yiyəsi.
Yaxında olsa da, üzə çıxmırdı,
Gizlində qalmışdı bu səs yiyəsi.
Səsə gizlənmişdir, sözə göründü,
Qabaq-qənşər qalxan bir əli gördü.
Bu an səs yiyəsi gözə göründü,
Məmmərzə kişi Şamili gördü.
Gör qaçıb gəlibdir hardan haraya,
Gördürür bax mənə yuxu bu Şamil.
Hardan gəlib çıxdı, görən, buraya,
Davaya getmişdi axı bu Şamil?!
Burada görürəm onu indi də,
Bəlkə, bu o deyil, aldanır gözüm?
Onu yolasalma məclisində də,
İştirak etmişəm o gün mən özüm.
Çox böyük istəklə, böyük maraqla,
Könlümcə qurtardı məclisin sonu.
Yola salmadımı çox təm-təraqla,
Bir yerə yığışıb el-oba onu.
İşığı keçməmiş ələ səhərin,
Buradadır neçə gündü görəsən?
Gözü açılmayıb hələ səhərin,
O, burda neyləyir, indi görəsən?
Göydə axtarırdı, yerdə gördü ki,
Ona sarı gəlir yayınıb Şamil.
Bir göz qırpımında bir də gördü ki,

Başının üstündə dayanıb Şamil.
Salam, sabahın xeyir!
Salam, Məmmərzə baba!
Bu dağlarda səngərim,
Qalam Məmmərzə baba!
Açıl dənin döşündə,
Duman çənin döşündə,
Dağsan, sənin döşündə,
Yolam Məmmərzə baba!
Kişiliyə sevdasan,
Köy də sənsən, ev də sən.
Kökümüzdə gövdəsən,
Qalam Məmmərzə baba!
Bələdəm öz çəkimə,
Birimə, həm ikimə...
Öz soyuma, kökümə,
Qulam Məmmərzə baba!
Ocağında, odunda,
Soyadında, adında.
Gəldim sənin yadında,
Qalam Məmmərzə baba!
Mən özümə dinəm də,
Gəzdirirəm sinəmdə.
Gəzdirəcək mənim də,
Balam, Məmmərzə baba!
Döndərəm də min ili,
Açam, tökəm könülü.
Elin Qaçaq Şamili,
Olam, Məmmərzə baba!
Süzdü bir baş-ayaq, keçirtdi gözdən,

Köntöy söz dedi, nə danladı onu.
Bu üç-dörd kəlmədən, bu dörd-beş sözdən,
Məmmədrza kişi anladı onu.
Alışdımı, heç dönməyəcək o,
Vətənə, millətə aşıqlığından.
Bilirdi yolundan dönməyəcək o,
Onu tanıyırdı uşaqlığından.
Kim nə yazır yazsın, o yazmayacaq,
Elə-belə etmə yavanlıq andı.
İçdimi andını o pozmayacaq,
Hər anddan ucadır cavanlıq andı.
Deməli, dünyada fərq var imiş, fərq,
Oğuldan oğula, qızdan qıza da.
Özünü eyləyib xəyallara qərq,
Düşüncəyə getdi Məmmədrza da.
Üç aydır dağlara çəkilən Şamil,
Qoçaqlıq edirdi təkbaşınaca,
Tək-tənha dağlara çəkilən Şamil,
Qaçaqlıq edirdi təkbaşınaca.
Tək bulaq, çay olub axmayan kimi,
Təkliyə təklənir tək qoçaqlığın.
Tək əldən tək səs də çıxmayan kimi,
Bir axırı yoxdur tək qaçaqlığın.
Ölkədən düşdü, sona elə gəldi ki,
Çətin gün yaşayar, çətin qaçaqlar.
Birdən-birə ona elə gəldi ki,
Bir olsa yaxşıdır bütün qaçaqlar.
Birlik olan yerdə hər yan işıqdır,
Nə bir qaranlıq var, nə gerilik var.
Könlüm ki birliyə çoxdan aşiqdir,

Birlik olan yerdə bir dirilik var.
Tək-tək gəzməməli o dağ, bu dərə,
Bir bayraq altında birləşməliyik.
Görən, kimdir bizi bölən beş yerə,
Bir, iki, üç ,dörd, beş birləşməliyik.
Söz də danışmırıq heç vaxt arxadan,
Biz namərd deyilik, mərd adamlarıq.
Boylanır bizə hey bir baxt arxadan,
Biz ki türk oğlu türk, qurd adamlarıq.
Yaralı vətəndə niyə olmasın?
Olub, olacaqdır hələ qaçaqlar.
Qoymayıb bir ana gözü dolmasın,
Olub yaranışdan belə qaçaqlar.
Sevincə öyrənsin üzüm, birləşim,
Olum bu dağların sevinci özüm.
Birinci özümdə özüm birləşim,
Atım bu addımı birinci özüm.
Güney gül-çiçəkdə, quzey qardadır,
Öz yerinə görə bu dağın, daşın.
Öyrənim yerini, görüm hardadır,
Əşrəf, Şamil adlı iki qardaşın.
Aşıq aşıq olur ancaq saz ilə,
Bu dağlar şairlə şeirli olar.
Qışı qışla olum, yazı yaz ilə,
Birləşim onlarla, xeyirli olar.
Hamımızla birdir, tək deyil Tanrı,
Cığır cığırla, iz izlə birləşər.
Bir olduğumuzu görüb də sonra,
Başqa qaçaqlar da bizlə birləşər.
Bu dərə yurdunda, bu dağ elində,

Yolu qaçaqların yoluna düşdü.
Qaçaqları tapıb qaçaq dilində,
Bir axşam onlarla Şamil görüşdü
Danışdılar sözdən-sözə keçdilər,
Qurandan geydilər qırmızı donu.
Yemək də yedilər, çay da içdilər,
Yaxşı qarşıladı qaçaqlar onu.
Türkün inanc yeri, türkün and yeri,
Bir yerdə oturub çörək kəsdilər.
Olub da hər biri dərdin kənd yeri,
Sanki çörək deyil, ürək kəsdilər.
Başlamaq istədi o dağ yürüşə,
Daş-qaya sınadı biri-birini.
Bir yol görüşməklə, bircə görüşə,
Yaxından tanıdı biri-birini.
Çox bulanıq sular qayğılandılar,
Dumduru duruldu su tanışlıqdan.
Duyğulu oldular, duyğulandılar,
Duyğusal oldular bu tanışlıqdan.
Gündüz al günəşə, gecə o aya,
O göyə, o quşa and da içdilər.
Dərədən-dərəyə, bulağa, çaya,
O dağa, o daşa and da içdilər.
Yollarına duru su da atdılar,
Torpağım, işığım, havam dedilər.
Qucaq da açdılar, əl də tutdular,
Gedək, birgə yola davam dedilər.

Vətən gülü, Vətən daşı

Qəm əyirdi, dərd döyürdü,
Üşümürdü qarda Şamil!
Dərdinə ana deyirdi,
Olurdusa harda Şamil!
Taxmışdı gül sevgisinə,
Qoxlayırdı güllər onu.
Düşmüşdü el sevgisinə,
Yoxlayırdı ellər onu.
Artıq iki-üç ay idi,
Çəkilmişdi bu dağlara!
Eşqi yurda bir pay idi,
Əkilmişdi bu dağlara!
Hərdən dərdi qanlayırdı,
Ayrılıqlar ağlar onu.
Başa düşür, anlayırdı,
O dağları, dağlar onu.
Olmasa da elə yaşı,
Koroğluya misalıydı!
Bu dağların məğrur başı,
Əyilməzlik timsalıydı.
Bax görürdü Şamil indi,
Özünü də elə belə.
Yaşadığı bu bir gündür,
Qabaqdaydı günlər hələ.
Onunkuydu bu qaya taxt,
Mamır döşək, duman yorğan!
Çox keçmişdi onu bir vaxt,

Tanışıydı bu yal-yarğan!
Canı, qanı, varsa nəyi,
Dağlardaydı, daşlardaydı.
Göydə yeri, yerdə göyü,
Qurdlardaydı, quşlardaydı.
Ayrılığa ha solub da,
Dönürdü dərdin qəndinə.
Ya ürəyi quş olub da,
Uçurdu doğma kəndinə.
Dərdinə ümid olurdu,
Axtarırdı doğmasında.
Özü bir bulud olurdu,
Hər yağışın yağmasında.
Qışı yalın meşələrin,
Soyuğundan keçirdi o.
Yazda qalın meşələrin,
Qulağına köçürdü o.
Gün də olur, gözlədirdi,
Başında irmaqlar onu.
Düşmənindən gizlədirdi,
Ağaclar, yarpaqlar onu.
Quş səsinə qulaq asıb,
Üşüyəndə ot geyirdi.
Basıb, sinəsinə basıb,
Sözünü saza deyirdi.
Gözdən düşən, axan yaşın,
Öyrənmişdi kürlüyünə.
Ona doğma dağın-daşın,
And içmişdi birliyinə.
And içmişdi, gedəsiydi,

Axıradək bu yolu o.
Didim-didim dıdəsiydi,
Uğuradək bu yolu o.
Cavabsız bir sual idi,
Keç demirdi özündən də.
Bax həmişə xoşhal idi,
Verdiyi bir sözündən də.
Var-dövlətdən onda olan,
Bir ürəkdir, iki gözdür.
Danışmazdı bircə yalan,
Çünki verdiyi söz sözdür.
Gərək dərdi qucandaydı,
Sinəsinə dərd batmışdı.
Barmağının ucundaydı,
Uzatmışdı, əl çatmışdı.
Tanıyırdı artıq bir-bir,
Otdan-ota, daşdan-daşa.
Orda o göy, burda bu yer,
Onunkuydu başdan-başa.
Ax deyirdi, sulara ax,
Hər gün üstündən keçirdi.
Yeri gəlsə onların bax,
Canına da and içirdi.
Demə, eşqi tükənmişdi,
Sevgidəydi bu dağ yolu.
Bu dağlara söykənmişdi,
Öz kəndindən ayrılalı.
Qılınc qından sıyrılmışdı,
Bilən bilir, qılınc nədi.
Nə olsun ki, ayrılmışdı,

Kəndi yenə kəndi idi.
Kəndində qoyub gəlmişdi,
Ürəyinin bəndini o.
Yad edirdi, olsa, işdi,
Arada bir kəndini o.
Göydən belə, yerdən belə,
Qabaqdan uğur gəlirdi.
Ona heç nə birdən belə,
Ayrılmaq ağır gəlirdi.
Bir dərmanla, bir dəvayla,
Qəm üstünə yerişirdi.
Yaylaq vaxtı el-obayla,.
Hərdən-hərdən görüşürdü.
Bu bəy sular, bu xan sular,.
Onun kəndindən keçirdi.
İçməməyi yalan olar,
Hər gün bu sudan içirdi.
Dağlarında çəni azıb,
Çıxıb gedib bir yelində.
İstədi bir məktub yazıb
Göndərsin o su dilində.
Doğması, nə yadı yoxdur,
Çəkir aman ayrılıqda.
Onun ayrı adı yoxdur,
Adı yaman ayrılıqdır.
Ürəyə bir tikan sancaq,
Olsun ağrı, daşımasın.
Yaşasın görüşlər, ancaq,
Ayrılıqlar yaşamasın.
Ürəkləri doğramasın,

Olmasın ayrılıq sözü.
Qoy ürəklər ağrımasın,
Ağrısın ayrılıq özü.
Öz başında olsun ağlı,
Əyilməsin ayrılığa.
Sevgili heç insan oğlu,
Döyülməsin ayrılığa.
Ürək varmı, gör birində,
Onlarınkı xoş qılıqdır.
Mən bilirəm bu ayrılıq,
Müvəqqəti ayrılıqdır.
Könül ucal, əyil bura,
Hər daş-qayan bir ordumdur.
Ayrı yurd ha deyil bura,
Bura da mənim yurdumdur.
Sevgisinə canım gedir,
Bircə soyuq daşı yurdum.
Göydə göyü hələ nədir,
Göydə uçan quşu yurdum!
De, harda var belə cavan,
Mən necə qocaldım onu.
İstəyirəm hər gün, hər an,
Sevgimlə ucaldım onu.
Gülü bəsdir əl sıxmağa,
Həmişə qoy uca qalsın.
Mən girməyə mən çıxmağa,
Qoy bu qapı-baca qalsın.
O da görsün qoy işini,
Hər yerə bir yerdə gedək.
Gəzim, edim qoy döşünü,

Bölük-bölük, ətək-ətək.
Durum gendəcə qınadım,
Bu dağları candan olsun.
Yaralayım da, qanadım,
Bulaqları qandan olsun.
Özüm olum ona xəstə,
Baxma dərdin təkliyinə.
Canım qurban qaya üstə,
Dil-dil ötən kəkliyinə.
Mənim olsun bitən gülü,
Olum onun vətəndaşı.
Vətən olur vətən gülü,
Vətən olur Vətən daşı.
Ya oxuyan kimliyinlə,
Axsın su vətəndaşlıqdan.
Gül qoxuyan kimliyinlə,
Olmaz bu vətəndaşlıqdan.
Axsın, ona qanda qanım,
Ötənəm Azərbaycana.
Qurban olsun canda canım,
Vətənim Azərbaycana.
Nə zaman qan lazım olsa,
Qan verərəm onun üçün.
Harada can lazım olsa,
Can verərəm onun üçün.
Baxıram axşamdan dana,
Yerdən göyə yaşayıram.
Lazım deyiləmsə ona,
Onda niyə yaşayıram?!
Ərk edirəm, mən də ərkdir,

Atam can-can, anam can-can.
Özüm türkəm, adım türkdür,
Vətənimdir Azərbaycan!
Yanan közümü görürəm,
Oddur, Odlar dünyam mənim.
Onda özümü görürəm,
Odur güzgüm, aynam mənim.

Pıçıltı

Fikir içindəydi göyçəli Camal,
Özündə deyildi, özü deyildi.
Sanki köçündəydi göyçəli Camal,
Danışdığı söz öz sözü deyildi.
Danışanda dili topuq vururdu,
Olmurdu sözünün ayağı, başı.
Sözü ürəyində daştək dururdu,
Çıxara bilmirdi ordan o daşı.
Kimdənsə arada söz soruşanda,
Özgənin yerinə cavab verirdi.
Elə ki özünü dindirdin onda,
Beş sözdən birinə cavab verirdi.
Dilini, sözünü tanımırdı da,
Qalmışdı dünyanın düzündə Camal.
Elə bil özünü tanımırdı da,
Nə isə deyildi özündə Camal.
Sevinci ağlayıb, dərdi güləndən,
Özü özü ilə çox əyişmişdir.
Son dəfə Göyçəyə gedib-gələndən,

Demək olar, Camal çox dəyişmişdir.
Baxırdın, deyildi halı da o hal,
Onda yol getməyə diz qalmamışdı.
Bir sözlə, deyildi Camal, o Camal,
Əvvəlki Camaldan iz qalmamışdı.
Danışa bilmirdi, gülə bilmirdi,
Yanıb qarsalmışdı gördüklərindən.
Neynirdi, özünə gələ bilmirdi,
Yaman sarsılmışdı gördüklərindən.
Vardan var idi, nə yoxdan yox idi,
Canında qarışqa, eşitdikləri.
Çox idi, çox idi, çoxdan çox idi,
Gördüyündən başqa eşitdikləri.
Dar dərəsini də, gen düzünü də,
Görəndə ürəyi necə yeyildi.
Zorla keçirirdi gündüzünü də,
Di gəl gecəsi heç gecə deyildi.
Rahat buraxmırdı onu bir an da,
Artırmışdı ah, of, axısını da...
Yata da bilmirdi gecə yatanda,
Çarmıxa çəkmişdi yuxusunu da...
Ümidi qalmışdı, bir göz yaşına,
Gözü su içmirdi bu sabahlardan...
Boylanıb baxanda o dağ başına,
Yuxarıda idi ahı ahlardan.
Çəkməsən, o göydən daş da tökülər,
Dərdi də çəkəsən gərək sinədən.
Yadına düşəndə göyçədəkilər,
Yaxşı ki, çıxmırdı ürək sinədən.
Onu izləyirdi kölgəbəkölgə,

Arxaya baxmağa üzü gəlmirdi.
Əlində olsaydı, dözərdi, bəlkə,
Dözmək istəyirdi, dözə bilmirdi.
Nəsə anmamışdı o qara dondan,
Ürəyi vurduqca yanmışdı sinə...
Yana çevirmişdi üzünü ondan,
Baxa bilməmişdi sevgilisinə...
Yaşaya bilmirdi o sözü udub
O söz yaraşmırdı Göyçətək elə...
O sözü əliylə ağzını tutub,
Anası demişdi pıçıltı ilə...
Utanırdı, dönər o üzdən sonra,
Camaltək bir adı daşımağına...
Anası dediyi o sözdən sonra,
Təəssüf edirdi yaşamağına...
Ağırdır gör onun dərdi necə də,
Çünki ürəkdən qan, gözdən su daşdı.
Onun qulağına o bir gecə də,
Anası gör nələr pıçıldamışdı.
– Oğul, oxunmadı bir nəğmə yurdda,
Arxayınmı oldun qoçaqlığına?
Ögeyliklər gördük biz doğma yurdda,
Sən getdin, sığındın qaçaqlığına...
Düz deyiblər: "Çaşdı bu ermənilər,
Bu sözlər belə çox azdır axmağa...
Həddini çox aşdı bu ermənilər,
Peşman olduq evdən çölə çıxmağa...
Danışa bilmirəm kafir dilində,
Başa da düşmürsən sözünü nə bir.
Qalıbdır bir-iki dığa əlində,

Göz açıb dünyaya baxdığın bu yer.
Haramdır mayası, halal yeməyib,
Saysız-hesabsızdır tökdüyü qanlar.
Döyür, söyür qoca, qadın deməyib,
Doğrudan, qansızlıq eyləyir onlar.
Yoxdur bu qansızlıq göydə, nə yerdə,
Önündə yesirdir el bir dığanın.
Qulağına çatsa bu, bəlkə, bir də,
Ürəyi çatladı Səmənd ağanın.
Ələsgər sazına, bir də sözünə,
Şam, çıraq Əsəddə, işıq Nəcəfdə.
Durub məzarında o bir üzünə,
Bu səsə çevrilib aşıq Nəcəf də.
Ananam, ay oğul, əlim haqdadır,
Hər gün duaçıyam, Tanrıma o var.
Hələ də qaynayır, pıkhapıkdadır,
Nəcəfin belində yanan samovar.
Bu yerin altında çox həyat yatır,
Ruh ruhda dolanır, can da ki canda.
Bilirəm, qəbrində narahat yatır,
Qızılvəngli aşıq Alı o yanda...
Bəlkə də, onlardır bu yolu verən,
Şübhəsiz, şübhəm var bu ruslardan da...
Bəs kimdir onlara bu əl-qolu verən?
Gözüm su içməyir, su ruslardan da...
Savaşa yollanıb kişilərimiz,
Yaranıb Göyçədə kişi azlığı.
Ər kimi qollanıb kişilərimiz,
Çoxalıb erməni həyasızlığı.
Çəkilmək istəyir dərəyə, dağa,

Ayaqda qocalar, başda uşaqlar.
Dözə bilmirlər bu həyasızlığa,
On altı, on yeddi yaşda uşaqlar.
Bu yerdə sənin də görünür yerin,
Nə üçün alıbsan silah əlinə?..
Gözünü qan örtüb ermənilərin,
Sataşmaq istəyir qıza, gəlinə...
Könlüm hərdən mənə meydan aç deyir,
Bəlkə, heyrətlənə bu heyrətsizlər.
Bizə:"yersiz gəldi, yerli, qaç", – deyir.
Qadını fahişə bu qeyrətsizlər.
"Türməyə gedərəm güllələyib də,
Səni, dadını ye hələ əlimin."
– Deyib ermənini sillələyib də,
On beş yaşlı oğlu xəstə Səlimin...
El-obaya düşüb səsi-sədası,
O gündən sağalıb o xəstə Səlim.
Nə dərdi olmasın, nə də qadası,
Onun qeyrətinin qadasın alım.
Dağ da dağ olmur heç daşından qabaq,
Gerçəyə çevrilir yalan nağıllar.
Böyüyə-böyüyə yaşından qabaq,
İgidə çevrilir bu cür oğullar.
Qulağın yox, fikrin qoy məndə olsun,
Oğul məni dinlə, belə bir anda.
Məni də dinləyən bir bəndə olsun,
Yanıma gəlibsən elə bir anda.
Bax elə bir anda, elə bir anda,
Bıçağın sümüyə dirənən vaxtı...
Yadımdan çıxmadın belə bir an da,

Gəldin, yığmamışam yatdığın taxtı...
Ya dön bir səngərə, ya bir cəbhəyə,
Sığınım anatək qoçaqlığına.
Bax Qaçaq Kərəmə, Qaçaq Nəbiyə,
Sən də igidlik yaz qaçaqlığına...
Dön bir pıçıltıya, qop səsindən də,
Belə baxsan bu yer, bu göy pıçıltı.
Güclüdür ən güclü top səsindən də...
Mən sənə dediyim bu bir pıçıltı.
"Gəl yataq, ay oğul, artıq gecədir,
Danışarıq səhər axşama yenə.
Əhvalın necədir, halın necədir?
De kefin necədir, Pıçılda mənə..."
Demişdi astadan pıçıldayaraq,
Camal da sözünü anası kimi.
Əlini əlinin üstə qoyaraq,
Demişdi:"Dərdimiz birmi, ikimi?"
Duzu, tamı qaçmış öz söhbətimin,
Dadını artırım, necə artırım?
Sinə dolu olan söz-söhbətimin,
Hansından başlayım, harda qurtarım?
Əvvəla, ay ana, bil və agah ol,
Gəl sənə şifahi bir məktub yazım.
Gedirəm mən indi müqəddəs bir yol,
İnanmıram ki, heç bu yolda azım.
Yerdən yerimiz var, göydən göyümüz,
Ağacıq ağacdan, quşdan quşuq biz.
Ən uca yerdədir qaya öyümüz,
Hər gün baş-başayıq, dörd qardaşıq biz.
Basıb sinəmizə elin gününü,

Bir yerdə çalırıq, sazımız sazdır.
Çalanda görəsən telin gününü,
O qədər açır ki, elə bil yazdır.
Mənimki hərdənbir söz toxumaqdır,
Əşrəf saz çalanda Şamil oxuyur,
Onun oxumağı bir oxumaqdır,
Sanki oxuyanda bülbül oxuyur.
Həmişə məndədir, mənimlə gəzir,
O ürək dostlarım, sinə dostlarım.
Ömrümlə dolanır, günümlə gəzir,
Hər yerdə lazımdır mənə dostlarım.
Başımda görünən sənin tüstündür,
Sinəmdə yanan od sənə köməkdir.
Havadan artıqdır, sudan üstündür,
Mənim üçün dost da həyat deməkdir.
Təkcə mən onları belə görmürəm,
Beləyəm, ay ana, mən də onlara.
Onlarsız bir ömür belə sürmürəm,
Gələndə hörmət et sən də onlara.
Ay ana, doymazsan bülbültək ötsə,
O qaçaq, o şair, o aşıq Şamil.
Dağda dağlıq qalmaz, o dağdan getsə,
Yaranıb dağlara yaraşıq Şamil.
İndi qayasında, öz daşındadır,
Bilirəm özümə qala Şamili.
Bir bax, ürəyimin düz başındadır,
Şamili deyirəm, bala, Şamili.
Adına durulur sular belə ki,
Quşlar uçmaq bilmir, qanad saxlayır,
Deyirəm, ay ana, o Şamili ki,

Üstündə Şamiltək bir ad saxlayır.
O söhbət Şamilim, söz Şamilimdir,
Gündüz Günəşlədir, gecə şam ilə...
O mənim igidim, öz Şamilimdir,
Hörmətdə bənzəyir Şeyx Şamilə!
Sığındığı qaya düz boyundandır,
Boyu meydan açır düz boylulara.
Dediyinə görə türk soyundandır,
Kökü gedib çıxır Şəmsoylulara.
Tanrısına bağlı, həm də dinlidir,
Bu dağlardan salıb yolu babası.
Öz zatı-pakıyla Şəmsəddinlidir,
Pirverdi adlanan ulu babası.
Çox sayılan olub, eldə baş olub,
Qalıb bu günədək elin yadında.
Doğmadan da doğma üç qardaş olub,
Cəfər, Alısəfər, Rüstəm adında...
Gedirəm, ay ana, o dağda, daşda,
Ayazım bir günüm, çənim bir günüm.
Həmişə görürəm onu başda mən,
Şamilsiz olmasın mənim bir günüm.
Üstündən atmışdı ağır yükü də,
Anası dolmuşdu bu sözdən sonra...
Camalla bir yerdə o üç igidə,
Qurban da olmuşdu bu sözdən sonra.
Könlücə bu sözə uyuşub ana,
Barışıq etmişdi, deyən, bu sözlə...
Bir an özlüyündə dəyişib ana,
Baxmışdı Camala bir başqa gözlə.
Sinəsi sazında, dili sözündə,

Aşıqlar bu kənddə çox deyişmişdir.
Bu sözdən ananın indi gözündə,
Camal dəyişmişdi, çox dəyişmişdir.
Tanımamışammı , görən, mən onu,
Gedibmiş başımdan haraya ağlım?
Niyə bilməmişəm, niyə mən bunu?
İndi bilirəm ki, kişidir oğlum!
Könüldən könülə bu da bir axın,
Bu məktub olmadı, oldu bir nağıl.
Gaplaşa-gaplaşa səhərə yaxın,
Yuxuya getdilər ana və oğul!
Geriyə çəkildi durduğu yerdən,
Dayandı dili lal, düşüncəsi lal.
Yerindən dik durdu, diksindi birdən,
Yuxudan ayıldı elə bil Camal.
Çox yaxşı baş açır dünya işindən,
Öyrənib kədəri, dərdi ki Şamil!
Həmişə durduğu qaya döşündən,
Durub ona baxır, gördü ki Şamil!
"Yoxsa, bəyənmirsən bu daş qəfəsi?”
Bu cürə başladı Şamil sözünü.
Şimşək kimi çaxdı Şamilin səsi,
Bir anlıq itirdi Camal özünü.
Səsini qaldırdı yenə də Şamil,
"De, niyə bikefsən, ayə, ay Camal?"
Ürək gəzdirirdi sinədə Şamil,
O həmişə yetir hoya, ay Camal!
Bu yerdə bilmədi, Camal neyləsin,
Heç kəsdən hal sorub, əhval bilmədi.
Desin, necə desin, nə cür söyləsin,

Dərdini Şamilə Camal bilmədi.
Bilirdi hər köçün köçündə nə var,
Köç üçün dağ-daşı dəlirdi Şamil.
Onsuz da, Camalın içində nə var,
Gözündən oxuyub bilirdi Şamil.
Düşündü, deməsin sözünü hədər,
Yıyəsi bilmirmi dilini lalın?
Gözləmək lazımdır hələ bir qədər,
Üstünə düşməklə deyil Camalın.
Ömrünü sürəli dağda, dərədə,
Heç yerdən ötəri ötmədi Şamil.
Elə bu səbəbdən buna görə də,
Camalın üstünə getmədi Şamil.
Düşündü, qoy biraz özünə gəlsin,
Özünü toplasın, sözünə gəlsin.
Hər sözü yerində söyləyə bilsin,
Fikrini ifadə eyləyə bilsin.
Hər an göstərirdi xoş niyyətini,
Ona yaraşırdı bu gör necə də.
Dəyişə bilmirdi xasiyyətini,
Həmişə olurdu bu düşüncədə.
Əlbəttə, tək indi belə deyildi,
Beş-altı yaşından belə idi o.
Yüksəldi, ya endi belə deyildi,
Sözünə qoyardı nöqtə, dedi o.
Eşqini götürüb döşə taxanda,
Söz də oxuyurdu, saz da çalırdı.
Hiss eyləyirdin ki, gendən baxanda,
Özü də özündən ləzzət alırdı.
Ləzzəti alırdı daşdan, qayadan,

Sezdiyi o qızda olan həyadan.
Çox ləzzət verirdi ona bu meşə,
O kol dibindəki şehli bənövşə.
Baxırdı gülə gül, daşa daş kimi,
Baxırdı kola kol, quşa quş kimi.
Seçmirdi nə yağış, nə qar bu dağda,
Hər şey özü idi, nə var bu dağda.
Sərxoş xəyalların bu xoş dəmində,
Camal da gəzirdi öz aləmində.
Nigaran qalmışdı sevgilisindən,
Doyub gəlməmişdi onun səsindən.
Nə yaxın, özünü gendən görürdü,
Tutub əli göydən, ayağı yerdən.
Bir də onu, bir də düşündürürdü,
Necə qisas alsın ermənilərdən?!
Yalandan keçəsən gərək gerçəyə,
Ömrü çox qısadı ermənilyin.
Baha başa gələr sonra Göyçəyə,
Gələcək fəsadı ermənilyin.
Yerə batsın, çıxsın göyə, bilmirdi,
Yoxsa, olub qalsın buna hamilə.
Demək istəyirdi, deyə bilmirdi,
Desin, necə desin bunu Şamilə.
Elə bil dolmuşdu canına tikan,
Könlü qəzəbləndi, qanı hirsləndi.
Camal bu xəyalda, bu fikirdəkən,
"Camal, get, rahatlan." – Şamil səsləndi.
Qatıb bal qarışıq sərtlik səsinə,
Şamil səs salmışdı dərəyə, dağa.
Dinmədən Şamilin bir kəlməsinə,

Camal üz çevirdi sığınacağa.
Çatdı qapısına sığınacağın,
Qayadan yapışıb keçdi içəri.
Yerini tapmadı solun, nə sağın,
Olmadı bu duyğu onda keçəri.
Əli hər tərəfi çaldı eləcə,
Çalışdı ürəyi çalışanadək.
Dondu da yerində qaldı beləcə,
Gözü qaranlığa alışanadək.
Keçdi yavaş-yavaş qaranlıq getdi,
Onsuz alışmışdı bu qaranlığa.
Ötdü, keçmişində nə varsa, ötdü,
Özünə qayıtdı o bir anlığa.
Öz başı, ürəyi, gözü oldu o,
Öz yerinə qoydu doğma, yadı da.
Yenə də qayıtdı özü oldu o,
Birtəhər özünü toparladı da.
Gərək özüm baxam könlümə hərdən,
Onlartək gətirəm bu elə şərəf.
Ov üçün gediblər dünən səhərdən,
Hələ qayıtmayıb Şamillə Əşrəf.
Mənə qalsa, onlar mənə tacdılar,
Mən də onlara tac, hə, mən bilənə.
Dünəndən gedəndən, bəlkə, acdılar,
Qoy yemək bişirim onlar gələnə.
Azadam, olsam da burda zindanda,
Ən azı alıram azad nəfəsi.
Camal bu fikirdə olduğu anda,
Çöldə eşidildi Əşrəfin səsi.
"A Şamil, gəl bu ov ətini götür,

Yeyirsən ətini sanki quzudur.
O ocağı qala, o sacı gətir,
Bişirək, vurduğum çöl donuzudur."
Bu yan daş-qayadır, bu yan meşədir,
Öyrənək əvvəli, bilək sonları...
Durub öz yerində bir az dinşədi,
Dinləyə-dinləyə Camal onları.
Çəkdi baş altına daş yastığını,
O saat tanıdı baş yastığını.
Xəzəl döşəyinin içinə batdı,
Saman yorğanını üstünə atdı.
Düşdü üzü üstə, o yatan yatdı,
Bu gecə yuxusu səhərə çatdı.

Qaçaqlar Göyçədə

Göyçə ərlər oylağıdır,
Göyçə ərənlər yurdudur.
Göyçə gölü yaylığıdır,
Dağı, daşı bir ordudur.
Bayandır xan ulduzunu,
İşığına burda salıb.
Dədə Qorqud qopuzunu,
Ən birinci burda çalıb.
Ən böyük Yunis İmrəlik,
Karamanlı bu yerdədir.
Biz hər nəyik, suyuq, yelik,
Torpağımız bir dərdədir.

Göyçə bizim ürəyimiz,
Biz Göyçəyik, Göyçə bizik.
Onunladır çörəyimiz,
Yercə odur, göycə bizik.
Andına and iç, Koroğlu,
Dönür, qoyma yada odur.
Əgər varsa Qoç Koroğlu,
Bizim üçün o da odur.
Üstündə öz adı, sanı,
Şöhrətli-şanlı varlıqdır.
Öz ürəyi, canı, qanı,
Göyçə bir canlı varlıqdır.
Birdən qalar yada Göyçə,
Məni düşündürən budur.
Bu Gədəbəy, o da Göyçə,
Bu üz budur, o üz odur.
Təbrizlə məni sevindir,
Bakı gözdür, Şəki üzdür.
İkisi bir bütövündür,
Tək bir dağda iki üzdür.
Desin dilim, Göyçə desin,
Olsun könlümün parası.
Gədəbəyim inciməsin,
Gözümün ağı, qarası.
Öz yurdunda, öz elində,
Söyürlər göycə adamı.
Qalıb erməni əlində,
Dardadır Göyçə adamı.
Hansı güclə ermənilər,
At oynadır gəlib onda?!

Məni gözəl, məni gülər,
Qızlar deyib-gülüb onda.
Nəğmədir, nəğmədən nəğmə,
Bu yercə, göycə Şamilə.
Doğmadır, doğmadan doğma,
Yaxındır Göyçə Şamilə.
Gör işini, baha elə,
Görüləsi işlər çoxdur.
Yer qalmayıb daha elə,
Fikirləşməyə yer yoxdur.
Bu gününlə dur yerindən,
Otururs an necə, Şamil?
Köks ötürdü lap dərindən,
Qalxdı bir an uca Şamil.
Dedi:"Dostlar, durun, durun. ",
Dostlar dedi:"Niyə duraq?"
"Gedək erməni gavurun,
Bu gecə toyunu quraq."
Əşrəf durdu öz yerindən,
Şamil durdu, Camal durdu.
İş qurdular söz yerindən,
Ağıl durdu, Kamal durdu.
Ancaq haqqa tapındılar,
Yol getdilər gerçəyədək.
At mindilər, tərpəndilər,
At çapdılar Göyçəyədək.
Yedirib haman-hamana,
İçirdilər ağıları.
Saldılar göz qırpımına,
Pərən-pərən dığaları.

Hayladılar, küylədilər,
Olan kimi darda haxçi.
Yalnız bir söz söylədilər,
Burda "haxçi", orda "haxçi".
Gizləndilər, bürüşdülər,
Qaçanlar dağ dərəsinə.
Qoşulub da hürüşdülər,
İtlər də"haxçi" səsinə.
Əşrəf ordan, Şamil burdan,
Camal da burdan teylədi.
Keçib kardan, keçib kordan,
Gör Qaçaq Şamil neylədi.
Acısına külək əsdi,
Sanki acı bir soğanın.
Başının üstünü kəsdi,
Dağa qaçan bir dığanın.
Ehmalca yanaşdı ona,
Dığa da elə bil laldır.
Onu bir göz qırpımına,
Ayağı altına saldı.
Başı üstə döndü aca,
Min dəfə "haxçi" dedirtdi.
Qıymadı daşa, ağaca,
Öz əl suyunu yedirtdi.
"Ermənisən, gir yerinə,
Sən bir ayrı nəsən", – dedi.
Sonra baxıb bir-birinə,
Dost dostuna "Əhsən", – dedi.
Gözü ilə hər tərəfi,
Gəzdi də, Camal öyündü.

Tərifladi də Əşrəfi,
Şamil Şamili bəyəndi.
Ürək sevməz, o gün ölər,
Sev bəyi, qoru paşanı.
Çıxarıbmı ermənilər,
Yadından Nuru paşanı.
Türkük, türkün öz adıyıq,
Yeri gəlsə, nəfəsiyik.
Məmməd Əmin övladıyıq,
Atatürkün nəvəsiyik.
Bu əl səni, bu qol səni,
Eyləyəcək görk adına.
Ay erməni, bu yol səni,
Bağışladım Türk adına.
Tərs işini bilərəmsə,
Düz işini tərs keçəcəm.
Bir də bura gələrəmsə,
Sənə bir son dərs keçəcəm.
Ermənilər ürəkləndi,
Şamilin sözündən sonra.
Dayaqlandı, dirəkləndi,
Çıxmadı özündən sonra.
Kölgə-kölgə, qoltuq-qoltuq,
Bir-birini daşladılar.
Tülkülənib yaltaq-yaltaq,
Yalvarmağa başladılar.
Biri dedi:"Biz kirvəyik",
Biri dedi:"Biz qonşuyuq.
Bilirik, uşağıq, nəyik,
Biz bir yasıq, biz bir toyuq."

Dildən keçdi, dişə düşdü,
Yaltaqlığa bağlı dili.
Elə-belə işə düşdü,
Ermənin yağlı dili.
Heç bir iz də qalmamışdır,
Bayaqkı qorxulu səsdən.
Sanki heç nə olmamışdır,
Danışırdı altdan-üstdən.
Ağac deyil, çilikdir bu,
Onun son hasilatıdır.
Bu, bir ermənilikdir bu,
Bu erməni xislətidir.
Ömrü-günü daşımasın,
Onu toza bölsün, bölsün.
Tək bircə gün yaşamasın,
Ermənilik ölsün, ölsün.
Yandır onu, sal oduna,
İnsana atılan topdur.
İnsanlığın da adına,
Ermənilik bir mikrobdur.
Ayrı xalqın gözü ilə,
Bir ermənilyə baxın.
Özünüzün özü ilə,
Ermənilikdən də çıxın.
Açın, baxın gözünüzü,
Bu torpaqdır türkün yaşı.
Ona görə özünüzü,
Qoymayın türklə yanaşı.
Olur, ancaq özü olan,
Elə bilmə, tükənir türk.

Türkdə kişi sözü olur,
Kişiliyə söykənir türk!
Elə asta gəlirsən ki,
Girdiyin quyu dərindir.
Özün yaxşı bilirsən ki,
Darda dilin çox şirindir.
Görərik ki, tələ olub,
Dilin baxsaq o illərə.
Zaman-zaman belə olub,
Aldanmışıq bu dillərə.
Deyib bir dığanın üstə,
Gözünü gəzdirdi Şamil.
Onları edib bir dəstə,
Yan-yana düzdürdü Şamil.
Hələlik bir-iki sözlə,
Onlara dərsini keçdi.
Sərt baxışla, iti gözlə,
Bu dərsin tərsini keçdi.
Dərs olur hər bir dərs dərsdə,
Alırsan beşi, ikini.
Ermənilər bu tərs dərsdə,
Qandılar Şamildəkini.
Gedirik, bu elə heyik,
Sizi sərbəst buraxırıq.
Gedib bir də gələcəyik,
Deməyin, burda axırıq.
Kimsəniz desə ki, hayam,
Bax onda vay halınıza...
Gəlib şələləyəcəyəm,
Dədənizi dalınıza.

Rədd olun, rədd, biz gedirik,
Demə, sizi tərk edirik.
Gələcəyik bir də bura,
Sevdiyimiz yerdi bura.

Balıq ovu

Artıq səhər açılmış,
Artıq dan sökülmüşdür.
Qaranlıqlar qaçılmış,
Gün yerə tökülmüşdür.
Can verir gülə, suya,
Kəkliklər öz səsindən.
Baxırdı bu dünyaya,
Qartal öz zirvəsindən.
Boğulur gölməçələr,
Qurbağalar küyündə.
Salmamışdı üstündən,
Bir tükü düşməmişdi.
Uçurdu öz göyündə,
Quşlar o quşlar idi...
Nə var öz yerindəyədi,
Heç də dəyişməmişdi.
Qayalar o qayalar,
Otu, kolu üstündə.
Dağlar o dağlar idi,
Daşlar o daşlar idi.
Yağışını yağdırır,

Buludu ağlayırdı...
Qayasının döşündə,
Bulağı çağlayırdı...
Dərəsində, düzündə,
Çəmənində, çölündə,
Varmı açmamış olsun?
Hər çiçəyi açırdı.
Zəm-zəm sulu gölündə,
Sonaları uçurdu.
Donquldanan ayısı,
Çıxmırdı zağasından...
Balını qoruyurdu,
Arılar yağısından.
İtlərinin ağzından,
Asılmışdı dərdləri...
Dayanıb üzü göyə,
Ulayırdı qurdları...
Hər nə var, öz yerində,
Dağlar öz işindəydi.
Şamil də bu dağlarda,
Qalxında, düşündəydi...
Çox ümid bəsləyirdi,
Sular qovhaqovuna.
Ürəyi səsləyirdi,
Getsin balıq ovuna.
Söhbəti, sözü ilə,
Öz gününü ötürsün.
Gedəndə özü ilə,
Camalı da götürsün.
Bu axşam eyləyərik,

Elə şam, qızıl balıq.
Qoy süfrəni bəzəsin,
Bu axşam qızıl balıq.
Tanrı versin, ay tutan,
Özü bəhrə yağına.
Qızardanda yaxşıdır,
Salıb nehrə yağına.
Yoxdur, yox bu balığın,
Dadı, tamı heç yerdə.
Vallah, müalicədir,
Xəstəliyə, hər dərdə.
Yeri, yurdu gör harda,
Orda da tək özüdür.
Axır, axdıqca axar,
Buz suların gözüdür.
Bu sularda dayazı,
Dərini də bilirəm.
Dünən gördüm gözümlə,
Yerini də bilirəm.
Yağış yağa bilərdi,
Bulud da dolduğundan.
Bu işə baş qoşmadım,
Qaranlıq olduğundan.
Sərbəst gedib bu işi,
Yerində boğmaq olar.
O yer elə yerdir ki,
Soğanc da soğmaq olar.
Söz deməklə çatmaz ki,
Sözdən çox balıq olar.
Bir qayanın altında,

Yüzdən çox balıq olar.
Balacaya dəyməyib,
Onu suya qaytarmaq.
On adamla getsən də,
Olmaz tutub qurtarmaq.
Axmağını kəsmir ki,
Sular həmişə axır.
Danışıb öz-özünə,
Şamil saata baxır.
Baxır, yuxarıda göy,
Aşağıda da yerdir.
Baxır bir azdan sonra,
Artıq saat on birdir.
Elə də zildən çıxmır,
Səsi bir az pəslənir.
"Haradasan, ay Camal,"
– Camal deyə səslənir.
Gedib Camala çatır,
Şamilin bir kəlməsi.
Gəlir sığınacaqdan,
Camalın zəif səsi.
"Şamil, gəlirəm" – deyir,
Bir kəlmə asta səslə.
Seçilir bir-birindən,
Tanınır səs də səslə.
Çox da çəkmir, Camalın
Birdən başı görünür.
Düşür yerə bir anlıq,
Kölgəsi də sürünür.
Gözündən gülümsəyir,

Gülür Şamilə sarı.
“Şamil, nədir?” – deyir də,
Gəlir Şamilə sarı.
Heç nə, deyirəm, gedək,
Bu gün balıq ovlayaq.
Soyuq sulara girib,
Balıqları sovlayaq.
Şamilin bu sözünə,
Camalın gözü doldu.
Könlümüz – də açılar,
Gedək, nə yaxşı oldu.
Elə-belə gedək də,
Niyə günü ötürək?!
Lazım olar, çöldü də,
Gəl bir bel də götürək.
– Balıqçının yarağı,
Qarmağı, tilovudur.
Düz deyirsən, ay Camal,
Olar, balıq ovudur.
Bir edib iki fikri,
Bir fikrə gətirdilər.
Gəlib də razılığa,
Bir bel də götürdülər.
Bələddirlər bu yerin,
Bəndinə-bərəsinə.
Oradan tez endilər,
Düz Qoca dərəsinə.
Zodan, Kəklikli suyu,
Girib sularında üz.
Üç suyun birləşdiyi,

Bir yerə gəldilər düz.
Əzəl gündən buradır,
Balıqların bol yeri.
Gəl bura yorulmağa,
Dağ-dərə aş, yol yeri.
Bura elə bir yerdir,
Sulardan baxar balıq.
Atsan qarmağa gəlməz,
Qarmaqdan çıxar balıq.
Dağdan dağı dağlanar,
Düzü düzlənər orda.
Girər qaya altına,
Gedər, gizlənər orda.
Heç balığa bənzəmir,
Bu balıq, bu balıqdır.
Sular da balıq dadır,
İçirsən, su balıqdır.
Baxacaqsan yerinə,
Göyünə, doyacaqsan.
Torpağını iyləsən,
İyinə doyacaqsan.
Özündəndir un-duzu,
Yoğrulub xəmiri də,
Suboyu balıqlanır,
Daşının mamırı da.
Adam doymaq bilmirdi,
Suları izləməkdən.
İş görmək də lazımdır,
Oturub gözləməkdən.
Bir an fikirləşmədən,

Əlinə aldı beli.
İşlədi o yan, bu yan,
Beldə Şamilin əli.
On-on beş çim doğradı,
Bir az asırğal kəsdi.
Çim üstdəki göy ota,
Ağrıdı, könlü əsdi.
Düz qayanın boynundan,
Boybaboy daşlar düzdü.
Əvvəl asırğalladı,
Çimlədi, suyu süzdü.
Gölün suyu qurudu,
Su başqa səmtə axdı.
Şamil gözaltı göldə,
Üzən balığa baxdı.
Dinib, danışmadı heç,
Camal elə bil laldı.
Görüb bu balıqları,
Camalı maraq aldı.
Bu balıq ayrı cürdür,
Gülüydü gölün də ki...
Balığa oxşamırdı,
Heç Göyçə gölündəki.
Şamil öz işindəydi,
Çətinliyi yox heç bir.
Tuturdu balıqları,
Bir-bir, iki-bir, üç-bir.
Tutdu, o qədər tutdu,
Tutdu, çantaya atdı.
Tutduğu balıqların,

Sayı əlliyə çatdı.
Seçilmir bir-birindən,
Yan-yana qoy ikisi.
Olar bir kiloqram,
İkisinin çəkisi.
Şamil: “bəsdir, ay Camal,
Tutduğumuz” – deyib də.
Çimləri təmizlədi,
Tez başını əyib də.
Çayda qalan balıqlar,
Yığışdı otağına.
Qayıtdı da, sevindi,
Çay da öz yatağına.
Sağda idi, keçdi də,
Yenə solunda oldu.
Sular keçdi səmtinə,
Çay da yolunda oldu.
Qoy olmasın bir quş da,
Qanadından, qolundan.
Ötəricə dönsün də,
Olmasın öz yolundan.
Pul öz abbasısında,
Qalsın öz şahısında.
Tülkü öz yuvasında,
Aslan da kahasında.
İnsanıq insanlığın,
Olaq, olaq yerində.
Bulaq olur olanda,
Bulaq bulaq yerində.
Qar üstünə yağsa da,

Yazda bənövşə olur.
Öz ağacına görə,
Meşə də meşə olur.
Buyurarsa, mən də bir,
Bu yerdə daş olaram.
Uçaram, ha uçduqca,
Göyünə quş olaram.
Hər gün bir yerdə olar,
Ağlayaram, gülərəm.
Yaşayaram ömrümü,
Öləndə də ölərəm.
Şamil ayağa durdu,
Düşüncəsi özündə.
Bir an işığa döndü,
Nə var, hər yan gözündə.
Sanki oldu da işıq,
Göylər yerə töküldü.
Axşam döndü səhərə,
Dan yeri də söküldü.
Şamil yönləndi yola,
Arxasınca da Camal.
Sinəsində döyündü,
Xoş istək, xoş da amal.
Bir az aralandılar,
Üç çayın ayrıcından.
Elə bil qovuşdular,
Yad ürək, ayrı canla.
Birdən-birə bu dağ-daş,
Qəribə gəldi ona.
Elə sandı ki, hər yan,

Qəh-qəhlə güldü ona.
Suların sazağına,
Soyuğuna baxdı o.
Yerimək istəmirdi,
Ayağına baxdı o.
Əlli metr qalırdı,
Bu çaydan o bir çaya.
Tez keçmək istəyirdi,
Bu toydan o bir toya.
Onda bir hiss qalxmışdı,
Dərdinin dolacağına.
Şübhə də oyanmışdı,
Nəsə olacağına.
Tez çatmaq istəyirdi,
Oduna, ocağına.
Almışdı ürəyini,
Yad hislər qucağına.
Yolunu başa vurdu,
Bu çay, o çay arası.
Çay üstü körpü verdi,
Bu toy, o toy arası.
Şamil heç danışmırdı,
Qaldı qorxuda Camal.
Körpünün qulağına,
Gəldi arxada Camal.
Körpünün qulağında,
Şamil bir az dayandı.
Ayaqüstü yuxudan,
Sanki birdən oyandı.
Ona elə gəldi ki,

Arxada var nə isə.
Bu an döndü arxadan,
Qəfil gələn bir səsə.
Duyulurdu bu səsin,
Tövşüyür, var nəfəsi.
Eşidildi təkrarən,
– Əllər yuxarı səsi.
Bu an əsdi bu dağın,
Yelləri yuxarıya.
Tez qalxdı Camalın da,
Əlləri yuxarıya.
Gətirdi də bir fikir,
Keçirdi də beynindən.
Bircə anda çıxardı,
Şinelini əynindən.
Onu Şamil eyləyir,
Atdı bir kol başına.
Ondan ayrılıb özü,
Yatdı bir kol başına.
Gələnlərin gözündə,
Şinel bir Şamil oldu.
Atılan var gülələr,
Şinel Şamilə doldu.
Bir kəlmə danışmadı,
Şinel Şamil lalladı.
Yaxında olan biri,
Camalı qandalladı.
Gülərək yaxınlaşdı,
Sonra Şinel Şamilə.
Kolüstü can vermişdi,

Tanrı Şinel Şamilə.
O kəs gözünü ovdu,
Bəlkə, bu bir yuxudur.
Şinel Şamil yerində,
Əsl Şamil yox idi.
Doldu heyrətdən gözü,
O yan, bu yana axdı.
Məcbur oldu da o kəs,
Şinel Şamilə baxdı.

Döyüş

Basmışdı bağrına Əşrəf sazını,
Dağdan oxuyurdu, daşdan deyirdi.
Tikana batırıb güllü yazını,
Gözü ağlayırdı, yaşdan deyirdi.
Sevirdi gündəlik çörəyi kimi,
Yatırıb çalırdı sazını qəmə.
Saz da sinəsində ürəyi kimi,
Yüksəlirdi zilə, enirdi bəmə.
Çəkdiyi hər ahla, hər ağıyla bir,
Ölüb dirilirdi qəmlərin üstə.
O yana, bu yana baxmağıyla bir,
Döyüşə gedirdi simlərin üstə.
Dediyi sözlər də bir aləm idi,
Olmazdı bir dənə sözlə əyişmək.
Saz həm silah idi, həm qələm idi,
Asan da deyildi sazla döyüşmək.

Gəzirdi göyləri tüstü-tüstü, o,
Oduna yazılan yazı nə idi!
Görürdü işini isti-isti, o,
Ən isti sözü də sazına idi.
Qanad da açmırdı, düz, çölünədək
Quşlar tel salırdı, tel yuvasına.
Açan yaz gülündən güz gülünədək,
Dağlar oyanırdı el havasına.
Dağına, daşına sevgi qururdu,
Sevirdi, onsuz da, sevməyinə o!
Sığınıb qalırdı, qalıb dururdu,
Dar gündə ellərin köməyinə o.
Sevgiydi damardan axan qanı da,
Yer də qalmamışdı burda bir dərdə.
Sevgisiz olmurdu bircə anı da,
Sevgidən keçirdi nə var bu yerdə...
Sevgiydi üzünə gülən uğur da,
Dərsinə də bir gün sevgi düşəcək.
Hələ bu ilkiydi gəlib axırda,
Bilirdi, bu dünya sevgiləşəcək.
Özünü ulduzdan hörən göylərin,
Gecəsi, gündüzü çıxıb sevgidən.
Güzgüsü yoxdurmu, görən, göylərin,
Bir özünü görə baxıb güzgüdən.
Dərdinin altında sinə qalır ki,
Əşrəf də tanıdıb sazına yaxa.
Çalır da sazını, elə çalır ki,
Az qalır, ürəyi sazından çıxa.
Dolanırdı yol-yol, cığır-cığır o,
Dərəli, təpəli, düzlü dağları.

Yandırıb övkə o, yarıb bağır o,
Eyləmişdi sazlı-sözlü dağları.
Yaxına gəlirdi uzaq yollar da,
Yaxın görünürdü hərdən uzaqlar,
Axmaq istəmirdi sanki sular da,
Saza öyrənmişdi ayna bulaqlar.
Baş çəkib dərdinin hər qarışına,
Dərəylə təpəni barışdırırdı.
Saz çalıb dağların dağ duruşuna,
Sazını dağlara yaraşdırırdı.
Biri çox udanda, biri az udub,
Sayılanda çox çox, az da az kimi.
Onun sinəsində yerini tutub,
Dayanmışdı dağ dağ, saz da saz kimi.
Aşıq yox olmuşdu aşıqsayağı,
Çaylar ürəyində aşıb-daşmışdı.
Sinəsi, üz-gözü, əli-ayağı,
Nəyi var, bu dağa uyğunlaşmışdı.
Dərd dərdin dalınca çıxıb getmişdi,
Sevincin olmuşdu Şamil kahası.
Boşluqdan özünü azad etmişdi,
Səs ilə dolmuşdu Şamil kahası.
Zirvəsinə çıxan göz itirmişdi,
Saralıb vaxtından ötmüşdü güllər!
Ağac bitirmişdi, ot gətirmişdi,
İçini, çölünü örtmüşdü güllər.
Əşrəf saz çalırdı "Dubeyti" üstə,
"Dağlar" oxuyurdu yekə Şamil də.
Vurğun şeirinin hər beyti üstə,
Çoşurdu ürəkdə ağız da, dil də...

Dillənərdi bu dağ, daş sarı telə,
Olardı bir Qala, qalaça Şamil.
Bir ağız deyərdi “Baş Sarıtel” ə,
Gəlsə, oxuyardı balaca Şamil!
Zili kəklik səsi, pəsi poladdan,
Bənddi bir “Qarabağ şikəstəsi” nə.
Sanki biçilmişdi səsi poladdan,
Dostlar vurğun idi onun səsinə.
Nəyi nədən sonra oxumaq üçün,
Havaları bir-bir təkləyərdi o.
Sözündən bir söz də toxumaq üçün,
Səsini "Cəngi" yə kökləyərdi o...
Yanırdı, yandımı, sönməz olurdu,
Ayağında yerdi, başında göydü.
Çıxıb öz yoluna dönməz olurdu,
Beləydi həmişə, Şamil beləydi.
Salıb ürəyinə bu yük istəyi,
Arzusu həsrətin saçını yolmaq.
Onun istəyiydi, böyük istəyi,
Hər yerdə həmişə birinci olmaq.
Görən də yox idi onu, əyildi,
Açırdı da, solurdu da o...
Geri qalmaq onun işi deyildi,
Olurdu, birinci olurdu da o.
Axırdı bu çayda su axınına,
Doymurdu suların axın varından.
İnanırdı qaya, daş yaxınına,
Gücünü alırdı yaxınlarından.
Kim kimin əliylə büküb atmışdı,
Dərd şəkli var idi özündə dərdin.

Kim şəklə salmışdı, hansı qələmlə?
Şəkli görünürdü gözündə dərdin.
Gör necə yazıyla yazılıb sular,
Bir qayaya dönüb, bir ağa dönüb.
Gör neçə qayadan sızılıb sular,
Bir qaya döşündə bulağa dönüb.
Özündən soruşun nə oxutmuşam,
Oxudub yormuşam bir az suları.
Yorulub üstündə tər axıtmışam,
O qədər çalıb ki, bu saz suları.
Aparıb özüylə bir yazlığına,
Aparıb, suyunu atmışam çaya.
Sığındığı kimi saz sazlığına,
Mənə də sığınıb bu daş, bu qaya.
Sevgiyə bələyim, mən onu sevim,
Göy otlar döşəyim, yorğanım o çən.
Ölür günümədək bu qaya evim,
Ayrıla bilmərəm bu qayadan mən.
Canıma çəkmişəm, hər nəyi varsa,
Yay istisindəyəm, qış soyuğundayam.
Elə sevinərəm, başımda dursa,
Bərk-bərk qucaqlayım, ayağındayam.
Nə bağı saralsın, nə gülü solsun,
Yalanı döndərim, gerçəyim edim.
Mənim də qoy belə sevgilim olsun,
Dərdini gözəlim, göyçəyim edim.
Ürəyim onlarsız gülməz də heç cür,
Bax bu daş, bu qaya, bu dağ tanışım.
Xoşuma da gəlmir, gəlməz də heç cür,
Yerdə oturum da, göydən danışım.

Yaxınım saymıram ayrı bir kimi,
Bu dağdadır yerim, burdadır göyüm.
Ayağımdan tutmuş başıma kimi,
Bu yerə bağlıdır mənim hər şeyim.
O bulaq danışır, o qaya susub,
Sevirəm hər nə var daşdan güləcə!
Sazını çalırdı döşünə basıb,
Düşünə-düşünə Əşrəf beləcə.
Təpə silkələndi, dərə qovuşdu,
Dağa güllə səsi yayıldı birdən.
Arada bir azca bu səs sovuşdu,
Elə bil yuxudan ayıldı birdən.
Ona sataşmaqdır bir də gəlib də,
Atdığı gülləyə oyansın, yatsın.
Onun yaşadığı yerdə gəlib də,
Kimsənin hünəri yox, güllə atsın.
Beynindən çox şeylər keçdi bir anda,
Anlaya bilmədi, bu nə səs idi.
Durub da düşündü, görəsən, onda,
Bu gülləni atan hansı kəs idi.
Düzü, xoş gəlmədi heç ona bu hal,
Onu belə görən, demə, gülərdi.
Ov üçün getmişdi Şamillə Camal,
Bu gülləni Şamil ata bilərdi.
Sağ olmuş heç düşmür ov həvəsindən,
Biz ayrı, bir ayrı axındadır o.
Yaxında atılan güllə səsindən,
Görünür ki, gəlib, yaxındadır o.
Sən həsrət yuyursan, sən dərd sərirsən,
Yaxının olanın bir ağlar yaşdı!

Bir göz qırpımında bir də görürsən,
O dərələr keçdi, o dağlar aşdı.
Gör indi o harda, biz haradayıq,
O, döyünən ürək, danışan dildir.
Yaxşı ki, onunla bir aradayıq,
O bizə yaxındır, bizim Şamildir.
Ürəyinə gələn sözdən dedi də,
Söz həm şirin olur, həm də ki acı!
"Şamil çox qoçaqdır bizdən" – dedi də,
Qardaşı Şamilə baxdı gözucu.
Bir cürə adamdır hərə, ay Əşrəf,
Adam var, tərifdən köp verir, şişir.
Sənə bu sözünə görə, ay Əşrəf,
Ürəkdən gələn bir "Halal" dır düşür.
Yaşayacaq, ölməz igidliyinə,
Sevincdə sağalır, çəndə ağrıdan.
Bir söz ola bilməz igidliyinə,
Gözəl də insandır Şamil, doğrudan!
Tutsaq da ellərə çıraq yan-yana,
Daha işıqlıdır aramızda o.
Düzələk dördümüz duraq yanyana,.
Gözəl görünəcək sıramızda o!
Heç kim deyə bilməz, sevməkdən doydu,
Sevdiyi ağacdı,otdu, ya güldü.
Şamilin sözünü yarımçıq qoydu,
Bu zaman bir güllə səsi də gəldi.
Seçə də bilmədi bu səsi nəsə,
Bu güllə səsinə göylər əyildi.
Bu səs oxşayırdı ayrı bir səsə,
Bu səs beşaçılan səsi deyildi.

Atıb boz kağıza tənbəki bükdü,
Deyəsən, Şamilin pozuldu kefi.
Bir az xəyalını uzağa çəkdi,
Bu səs düşündürdü, deyən, Əşrəfi.
Günəş dolçasını yerə salsa da,
Olan işığını içmişdi gün də...
Bir qədər axşama hələ qalsa da,
Günortadan xeyli keçmişdi gün də...
Hamısı gözəldir, çirkindir hansı?
Qorxuram, qorxuma uça bu güllər.
Açanda açmırmı birdən hamısı?
Kim görüb ki, bir-bir aça bu gülllər.
Suları aparan bu eniş gəmi,
Axtarır durmağa sulara bir yer.
Bu dağlar, dərələr, ağaclar kimi,
Bax bir olmalıdır, adamlar da bir.
Çıxaq tülkülükdən, şirlik öyrənək,
Bir qalaq, düşməyək dondan-donlara.
Ömrümüzdə bir yol birlik öyrənək,
Gərək ki, oxşayaq biz də onlara.
Çaldığı havalar qalmışdı çaş-baş,
Əşrəfin döşündə bu saz məst idi.
Şamil ilə Əşrəf-bu iki qardaş,
Qardaş olmaqdan çox indi dost idi.
Varım sinəmdəki bax bu sazımdı,
Yolumu gözləsin nə vaxta anam.
Bilirdim hansına getmək lazımdır,
Arxada qorxu var, qabaqda inam.
Çox xoşu gəlirdi aşıq adından,
Salırdı keçmişi bir-bir yadına.

Adı necə olub, uşaq adından,
Birbaşa keçmişdi qaçaq adına.
Öz qaçaq adına açıb da qucaq,
Gendən yanınmışdı balaca Şamil.
Bu adla birinci – onlardan qabaq,
Artıq tanınmışdı balaca Şamil.
Yanırdı, yansa da, bişmək bilmirdi,
Qaçağa dönmüşdü qoçaqlıq adı.
Dillərə düşmüşdü, düşmək bilmirdi,
Elə yayılmışdı qaçaqlıq adı.
Sevinci birindən, dərdi birindən,
Açıb da olmuşdu hamısı qoçaq.
Heç də seçilmirdi sələflərindən,
Vallah, qaçaq idi, Şamil bir qaçaq.
Bilirdi torpağı, yeri-göyü nə,
Onu tanıyanlar bircə görümə.
Bircə yol baxıb da igidliyinə,
Görən oxşadırdı Qaçaq Kərəmə.
İnsanam, kim deyir pələngəm, şirəm,
Yandırır hamıtək bir közü Şamil.
Deyirdi, mən mənəm, Kərəm də Kərəm,
Qəbul eyləmirdi bu sözü Şamil.
Kimsə görməsə də onun mənini,
Bunu Əşrəf, Şamil, Camal görürdü.
Görəndə ellərin ağır gününü,
O saat özündə pis hal görürdü.
Bu dağ-daş yanında vardı haqları,
Yaşayırdı bu su, bu hava ilə?
Elə bilinmirdi ayrılıqları,
Qaçaqlar bir idi el-oba ilə.

Gücləri çatanı-bircə içim su,
Verib el işinə yarayırdılar.
Yaxından-yaxına olmasa da bu,
Gendən bir-birini arayırdılar.
Bir-birinə sevgi daşıyırdılar,
Birbirini dəli-dəli sevirdi.
Qarşılıqlı sevgi yaşayırdılar,
El onları, onlar eli sevirdi.
Var vətən, var ana, var yar sevgisi,
Və sair sevgilər, sevgilər çoxdur.
İlkdə beşik, sonda məzar sevgisi,
Heç yerdə, heç kimdə bu sevgi yoxdur.
Sevgi var, sevgi yox, bax de nəyində,
Bu duru sulardır bulaqda sevgi.
Balığı çayında, quşu göyündə,
Adama ləzzətdir bu dağda sevgi.
Yanırsan, görürsən, qara kömürsən,
Nə yansa, odundan kül-kül sökülür.
Baxırsan, nə çiçək, nə daş demirsən,
Hər yandan üstünə sevgi tökülür.
Üzündə həyası bizi qoruyur,
Bulaqlardır bizim azadlığımız.
Hər daşı, qayası bizi qoruyur,
Bu dağlardır bizim azadlığımız.
Dərdim ürəyimə salıb min düyün,
Sol bilib, salıb da bu sağdan ayrı.
Vallah, bircə anda – nə saat, nə gün,
Yaşaya bilmərik bu dağdan ayrı.
Dəyər bu dünyanın min səngərinə,
Qaya səngərimiz, daş səngərimiz.

Girib də bilərsən sən səngərinə,
Bu dağlardır bizim baş səngərimiz.
Bizim dərdimizlə qoşadır o ki,
Halal eyləyirik qanımızı da...
Bizi bizim kimi yaşadır o ki,
Öləndə o alsın canımızı da.
Olaq yolumuzda, yolağımızda,
Düşüb yad əllərə boğulmayaq kaş.
Sevinək, su olsun bulağımız da,
Dərddən qurumayaq, soğulmayaq kaş.
Əşrəf saz çalırdı döşünə sıxıb,
Hələ qoymamışdı sazını yerə.
Qoymaq istəmirdi dağlara baxıb,
Ömrünün-gününün yazını yerə.
Yüksəlib endikcə "Koroğlu Cəngi",
Sazı sinəsinə yuva edirdi.
Sazında dindikcə "Koroğlu Cəngi",
Elə bil düşmənlə dava edirdi.
Neçə eloğlusu hələ dardaydı,
Sazı həm saz, həm də silahdı ona,
Sevinc tapılmırdı, sevinc hardaydı,
Çəkdiyi bir qəm də silahdı ona.
Ya andı var idi bu çayda suya,
O yerə qoymurdu özünü ya da...
Xəyalı uçurdu Qoç Koroğluya,
Ürəyi gedirdi Dədə Qorquda.
Bu dünya nə gəldi, nə gedərdi ki,
Bu yana min ildən eşitdikləri.
Təkcə bu ha deyil, o qədərdi ki,
Balaca Şamildən eşitdikləri.

Şamil güllənirdi gülün ağzında,
Həm də bir dağ idi bu dağda özü.
Qaçaq çağrılırdı elin ağzında,
Daha işlənmirdi balaca sözü.
Sözünün allahı üzünə baxıb,
Ancaq yaxşı nə var vermişdi ona.
Tezcə səs salmışdı su kimi axıb,
Qaçaq Şamil deyə adı hər yana.
Ayağında yeri, başında göyü,
Almazdı, neynirdi, gətir, ona ver.
Ona gənəşirdi, ancaq hər şeyi,
Dostlara olmuşdu, gənəşikli yer.
Götürmürdü, dünya sözünə dardı,
Onda ağır idi söz çəkisindən.
Həm ürəyi vardı, həm ağlı vardı,
Çünki yarımışdı hər ikisindən.

***

Şamil yol gəlmişdi, elə-belə yox,
Balaca Şamildən Qaçaq Şamilə.
Gör görə bilirsən, indi burdan bax,
O uşaq Şamilə, qoçaq Şamilə.
Əyirdiyi sözə boyun əyirdi,
Olurdu cümlələr toxumağında.
Əşrəf saz çalırdı, Şamil deyirdi,
Davam eyləyirdi oxumağında.
Birdən bu bir, bu beş, bu da on güllə,
Güllə səslərinə səksəndi Şamil.

Atıldı, olmadı bu heç son güllə,
Bir anlıq özünü tək sandı Şamil.
Özünü tək sandı elə bil onun,
Deyildi yanında qardaşı Əşrəf.
Nitqi də tutuldu, hələ bil onun,
Əyildi yanında qardaşı Əşrəf!
Hamını mat qoyan hər cəldliyiylə,
Cəldliyi şimşəkdən o uca Şamil.
Bu zaman nə oldu, şir cəldiyiylə,
İçəri atıldı, balaca Şamil.
Quşlar yad budağa qondu yerində,
Çiçəklər bilmədi, nə solduğunu...
Bir anlıq qaçaqlar dondu yerində,
Anlamadılar da nə olduğunu.
Bir ucuz ölümmü gəldi gözünə,
Ölümün gözüylə gözünə baxdı.
Birdən qəh-qəh çəkib güldü gözünə,
Əşrəf tez sazını döşünə sıxdı.
Dərdini sazından almaq istədi,
Sazının dərdini nə alacaqdır.
Dərdinə bir hava çalmaq istədi,
Bir kimsə bilmədi, nə çalacaqdır.
Baxdı, bir də baxdı bu dərə, dağa,
Gördü bir yan qara, bir yan da ağdı.
Onların olduğu sığınacağa,
Bu an od püskürən güllələr yağdı.
Çıxsan,bir ayrı səs-küyə çıxardın,
Bu çaxış deyildi, şimşək çaxışı.
Tuta bilsən, tutub göyə çıxardın,
Hər yanı yağışdı, güllə yağışı.

Nə ola, bu dağlar geri axaydı,
Geriyə dönəydi bu dönüş altda.
Bir yana çıxmağa yol da yoxuydu,
Bir yoxuş üstəydi, bir eniş altda.
Burdan çıxmaq üçün uzun, ya qısa,
Qoyalar altından yol keçməliydin.
Özləri ilişib neçə kol-kosa,
Yollara ilişən kol keçməliydin.
Gələr, gəldiyini bilib onların,
Köçəndə onlarla köçürdü onlar.
Elə-belə ha yox, gəlib onların,
Ovcunun içindən keçirdi yollar.
Yolları cütündən təkinə qədər,
Yoxuş-yoxuş, düz-düz tanıyırdılar.
Döngəsinə qədər, dikinə qədər,
Cığır-cığır, iz-iz tanıyırdılar.
Olmazdı, heç ayrı hallarda qalmaq,
Onlar ölməzdilər bu yollarda da.
Ayıb sayılardı yollarda qalmaq,
Qala bilməzdilər bu yollarda da.
Asıb yarağını çiynindən Şamil,
Alnı düyünləşdi, qaşı çatıldı.
Bunları keçirib beynindən Şamil,
Bir göz qırpımında çölə atıldı.
Səhərlərdə yandı, axşamlar söndü,
Bu yurdda gör neçə günü dəyişdi.
Bir anda atılan yerindən döndü,
Artıq güllələrin yönü dəyişdi.
Sığınıb bir dərdə sanki bir dosttək,
Bəndədən yox, gəldi bu dostluq haqdan.

Şamillə bir yerdə sanki bir dosttək,
Güllələr də çıxdı sığınacaqdan.
Atılıb, elə bir yerdə durmuşdu,
Atılan güllələr keçirdi yandan.
Burda özünə bir binə qurmuşdu,
Deyəsən, güllələr küsmüşdü ondan.
Doğmaya atmırdı, yada atırdı,
Durub da tək özü fələyə qarşı.
Ölüm gülləsini o da atırdı,
Hərdənbir atılan gülləyə qarşı.
Qoyma gəl, düşmənlər bükə Şamili,
Mənim bu halıma sən də qatıl bir.
Şamili səslədi, yekə Şamili,
"Ayə, nə durmusan, çölə atıl bir".
Görmürsənmi, dönüb haqq mənə doğru,
Düşmənlər bilsələr, buna yatmazlar.
Güllələr çevrilib bax mənə doğru,
Qorxma, sənə sarı qorxma, atmazlar.
Ömründə bircə yol dolmayan
Şamil, Könlünü, gözünü buluda vurdu.
Bayaqdan özündə olmayan
Şamil, Şamilin səsinə ayağa durdu.
Durub deməliydi sözü bişmişkən,
Heç onu düşmənlər görməməliydi.
Çölə çıxmalıydı fürsət düşmüşkən,
Bu fürsəti əldən verməməliydi.
Çoxdandır, basıbdır toz pencəyimi,
Qoy göyə ucalsın toz qaya üstdən.
Əynimə geyinim boz pencəyimi,
Sürüşüm də, düşüm boz qaya üstdən.

Qalmışam arada öl, bir ol ilə,
Ol öldən, öl də ki oldan keçmədi.
Çölə çıxa bildi o bu yol ilə,
Quşlar da qayadan onu seçmədi.
Olsa, dincələrdi bir budaqaltı,
Bu balaca Şamil, bu yekə Şamil.
Gülümsədilər də bir dodaqaltı,
Baxıb bir-birinə bu iki Şamil.
Əşrəf sarılmışdı yenə sazına,
Ölüm iyi vardı bu sarılmaqda.
Dərdi durulmuşdu yenə sazına,
Olum iyi vardı bu darılmaqda.
Duruluğu olub qoca dağların,
Bulağa dönmüşdü coşmasında o.
Ruhunu tutmuşdu uca dağların,
Ələsgərin "Dağlar" qoşmasında o.
Bilmirdi, sızlayır bu dağ, bu dərə,
Özünü dumana, çənə salırdı.
Atmaq istəmirdi döşündən yerə,
Çalırdı sazını, yenə çalırdı.
Çalırdı çalmaqdan yorulmurdu da,
Necə ki axmaqdan yorulmur çaylar.
Sazına bircə yol durulmurdu da,
Necə ki yaz günü durulmur çaylar.
Dostları nə qədər səsləsələr də,
Saz səsindən başqa səs eşitmirdi!
Qorxunu qoyurdu isti səslərdə,
Qorxu filan onu heç üşütmürdü.
Daşa keçirtmişdi kor yuxusunu,
Yuxulu gözləri yaşla dolmuşdu.

Qırağa atıb da öz qorxusunu,
O hər bir qorxudan azad olmuşdu.
Ölümdən də burdan getmək ağırdır,
Burdan getməlidir elə bu anda.
Deyəsən, canından bir-bir çıxırdı,
Baş alıb qaçırdı qorxular ondan.
Öz sinə yerindən asıb sazını,
Yerdən silahını əlinə aldı.
Basdıca bağrına basıb sazını,
Sanki sabahını əlinə aldı.
Bayıra atıldı, ürəyi düşdü,
Qaraldı, ağardı bir an nəfəsi.
Birbirinə dəyib dərəyə düşdü,
Güllənin səsiylə Əşrəfin səsi.

Tədbir

Əşrəf ayaq üstə dura bilmirdi,
Atışmada bir az yaralanmışdı.
Gülmək istəyirdi, üzü gülmürdü,
Çox şükür, ölümdən aralanmışdı.
O öz duyumunda, duyğusundaydı,
Doğrudan, ölümmüş həyatın sonu.
Qayğı göstərirdi, qayğısındaydı,
Dövrəyə almışdı qaçaqlar onu.
Elində qoyduğu sonasından da,
Hələ görməmişdi bu qədər sayğı.

Doğma bacısından, anasından da,
Hələ görməmişdi bu qədər qayğı.
Ürək qoparardı, can aparardı,
Görən, nə dolardı, gözlər dolmasa.
Vurulduğu yerdə qan aparardı,
Bəlkə də, ölərdi, Şamil olmasa.
Seçmişdi, birinə deyib də o bəs,
Verilsə də ona neçə butalar.
Gen günə nə var ki, yalnız, yalnız "dost,
Dar gündə tanınar", – deyib atalar.
Xoşuna gəlmirdi bu cür salamlar,
Deyəsən, gözləri dolmuşdu onun.
Bu cür müdrik sözlər, şirin kəlamlar,
Dilinin əzbəri olmuşdu onun.
Dünyanın işini min yerə yozdu,
Tıncıxdı sinədə bir az nəfəsi.
Hər yan sükutdaydı, sükutu pozdu,
Çıxdı ağayana Şamilin səsi.
"Bizi qorxutmasın dərd ucalığı,
Dostlar, bir iş çıxmaz belə durmaqdan.
Qəbul etməliyik bu acılığı,
Həqiqət yaxşıdır xəyal qurmaqdan.
Allahın verdiyi günə bərəkət,
Əyləşdiyimiz daş bir şah taxtıdır.
Hərəkət lazımdır, bizdən hərəkət,
Sözdən hərəkətə keçmək vaxtıdır.
Göydə bizə görə bulud da doldu,
Salaq işimizi, bir yönə salaq.
Artıq keçən keçdi, olan da oldu,
Gələn günümüzün qeydinə qalaq.

Dərd çəkən özünə qəm əkəsidir,
Əkməsə, əkdiyi olar havayı.
Bu dağın döşündə kim çəkəsidir,
Bizim dərdimizi bizdən savayı.
Biz ki dağ zirvəsi, qaya salıyıq,
Gəlin işimizi qoymayaq belə.
Tezliklə onu da qurtarmalıyıq,
Yağı əlindədir Camal da hələ.
Şahid dursun mənə bu cığır, bu iz,
Açıb ki, açmasa, o çiçək solmaz.
Əgər onu qoysaq yad əllərdə biz,
Bu elə qardaşlıq, nə dostluq olmaz.
Heç də bu deyil ki, həyatın sonu,
Həyatın özü də bir gündə deyil.
Əşrəf yaralıdır, bilirəm bunu,
Harasa getməyi mümkün də deyil.
Bu gün bu gündədir, keçmiş keçmişdə,
Çalaq gələcəyi o qara sazca.
Ancaq olsa, olsa mənim bu işdə,
Köməyim olacaq Şamil bir azca.
"Çıxaram hər yana, sən gecə desən,
Sənin bu sözünə könlüm yetəndi.
Köməyin olaram, bax necə desən,
Şamil, o nə sözdü" – Şamil dilləndi.
Bir azca başını yana əyərək,
"Qurban olum, qardaş, dostun pisinə.
Köməyin olacaq hər cür", – deyərək,
Əşrəf də səs verdi onun səsinə.
Bir yerə qoyub da sözü, bir sözlə,
Düşündü, daşındı dostlar bir daha.

Dünən baxırdıqsa ayrı bir gözlə,
Başqa gözlə baxaq gərək sabaha.
Lənət olsun yoldan dönənimizə,
Gedək yolumuzu, bir daha gedək.
Bu gündən baxıb da dünənimizə,
Bu gündən də tutub sabaha gedək.
Gedək, dostlar, gedək bu yol bizimdir,
Deyib Qaçaq Şamil coşdu bu yanda.
Ürəyinə yazdı, beyninə yazdı,
Yazdı da bir qoşma, qoşdu bu yanda.
Kim deyir, bu dünya gəldi-gedərdi,
Sevsən, görərsən ki, sevgin qədərdi,
Bax gör sevinc sevinc, kədər kədərdi,
Heç demə, bu dünya boşdu bu yanda!
Bu köç kiminkidir, bacar seç indi,
Mənimdir, onundur, sənin köçündür,
Sevinci yaşamaq hamı üçündür,
Dünya yaşamağa xoşdu bu yanda!
Ya sevincdən alıb, ya qəmdən alıb,
Alıb özü bilər, hər kimdən alıb,
Uçuram bilərəm, sinəmdən alıb,
Dərd sinəmə qonan, quşdur bu yanda!
Qarası olarmı ağına əvəz,
Sağı sola, solu sağına əvəz,
İkisi bir yerdə dağına əvəz,
Qayadır o yanda, daşdır bu yanda!
Durur irəlidə, geridə durur,
Göyü duyursa da, yeri də duyur,
Bax biri anlayır, biri də duyur,
Ürəkdir o yanda, başdır bu yanda!

Sevən sevgili var, sevilən yar var,
Keçməyə qabaqda gör neçə dar var,
Bir yanda çiçək var, bir yanda qar var,
O yanda yazdırsa, qışdır bu yanda!
Nə usanar, nə də bezərdim ona,
Gəzərdim dünyanı, gəzərdim ona,
Dərdim bir olsaydı, dözərdim ona,
Dərdim bir ha deyil, beşdir bu yanda!
Ağlayarsan, sonra gülərsən məni,
Özün apararsan, gələrsən məni,
O yana çıxara bilərsən məni?
Bir gün ölüb qalsam, işdir bu yanda.
Yenə bu yer var ki, yenə göy var ki,
Bax onu duymağa məndə hey var ki,
Biləsən, dünyada elə şey var ki,
O yanda diridir, leşdir bu yanda.
Hər şeyi yaradan, öldürən dünya,
Yox edib dünyadan sildirən dünya,
O yanda kimisə güldürən dünya,
Mənim ürəyimi deşdi bu yanda.
Mənimlə bir yerdə qocalan dərdim,
Acılan, gəl mənə acılan, dərdim.
O yanda gözümdə ucalan dərdim,
Niyə gözlərimdən düşdü bu yanda?!
Danışdı, danışdı nəfəs dərmədi,
Deyib qoşmasını susdu bir anda,
Şamilin Şamili gözü görmədi,
Əşrəfi bağrına basdı bir anda.
Gedirəm, gedəni tez yola salın,
Sanki bu sözüylə özünü qurdu.

Di yaxşı, sağ olun, salamat qalın,
Mən getdim, – deyib də ayağa durdu.
Qoruyacağam bax, mən bir özümü,
İnanmayın, yaxşı, ayrı bir sözə,
Nə sözüm olanda mənim sözümü,
Ancaq çatdıracaq Alırza sizə.

Məhəmməd oğlu Alırza

Yerindən hamıdan qabaq durmuşdu,
Rüstəmin nəvəsi Məhəmməd oğlu,
Yetmişi keçən il başa vurmuşdu,
Elin sözü, səsi Məhəmməd oğlu.
O bulud göylərdə doldu, dolmadı,
Ürəyi əsərdi bir yağış deyə.
Özündən asılı oldu, olmadı,
Hərdən də gözucu baxıb zirvəyə.
Deyərdi: "A qartal, boynunu bükmə,
Ürəyim də uca, dağlardan uca!"
Ağappaq yun corab, xrom da çəkmə,
Ağ yollar düşmüşdü ayağındaca.
Gah gündə olmuşdu, gah da dumanda,
Gəlmişdi ağdan düz qaraya qədər
Yaxşı da olmuşdu yolu, yaman da,
Çox yoldan keçmişdi buraya qədər.
Bələnmişdi toza, düşmüşdü qara,
Həm isti, həm soyuq yollar görmüşdü.
Yaxın da, uzaq da olursa hara,
Boynuna sarılan qollar görmüşdü.

Sevincdə soyuyub, dərddə yanmışdı,
Xoşu gəlməmişdi, ancaq heç küldən,
Hər yerdə sevgiylə qarşılanmışdı,
O sevgi görmüşdü ancaq ki eldən.
Adam böyük olur, yurdda yurduyla,
Yurdsuz böyük olmaq asandır bəyəm?
Tanınar, tanınsa insan dərdiylə,
Dərdi olmayan da insandır, bəyəm?
Dərd verdin, dərd qəmdən bol oldun da,
Bu anam cığırdr, o atam yoldur.
Biz saldıq, döndü də yol oldu o da,
O sevgim cığırdır, bu butam yoldur.
Olmasın mürgülü, həm də yuxulu,
Qoy olsun analı-atalı yollar.
Olmasın, görməyək heç vaxt qorxulu,
Qoy olsun sevgili, butalı yollar.
Bu gündüz də durur, gecə də durur,
Gündüz də, gecə də sevgimizə yol.
Çəkmişik, bir bax gör necə də durur,
İşığımıza yol, kölgəmizə yol.
Hərə salıb gedir bir səs yoluna,
Getmə ayrı yola, öz yoluna çıx.
Yoluna oxşayır, hər kəs yoluna,
O bizə, biz ona yaraşırıq bax.
Oluram-olmuram sürgün yoluma,
Görürəm, yoluma hoyum görünür.
Çıxıram yoluma, hər gün yoluma,
Çıxıram yolumda boyum görünür.
Bələnsəm də, təzə nə olsun yenə,
Nə həsrət çəkmişdi, nə qəm yemişdi.

Boyumu görəndə bu yolda mənə,
Anam öz canını qurban demişdi.
Əlləri bu yolda çox qoldan tutub,
El də elə-belə sanılmamışdı.
Gör hardan gəlmişdi bu yoldan tutub,
Yolunu bir yol da yanılmamışdı.
Bu dağda dağ idi, duruşda özü,
İlkdə də bir idi, sözü sonda da.
Döyüş də görmüşdü, vuruş da özü,
Bax qalib olmuşdu hamısında da.
Qıraqda çox olur can-can deyənlər,
Bilmir ki, can demək cana köməkdir.
Özü qan görməyib qan-qan deyənlər,
Görəsən, bilirmi, qan nə deməkdir?!
Çəkilə bir candan çəkilən qanlar,
Bir ölən yolunda, itən yolunda.
Qan sayılmır ayrı tökülən qanlar,
Qan ancaq tökülər Vətən yolunda.
Eşqi ürəyində, başında ağlı,
Yolu xoş arzuya, muraza idi.
Rüstəmin nəvəsi Məhəmməd oğlu,
Alırza da başqa Alırza idi.
O bir üz olmuşdu, dərdisə min üz,
Elə az deyildi dərdi indidən.
Min doqquz yüz beşdən on səkkizə düz,
O keçib gəlmişdi otuz yeddidən.
Elindən-günündən qoparmışdılar,
Gör neçə igidi, neçə dəlini.
Gözünün önündə aparmışdılar,
Əmisi nəvəsi Məmmədəlini.

Əmrsiz eyləyib sözü, əmrsiz,
Heç kəsə etməyib yandan bir soraq.
Elə getmişdi ki, səssiz-səmirsiz,
İndi də yox idi ondan bir soraq.
Bir gecə evindən götürmüşdülər,
Ona çatmamışdı kimsənin əli.
İzini, tozunu itirmişdilər,
O gedən getmişdi Məhəmmədəli.
Göydə tutulmuşdu, ay da, ulduz da,
Dünya qaralmışdı ayrılıq anı.
Buna bəs deməyib otuz doqquzda,
Şərləyib də onun oğlu Salmanı.
Elindən, günündən qoparmışdılar,
Onu da rusbaşlar aparmışdılar.
Bunu ağlamamaq bir gün də deyil,
Ayrı necə olur könül soyutmaq.
Hamı bilirdi ki, mümkün də deyil,
Gedər-gəlməz adlı yerdən qayıtmaq.
Onlar getmişdilər gedər-gəlməzə,
El-oba dönmüşdü, ağlar-gülməzə.
Onun yanmağından, sənin tüstündən,
Bu dünya od ilə bizi daşladı.
İki il keçmədi bunun üstündən,
Dünyada ən böyük savaş başladı.
Bu göylə, bu yerlə, torpaqla belə,
Bu hava, bu işıq, su müharibə.
Bir anda ildırım sürətilə,
Səs saldı hər yana bu müharibə.
Çoxunun çatladı dərdi bağrında,
Çünki bildilər ki, bu ayrı yoldur.

Canını verməyə yad el uğrunda
 Çoxu da məcburən getməli oldu.
Bilirdi Alırza artıq, nə nədir,
Bilirdi ağlına, başına görə.
Onda onun yetmiş yaşı var idi,
Onu saxladılar yaşına görə.
Onu yer-yurdundan qoparmadılar,
Axır əyildilər burda bir bəyə.
Bədxahlar neynədi, aparmadılar,
Alırza getmədi müharibəyə.
Bölmədi heç ömrü-günü belə bir,
Oldu öz işiylə, oldu gücüylə.
Öz doğma obası, eli ilə bir,
Oturdu gündüzlə, durdu gecəylə.
Yollar ayağında bilmədi yatıb,
Necə gəlib keçdi köç bilinmədi.
Yaşadı gecəni gündüzə qatıb,
Gecəsi, gündüzü heç bilinmədi.
Yanmışdı yerinə od qazanmışdı,
Sönmüşdü külünün yavanlığından.
Eldə tanınmışdı, ad qazanmışdı,
Hələ çox qabaqdan-cavanlığından.
Uzaq keçmişinin davası Rüstəm,
Havası olmuşdu bir yer göyünün.
O Pirverdi oğlu babası Rüstəm,
Koxası olmuşdu doğma köyünün.
O sevinc namuslu, bu dərd qeyrətli,
Onun üçün birdi sevinc də, qəm də.
Olduğuna görə pullu-dövlətli,
Ona deyərdilər "Çeti Rüstəm" də.

Əsir Camal

Camal tutulduğu bu iki gündə,
İki saatdan bir yoxlanılırdı.
Bu ağır, bu ölhaöldəki gündə,
Dirəyə sarıqlı saxlanılırdı.
Hər gün eyni sayda, eyni boyda da,
Soldatlar çardağa gəlib dolurdu.
Elə eyni vaxtda, eyni qaydada,
Altı saatdan bir sorğu olurdu.
Bu yersiz verilən yad suallardan,
Verə bilməmişdi, cavab gəzmişdi.
Yad iyi gəlirdi yad suallardan,
Daha iyrənmişdi, Camal bezmişdi.
Üzünə söyüşlər deyilirdi də,
Yüngül, elə-belə ötmürdü bu iş.
Çox vaxt təpiklənir, döyülürdü də,
Tək sorğu-sualla bitmirdi bu iş.
Ağrıdan nazilir, sapa dönürdü,
Canında o qədər ağrı qalırdı.
Hərdən aralıqda topa dönürdü,
Bu vurur, o vurub ona salırdı.
Neyləsin, Camal tək, onlar çox idi,
Güc yox gələnində, gedənində heç.
Canında sağ qalan bir yer yox idi,
Tutar qalmamışdı bədənində heç.
Sancırdı sinədə hərdən ürəyi,
Dostları ondan çox uzaq Camalın.

Gömgöy göyərmişdi boynu, kürəyi,
Canı sızlayırdı yazıq Camalın.
Doğma anasına dili çatmırdı,
Gedə də bilmirdi, yolu bağlıydı.
Uzatsın bir dosta, əli çatmırdı,
Ayağı bağlıydı, qolu bağlıydı.
Qaldıra bilmirdi, qolu yox idi,
Onu bağlamışdı qoldan olanlar.
Bir yana çıxmağa yolu yox idi,
Yolunu kəsmişdi yoldan olanlar.
Gəlmə, görmə onu, gəlməyə bilsən,
Davam eyləyirdi hələ vəhşilik.
Yumub barmağını de, deyə bilsən,
Harada olmuşdur belə vəhşilik?!
Ağında çox azıq, qarasındayıq,
Olsun, nifrət olsun vəhşiliklərə.
Biz ki ikisinin arasındayıq,
Bax salacalara, bax beşiklərə.
Ya bir ürəksizlik, ya cansızlıqdan,
Canını qaldır da, ürəyini aç.
Əl çək vəhşilikdən, ya qansızlıqdan,
Ey insan, insan ol, insanlığa qaç!
Min kərə dözərdi, minə nə vardı,
A doğma dərələr, a doğma yollar.
Yerində deyilsə, yenə nə vardı,
Camalı əzirdi yersiz suallar.
Biri deyirdi ki, Şamil hardadır?
Əşrəfin, Şamilin yerini söylə.
Aranamı qaçıb, ya dağlardadır?
Birini deməmiş birini söylə.

Danışırdı, dili rusun dilidir,
Olacaqmı qaçmaq bu adamlardan?
Bilmirdin ağıllı, yoxsa dəlidir,
Olmurdu baş açmaq bu adamlardan.
Hamı narazıydı, soruşsan kimdən,
Elin içinə bir qorxu salmışdı.
Neyləmək olar ki, müəllimindən,
Alanda dərsi belə almışdı.
Gəlməzdi ağlına, gələrdi kimin,
O mənim öz oğlum, qızım idimi?
Belə dərs keçməyi o müəllimin,
Bu gün bu ellərə lazım idimi?
Gün gələr, bu dünya ona da qalmaz,
Gün gələr, onun da yeri yurd olar.
Bu cür adamlardan qəhrəman olmaz,
Qəhrəman mərd olar, igid mərd olar.
O qan bağışlayar, qan keçər ancaq,
Sevgisi Günəşdi, istəyi dandı.
İgid qeyrətinə and içər ancaq,
Ən ilahi anddır, igidlik andı.
O papaq yaraşmaz, o taxt yaraşmaz,
Yaraşmaz igidə özünü öymək.
Yaraşmaz igidə, heç vaxt yaraşmaz,
İmkansız olanı bu cürə döymək.
Düşünür bir belə, anlarda adam,
Bunların ürəyi, canı nədəndir?
Adam qanı yoxdur, bunlarda adam,
Görəsən, bunların qanı nədəndir?!
Bəlkə, heç onlarda ürək yox, can yox,
Onda bədəndə nə daşıyır onlar?

Damarlarında da bir damla qan yox,
Süni dərmanlarla yaşayır onlar.
Ağrılara dözdü, dərdə tab tapdı,
Canında canını dolandı dərdi.
Gah cavab tapmadı, gah cavab tapdı,
Camal öz-özünə çox sual verdi.
Birdən də unutdu düşdüyü darı,
Ürəyində neçə acı göynədi.
Əşrəfdən, hər iki Şamildən sarı,
Kövrəldi, burnunun ucu göynədi.
Bir anlıq dərindən nəfəs aldı da,
Elə bildi hoya gəldi dostları.
Düşdü ürəyinə, orda qaldı da,
Ona ağlamadı, güldü dostları.
Qəfil dik atıldı bu gəlişdən o,
Ürəkdən sevindi dost gəlişinə.
Heç də incimədi bu gülüşdən o,
Axı həsrət idi dost gülüşünə.
Gedəsən, odundan lap qapasan da,
Yanasan uzaqda, olmaya tüstün.
Toy-bayrama dönür dost qapısında,
Atalar da deyib:"gəlişi dostun".
Gəzir ucaların ucalarını,
Biri çıxıb gedir biri gələndə.
Ona unutdurur acılarını,
Xəyal şirin olur yeri gələndə.
Gərək mən də gülüm dostlar gülmüşkən,
Könlündə şax tutdu ağrılarını.
Elə bu xəyalla yeri gəlmişkən,
Camal da unutdu ağrılarını.

Xəyalında uçdu Çətindərəyə,
Məcidvurulana qayıtdı ordan.
Bələddir orda hər bəndə-bərəyə,
Onlar qurtarmışdı onu çox dardan.
Doğurdu burda hər nəğmədən nəğmə,
Bura bir ocağın, bir odun yurdu.
Ona doğma idi, doğmadan doğma,
İsgəndər Qışlağı, Mahmudun yurdu.
Bir yurd ki, suyunu içə min ilin,
Sığınacaq ola obaya elə.
O başından gələn neçə min ilin,
Yusifin yurdunu demirəm hələ.
Almışdı dünyanın dadını burda,
Tamını dadmışdı sevincin, dərdin.
Qonağı olmuşdu adını burda,
Çəkə bilmədiyi çox belə yurdun.
Özünə qaytardı onu duyğular,
Qayıtmalı idi, əlac yox idi.
Ona göstərilən bu cür qayğılar,
Həmzə talasında daha çox idi.
Göstər var, yox belə harda kişilər,
Düz olsun bunlartək əməli, işi.
Çoxdur qonaqsevər burda kişilər,
Qüdrət, Həmidalı, Süleyman kişi.
Səmtini bilirlər hər əsən yelin,
Qorxmazdırlar, kimdən qorxasıdırlar.
Gözümlə görmüşəm obanın, elin,
Dar gündə, gen gündə arxasıdırlar.
Yaylaq yaylağında, dağ da dağında,
Nöqsan axtarmırdı biribirində.

Qara qarasında, ağ da ağında,
Göy göyündə idi, yer də yerində.
Qayası yaraşır dağın boyuna,
Dərdi sinəsində dərbəbdər idi.
Axanda axırdı suyu suyuna,
Daş daşı üstündə yerbəyer idi.
Olanda yaxşıdır söz görkəmində,
Qal söz yarasından, Həmzə talası.
Gözəl görünürdü öz görkəmində,
Dörd dağ arasında Həmzə talası.
Çoxunun arzusu, amalı onda,
Çevrilə bilərdi üz qarasına.
Asa bilərdilər Camalı onda,
Qəfil tuş gəlmişdi söz yarasına.
Günün bu anında, elə bu gündə,
Dayanardı gedən qatar, heç nə yox.
Ya da gedə bilər qatar bu yöndə,
Özünü qatardan atar, heç nə yox.
Həmişə yanandır, odu sönməzdi,
Çox üzü gülərdir Həmzə talası.
Bir də yurdlaşmazdı, yurda dönməzdi,
Biryolluq ölərdi Həmzə talası.
Ulamaq istəməz burda Bozqurd da,
O Şamil qayası əysə qəddini.
Bir şimşək gücündə bir vaxt bu yurdda,
Züleyxa itirib Məhəmmədini.
Yaddaşdan itməyib, ağılda qalıb,
Bura gəlib-gedib gör neçə dəli.
Qoyunu, quzusu ağılda qalıb,
Burdan sürgün olub Məhəmmədəli.

Çoxdakı qoyunu, quzusu çoxdur,
Bir kəs bilməyib ki, o nədən gedib.
Şahın sorğusuna heç cavab yoxdur,
Bir də qayıtmayıb o gedən gedib.
Düşüb axınına dərd axınının,
Gələni olmayıb heç gerisindən.
Olmayıb bir belə ən yaxınının,
Xəbəri ölüsü, nə dirisindən.
Bir üzü ağlayıb, bir üzü gülüb,
Olub Günəş, həm də duman günləri.
Yan-yana qoyanda bərabər gəlib,
Yaxşı günü ilə yaman günləri.
Yamanlığa dönür sondan yaxşılıq,
Elə öldürürdü, ölüm ölmürdü.
Yaxşılıq görmüş o, ondan yaxşılıq,
Hələ bir çox şeyi Camal bilmirdi.
Gələn bilməliydi, gedən bilməli,
Ey gələn, gəl səni, qoy çoxu görsün.
Nədən bilməliydi, nədən bilməli,
Axı nə yatmışdı, nə yuxu görsün.
Açıq görəcəkmi qolunu bir də,
Çırpındı ölümlə olum əlində.
Həmzə talasında – ən yaxşı yerdə,
Qalmışdı bir ovuc zalım əlinda.
Camal olar ikən bu düşüncədə,
Qəfil ürəyindən gör nə keçdi, gör.
Yox, sona çatacaq bu işgəncə də,
Sözünü su kimi gör nə içdi, gör.
Bilirəm, gələcək, Şamil gəlib də,
Yoxa çevirəcək bu zalımlığı.

Qəh-qəhə çəkərək bir az gülüb də,
Gülüb devirəcək bu zalımlığı.
Açıla bilməz ki, dördü, beşiylə,
Xəzana dönəcək bu zalımlıqlar.
Ən yaxşı adamın yaxşı işiylə,
Məzara enəcək bu zalımlıqlar.
İçməyə artıqdı su zalımlara,
Çaşıb su yerinə qana öləcək.
Qan da udduracaq bu zalımlara,
Ürəyimə damıb, Şamil gələcək.
Yurdunu alacaq zalım əlindən,
Geri qaytaracaq aran, dağımı.
Alacaq əlindən, zülmün əlindən,
Özümə verəcək azadlığımı.
Ömrüm tərs yöndədir, günüm düz yöndə,
Özüm də qürbətəm azadlığıma.
Bir özüm bilirəm bu neçə gündə,
Nə qədər həsrətəm azadlığıma.
Yerində sevinc də, qəm də yaxşıdır,
Ondan da yaxşıdır azad yaşamaq.
Nəinki özünü, həm də yaxşıdır,
Üstündə adını azad daşımaq.
Bir bax çiçəyində, yarpağındadır,
Almanın, armudun, badamın gücü.
Bitən nə var gücü torpağındadır,
Azadlığındadır adamın gücü.
Ağlayırdı qaya, daş için-için,
İlişib qalmışdı dərdi bir ucda.
Azadlıq istəyən adamı üçün,
Xəcalət çəkirdi ot da, ağac da.

Bir qurd ulayırdı bu yan meşədə,
Çaşmışdı dərd verib, dərd alanlar da.
Xəcalət çəkirdi Əsgər kişi də,
Həmzə talasında yurd salanlar da.
Bilmirdi, dərdini kimə söyləsin,
Suyun üzündəki adi bir köp də.
Xəcalət çəkməsin, adam neyləsin,
Xəcalət çəkirdi çöldə çör-çöp də.
Gözlərdən axıdın nə yaşınızı,
Yer-göy narahatdır, Camala görə.
Bir sözlə, ağrıdım nə başınızı,
Hər şey narahatdır Camala görə.
Artıq şər qarışıb, gecə dönmüşdü,
Daha verməyirdi quşlar səs-səsə.
Özü-özlüyündə gücə dönmüşdü,
Tamam dəyişmişdi Camal nə isə.
Yamanca tuturdu sözü-sözüylə,
Batıb qalmamışdı söz içində o.
Zarafat edirdi özü-özüylə,
Hərdən gülürdü də öz içində o.
Gedişə ürəyi dağlı olsa da,
Gözləyirdi necə gəlişlər onu.
Çölündən nə qədər bağlı olsa da,
İçindən açırdı gülüşlər onu.
Səpil də torpağa bir də bitiril,
Qala bilirsənsə, qal öz dərdində.
Qolların bağlansın, əsir götürül,
Gəl də köləyə dön sən öz yurdunda.
Özünə qədərdir sonun çəkdiyi,
Gedə də, özündə gərək dayana.

Çəkir, özü çəkir, onun çəkdiyi,
Dərddə kölə olmaz, adam o yana.
Məndə genişlikdir, çöldə tünlükdür,
İndi özüm keçim gərək dərsimi.
Veriblər, almışam, beş-on günlükdür,
Bu çardaqda olan dirək dərsimi.
Yollarda qoyublar çox vaxt gözümü,
Həsrət də qoyublar Günəşə məni.
Burda söyləmişəm çox vaxt sözümü,
Burda dindiriblər həmişə məni.
Gördü çox çox cütü, çox təki gündə,
Bu otaq, bu yataq, bu kürsü dirək.
Onunla olduğum bu iki gündə,
Verdi, keçdi mənə çox dərsi dirək.
Mən onun keçdiyi dərsdən doymuşam,
Səhərdən dəyişəm gərək sinifi.
Mən onun adını belə qoymuşam,
Adamlar da desin dirək sinifi.
Döyüşürdü elə döyüşməyinə,
Gərək bir güc ola, bir güc verəsən.
Səhərdən sinfinin dəyişməyinə,
Nədən inanırdı Camal, görəsən?
Onu bu dirəkdən qoparmaq üçün,
Lazımdır bir nəfər "Ağatlı oğlan".
Bilirdi, gələcək aparmaq üçün,
O qollu, budaqlı, qanadlı oğlan.
Yalan ha deyildi bu yurd, bu yuva,
Adıyla adını daşıyırdı o.
Yalan ha deyildi udduğu hava,
Udurdu, onunla yaşayırdı o.

Çalsa, yaman olar, dərdini bir saz,
Dava yox dərdinə davasızlıqdan.
Susuz qalar, ölməz, yaşayar bir az,
Adam o an ölər havasızlıqdan.
Özü sinə idi, dərdi bir sancaq,
Dərdini özünə hava bilirdi.
Camal inanıb da ancaq və ancaq,
Şamili dərdinə dava bilirdi.
Hərə öz canının ağrısındaydı,
Sevinc nə bilirdi, qəm nə bilirdi.
Zalımlar özünün sorğusundaydı,
Camal nə düşünür, kim nə bilirdi.
Neyləsin, Camalın bu da baxtıydı,
Gəlin gedək, dedi, hərə bir yerdən.
Artıq vaxt gedirdi, yatmaq vaxtıydı,
O üzə keçmişdi saat on birdən.
O zalım qoymazdı qıyıb başını,
Başını yupyumşaq balınca atdı.
Dirək balıncına qoyub başını,
Yatdı şirin-şirin, Camal da yatdı.

Şamil qayası

Bağırsızdı bağrı yanıq lalası,
Bu dağlar çıxmışdı qalalığından.
O tala deyildi Həmzə talası,
Çıxmışdı özünün talalığından.

Adamlar uymuşdu Allahsızlığa,
Qiblə o deyildi, yön o deyildi.
Özünü qoymuşdu Allahsızlığa,
Peyğəmbərsizlikdi, din o deyildi.
Daha axtarmırdı qohum qohumu,
Qonşu çəkinirdi öz qonşusundan.
Hamıdan aralı gəzirdi hamı,
Vermirdi, almırdı söz qonşusundan.
Tamam alınmışdı hər dağ qalası,
Yadlar öz toruna salmışdı onu.
Ayağa düşmüşdü Həmzə talası,
Yad səslər başına almışdı onu.
Ayağında olsun, ya da başında,
Bu dağda bir yad söz dolaşmamışdı.
Bağrı çatlayırdı qara daşın da,
Yad dildə yad sözə alışmamışdı.
Çox illəri yola salmışdı qaya,
Ondan diləmişdi imdad adamlar.
Quruyub yerində qalmışdı qaya,
Hardan gəlib bura bu yad adamlar.
İlkimdən sonuma yol başlayıb da,
Mamırımdan açıb süfrə salaram.
Qonaq kimi gələn, qarşılayıb da,
Qaya qururumla yola salaram.
Dərəmdən təpəmə, düz o dağadək,
Gedərəm, keçərəm mən dağdan dağa.
Göstərir özünü bunlar ağatək,
Yox, bunlar oxşamır yaxşı qonağa.
Niyə bu adamlar dinib-danışmır,
Hərəsi bir yanda çəkilib durur.

Vallah, bu adamlar heç məni açmır,
Bax o adama bax, bükülüb durur.
Gör neçə cəfadan, cəbrdən keçib,
Etmişəm özümə həya səbrimi.
Daha mənimki bu səbirdən keçib,
Vallah, açacağam qaya səbrimi.
Göyünü döndərib yer edəcəyəm,
Döşümdən sızan bu su qaya səbrim.
Onları bu yerlə bir edəcəyəm,
Açılhaaçıldır bu qaya səbrim.
Düşünüb o dağın döşündə qaya,
Ürəyi nə yandı gör adamlara.
Düşündü, sonra da düşündü qaya,
Bir özünə baxdı, bir adamlara.
Kimsə göz yaşını silmədi onun,
İçində ağladı, çölündə güldü.
Heç kim ürəyini bilmədi onun,
Deyən, adamlara yazığı gəldi.
Elə uladı ki, o ac qurdu ki,
Ayağında bir az duman süründü.
Elə dayandı ki, elə durdu ki,
Onun duruşundan aclıq göründü.
Yerdə kim var, bizik, göydə də haqdır,
Çəksin, qartalınkı bu qıyyalardır.
Bu daşsız-kəsəksiz qaya çılpaqdır,
Dağı da dağ edən bu qayalardır.
Düşmənin gözünü oyaram, Vallah,
Oymasam, ölərəm, çatlayar qəbrim.
Dağı dağ üstünə qoyaram, Vallah,
Deyirdin, açılsa bu qaya səbrim.

Qurmağa cəfadır o çəninki də,
Özünə görədir onun da cəbri.
Açdı, aç, açılsın qoy səninki də,
Açılhaaçıldır qayanın səbri.
Darda adamlara dağlar arxadır,
Arxa-arxaya de, bu bir ha deyil.
Yalnız qorxaqlıqdır, bir də qorxudur,.
Bu adamlarınkı səbir ha deyil.
Qayadan nə gələr, daş-qaya ətri,
Qayaqaya, daş-daş gülürdü bu səs.
Qaya darıxırdı Şamildən ötrü,
Şamil qayasından gəlirdi bu səs.
Yerinə coşmuşdu coşduğu sözün,
Dadı həmin sözün dadında idi.
Bir zaman Şamilin qoşduğu sözün,
Hələ bir bəndi də yadında idi.
"Olsa ürəyində, bax canındayam,
Əgər qanın varsa, lap qanındayam.
Açıl, aç səbrini, mən yanındayam,
Qurban olum sənin səbrinə, qaya".
Deyib bu sözləri qaya kövrəldi,
Ürəyinə düşən acı göynədi.
Bir az da üzündə həya kövrəldi,
Bir az da burnunun ucu göynədi.
Yadların başına atırdı daşı,
Elə bildi ki, yad daşa öləcək.
Bir az da qayanın çatıldı qaşı,
Ona elə gəldi, Şamil gələcək.
Dərdi döşündəki su kimi axdı,
Oldu qayanınkı su düşüncəsi.

Başının üstündə Şamilə baxdı,
Düz çıxdı qayanın bu düşüncəsi.
Qayaya səs atdı, qulaq da asdı,
Onu təntitsə də bürkü, istilik.
Tutub qolu boyu bağrına basdı,
Üzündən də öpdü hələ üstəlik.
Dərdiysə gəlmişdi bura arandan,
Olmuşdu dərdini o soyudan, o.
Onu qorumuşdu qardan, borandan,
Məhəbbət görmüşdü bu qayadan, o.
Ürəkdə idi o, sözdə, dildə yox,
Həm ilkin, həm sonun tanışı idi.
Bir ilin, üç ilin, beş ilin də yox,
Uşaqlıqdan onun tanışı idi.
Qalır yaralanıb yaralarında,
Var idi hər şeyə sevgiləri çox.
Ancaq bir fərq vardı aralarında,
Şamil böyümüşdü, qaya isə yox.
Yaman istəyirdi biri-birini,
O bunu, bu onu sevhasev idi.
Yada verməmişdi bircə sirrini,
Qaya ona həm dost, həm də ev idi.
Gəlmişdi susayıb qanına Şamil,
Mütləq gəlməliydi, ölməmişdi ki,
Qaya qardaşının yanına Şamil.
Axı elə-belə gəlməmişdi ki...
Qaldırsın qanının durğunluğunu,
Gəlməzdi ayrı cür, gələrdi necə?
Çıxarsın canının yorğunluğunu,
Qoy burdan arxacı izləsin gecə.

Görsün, nəyi nəylə birləşdiriblər,
Çox qəribə gəldi özünə halı.
Kimin çardağında yerləşdiriblər,
Harda saxlayırlar, görsün Camalı.
Səda istəyirdi, Allahdan səda,
Vallah, asılıdır Allahdan hər şey.
Bu gecə bir bunu öyrənsə idi,
Yaxşı olmalıdır sabahdan hər şey.
Ay öz işığını salmışdı göyə,
Onun batmağını gözlədi Şamil.
Birdən ordan-burdan görərlər deyə,
Özünü qayada gizlədi Şamil.
Görünməz eylədi, onu görünməz,
Qaya kölgəsini üstünə saldı.
"Əsgəri çıxarın çardağından tez"
Şamilin qulağı bu sözü aldı.
Anmadım, olsam da sözün misgəri,
Öz-özünə dedi:"Bu nə deməkdir?
Hara aparırlar görən əsgəri?
Onsuz da, hamıya Allah köməkdir”.
Daşıyar üstündə bir ad adamlar,
Bircə adı olar lap uşağın da.
Bu elə, yurda da bu yad adamlar,
Yaxşı görünürdü Ay işığında.
Çıxır çəkməsinin altdan dəmiri,
Sanki göydə bulud xarıldayırdı.
Çiynində nişanı, beldə kəməri,
Ayaqda çəkməsi parıldayırdı.
Gedib çox qapını açırdı onlar,
Biri bu qapını gözləməkdəydi.

O yana, bu yana qaçırdı onlar,
Şamil də onları izləməkdəydi.
Yurda yurdluq qatan yurda yurd itlər,
Öz yiyələrindən küsmüşdü nəsə.
Canavarı basan ağzı qurd itlər,
Daha səslərini kəsmişdi nəsə.
Ağlatmışdılar, ya güldürmüşdülər,
At həsrət qalmışdı at yerişinə.
Bəlkə də, itləri öldürmüşdülər,
Arxac həsrət idi it hürüşünə.
Qazları batmışdı göldə, görəsən?
Nədən pozulmuşdu yazı-pozusu.
Canavar yemişdi, çöldə, görəsən?
Niyə mələşmirdi qoyun-quzusu?
Bir aya, ulduza, günəşə görə,
Açabiləcəkmi, görən, gözünü?
Bir az duruxdu da, bu işə görə,
Özünü qınadı, Şamil özünü.
Dərdinin əlindən qapıb kimisi,
Bax bu çardaxları, qara damları.
Onun ucbatından idi hamısı,
Qınamaq olmazdı bu adamları.
Hər dedi-qoduya bir söz söyləyib,
Hələ atmayıblar onu yaxşı ki.
Kişilik göstərib, mərdlik eyləyib,
Yada satmayıblar onu yaxşı ki...
Mən də onun kimi bu dağda çən nə,
Bax gözüm də axır o ay axarı.
Nə deyə bilərəm, onlara mən nə?
Elimdən razıyam başdan yuxarı.

Nə atlar kişnəyib, nə itlər hürüb,
Ala da bilməyib heç nəfəsini.
Deyirlər, gələndə onları görüb,
Çıxara bilməyib qurd da səsini.
Şamil olar ikən bu düşüncədə,
Arxacda olmayan bir hay-küy qopdu.
Atır bu ona, o buna necə də,
Camal aralıqda elə bil topdu.
O qədər döydülər, neyləsin Camal,
Axırda durmadı, yerə yıxıldı.
Bu anda Şamilin üstünə o yal,
Yal nədir, dağ gəldi, dərə yıxıldı.
Bu anda kim isə:"Əsgər, ay Əsgər",
Səslədi:" gəl bunu apar çardağa."
Səhəri edərik buna toy, Əsgər,
Özünü çək, eylə çəpər çardağa.
Yatma, qoru bunu səhərə qədər,
Səhər bunu səndən alacağıq ha.
O bir qaçaqları tapana qədər,
Hələ bir neçə gün qalacağıq ha.
Bir səs də çıxmadı bu səsdən sonra,
Bayaqkı haraylar, səslər kəsildi.
Harasa getmişdi göydə də Tanrı,
Nə var güclər, nə var heylər kəsildi.
Könlündə yeni bir sevgi bitmişdi,
Yerində durmuşdu göyü Şamilin.
Bayaqkı yorğunluq ondan getmişdi,
Daha da artmışdı heyi Şamilin.
Dönməmiş fikrindən heç, axı heç bir,
Artıq bilirdi ki, neyləsin indi.

Söndü yavaş-yavaş iki bir, üç bir,
Binələrdə yanan çıraqlar söndü.
Bu an nə düşündü, elə bu anda,
Çıxarsın Camalı, burda qoymasın.
Yox, yox, incidərlər Əsgəri onda,
Hələlik hislərə, bəlkə, uymasın.
Tanrıma çox şükür, ulu Tanrıya,
Hər şeyi yazan da, pozan da odur.
Bu işi saxlayım bir gün sonraya,
Sabahı gözləyim, yaxşısı budur.

Axtarış

Yanıq yamacların, yanıq çöllərin,
Başı pozulmuşdu, başı yox idi.
Suyunda sonalar üzən göllərin,
Sonası ölmüşdü, dərdi çox idi.
Bir cürə olmuşdu o çiçək, o bağ,
Həvəsi yox idi, quşlar da uçsun.
Əgər yaman günə qalıbsa bu dağ,
Durmasın yerində, daşlar da uçsun.
İtirməsin bir də başını gəlib,
Yaratdıqlarından doyan o Tanrı.
Götürüb aparsın daşını gəlib,
Daşı daş üstünə qoyan o Tanrı.
Qışda gələr, yaz yox, yayda soğular,
Bağ olmayan yerdə quş nəyə lazım.
Bulaq da soğular, çay da soğular,

Dağ olmayan yerdə daş nəyə lazım.
Heç vaxt aparmaz da ağlını quraq,
Dildə and içməyə Vallahı olar.
Eyləməz heç zaman üstündən qıraq,
Adamın üstündə Allahı olar.
Tüstüdən, qurumdan, hisdən his olar,
Ancaq deyər, hələ ocağa yadam.
Yaxşıdan yaxşı yox, pisdən pis olar,
Nə desən, eyləyər allahsız adam.
Könlüm düşdü, heç vaxt qışa düşməzdi,
Könlümə qış dolur o gün yaxanda.
Nə olsun, soyuqdur, başa düşməzdi,
Daşın Allahı var belə baxanda.
Deyirlər, düz olur Allahın yolu,
Allahın yolunu getmək ayıbmı?
Bülbülü, çiçəyi, tikanı, kolu,
Onları da Allah yaratmayıbmı?
Uçuram könlümü quş eyləyib də,
Adına fidaham, Allah adına.
Qatıram canıma nuş eyləyib də,
Sevincin dadını, qəmin dadına.
Könlüm, uçma daha, özünə yığış,
Sənin olan adam mənim kimimdir?
Mənə elə gəlir o yağan yağış,
Yağır mənim üçün, mənim qəmimdir.
Keçirdim ömrümü, hey elə-elə,
Gələcək ömrümün hey gurultusu.
Guruldamayır ki, göy elə-belə,
Buluda görədir göy gurultusu.
Ümidə yaşayır, ümidi çoxdur,

Özünə görədir, nə var hər şeyi.
Mənim ki könlümün buludu çoxdur,
Niyə guruldamır könlümün göyü?
Var sinəm altında xırıldamağı,
Yazda, yayda, güzdə, nə qışda yaxmır.
Öz gözünə girsin guruldamağı,
Bir damcı içimə yağış da yağmır.
İlişdirir işıq, kölgə də mənə,
Könlümün əlində bax bir qamçı var.
Ömürlük bəs eylər, bəlkə də, mənə,
Gözümdə göz yaşı bircə damcı var.
Yaşayım bir ürək, bir baş ilə də,
Yaxşı ki, söykənib gözüm gözümə.
Saxlayım gözümdə bu yaş ilə də,
Bir gün ağlayaram özüm özümə.
Qoy əksin, özünü özünə əksin,
İçimdə könlümə yatmayan yaşım.
Bir də saxlayım ki, xəcalət çəksin,
Qohuma, qardaşa çatmayan yaşım.
Bir bax içdə sənə ağlayan güldü,
Söylə, bir olubsan özbaşınamı?
Bu fikir ağlıma haradan gəldi,
Sən indi möhtacsan göz yaşınamı?
Birinci o dağı, o daşı vurdu,
Günəş o dağlara yayılan kimi.
Qəfil birdən Şamil ayağa durdu,
Oldu da yuxudan ayılan kimi.
Hələ ayrı idi göy quşlarından,
Günəşi gördü də, ulduzlar itdi.
Uzaq olduğuna yoldaşlarından,

Hər şeyi tək özü götür-qoy etdi.
Özü təkbaşına hər işi görər,
Belə düşündü ki, dönməsin geri.
Bir tikə ət atar, itlər də hürər,
Artıq bəlli idi Camalın yeri.
Bu qaya vermirmi ömründən soraq,
Bu qaya çatdırıb bu boya onu.
Tutar gözdən qıraq, könüldən iraq,
Axşama saxlayar bu qaya onu.
Bu qaya, onsuz da, ucadan-uca,
Çıxar da birtəhər böyrünə, bilər.
Yenə də buradan baxar arxaca,
Yenidən nə isə öyrənə bilər.
Bağrına basar da, öpər də onu,
Öpülən gününün günü ağarar.
Öldürməyəcək ki, çəpər də onu,
Çoban quzusunu dağa çıxarar.
Çobansız bu elin, oban nə olar,
Ağlım heç nə kəsmir bu sondan nəsə.
Özümüzünküdür çoban, nə olar,
Mən də öyrənərəm çobandan nəsə.
Çiyninə götürüb öz səhəngini,
Gəlinlər su üçün çıxar bulağa.
Haylayıb gətirər öz inəyini,
Ya bir mal otaran çıxar bu dağa.
Bəri ötürərlər o dağdan çəni,
Nə desəm, edərlər tək bircə səsə.
Naümid qoymazlar, yəqin ki, məni,
Öyrənə bilərəm onlardan nəsə.
Çıxaram Camallı bir sabaha da,

Dost nə gündə lazım, dostum dardadır.
Hər şeyi edərəm dəqiq daha da,
Dəqiqləşdirərəm, Camal hardadır.
Ya çöldə, ya içdə nə bilirlərsə,
Danmazlar, yer-göyü məndən danmazlar.
Çəkinmədən heç də nə bilirlərsə,
Deyərlər, heç nəyi məndən danmazlar.
Adam yad ürəyə sinə verməz ki,
Duzum-çörəyimdir, suyum-havamdır.
Heç kəs yaxşısını mənə verməz ki,
Axı bu el-oba öz el-obamdır.
Mən yaman ağıllı, yaxşı dəliyəm,
Desə, oynayaram hansı havaya.
Ayrı gedib kimə oxşamalıyam?
Oxşayıram ancaq bu el-obaya.
Qatıb öz köçünü daşıyırdı da,
Öz köçkünlüyündə, köçündə Şamil.
Yaşamalı idi, yaşayırdı da,
Acı xəyalların içində Şamil.
Ona xoş gəlirdi, ona bu halı,
Əşrəf, Şamil ona ucalıq idi.
Görə biləcəkmi, görən, Camalı,
Bu ayrılıq ona acılıq idi.
Buralı olurdu, gah da oralı,
Nə şər gözləmirdi, nə də ki toran.
Bu anda durduğu yerdən aralı,
Göründü gözünə bir mal otaran.
Bu an oldu ondan kədər-dərd yana,
Oxudu içində sanki bir aşıq.
Yayılmasın deyə səsi dörd yana,

Astadan səsləndi:"Kimsən, ay uşaq?!"
Uşaq birdən-birə aşdı gədiyi,
Bilmədi, Şamildən aldı sağolu.
Səsləndi Şamilin uşaq dediyi,
"Kiməm, mənəm, Camal Alırzaoğlu."
-Çox yaxşı, yaxın gəl, gendə dayanma,
De, görüm, özünün kefin necədir?
Günün altındasan, gündə dayanma,
Gəl bura kölgədir, burda gecədir.
Bu dağlar mənimtək çox dəli görüb,
Dəli dərdini də çəkib kef kimi.
Camal ürəkləndi Şamili görüb,
" Kefimə nə olub, kefim dəf kimi!"
Quş yaranıb göydə uçmaqdan ötrü,
Quşlara görədir o göyün üzü.
Şamilin kefini açmaqdan ötrü,
Öz kefinə dedi Camal bu sözü.
"Mən yaxşıyam, Şamil, sən hancarısan?"
Deyib də, Camal da hal-əhval tutdu.
Ona qalanda sən elin varısan,
Yaxşı bax, bu ağac, bu da ki otdur.
Qoy hamıya çatsın, elə böldü ki,
Bu dağ qayasından, bu dağ daşından.
Bu söz də Şamilə elə gəldi ki,
İrəliyə gedib Camal yaşından.
Bütün el-obadan tutdu hal-əhval,
Soruşdu qardaşı Calalı ondan.
Şamilin ən yaxın dostuydu Calal,
Calal da Şamili sevirdi candan.
Yoxdur heç onlarda ağıl qazca da,

Soruşurlar yeni ad adamlardan.
Danışdı Şamilə Camal azca da,
Vaxtsız qonaq gələn yad adamlardan.
Öyrəndi ətraflı kəndi Camaldan,
Gəlmələrin bura yarındığını.
İlk dəfə eşitdi indi Camaldan,
Camalın dirəyə sarındığını.
Sıralamışdılar, sırımışdılar,
Çəksin bağırtısı, dəysin ürəyə.
Gətirən kimi də sarımışdılar,
Onu çardaqdakı orta dirəyə.
Əsgər də Allaha yaxın bəndəydi,
Yanında hörməti vardı beşinin.
Bir günə düşmüşdü, elə gündəydi,
Günü ha yox idi Əsgər kişinin.
Bunu eşidəndə bir az düşündü,
Bir az da qövr etdi dərdi sinədə.
Əlindən nə gəlir, neyləsin indi,
Özünü qınadı Şamil yenə də.
Bir o başa getdi, bu başa gəldi,
Sanki rahatladı yerin yerini.
Toxdadı, elə ki öyrəndi, bildi,
Camaldan Camalın bildiklərini.
Elə bil dünyada dünya gəzmişdi,
Dünyanı almışdı gözü axşamdan.
Bunları, onsuz da, axşam sezmişdi,
Bunları bilirdi özü axşamdan.
Özü gətirəcək gündü axşamı,
Günün onu gedib, beşi qalmayıb.
Gözləmək lazımdı indi axşamı,

Gözləməkdən başqa işi qalmayıb.
Camalda çox idi Şamilin xətri,
Şamillə əl tutub Camal ayrıldı,
Nə olsun, ayrıldı, Şamildən ötrü,
Könlündə min arzu, amal ayrıldı.
Ocaqdan, alovdan, oddan çıxmışdı,
Tapmışdı ürək, göz qəhrəmanını.
Nəbi, Qaçaq Kərəm yaddan çıxmışdı,
Camal tapmışdı öz qəhrəmanını.
Göy otlardan köynək toxumuşdu da,
Arada qaçmışdı uşaqlardan da.
Dastanlardan bunu oxumuşdu da,
Hələ eşitmişdi aşıqlardan da.
Günü var o qarın qarlığı qədər,
Elə ki əriyir, yox olur seldə.
Camal inanmışdı varlığı qədər,
İgid dağda olur, ya Çənlibeldə.
Özünə bürünür bu cürə igid,
Gecəsində qaya, günündə dağ var.
Uzaqdan görünür bu cürə igid,
Arxasında qaya, önündə dağ var.
Günəşi doğanda, doğub yaxanda,
Bulağı çıxanda, suyu axanda.
O dağın özünə belə baxanda,
Dumanında dağ var, çənində dağ var.
Camal büküm-büküm bükəcək onu,
Hər iki gözündən tökəcək onu.
Şamiltək igidlər sökəcək onu,
Dərdli ürəklərin minində dağ var.

Şamil, qaya və beş daş

Yerdən daş götürdü Şamil beş dənə,
Barmaqları durdu beşin beşində.
Camal çıxıb getdi yenə tək qaldı,
Arxası sandığı qaya döşündə.
Kaş belə saz ola, saz qala günü,
Şamil, bu beş daşla gəl başını qat.
Axşam eləmişdi az qala günü,
Axşama qalırdı iki-üç saat.
Qoy olsun bu daşlar əldə bir maya,
Bu beş daşla birgə yeddi oldunuz.
Həmişə ikiniz: sən və bu qaya,
Dağların qaməti-qəddi oldunuz.
Bu qayanı, bir də səni görəndə,
Dağlar qürurlandı qəddinə baxıb.
Sənə nə olub ki, di sən də indi,
Qürurlan özünün yeddinə baxıb.
Göndər, çapar göndər, çapar nə yana,
Öncə solu, sonra sağı qorusun.
Beş daşı özünlə apar hər yana,
Qayanı burda qoy, dağı qorusun.
Gözü ac ölürəm, tox ölürəm mən,
Ölsəm də, ölürəm adam sayağı.
Öləndə bir yol yox, çox ölürəm mən,
Dəyəndə bu dağa yağı ayağı.
Bir ana ürəyi dərdə dəyməsin,
Bir bacı gözündə dərd yaş olmasın.
Bir yağı ayağı yurda dəyməsin,

Hamı yurddaş olsun, yurd daş olmasın.
Yurda qurban olsun ürək də, can da,
Şamil Vətən deyib, bax səni seçdi.
Belə bir məqamda, belə bir anda,
Könlündən sürüşdü, bir qoşma düşdü.
"Mənə çox şirinsən, şirin, şipşirin,
Çiçəyim, arımsan, balımsan, dağlar.
Enəndə dolayım, gəzəndə çölüm,
Dərəm, təpəm, qaşım, yalımsan, dağlar.
Döşündə o duman, çən sevinəndə,
Onda mən oluram ən sevinən də.
Mən də sevinirəm sən sevinəndə,
Mənim əhvalımsan, halımsan, dağlar.
Yazındakı çiçək, qışındakı qar,
Düzləri gen edir, dərələri dar.
Heç bir yerdə yoxdur sənin kimi var,
Dövlətim, varımsan, malımsan, dağlar.
Varlığın özüsən, deməli, sən, sən,
Allah möcüzəsi, əməlisən sən.
Sevilməlisən sən, sevməlisən sən,
Bəxtim gətirdiyi xalımsan, dağlar.
Bir yox söyləmirsən, hə danışmırsan,
Dedin, danışaram, bə danışmırsan?
Görüb eşitmirsən, nə danışmırsan,
Korumsan, karımsan, lalımsan, dağlar.
Hər yerdə təriflər, öyərəm səni,
Əynimə gələrsən, geyərəm səni.
Sevgimin gücünə yeyərəm səni,
Mənim dəymişimsən, kalımsan, dağlar.
Qarışdı səsinə su zümzüməsi,

Dolusuna doldu, boşuna gəldi.
Dodaqaltı olan bu zümzüməsi,
Deyən, özünün də xoşuna gəldi.
Nə gəlsə, Şamilə gəlirdi haqdan,
Ürəyi dönmüşdü bir sarı simə.
Qoşma deməmişdi çoxdan, lap çoxdan,
Eləməmişdi də belə zümzümə.
Çöldə ağlamağı pisləyən adam,
İçdə ağlayırdı da için-için.
Həmişə işığı istəyən adam,
İndi darıxırdı qaranlıq üçün.
Yad kəsin işini bitirmək üçün,
Xoş gəldi qaranlıq bir anlıq ona.
Özünü Camala yetirmək üçün,
Yaman lazım idi qaranlıq ona.
Tutulsun da, heç bir qayda çıxmasın,
Çıxsa, nə fərqi var tez, ya gecinin.
Elə istədi ki, ay da çıxmasın,
Aşığına döndü aysız gecənin.
Artıq gün əyildi axşama sarı,
Birinci qaranlıq dərəyə doldu.
Çoxaldı gecənin qaranlıqları,
Yavaş-yavaş hər yan qaranlıq oldu.
Qaranlığa yumdu dağlar gözünü,
Buludsuz, dumansız çən sürünmədi.
Ulduzlar bəzədi göyün üzünü,
Şamil göyə baxdı, ay görünmədi.

Qaçaq Şamilin Camalı azad etməsi

Göy üzü buludlu idi bu axşam,
Dağa çən gəlmişdi, duman çökmüşdü.
Yağışa umudlu idi bu axşam,
Göylər mısmırığın yaman tökmüşdü.
Yağışından ayrı düşmüşdü dağlar,
Bir aydan çox idi yer-yurd yanırdı.
Dərələrin suyu qalmışdı ağlar,
Susuzluq əlindən çaylar sınırdı.
Tamam qurumuşdu göllərdəki göl,
Göyü izləyirdi ağzını açıb,
Susundan yanırdı yamac, çəmən, çöl,
Yağış gözləyirdi ağzını açıb.
İtirsin, zəncirdir qul itirdiyi,
Ağrısa, zəncirə ağrı gedirdi.
Hər gün gözəllərin su götürdüyü,
Bulaq qurumağa doğru gedirdi.
Yerdə çatlamayan qat qalmamışdı,
Əziyyət çəkirdi ağaclar sudan.
O döşdə yanmamış ot qalmamışdı,
Ayrılmışdır künclər, bucaqlar sudan.
Dönüb yeddi qatı bir qatlığına,
Göylər unutmuşdur xarıltısını.
Daha alışmışdı su qıtlığına,
Şırşır da kəsmişdi şırıltısını.
Cüyür istəyirdi, çıxsın o diki,
Keçsin suya görə, keçsin o taya.
Gəzdi ordan-burdan tapdı bir-iki,

Yanan xəlyərini Xəlyərli qaya.
Çəni sürünürdü dağ dərəsində,
Bu bir az verirdi yağmağa ümid.
Özü əyləşmişdi göy bərəsində,
Nəyi gözləyirdi, görəsən, bulud?
Göy o yana dursun, quş da o yana,
Özündə utanıb ölmürdümü heç.
Ot o yana dursun, daş da o yana,
Suyuna yazığı gəlmirdimi heç?
Yerinə, göyünə baxıb gedər o,
Çaxan şimşəyinə dinməz-söylənməz.
Yağış yağdırar da çıxıb gedər o,
Bu qədər bir yerdə bulud əylənməz.
Axıb axarına, su belə olub,
Gündüz ola bilməz gecə çevrilib.
Həmişə hər yerdə bu belə olub,
Yağış gec yağanda gücə çevrilib.
Olub başımıza qaxı indi də,
Yağsın, yağmağına damcı da yoxdur.
Tarix təkrarlanır, axı indi də,
Onun yağmamağı bir aydan çoxdur.
Danışığı, sözü ayrı dildədir,
Bəs niyə eyləmir səs soldatına?
Gecənin bu anı onlar çöldədir,
Yazığımı gəlir rus soldatına?
Bəlkə də, bizlərdən çəkib əlini,
Görən gedəndimi, ya gələndimi?
Bu bulud bilirmi rusun dilini?
Yağdırdığı yağış dil biləndimi?
Yaxşı ki, bu gecə göy göyündəki,

Bu qədər ulduza özü sığırdı.
Ancaq adamların ürəyindəki,
Yağış, demək olar, hər gün yağırdı.
Könül buludundan, göz yağışından,
Yağırdı, heç gecə, gündüz bilmirdi.
Xəbəri olmurdu öz yağışından,
Bilirəm hər şeyi dümdüz, bilmirdi.
İçəri olurdu, çöl olmasa da,
Özü öz yaşından qulaq olurdu.
Dəniz olmasa da, göl olmasa da,
İki gözü, iki bulaq olurdu.
Yarımçıq qalırdı, heç dolmayırdı,
Birinci o suyu gözü içirdi.
Bir ovuc olurdu, çox olmayırdı,
Süzüb gözlərindən özü içirdi.
İçirdi, qatıb da bulaq suyuna,
Neynirdi, yanğısı yenə sönmürdü.
Qalırdı içində yanğı hayına,
Qalxırdı yanğısı minə, sönmürdü.
Heç yerə yağmasın, göyə yağmırdı,
Onsuz, yer dözmüşdü hər yanğısına.
Nəyi gözləyirdi, niyə yağmırdı,
Acıqmı verirdi yer yanğısına?
Yoxdumu ölüb də, doğulmaq dərdi,
O ki ölüb sonra doğur özünü.
Bəlkə, qalıb onda boğulmaq dərdi,
Özü öz suyuna boğur özünü.
Bu gecə bu yatan adamlar kimi,
Bu daxmalar kimi, bu damlar kimi.
Qalıb umuduna öz umudunun,

Girib qucağına öz buludunun.
Yağış yatmışdımı oyanmaq üçün,
Bulud da əynini soyunmaq üçün?
Toplayıb özünün dayanışını,
Gözləyirdi onun oyanışını.
Gözləyirdi, onun özü oyansın,
O da öz əynini sonra soyunsun.
Soyunsun da onu, yatmağa getsin,
Yuxuyla başını qatmağa getsin.
Bulud bu fikirdə olmaqda olsun,
Yuxusu gözünə dolmaqda olsun.
Belə bir zamanda, belə bir anda,
Gecəyə qaranlıq düşdü hər yanda.
Yağış gözlərini açdı, nə açdı,
Açdı, gözlərindən işıq da saçdı.
Bu çiçək aşığı, torpaq aşığı,
Yağdı da özünü yerə yetirdi.
Selini götürdü, dərə yetirdi,
Axdı, götürüldü üzüaşağı.
Üstünə düşmüşdü yağış işığı,
Axdı da, suyunu çaya apardı.
Çay da bunu görüb haray qopardı,
İldırım səsinə yer-göy qovuşdu.
Şükür yanğısından torpaq sovuşdu,
Solmaq qorxusundan yarpaq sovuşdu.
Bu yağış bir az göy, bir az da ağdı,
Keçmişdi göylərin tamı yağışa.
Dedilər, bu yağış nə yaxşı yağdı,
Ürəkdən sevindi hamı yağışa.
Gəldi, sevinc olur, qəm olur, olsun,

Uzaqdan eylədi bir səs Şamil tək.
Bu yağan yağışa kim olur, olsun,
Sevinə bilmədi heç kəs Şamiltək.
İlkdən başlamışdı, sonu çəkmişdi,
Sevindi ikili bax bu yağışa.
Hər yerdə özünə onu çəkmişdi,
Düşmüş idi şəkli bax bu yağışa.
Bu yağış yağırdı Şamil adında,
Bu yağış dadırdı Şamil dadında.
Doğmanın gözünə, hətta yadın da,
Görünürdü ancaq Şamil şəklində.
Ürək bu dağlardır, sinə bu dağlar,
Yenə bu dağlardır, yenə bu dağlar.
Dumana bu dağlar, çənə bu dağlar,
Bürünürdü ancaq Şamil şəklində.
Bir bax o qayaya, bir bax o daşa,
İşini görürdü özü birbaşa.
Əziyyət verməmək üçün yoldaşa,
Ərinirdi ancaq Şamil şəklində.
Bir də o ot könül salıb sevincə,
Gördü, beş-on addım qalıb sevincə.
Dostun kədərini alıb sevincə,
Sürünürdü ancaq Şamil şəklində.
Burda açılmayan bir sirr yox idi,
Özü yox, sinədə dərdi şişmişdi.
Daha düşmədiyi bir yer yox idi,
Hər yerə Şamilin şəkli düşmüşdü.
Neçə gündür dostu dara düşmüşdür,
Bu təsir eyləmir hər ürəyə də,
Hətta şəkli gedib hara düşmüşdür.

Camal sarındığı o dirəyə də.
Kəsməmişdi yağış, hələ yağırdı,
Camal yağışa, bir özünə baxdı.
Yağırdı, elədən belə yağırdı,
Birdən yağışın düz gözünə baxdı.
Yağışın gözündə, düzü, nə gördü,
Bir anlığa çaşdı, özünü gördü.
Yağış ona gedək, gəl, gəl, deyirdi,
Bir də ki uzanıb bir əl deyirdi.
Niyə dayanıbsan, gəl məni qurtar,
Elə bil edirdi əl, məni qurtar.
Yağışdır, nə qədər yağır, qoy yağsın.
Yağsın, qoy bundan da ağır qoy yağsın.
Yağır, öz yerinə, yurduna yağır,
Bir ulu millətin dərdinə yağır.
Vaxt itirmədən gəl, bax bu anımda,
Bir it küçüyü də yoxdur yanımda.
Gözləmək olmazdı, daha gözləmək,
Gələrdi çox ona baha gözləmək.
O an büründü də yapıncısına,
Əl verdi yağışın hər damcısına.
Könlündə bir axşam, bir sabah deyib,
Çıxdı öz yanına, ya Allah, deyib.
İçində abırı, üzdə həyası,
Onu yola saldı Şamil qayası.
Uçurdu açmağa, qol adamıydı,
Ürəyi gedirdi qanad-qol üçün.
Özü yolçu idi, yol adamıydı,
Sanki yaranmışdı ancaq yol üçün.
Qaya-qaya, daş-daş ötdüyü bu yol,

Yox, görə biləcək bu yol Camalı.
Ayrı bir yol idi getdiyi bu yol,
Azad etməliydi bu yol Camalı.
Yaşa ilkin üçün, sonun üçün də,
Bu yolun daşına dönməyim gəlir.
Elə ona görə, onun üçün də,
Bu yolun başına dönməyim gəlir.
İmana gəlibdir, imandır, dindir,
Aparır tutub da qolumdan məni.
Əgər belədirsə, bu yağış indi,
Döndərə bilərmi, yolumdan məni?
Boşalım, dolub da bir bulaq içim,
Bu yağış gözümü alıb qarşımda.
Bir təpə aşım da, bir dərə keçim,
Aşmağa bir təpə qalıb qarşımda.
Niyə fikirləşim, fikrə yer yoxdur,
İnşallah ordayam on dəqiqəyə.
Bu getdiyim yola ümidim çoxdur,
İnamım lap çoxdur son dəqiqəyə.
Bilirəm, qorxmaram, mənə nə olsun,
Nə qədər vardırsa məndə bu ürək.
Arxaca çatanda yenə nə olsun,
Bir az ehtiyata tərpənəm gərək.
Yerində azalar xətalarımız,
Hər kəsin işığı öz işığıdır,
Axı belə deyib atalarımız,
"Ehtiyat igidin yaraşığıdır".
Çatdı, ən sonuncu dərəyə çatdı,
Sonra dərə boyu endi aşağı.
Arxacda binələr aşağı yatdı,

Düşdü gözlərinə suyun işığı.
Deyəsən, özünü tək-tənha sandı,
Ürəyindən keçdi bir acı az-maz.
Yoxsa da, nədənsə ehtiyatlandı,
Oradan dinşədi arxacı az-maz.
Gördü, heç haradan gəlmir səs-səmir,
Hətta itlərin də kəsilib səsi.
Hələ də göylərdən yer yağış əmir,
Susdurub, deyəsən, yağış hər kəsi.
Sinəsinə qoydu əlini boşca,
Ayağa durdu da, asta, yavaşca.
Sağına-soluna baxdı yenə də,
Nə qədər eylədi, üzü gülmədi.
Özgəsi olsaydı, çatlardı bağrı,
Necə addımladı, özü bilmədi.
Gördü, addımlayır arxaca doğru,
Dedi, dodaqaltı nə isə dedi.
Durdu Əvəlikli deyilən yerdə,
Əsgər kişinin də bu yerdə idi.
Yurdu Əvəlikli deyilən yerdə,
Mən özüm gəlmişəm dərdə bu yana,
Yoxdurmu, buranın böyük, kiçiyi?
Bir o yana baxdı, bir də bu yana,
Dəymədi gözünə bir it küçüyü.
Bir kef çatmayacaq bu kefə artıq,
İlk dəfə çalırdı bu cəngini o.
Ehtiyat olaraq bu dəfə artıq,
Üzünə götürdü tüfəngini o.
Asta addımlarla irəlilədi,
Çardağına sarı Əsgər kişinin.

Usta addımlarla irəlilədi,
Ağır olduğunu bilib işinin.
Gəlməmişdir bura bir kefə Şamil,
Yerə tökdü ağır-uğurluğunu.
Ömründə işinin ilk dəfə Şamil,
Burada hiss etdi ağırlığını.
Gəlmişdi buraya bir oğurluğa,
Əvvəl şikarını gəzməli idi.
Amma neyləməli bu ağırlığa,
Beş-on dəqiqəlik dözməli idi.
Bu fikir beynində gəzdi dörd yanı,
Hər tərəfi ələk-vələk eylədi.
Gəldi özünə tez, duruldu qanı,
Bayırda özünü xeyli əylədi.
Danışdı qırağa, nə düşündüsə,
Artıq düşünməyə yer qalmamışdır.
Durmağa yer yoxdur, Şamil, indisə,
Tez ol, keç içəri ürəyin daşdır?
Bir qapı deyildi çardaq qapısı,
Düzəldib çör-çöpdən çöpləmişdilər.
Bu qapı Şamilə bir haqq qapısı,
Örtəndə çəp qoyub çəpləmişdilər.
Qabağına heç bir kəs də çıxmazdı,
Danışsan da, sənə o susan idi.
Açanda heç ondan səs də çıxmazdı,
Səssiz açmaq onu çox asan idi.
Duydu içəridə olanlar yatıb,
İçində qaranlıq işığa qaçdı.
Elə bu fikirlə əlini atıb,
Şamil tez, əlüstü qapını açdı.

Sonra da ehmalca keçdi içəri,
İçərini ağlı-qaralı gördü.
Baxıb yatanlara, baxıb keçəri,
Camalı dirəyə sarılı gördü.
Bir az o yanda da Əsgər kişini,
Yatıblar qocalı-qarılı gördü.
Görməyə başladı o öz işini,
Camalı nə gördü, yaralı gördü.
Cibindən çıxarıb bıçağı bu dəm,
Camala sarınan sarığı kəsdi.
Gözündən görüb də bu çağı bu dəm,
Ömründə ilk dəfə əlləri əsdi.
Sonra qucağına alıb bir anda,
Camalı ehmalca aşağı saldı.
Ona elə gəldi, bitdi qaranlıq,
Sanki qaranlığa işığı saldı.
Camalı bağrına basdı da Şamil,
Görmədi, görsəydi gözlər baxardı.
Səsini içinə qısdı da Şamil,
Əlindən tutdu da çölə çıxardı.
Çölün havasına boğuldu Camal,
Eşik işıqlandı, eşik açıldı.
Elə bil yenidən doğuldu Camal,
Onun üçün yeni beşik açıldı.
Şamilə baxdı da, gözləri doldu,
Dadlandı azadlıq dadına düşdü.
Düşündü, görəsən, anam nə oldu?
Birinci anası yadına düşdü.
Daha durmaq olmaz, di tərpən deyib,
Şamil tüfəngini əldə saz tutdu.

Camalı götürüb gedirəm heyif,
Bunlar burda qaldı, əlim az tutdu.
Düz yolu seçdilər göz qırpımında,
Birdən bilən olar, dərk eylədilər.
Dərəni keçdilər göz qırpımında,
Bir anda arxacı tərk eylədilər.
Xeyli yol getdilər, səssiz-səmirsiz,
Bir-birindən heç nə soruşmadılar.
Yandılar, qaldılar külsüz-kömürsüz,
Od olub odla da qarışmadılar.
Sevəndə sev şirin, öpsən, öp şirin,
Qohumdur xeyirlə şər ikisi də.
Yuxumu görürdü onlar şipşirin,
Donub qalmışdılar hər ikisi də.
Qaranlıq gecəni gündüz etdilər,
Duyğu, keç ürəyə, ağıl, dol başa.
Bilmədilər yolu necə getdilər,
Gözlərini açdı çatıb yol başa.
İçində abırı, üzdə həyası,
Bu bir elin abır-həyası idi.
Yerində durdu da Şamil qayası,
Ürəklə onlara xoş gəldin dedi.
Ay Camal – birinci dilləndi Şamil,
De görüm, necəsən, özündəsənmi?
Ürəyi açıldı, gülləndi Şamil,
Özün öz dilində, sözündəsənmi?
– Özümdə deyiləm, səndən nə danım,
Danışa bilmirəm, məni bağışla.
Qoy bir az dincəlim, bir az uzanım.
Sanki şumlayıblar canımı xışla.

O qədər döyüblər sağ yerim yoxdur,
Elə sızıldayır sız-sız bədənim.
Hər yerim gömgöydür, ağ yerim yoxdur,
İndi ağrılardır gəlib-gedənim.
Danışa bilmirəm, bir də nə deyim,
Hünərin önündə çaşıb qalmışam.
Verib, Allah verən dərdə nə deyim,
Dərdim gəlib, başdan aşıb, qalmışam.
Adına yaraşır sənin adına,
Bu Şamil qayası otağımızdır.
Bir günün yox, bax hər günün adına,
Yataq yerimizdir, yatağımızdır.
Oldu çox pəjmürdə Şamil bu sözdən,
Bu sözün üstündə bir söz deməsdi.
Camalı bir daha keçirib gözdən,
Yandırır onu da bir köz, deməsdi.
Gizli ona, sənə, mənə yanacaq,
Bizə çatmayacaq hələ istisi.
İndi yanır, yansın, yenə yanacaq,
Sabaha çıxacaq ancaq tüstüsü.
Adı nə olursa, ad deməyəcək,
Tutub saxlayacaq onu əl üstü.
Yaxın deməyəcək, yad deməyəcək,
Hamını boğacaq bu qara tüstü.
O qara tüstüdə o od adamlar,
Qoya bilməyəcək yeri yerinə.
O doğma insanlar, o yad adamlar,
Çaşıb qarışacaq biri-birinə.
Çaşdıqca başları əldən gedəcək,
İlk an başlarını itirəcəklər.

Köz külə döndükcə küldən gedəcək,
O küldən bir çimdik götürəcəklər.
Əvvəl öz başına sahib, sonra da,
Kiminsə gözünə kül üfürəcək.
Bu işə əl qoyub uca Tanrı da,
O kəsin özünə kül üfürəcək.
Çıxıb görəcəklər hamı düzdədir,
Dağa dırmaşacaq çıxmayan düzə.
Həmişə yanacaq, o köz bizdədir,
Ancaq çatmayacaq o küldən bizə.
Dünya qalacaqmı, görən, özütək?
Dünyanı saxlayan ellər olacaq?
Yaxşı adamını ələ verən tək,
Dünyanın başına küllər olacaq.
Batacaq üst-başı külündə hər gün,
Dünyada dünyanı kül götürəcək.
O yana, bu yana əlində hər gün,
Dünya kül aparıb, kül gətirəcək.
Sığınıb bir ada, sana demişdi,
Tanrının onlara butası Salman.
Öyrədib bunları ona demişdi,
Şamil uşaq ikən atası Salman.
Gəldi göz önünə o nurlu kişi,
Gör harda yadına atası düşdü.
Ürəyi alovlu, o qorlu kişi,
Düz söhbət, doğru söz ustası düşdü.
Bu bir vergi idi, hələ bil ona,
Apardı, gətirdi arana dağı.
Göydəndüşmə oldu elə bil ona,
Bu an atasını xatırlamağı.

Bir Allah şahiddir, bir Allah üçün,
Alışaraq aldı köz atasından.
Hələ açılacaq çox sabah üçün,
Şamil güc götürdü öz atasından.
Atasından çox şey qazanıb Şamil,
Zamanı yazıya, oxuya getdi.
Camalın yanına uzanıb Şamil,
Gözünü yumdu da, yuxuya getdi.

Qanıqaralıq

Ağarışdanırdı hava bayırda,
Gündüzə dönürdü gecə az qala.
Çil qurbağalar da çayda, çayırda,
Yırta sinəsini necə az qala.
Bilməmiş deyildi, çoban bilməmiş,
Dururdu yerindən qoyun-quzu da.
Çəkilib yerindən Günəş gəlməmiş,
Getmək istəyirdi Dan ulduzu da.
Qurtarmırdı heç də, gedirdi savaş,
Hər gün uduzurdu gerçək yalana.
Lənglikə keçirdi çox yavaş-yavaş,
Göy gecə halından gündüz halına.
Axşamdan nə içən, yeyən yatmışdı,
Başlamaq bilmirdi di gəllər-getlər.
Hürmək istəmirdi, deyən, yatmışdı,
Hər anda o oyaq ağzı qurd itlər.
Bilir, bildiyini bilir, kəm bilmir,

Dağlar dağ-daş taxıb öz yaxasına.
Quşun yuxusu yox, bunu kim bilmir,
İndi çəkilibdir quş yuxusuna.
Axşam başlamışdı yağış oyunu,
Deyən yoxdur ona oyununu çək.
Çölə ötürməyə malı-qoyunu,
Çöldə qaralırdı adamlar tək-tək.
Üstündə dünyanın sevinci duran,
Düşüb yağışına dayanmamışdı.
Həmişə hamıdan birinci duran,
Yuxusuz kişilər oyanmamışdı.
Beş günün beşi də çiskində olan,
Durmayıb yatırdı beşdən beşi də.
Həmişə işinin üstündə olan,
Hələ, o cümlədən, Əsgər kişi də.
O yandan Ədili belə demirəm,
Həmişə uğuru siftəli kişi. Cəmili,
Səmədi hələ demirəm,
Gözü quş yuxulu Niftəli kişi.
Şıx kişi, Müseyib – ordan yox xəbər,
Qaldırıb göy-yeri durmamışdılar.
Burdan Sarı Kərəm, Qara Ələkbər,
Heç biri, heç biri durmamışdılar.
Durmurdu, versə də sular səs-səsə,
Yaranıb yuxunun özü yuxudan.
Əsgər kişinin də neyləyirdisə,
Açılmaq bilmirdi gözü yuxudan.
Qəfil nə oldusa gözünü açıb,
Camal sarındığı dirəyə baxdı.
Birdən elə bildi, ürəyi qaçıb,

Sinəsində vuran ürəyə baxdı.
Döndü, bir də baxdı, baxdı dirəyə,
Dirək elə bil ki, çılpaqlamışdı.
Baxdı sinəsində vuran ürəyə,
Ona elə gəldi, ürəyi daşdı.
Gözünü çevirdi qapı tərəfə,
Baxdı soldakılar, beşi də yatır.
Buraya gəliblər elə bil kefə,
Dirisi o yana, leşi də yatır.
Səsləmək istədi, onlara döndü,
Səslədi birinci öz Əslisini.
Yox, onlardan ona Əslisi öndü,
Ömrə-günə işıq göz Əslisini.
– Kişi, məni niyə qaldırmayıbsan?
Nə çox yatmışam, bıy, başıma xeyir.
Dananı çəpərə saldırmayıbsan?
Huşuma nə olub, huşuma xeyir.
İndi yağış onu bir təhər etdi,
Bayırda qalmışdı axşamdan dana.
Maldan ayrılıb tək haraya getdi?
Heç baxa bildinmi o yan, bu yana?
– Ay Əsli, dur görək hələ neynirik,
Yatmışıq, Camalı kimsə aparıb.
Alaq özümüzü ələ, neynirik,
İçimdə min qorxu tufan qoparıb.
Az qalır sinəmdə könlüm dayansın,
Çatlasa, tab etməz sinəm çatlara.
Fikirləşək, görək, onlar oyansın,
Nə cavab veririk bu soldatlara?
Onlar danışırdı elə bu dəm də,

Soldatlardan biri gözünü açdı.
Dirəkdə görməyib Camalı həm də,
Görən gözlərinin işığı qaçdı.
Bir-bir dümsüklədi dostlarını tez,
Dedi rus dilində nəsə onlara.
Bir anda düzəldib üstlərini tez,
Bayıra çıxdılar qanları qara.
Dağlar bu xəbəri daşına aldı,
Dağlar da oldu bir sıldırım kimi.
Bu xəbər Arxacı başına aldı,
Dolandı hər yanı ildırım kimi.
Çölünə içləri ha yanırdı, ha,
Bir yox, qırılmışdı yeddi qatları.
Dünya başlarına fırlanırdı ha,
Donub qalmışdılar rus soldatları.
Deyildir ki, bu bir su donuqluğu,
Sürüşüb bir sudan qaça bilməzdi.
Elə donmuşdu ki, bu donuqluğu,
Allahın özü də aça bilməzdi.
Atsın, tüfənginə əli gəlmirdi,
Yanaşsın kiməsə, nə yanaşacaq.
Söz də danışmağa dili gəlmirdi,
Danışsın, danışsa nə danışacaq?
Bilmirdilər də ki, heç nə etsinlər,
Yansınlar, sönsünlər, necə sönsünlər?
İrəli getsinlər, hara getsinlər,
Geriyə dönsünlər, necə dönsünlər?
Adam öz işindən çıxarılar da,
O adam işləmir on iki aydır.
Axı bir qaçağın yuxarılar da,

Tutulmağı haqda məlumatlıydı.
Düşməmişdilər ki, elə çətinə,
Bu uşaq soldatlar nə görmüşdülər.
Əsas da Şamili bir-iki günə,
Tutmalı idilər, söz vermişdilər.
İşi deyil ki, bu hər bir qoçağın,
Aşağı götürüb bu çay axarı.
Əldən çıxdığını tək bir qaçağın,
Necə çatdırsınlar indi yuxarı.
Qanı üşüyərək, lap üşənəcək,
İnanmıram, onlar bizə inana.
Bunu eşidəndə nə düşünəcək?
Görən, nə deyəcək yuxarı buna?
Birinci töhməti alacağıq biz,
Qalıb da qələmin dili altında.
İşləyə-işləyə qalacağıq biz,
Sonra da onların əli altında.
Gərək səbirlənək səbrimiz boyu,
Bizə yanlışı da vurmayaq üzə.
Bu belə olarsa, ömrümüz boyu,
Töhmətlər töhməti olacaq bizə.
Bəlkə, gizləsinlər yuxarılardan,
Gizli saxlasınlar hələlik bunu.
Bir az gözləsinlər yuxarılardan,
Eyləsinlər elə-beləlik bunu.
Durmayan bayaq bir yerdən soldatlar,
Bir ha düşündülər, ha düşündülər.
Başlarını açıb birdən soldatlar,
Gör nə düşündülər, nə düşündülər.
Qırmızı pencəyin, qara donunla,

Olacaq bir-iki ağılsız, dəli.
İzlərinə düşüb birgə onunla,
Tapıb yeni Dıvrış Məhəmmədəli.
Elə bil biri kar, biri də laldı,
Bircə danışandır bu soldat özü.
Elə bu yerdəcə ağzında qaldı,
Bayaqdan danışan soldatın sözü.
– Heç sən bilirsənmi, nə danışırsan?
Gizləmək olarmı bu açıq işi.
Yanaşman yanlışdır, səhv yanaşırsan,
Gərək düz danışa, gərək düz kişi.
Gərək inanalar sözünə onun,
Düz açıb deyələr dosta dərdsəri.
Bir kimsə deməmiş üzünə onun,
Özü anlaya ki, nədir təqsiri.
Hardasa, kiməsə hey baş əyərək,
Deyildir yaşamaq, deyildir həyat.
Bir az da sözünü incik deyərək,
Dilləndi, çoxdandır dinməyən soldat.
Susmuşdun, danışdın sən də axır ki,
Görünür dastanlı, həm nağıllısan.
Sənin bu sözündən belə çıxır ki,
Bizim hamımızdan sən ağıllısan.
Deyib bu sözünü birinci soldat,
İkinci soldata qəzəblə baxdı.
“Demək, sən sayırsan bunu xəyanət,
“Deyib tüfəngini daşlara çaxdı.
Sonra sakitləşdi, susdu, dinmədi,
Çökdü, ara verdi qəzəbinə də.
Dözdü öz sözündən, dözdü, dönmədi,

Baş qoyub özü öz əzabına da.
Özü bayağıydı, sözü bayağı,
Bilmirdilər, düzü, nə düşünürdü.
Yox idi sözünün başı-ayağı,
Danışırdı, özü nə düşünürdü.
Gözünü süzürdü o yan, bu yana,
Nəsə axtarırdı zəli kimi o.
Arada gəzirdi o yan, bu yana,
Sanki dəli idi, dəli kimi o.
Bozqurd ulayırdı, çıxmışdı döşə,
Qartal da zirvəyə qonub qalmışdı.
Ağıla gəlməyən qəfil bu işə,
Arxacdakılar da donub qalmışdı.
Burada hər nə var susub qalmışdı,
Arada arabir itlər hürürdü.
Qarılar qapıda bardaş qurmuşdu,
Arxacda susqunluq hökm sürürdü.
Durduqları yerdə dara düşərlər,
Çoxu oyanmışdı təzə yuxudan.
Birdən satqın kimi başa düşərlər,
Dinə də bilmirdi çoxu qorxudan.
Səs salan soldatı qoymurdu gözdən,
Xəyala dalmışdı Əsgər kişi də.
Necə durmuşdursa, yerindən tezdən,
Elə də qalmışdı Əsgər kişi də.
Donlar əriməyə başladı birdən,
Birinci uşaqlar dondan açıldı.
Yerə oturanlar durdular yerdən,
Qaranlıqlara bir işıq saçıldı.
Böyüklər dalbadal uşağa döndü,

Gözlər uşaqlara baxdı elə bil.
Hər yan yavaş-yavaş işığa döndü,
Hamı qaranlıqdan çıxdı elə bil.

Əşrəfin sıxıntısı

Artıq üç gün idi Şamil gedəli,
Yoldaşları ondan xəbərsiz idi.
Çəkilmişdi günün gündüzdən əli,
Həsrətin qədəri qədərsiz idi.
Başına nə gəldi, görən, nə oldu?
Nigaran qalmışdı dostları ondan.
Günəş üç gün açdı, sonra da soldu,
Xəbəri gəlməyib hələ heç yandan.
Çatmırdı Əşrəfin əli bir yana,
Yatırdı yaralı olduğu üçün.
Ağı söyləyirdi dili hər yana,
Könlü ağlayırdı dolduğu üçün.
O bir dil olurdu, qardaşı bir dil,
Deyir, dediyini edə bilmirdi.
Onu belə qoyub qardaşı Şamil,
Neynəsin, heç hara gedə bilmirdi.
Onun qamətini əymişdi güllə,
Düşmüşdü dostundan aralı Əşrəf.
Gəlib qılçasına dəymişdi güllə,
Neyləyə bilərdi yaralı Əşrəf.
Yanıb tökülürdü külü hər yerdən,
Durub gözləməkdi işi, neyləmək.

Artıq üzülmüşdü əli hər yerdən,
Bir əlac qalmışdı, dua eyləmək.
Bir də fikirləşdi iki-üç günə,
Yəqin ki, yarası sağala bilər.
Dönüb ola bilər o adam yenə,
Canından ağrılar dağıla bilər.
Əgər bu günlərin biri dönməsə,
Gedib dağ olaram dağ duruşuna.
Bu günlərdə Şamil geri dönməsə,
Özüm başlayaram axtarışına.
Nəfəsim daraldı, Şamil, görün, din,
Bir bax sığınacaq havasız deyil.
Ürəyimə damıb, yox elə bu gün,
Gələcəkdir Şamil, vəfasız deyil.
Gələcək Camalla o gələn kimi,
Yaşamaq eşqimi artıracaqdır.
Bircə yol üzümə o gülən kimi,
Nə var yaralarım qurtaracaqdır.
Çox ləzzət eyləyib mənə o günlər,
Sevinc dərdlərimi daşlayacaqdır.
Geriyə dönəcək yenə o günlər,
Yenə də o günlər başlayacaqdır.
Yenə yarayacaq işimə sazım,
Ay Şamil, gələcək o söz anladan.
Qalxacaq, yatacaq döşümə sazım,
Şamil oxuyacaq Tufarqanlıdan.
Süzülüb səsindən hopacaq yenə,
Dərmanı-dəvası "Baş Sarıtel"ə.
Dağlar özündə yer tapacaq yenə,
Gədəbəy havası "Baş Sarıtel"ə.

"Duman, gəl get bu dağlardan,
Dağlar təzə bar eyləsin.
Nə gözlərim görsün səni,
Nə könlüm qubar eyləsin!
Haşa, sevdiciyim haşa,
Deyilənlər gəldi başa.
Bir yandan özün tut daşa,
Bir yandan el car eyləsin!
Abbas ağlar zarı-zarı,
Getməz könlünün qubarı.
İlqarından dönən yarı,
Tanrı tez bazar eyləsin."
Görürsən sözünü toxuduqca da,
Bir ayrı həvəsdi onun həvəsi.
Oxusun, oxusun, oxuduqca da,
Qoy düşsün bu dağdan o dağa səsi.
İrəliyə günlər su kimi axır,
Adamın da günü su günü, Şamil.
Hardasan, dayanma, qayıt, gəl axır,
Qayıt, yaşat bizə bu günü, Şamil.
Bir başı özüydü, bir başı Şamil,
Böyükdən böyükdü ürəkdə xətri.
Gözə görünmürdü qardaşı Şamil,
Ancaq darıxırdı Şamildən ötrü.
Dost kimi adını dildə qaldırıb,
Ucadan ucada ucalayırdı.
Onun xəyalına əl də qaldırıb,
Qardaşı Şamili acılayırdı.
Olmayırdı elə sözü-söhbəti,
Başını bulayıb Şamil gülürdü.

Qardaşı Əşrəfin bu hərəkəti,
Əslən Şamilə də çox xoş gəlirdi.
Birdən üzü-gözü güldü Əşrəfin,
Ləldən olmalıdır donu Şamilin.
Gözünün önünə gəldi Əşrəfin,
Necə çıxarmağı onu Şamilin.
Elə bil gündüzə gecə çıxartdı,
Endi göyün yeddi qatından onu.
Çiyninə aldı da necə çıxartdı,
Güllə yağışının altından onu.
Qalmışdı ya dirim, ya ölüm harda,
Ya da tutulmuşdum indi dardaydım.
Bəlkə, o dünyada, nə bilim, harda,
Şamil olmasaydı, indi hardaydım.
Necə yatmışdısa gələndən Camal,
Saat on bir idi, oyanmamışdı.
Onu halsızlığa salmışdı bu hal,
Vaxt edib əynini soyunmamışdı.
Canında qalmışdı canı tapdanıb,
Tutduğu alnının yaxası idi.
Bu günə salmışdı onda toplanıb,
Bu son üç-dörd günün yuxusu idi.
Yatırsan bilmirsən, yuxu yuxudur,
Xəbərin olmayır qohum-qardaşdan.
Həmişəki kimi fərqi yox idi,
Şamilsə durmuşdu yenə o başdan.
Düşünürdü Camal oyansın sonra,
Görsünlər bir yerdə nə edəcəklər.
Görərlər atsalar bir addım anrı,
Axşama qalacaq, ya gedəcəklər.

Qıpqırmızı gündür, artıq hər tərəf,
Bir azdan olacaq artıq gün yarı.
Həm də bilirdi ki, Şamillə Əşrəf,
İndi nigarandır onlardan sarı.
O istədiyi tək Əşrəf də onu,
Bilirdi, istəyir öz canı qədər.
Gələr bu günün də yetişər sonu,
Gün batar, bu gün də axşama gedər.
Bunu fikirləşib Camala baxdı,
Camalın dünyadan xəbəri yoxdu.
Elə yatmışdı ki, fil yuxusunda,
Axşam necə ola əl yaxasında.
Baxanda gözünə elə gəldi ki,
Az qaldı gözləri yana Şamilin.
O anda özünə elə gəldi ki,
Ürəyi ağrıdı ona Şamilin.

Yuxu

Hərdən yuxusunda sayıqlayırdı,
Yuxular içində itmişdi Camal.
Yatırdı canının yuxusu vardı,
Daş kimi yuxuya getmişdi Camal.
Bir elə gedirdi, belə gəlirdi,
Bu baş durmayırdı, o baş duranda.
Hərdən Şamilə elə gəlirdi,
Camal da duracaq o daş duranda.

Gəlib yuxusuna gör nə girirdi,
Onu qarşılayır aşıqlar sazla.
Camal yuxusunda bir nə görürdü,
Qolboyun olubdu sevdiyi qızla.
Göyçəyə çıxmışdı, gedib Göyçəyə,
Gedib yuxusunda Göyçədə idi.
Baş əydi, sitayiş edib Göyçəyə,
"Başına dolanım, a Göyçə", – dedi.
Tikanından yana, daşından yana,
Türkü sındıracaq Türkün yuxusu.
Ata bilməyirdi başından yana,
Başına çəkmişdi kürkü yuxusu.
Yuxuda gözlərə yuxu satırdı,
Şirinlik alırdı şirin yuxudan.
O dörddən bu dördə artıq yatırdı,
Çıxmırdı düşdüyü dərin yuxudan.
İbarətdir ömrün sonu yuxudan,
Bilsə yuxusuna yuxu qatardı.
Oyatmasaydılar onu yuxudan,
Hələ bir neçə gün belə yatardı.
Atardı qaraya qara vermədən,
Yuxudan yuxunun qoxusunu o.
Yatıb da dünyanın ara vermədən,
Alardı əlindən yuxusunu o.
Kölgəsinə alıb layla deyirdi,
Ürəkdə abırı, üzdə həyası.
Laylasına salıb layla deyirdi,
Onun yuxusuna Şamil qayası.
Baxıbsan, ağlayıb, daş dolmağına,
Görürsən, bu dərdi daş da anırdı.

Görünür, baxma da daş olmağına,
Camala daşın da qəlbi yanırdı.
Artıq az qalırdı saat altıya,
Axşam tərəfinə Camal göz açdı.
Gözləri yatmaya, bir də yata ya,
Gözündən yuxusu gecəyə qaçdı.
Özünü dayayıb o yerə, durub
Oturdu qayanın daşı üstündə.
Elə bildi çoxdan bu cürə durub,
Dayanmışdı Şamil başı üstündə.
İstədi, Şamilə nə isə desin,
Neylədi, çıxmadı içdən cınqırı.
Nəyi var hər şeyi bir səsə desin,
Deyən, daş olmuşdu heçdən cınqırı.
Durdu bir dəqiqə bu cür qalıb da,
Düşündü ki, sonra dinə bir azca.
Danışdı özünü ələ alıb da,
Kəkələdi ancaq yenə bir azca.
Könlüm, gözünə nə dolduğunu,
Bilmirmiş nə dolub, qan, ya su adam.
Bilmirmiş danışmaq nə olduğunu,
Ömürlük lal imiş sanki bu adam.
Onu belə görüb Şamil dilləndi:
"Camal, özünə gəl, Camal, necəsən?
Özündə olubsan, nə olub indi?
Çox yaxşı yatıbsan axı gecə sən”.
Toxta, özünə gəl, bu bir həyatdır,
Söylə, hiss edirsən özünü necə?
Az qala yatdığın on beş saatdır,
Artıq gəlib çatır ikinci gecə.

Yaşa bundan sonra gəl sevincini,
Yolunu yaxşı get, heç vaxt axsama.
Demişəm qoy yatıb alsın dincini,
Səni gözləmişəm günü axşama.
Nə qanını qaralt, nə gözün dolsun,
Bəsdir, beyni aç, danış, gül daha.
Bir az da gözləyək, qoy axşam olsun,
Qaranlığa salaq, gedək gəl daha.
Getdiyimiz bu yol haqdadır, Camal,
Şamilin sözünə toxdadı Camal.
Gəldi, handan-hana özünə gəldi,
Qayıtdı dilinə, sözünə gəldi.
Çöndü dili, sözü əvvəlki oldu,
Döndü elə özü, əvvəlki oldu.
Bacardı özünü özü eylədi,
Dilini də açdı, söz də söylədi.
"Gedək, düz deyirsən gedək, a Şamil,
Bilirəm Əşrəfgil bizi gözləyir.
Şamil də danışır bilirəm dil-dil,
Gözü yolda qalıb özü gözləyir.
İkimiz hardayıq, ikimiz harda,
Biz namərd deyilik, biz mərd qardaşıq.
İkimiz burdayıq, ikimiz orda,
Biz iki deyilik, biz dörd qardaşıq.
Dağlar geyinmişdi artıq şər donu,
Görmürdü gətir də bax gözü gözə.
Heç də gözləmirdi Camaldan bunu,
Ürəkdən sevindi Şamil bu sözə.

O bunu, bu onu ha dilə tutub,
Deyilən hər sözü dərk elədilər.
Qayanın ağzında əl-ələ tutub,
Şamil qayasını tərk elədilər.

Əşrəfin yanlışlığı

Aldı çiyinlərdən yükü saraltı,
Burda bənd aşağı, bərə yuxarı.
Baxıb gördülər ki, iki qaraltı,
Çıxdılar yön alıb dərə yuxarı.
Çatıbmı sonları bu gələnlərin,
Nədənsə onları ağlı çaşdırdı.
Sonradan onları, bu gələnlərin,
İki olmaları sakitləşdirdi,
Gəlirdi, çıxmırdı səsi onların,
İrəlidə Şamil, geridə Camal.
Səbrimizi basaq, birdən bunların,
Olar biri Şamil, biri də Camal.
Dayanmışdı Əşrəf döşündə dağın,
Şamil də bir azca ondan aşağı!
Yanılı qalmışdı sığınacağın,
İçdə sürünürdü solğun işığı.
Göstərdi qırağa üzünü o an,
Yandırdı papiros, işığı saldı.
Şamili tanıyıb özünü o an,
Əşrəf yuxarıdan aşağı saldı.

Onu belə görüb qaranlıq susdu,
Elə bil yanıb da çıxmışdı oddan.
Qol açıb Şamili bağrına basdı,
Unutdu Camalı, çıxartdı yaddan.
Gəlib sağ-salamat, özü də gəlib,
Xoş xəbərlə gəlib, xoş sözlə gəlib.
Ürəyi də gəlib, gözü də gəlib,
Gəlib igid kimi, ağ üzlə gəlib.
Onsuz da, nurludur yolu Şamilin,
İşığa qoy olsun meyli beləcə.
Boynuna sarıldı qolu Şamilin,
Qurudu da qaldı xeyli beləcə.
Birdən də çəkildi Şamildən yana,
Camala üz tutdu "A satqın!", – deyə...
Göstərdi əlinin suyunu ona,
Şart! Sillənin səsi səs saldı göyə.
Tüfəngə əl atdı onun dalınca,
Camalı əlüstü vurmaq istədi.
Şamil ortalığa atıldı bunca,
Əşrəfin işini burda pislədi.
Dedi ki, ay Əşrəf sənə nə olub?
Bu nə hərəkətdir, sən neyləyirsən?
Ağlınmı azalıb, yenə nə olub?
Soğanmı yeyibsən, nə göynəyirsən?
Döyüblər, yenə də bizi satmayıb,
Dostun qarşısında başı dimdikdir.
Gedilən bir yolu, izi satmayıb,
Dostluğa sadiqdir, dostluqda təkdir.
Özünə edirsən, hər nə edirsən!
Mən də istəmirəm, xəstə hörməti.

Görməzə-bilməzə gör nə edirsən,
Budurmu, de, dostun dosta hörməti.
Bunu mən bilirəm, bunu bir ancaq,
Onu da bilirəm mən, yanılırsan.
Biri-birimizi gəlin az sancaq,
Ay Əşrəf, Vallah ki, sən yanılırsan.
Gəzintim çox olub bu dağda mənim,
Gəzmişəm dumanı, çəni belə mən.
Məni yanıldıbdır, deməli, zənnim,
Heç belə bilməzdim səni belə mən.
Bir yerdə salmışıq qorxunu heçə,
Yoxsa, içimizdə qorxu sönmürdü.
Salıb dayanmışdı səsini içə,
Qorxudan susmuşdu, Camal dinmirdi.
Çaşıb, bir qıraqda durub qalmışdı,
Qorxusu qorxuydu, xəyalı xəyal.
Əşrəfin əlindən Şamil almışdı,
İndi öldürürdü Camalı Camal.
Yox, yox, öldürmürdü içini xəyal,
Çaşdırırdı, hərdən özü çaşırdı.
Çöldəki Camalı içdəki Camal,
Deyən, öldürməyə hazırlaşırdı.
Harda öldürəcək, necə, nə zaman,
Hələ ki yox idi, seçində onun.
Hər halda ölümə yaxşı, ya yaman,
Hazırlıq gedirdi içində onun.
Dururdu ölümlə pəncə və pəncə,
Ölüb yaşamışdı o ölüm üstü.
Ölümdən dönmüşdü iki gün öncə,
İndi öldürmüşdü mənən öz dostu.

Öz canıma qıydım, dostu satmadım,
Şahiddir o göydə Allah özü də.
Dostluğa yanlış bir addım atmadım,
Günahım olmadı, Vallah, özü də.
Ya töküm biryolluq qanım qurtarsın,
Yarım ürəyimi ikiyə bölüm.
Ya ölüm biryolluq canım qurtarsın,
Lazımdırmı mənə mənəvi ölüm?
Eyləmək olmurdu ölündən onu,
Dönmək istəmirdi köçündən Camal.
Hiss etmək olurdu çölündən onu,
Ölüb-dirilirdi içindən Camal.
Gələndən nə elə üzü gülmüşdü,
Gəlməzdi, bu günə o qalmazdı heç.
Camal bu dəstəyə təzə gəlmişdi,
Bir ay yarım olar, ya olmazdı heç.
Qaçaqlıq edirdi bu qaçaqlarla,
Gəlmişdi özü də Şamilə görə.
Qoçaqlıq etdiyi bu qoçaqlarla,
Tutmuşdu sözü də Şamilə görə.
Gəldi soldatların əlindən aldı,
Oldu gərəyində Şamil Şamildir!
Belə Şamil oldu, Şamil də qaldı.
Yenə ürəyində Şamil Şamildir.
Özü nə, ondan bir kölgə yox idi,
Gördün, ona görə dindi burda da,
O olmasa idi, bəlkə, yox idi,
Harayına çatdı indi burda da.
Nağıl səpələnir, nağıl tökülür,
Dünyada yox tək bir nağılsız daş da.

Bir qram da qalmır, ağıl tökülür,
Ağıl ha qalmayır ağılsız başda.
Sıralıq yaradır sıramızda da,
Sən ağıllımız, nə mən ağıllımız.
Düşünəndə bizim aramızda da,
Deməli, Şamildir ən ağıllımız.
Soyu aranından, soyu dağından,
Bax biri yayladır, biri qışladır.
Əşrəfin acığı soyuduğundan,
Heç kəs yox, bu yol, o, sözə başladı.
Özünü özümdə çox danlamışam,
Acıqlı olmuşam bu başla, Camal!
Başa düşməmişəm səhv anlamışam,
Xətrinə dəymişəm, bağışla, Camal!
Sevincdənmi oldu, ya əsəbdənmi?
Kövrəltdi, incəltdi Camalı bu söz.
Şamilə hörmətdən, bu hesabdanmı?
Bu söz ürəyini eylədi köz-köz.
Oxutdu içini aşıqlandırdı,
Baxdı qaranlığa, gözləri güldü.
İçindən çölünü işıqlandırdı,
Üzünə-gözünə duruluq gəldi.
Camalın əlindən tutdu da Şamil,
Ayağa qaldırdı, bağrına basdı.
Əşrəfə bir addım adtı da Şamil,
Susdu bir anlığa, Əşrəf də susdu.
Baxdı, bir-birinin gözünə baxdı,
Göz-gözə durdular məğrurcasına.
Bu an gözlərində şimşək də çaxdı,
Hər biri ağrıdı ağırcasına.

Bu heç bir ağrıya bənzəməyirdi,
Bu ağrı bənzərsiz bir ağrı idi.
Nə ağrıları var, onu döyürdü,
Onların ağrımaq uğuru idi.
Deyəsən, ağrıdı Şamil Əşrəfdə,
Əşrəf də Şamildə döndü, ağrıdı.
Camal da ağrıdı o bir tərəfdə,
O biri Şamil də indi ağrıdı.
Nə ağrın var, onu bir yerə yığ da,
Oğulsan, ağrını çək bir ağrıya.
Ağrılar selində, bu sıxasıxda,
Çevrildi dörd ağrı tək bir ağrıya.
Sevgi aşıb-daşıb bu sevgilərə,
Elə sevgi axsın sevgiyə doğru.
Sevgiylə yanaşıb bu sevgilərə,
Özü də ağrıdı, sevgidən ağrı.
Bu anda özündən çəkinən kimi,
Qırağa çəkildi Əşrəfdən Şamil.
Özü öz gözündən çəkinən kimi,
Çevrilib o biri tərəfədən Şamil.
Yeridi yenə də Əşrəfə sarı,
Dayandı bir daha onlar üz-üzə.
Azadlıq eyləyək gərək bu darı,
Şamilin dilində gəldi söz-sözə.
Cümləyə çevrilmir söz ayrı-ayrı,
Ay Əşrəf, nə olar, tarixi oxu.
Güclü ha deyilik, biz ayrı-ayrı,
Dördümüz bir yerdə güclüyük axı.
Ayrıca il, ay yox, ayrı günlərik,
Düzü dağ da edən, dağı düz edən.

Ayrılıqda ayrı-ayrı mənlərik,
Bax ki dördümüzük bizi biz edən.
Gəl birimiz Batı, birimiz Doğu,
Olaq Quzey, olaq Güney birimiz.
Ayırmayaq elə aranı, dağı,
Görünsün dünyaya qoy hər yerimiz.
Olaq işıq, hava, su adamlara,
Torpağa dönək də, düz qamət olaq.
Hər an yol göstərək bu adamlara,
Duraq da dörd yanda dörd cəhət olaq.
Şamil danışırdı, hamı susmuşdu,
Ləl sözlü ağzından od tökülürdü.
Dağlar qaranlığı daşa basmışdı,
Səhər açılırdı, dan sökülürdü.
Sözütək qoçaqdan qoçaq Şamilin,
İndicə hər tərəf işıqlanacaq,
Qaramurad adlı Qaçaq Şamilin,
Kəndicə hər tərəf işıqlanacaq.
Dərə-təpəsindən, bərə-bəndindən,
Bir az işığını, bir az çox etsin.
Başlasın qoy bir bənd onun kəndindən,
Böyüsün, yayılsın, şəri yox etsin.
Qalsın, qoy həmişə asılı qalsın,
Qoy göydən asılı, yerdən asılı.
Qalsın, bir xeyirə qısılı qalsın,
Bu dünya qalmasın şərdən asılı.
Olsunlar qoltuğu qızlı-oğullu,
Özü neynir, görsün adamlarına.
Ağıllı olsunlar, ancaq ağıllı,
Dünya ağıl versin adamlarına.

Sınsın birdəfəlik sinə daşları,
Olsunlar qoy bayram, toy adamları.
Aradan götürüb bu savaşları,
Mehriban yaşasın qoy adamları.
Gözüqan insanda insan üzü yox,
Hər nədir niyyəti, özünə qalsın.
İnsan üzərində insan özü yox,
İnsanda insanlıq qələbə çalsın.
Hər gün qarşılaşdıq bir ruzi ilə,
Əkib özümüzü əkilmədikmi?
Elə bu niyyətlə, bu arzu ilə,
Biz də bu dağlara çəkilmədikmi?
Buta verib, həm də butalar deyib,
Verib torpağını, çayını Allah!
Verib hər adama, Atalar deyib,
Ürəyinə görə payını Allah!
Deyilən sağlıqlar, deyilən tostlar,
Bir iz, bir cığırdan yolaca paydır.
Qaçaqlıq da bizə, dostlar, a dostlar,
Tanrının verdiyi balaca paydır.
Bir sevincə gəlin, bir dərdə gəlin,
Çıxaq alçaqları, tapaq ucanı.
Tək əldən səs çıxmaz, bir yerdə gəlin,
Bəsləyək, böyüdək bu balacanı.
Keyitsək, təkcə o keyiməyəcək,
İçində özümüz keyiyəcəyik.
Böyüyəcək, o tək böyüməyəcək,
Onunla özümüz böyüyəcəyik.
Anında qurtaraq bir ağır yükdən,
Sağlıqla yığılaq damımıza da.

Qoy bu ucalıqdan, bu böyüklükdən,
Pay alaq, pay düşsün hamımıza da.
Şamil danışırdı çox coşğunluqla,
Sanki şairləşib şeir yazırdı.
Qaçaqlar dinləyir çox susqunluqla,
Onların könlünə fərəh sızırdı.
Bir yer qalmamışdı burda çaşmağa,
Var idi çoxdan bu istəklərində.
Hazırlaşırdılar dağlar aşmağa,
Hücum qururdular ürəklərində.
Yoxdur, bir dənə də yolları yoxdur,
Bir ofa, bir oxa, bir aha doğru.
Ancaq qanadları, qolları çoxdur,
Bu gündən uçmağa sabaha doğru.
Günəşdən dağlara işıq axmışdı,
Açmışdı quşların yaxalarını.
Axşamdan yatmaq da yaddan çıxmışdı,
Şamil dağıtmışdı yuxularını.
Şamilin sözünə yayıldı Əşrəf,
Sözlər ürəyinə yayılan kimi.
Elə bil özündən ayıldı Əşrəf,
Oldu da yyxudan ayılan kimi.
Qızıldan qiymətli sözlər deyirsən,
Deyirəm, a Şamil, sözünə qüvvət.
Çox yaxşı mənada bizi döyürsən,
Ürəyinə qüvvət, özünə qüvvət.
Ürəyim ellərin, gözüm ellərin,
Çətindir hər adam eşqinə düşə.
Azadlığı üçün bizim ellərin,
Deyirəm başlayaq yenidən işə.

Azadlıqda olmaq asan olmur ha,
Ola bilər, bir az ağrılar olsun.
Gözləmək zamanı deyildir daha,
Gedək yolumuza, uğurlar olsun.
Verdilər Şamillə Əşrəf qol-qola,
Qovuşdu xoş arzu, amal da buna.
Onlar cız çəkdilər yeni bir yola,
Qol çəkdi Şamillə Camal da buna.

Özbaşınalıq

Camal əsirlikdən azad olandan,
Qaçaqlar hər yerdə izlənirdilər.
Onlar soraqlanır o yan, bu yandan,
Yenidən tutqu da gözlənilirdi.
Arxacda hər kəsi yoxlayırdılar,
Özləri qalıb da yuxu içində.
Qaçaqlar o yana, saxlayırdılar,
Obada hər kəsi qorxu içində.
Düşünəndə belə fərqi yox idi,
Onsuz, çiyinlərdə ağır idi yük.
Onlar üçün elə fərqi yox idi,
Hər kim olur olsun – kiçik, ya böyük.
Girəcəyə soldat düzdürmüşdülər,
Sorğu edirdilər girib-çıxanı.
Qısası, hamını bezdirmişdilər,
Çıxıb, çıxıb hətta yola baxanı.
İzlənirdi hansı yoldan keçdiyi,
Canından bezmişdi camaat daha.

Burnundan gəlmişdi yeyib-içdiyi,
Dönüb qarışmışdı axşam sabaha.
Olan dərd-sərini artıq unudub,
Olmayan bir ayrı axardaydılar.
Gündəlik üzünü Allaha tutub,
Ancaq ona yalvar – yaxardaydılar.
Qılınca çapırdı bu ac camaat,
Məktublar yazırdı şaha hər yerdən.
Bir qarın çörəyə möhtac camaat,
Əlini üzmüşdü daha hər yerdən.
Acı idi hər şey, acıdan acı,
Qalmamışdı dostluq, nə aşinalıq.
Gəzib dəyə-dəyə bütün arxacı,
Başına almışdı özbaşınalıq.
Duranın tutmuşdu zığ gözlərini,
Çoxu da çardaqda yatıb qalmışdı.
Qara camaatı bu həyasızlıq,
Bütöv hökumətdən incik salmışdı.
Saymazlıq hamını üşütməkdəydi,
Bu gəlhagəldəki, gethagetdəki,
Hətta eşidirdi eşitməkdəydi,
Hələlik onları hökumət də ki...
Allahın da üzü dönmüşdü sanki,
Üz də özlərinin üzləri idi,
Səs eylə, çatmırdı yuxarı çünki,
O səsi çatdıran özləri idi.
Adamlar bilmirdi mənası nədir,
Çatı, kəndiri də yoxlanılırdı.
Qazanda qatığı, sərnicdə südü,
Şoru, pendiri də yoxlanırdı.

Hazırdılar hansı dəm olur, olsun,
Qanlarından keçə, qana doymuşdu.
Qoca, ya da cavan-kim olur, olsun,
Baxırdın hər bir kəs cana doymuşdu.
Dağları, daşları didib çatmışdı,
Hər bir ucalara, alçaqlara da.
Yerin ağır anı gedib çatmışdı,
Şimşək sürətilə qaçaqlara da.
Obaya enmək də istəmişdilər,
Onlar eşidəndə bu səs, sorağı.
Silahla dinmək də istəmişdilər,
Hazır eyləyib də hər yar-yarağı.
Açsınlar, qan bizdə, qada bizdədir,
Bunların nə dini, nə Allahı var.
Əgər günah varsa, o da bizdədir,
Qara camaatın nə günahı var,
Hamı çox, hamının bir Allahı var,
Allah sən götürmə allahsızlığı.
Olsa, olsa ancaq bir günahı var,
Onların günahı günahsızlığı.
Qanunsuz adama qanun hardadır,
Qarşılasın gedən sonlar bizləri.
Biz burda azadıq, ellər dardadır,
Qınasa, yaxşıdır onlar bizləri.
Sözdə olmaz, niyə sözdə düşünək,
Edək nə bir sağlıq, nə də bir solluq.
Belə olan halda bir də düşünək,
Seçək yolumuzu daha biryolluq.
Dediyimiz bircə sözü satmadı,
Özləri hər qara günə qalaraq.

Saxladı ovcunda bizi satmadı,
Camaat həmişə bizlə olaraq.
Acı ömrə, yaman günə qaldı da,
Bizə görə yenə özünü üzdü.
Bizim üstümüzdə alçaldıldı da,
Onlar gör nə qədər təhqirə dözdü.
Dözdülər bu gündə, dözürlər hələ,
Dözüb yaşayırlar bu dözməklə də.
Bizdən ötrü can da üzürlər hələ,
Üzüb yaşayırlar bu üzməklə də.
Görmüşük hər əzab, hər işgəncə də,
Kimisi elədir, kimisi belə,
Gözlərdən oxundu bu düşüncə də,
Dedilər biri yox, hamısı belə.
Qocalar o yana, buna ver bir haqq,
Yenə üstlərində var kişi adı.
Bizim üstümüzdə elə o gün bax,
İncidiblər Bəsti, Guhar arvadı.
Heç çölə çıxmayan daxmalarından,
Hər fitnə, kələkdən uzaq qarılar.
Yadlar qarşısına çıxmalarından,
Peşmanlıq çəkiblər yazıq qarılar.
Bir də o Ziveydə , o canı xəstə,
Hamısının adı qalırmı yadda.
Xanım, Xacı qarı, Gülxar, Mürəstə,
Ellazın yoldaşı Fatma arvad da.
Yadlar qarşısına çıxarılıblar,
Deyib sözlərini abır-həyayla.
Könlü sına-sına çıxarılıblar,
Sözlərini hörüb daşla-qayayla.

Artıq bir söz belə danışmayıblar,
Orda düşsələr də hər çək-çevirə.
Duyub ayrı cür də yanaşmayıblar,
Yox, bir kəs onları hələ devirə.
Baxır, kimdə qadın, kimdə anadır,
Ancaq çox xoş anlar daşıdıb bizə,
Onlar həm qadındır, həm də anadır,
Qadın kişiliyi yaşadıb bizə.
Qadınsız bir kişi deyin, neyləyib,
Qadınsız vətənin kişisi olmaz.
Axı Atalar da belə söyləyib,
"Aslanın erkəyi, dişisi olmaz."
Ürəkdən qanasız, candan qanasız,
Bax yaşamaz heç vaxt butasız ana.
Böyüdə bilməz ki, ata anasız,
Övladı böyüdər atasız ana.
Keçmişdən bu yana, hələ bu gün də,
Bir də ki şahiddir bu savaş ona.
Oğul-qız seçməyib elə bu gün də,
Saxlayır onları yığıb başına.
Bulaqdan bulaqdır, dənizdən dəniz,
Azadlığı içdə, darı üstündə.
Yaşayır tərtəmiz, təmizdən təmiz,
Namusu, qeyrəti, arı üstündə.
Gərək biz kişilər unutmayaq ki,
Belə qadınlardır bizim qadınlar.
Özləri haqdırlar, haqdan da haq ki,
Bu canım qadınlar, gözüm qadınlar.
Gəlib bu dağlara, bu meşələrə,
Gəzib neçə şəhər, kəndi bu yadlar.

Onda ar olsun ki, bizim kişilərə,
İncidir onları indi bu yadlar.
O çayda daş-çınqıl, o çayda qumdur,
Yaşamırıq təkcə sözlərə görə.
Sualın cavabı artıq məlumdur,
Nə üçün, özü də bizlərə görə.
Nahaq partlasınlar, nahaq şişsinlər,
Nə olsun, dördü də dərd əmirdi də.
Fikirdən fikrə ha fikirləşsinlər,
Min fikir bir borcu ödəmirdi də.
Qırılsa, uçarmı o qanad, o qol,
Quşundur , qurulub o yuva orda.
Tapılmalı idi tezliklə bir yol,
Əziyyət çəkirdi el-oba orda.
Neyləyər, görən, qul, kölə bu anda,
Bilinmədi, elə ağladı, güldü.
Ağzını açdı da elə bu anda,
Birinci təklif də Şamildən gəldi.
Belə yaşamaqdan sarı, a dostlar,
Ya ölməli , ya da öldürməliyik.
O dağ da saxlamır qarı, a dostlar,
Biz də sözümüzü bildirməliyik.
Özümüzü təslim edib özümüz,
Çıxıb min yalandan bir həqiqətə.
Öz ayağımızla gedib özümüz,
Təslim olmalıyıq bu hökumətə.
Heç bir şey güzəştsiz olmur, neyləyək,
Yurda qurban olsa canımız, xoşdur.
Neyləyək, yanımız dolmur, neyləyək,
Biz dördcə nəfərik, yanımız boşdur.

Oynamaqla deyil bir öz havanda,
Çox hava oynayır, bir bax o göyə.
Gediblər, gəlməyib elə cavan da,
Cavanlar gediblər müharibəyə.
Bəlkə də, getməsə, qalıb da burda,
Çıxara bilərdi ad torpağında.
Hünərlə döyüşür çoxları orda,
Can verib çoxu da yad torpağında.
Göydə bulud dolar, nə dolar, dolar,
Tələyəmi düşdük, ya bir tələdir?
Gəlin üzə çıxaq, nə olar, olar,
Biz neyləməliyik, qismət belədir.
Sevgili sabahı, yar sabahı var,
Keçmiş danışılır, nağılla olur.
Bu günün sabahı var, sabahı var,
Hər şey düşünülür, ağılla olur.
Yoxdur ağırlığı bir çəkisi də,
Mən yansam da, tüstü sənin tüstündür.
İnsandan ötrüdür hər ikisi də,
Bu yerlərdə hislərdən ağıl üstündür.
Bu sözdən götürüb öz yüklərini,
Hərə öz beynində plan qururdu.
Əşrəfsə Şamilin dediklərini,
Götür-qoy edirdi, tutuşdururdu.
Dözərdi ömürlük qara-borana,
Dözərdi başına qar, ya daş yağa.
Hərdən aparırdı dağı arana,
Hərdən gətirirdi aranı dağa.
Tutanı yox idi, yıxılırdı o,
Arasında idi dağla aranın.

Gəlməsin deməyə sıxılırdı o,
Dağdan qapısını bağla aranın.
Axırdı qan, ya da su yarasından,
İrinli idi qan yarasındakı.
Adam qalar odla su arasında,
Qalmaz dağla aran arasında ki...
Çəkərdi o əzab, o əziyyət də,
Niyə bəs bu dağlar əl çəkir ondan?
Belə bir zamanda, bu vəziyyətdə,
Gəldi onu tapdı bu fikir hardan.
Acıqla bir fikrə yanaşmadı da,
Acığı gətirdi nə bir söz dilə.
Sakitcə bir kəlmə danışmadı da,
Ürəyində dedi, əhsən Şamilə.
Sözdən söz xalısı toxuyan Şamil,
Görmədilər, olsun özünü öyən.
Hamını gözündən oxuyan Şamil,
O an Əşrəfi də duymuşdu, deyən.
Əşrəfin qardaşı o biri Şamil,
Elə düşünürdü o da nə isə.
İrəli dururdu, nə geri Şamil,
Nə səsə gəlirdi, nə də bir səsə.
Dözüb o da qara, çox sazaqlara,
Yaşamaq həvəsi candan çıxmırdı.
Getmişdi xəyalı çox uzaqlara,
Daşdan səs çıxırdı, ondan çıxmırdı.
Hərdən də Əşrəfi izləyirdi o,
Qorxudan qoymurdu, xəyalı çaşsın.
Böyük bilib onu gözləyirdi, o,
Qəlbində deyirdi, qoy o danışsın.

Bu dağa sancılan dərdi sancaq ki,
Biz yox, dağ dağın öz ruzisi idi.
Şamilin dediyi sözlər, ancaq ki,
Onun da çoxdankı arzusu idi.
Dərdi yığışdırıb ar, namusuna,
Ölür, bir doğulub qalırdı burda.
Canı sığışdırıb ar, namusuna,
Qeyrətə boğulub qalırdı burda.
Gedirdi günbəgün sona bu belə,
Adam sonuna çox heyrətli olur.
Ağlayır, gəlirdi ona bu belə,
Kişi ağlayanda qeyrətli olur.
Kim deyir, ağlamaq olmaz kişiyə,
Göz yaşı ölən, nə itən üçündür.
Qadının göz yaşı evə-eşiyə,
Kişinin göz yaşı Vətən üçündür.
Artıq nə qorxurdu, nə üşənirdi,
Başını qoymuşdu düşüncəsinə,
Bu an bilinmirdi, nə düşünürdü,
Camal da uymuşdu düşüncəsinə.
Gəldim bu dağlarda dünyanı daddım,
Yadından çıxmışdı işgəncələr də.
Düşünə-düşünə addımbaaddım,
Göyçəyə getmişdi düşüncələrdə.
Oraya çatanda dərd qurtarırdı,
Obasız yaşamaq ona ağırdı.
Orada uşaqlar mal otarırdı,
Qadınlar yenə də inək sağırdı.
Gəlib xəyalında bir qız bitmişdi,
İçinə düşmüşdü bir ətək səsi.

Çobanlar hamısı əsgər getmişdi,
Daha gəlməyirdi bir tütək səsi.
Desin öz sözünə, o nə yesin ki,
Yanlış-doğru sözə çox şey yemişdi.
Artırıb bir kəlmə o nə desin ki,
O nə deyəcəksə, Şamil demişdi.
Qalmışdı şələsi kürəyindəcə,
Taleyi yüz düyün salmışdı ona.
Əl qaldırmasa da, ürəyindəcə,
İki əlli razı qalmışdı ona.
İçinə qısmışdı hamı öz səsin,
Hələ ki susmuşdu ağızlarda dil.
Dillənmədiyini görüb heç kəsin,
Söhbətə başladı yenə də Şamil.
Qardaşlar, könüllü biz üzə çıxsaq,
Bizim cəzamız da yüngülləşəcək.
Sözü bir eyləyib, bir sözə çıxsaq,
Bilin, onda bizə iş az düşəcək.
Yazacaq elə bir söz qərarında,
Güzəştlər edəcək məhkəmə bizə.
Dəyişiklik edib öz qərarında,
Güzəştə gedəcək məhkəmə bizə.
Bu dağlar qorudu, bizi əylədi,
Yandımayaq çölü, içi də birdən.
Sakitcə bu fikri təsdiq eylədi,
Başını salladı üçü də birdən.
Dostların baş ilə dediyi "Hə" yə,
Şamil köks ötürdü, bir ah da çəkdi.
Sonra da dostları görməsin deyə,
Ya Əli, Məhəmməd,Allah da çəkdi.

Camalın üzə çıxması

Bu gün ayrılırdı Camal dostlardan,
Bu gün son deyirdi qaçaq adına.
Zorla sıyrılırdı Camal dostlardan,
Sığınıb gedirdi qoçaq adına.
İçlərində qəmlər aşıb – daşırdı,
Yeri qalmamışdı daha qalmağa.
Pəjmürdə-pəjmürdə hazırlaşırdı,
Dostları da onu yola salmağa.
Addımdan-addıma yol seçmişdilər,
Yeltək əsmişdilər bir yerdə çoxlu.
Bulaqdan-bulağa su içmişdilər,
Çörək kəsmişdilər bir yerdə çoxlu.
Dərmansızlığa, həm davasızlığa,
Ağrını, acını bir dadmışdılar.
Arada bir, ancaq havasızlığa,
Dözüb havanı da bir udmuşdular.
Düşsələr də eldən-obadan perik,
Daha kişiləşmiş, mərdləşmişdilər.
Olub bir-birinin dərdinə şərik,
Oturub bir yerdə dərdləşmişdilər.
Bir dost seyrəlirdi sıralarından,
Dağ yerində idi, o köçməmişdi.
El diliylə desək, aralarından,
Bir dəfə də olsun su keçməmişdi.
Camal ayrılırdı, bəli, bu gündən,
Bu gündən dağları tərk eyləyirdi.

Durub baxışırdı hamısı gendən,
Hamısı hər şeyi dərk eyləyirdi.
Hazırdı hər biri təslim olmağa,
Hazırdı hər biri tutulmağa da.
Bir də tilsimləşib tilsim olmağa,
Zindandan-zindana atılmağa da.
Heç nə qalmayıbdır, heç nə baxmağa,
Haqq üçün çəkilən bir qol idi bu.
Ayrı yol yox idi, onlar çıxmağa,
İndi onlar üçün tək yol idi bu.
Hərə bir tərəfdə qəmə batmışdı,
Ancaq hamıdan çox Camal qəmgindir.
Ayrılıq məqamı artıq çatmışdı,
Özlüyündə elə bu hal qəmgindir.
Bilmirəm, hansıdır, yalan, ya doğru,
Yazı , yayı, güzü, qışı qarışıb.
Ürəyi, böyrəyi, öfkəsi, bağrı,
İçində nə varsa, başı qarışıb.
Camal gedir elə bir yoldadır ki,
Yoxdur, nə qabağı, nə dalı, görən.
Camal bir haldadır, bir haldadır ki,
Ağlayar Camalda bu halı görən.
Yenə də birinci ayağa durdu,
Addımladı Şamil Camala doğru.
Elə bil üşüdü soyuğa durdu.
Gözünə sataşdı ayrılıq oğru.
Çəkdi sinəsinə, sıxdı döşünü,
Bərk-bərk qucaqladı Şamil Camalı.
Qarışmaq olmurmuş dünya işinə,
Sanki görməyəcək min il Camalı.

Ardıcıl olaraq sonra Camala,
Əşrəf yaxınlaşdı, Şamil də gəldi.
Can sağlığı versin Tanrı Camala,
Onlar gülmədi heç, ayrılıq güldü.
Yüngül, yaraq nə var əlinə aldı,
Çiyninə aşırdı xurcununu da.
Getdi son sözünü dilinə aldı,
Demədi, Göyçədə deyəcək onu.
Yarı, sevgilisi, sonası üçün,
Qəlbində yüz ağrı, acı göynədi.
Çatmağa tələsdi anası üçün,
Yol boyu burnunun ucu göynədi.
Çıxır, sağ baxırdı, sol gözləyirdi,
Deyəsən, oğlunu gələn sanmışdı.
Neçə gün idi ki, yol gözləyirdi,
Ana ürəyinə nəsə dammışdı.
Camal getdi geri dönməmək üçün,
Yana-yana baxdı üç dost yollara.
Ağlamasın heç dost qoy için-için,
Baxmasın bir belə heç dost yollara.
Yaşamaq mümkündür ana-dədəsiz,
Dostsuz dost ürəyi dilim-dilimdir.
Düşüb birdən-birə belə vədəsiz,
Bu cürə ayrılmaq dosta ölümdür.
Yağış, o yağışa atıldı göydə,
Bu bulud o biri buluda axdı.
Qəfil birdən-birə tutuldu göy də,
İldırım şığıdı, şimşək də çaxdı.
Ayrı köç başladı köçümdə mənim,
Gəldi qulağıma quş pıçıltısı,

Bir gurultu qopdu içimdə mənim,
Kəsdi gurultuma göy gurultusu.
Quşlar uçdu, artıq pırıldamadı,
Oldu bu pırıltı o pırıldamaq.
Göylər bir də elə guruldamadı,
Oldu bu gurultu o guruldamaq.
Könlüm ayrılmayır bu dağdan, daşdan,
Ən çoxu üç günə sıyrılacağıq.
Dostlar belədirsə, elə bu başdan,
Ayrılaq, onsuz da, ayrılacağıq.
Dilini bilirdi göydəki quşun,
Çox şey gəzdirirdi səsində Şamil.
Səsi çıxmayırdı iki qardaşın,
Şamil danışırdı, yenə də Şamil.
Düzdür, çox doğmadır bu dağlar bizə,
Yurddur, el-obadır boybaboy evdir.
Ən şirin nəğmədir bu dağlar bizə,
Qapısı açılan taybatay evdir.
İndi ayıran da, ayrılan da biz,
Qılıncı qınından sıyrılacağıq.
Bilirəm, a dostlar, ayrılanda biz,
Doğma evimizdən ayrılacağıq.
Heç bir söhbətdə də, heç bir sözdə də,
Nəğmə görməmişəm bu nəğməlikdə.
Baba yurdumda da, kəndimizdə də,
Doğmam olmayıb, heç bu doğmalıqda.
Qalıb özümüzə bir dərd içirmək,
Uğur olsun mənə, sizə də uğur.
Bu dağlardan ayrı ömür keçirmək,
Ağırdır, bilirəm, sizə də ağır.

Bilmək olar, nədir daş göynərtisi,
O daşın yerinə göynəmək olar.
İsti, gah, soyuqdur, gah hənirtisi,
Bu dünya belədir, neynəmək olar.
Artıq harda duraq, harda dayanaq,
Siz deyin onda bəs hardan ayrılaq.
Gəldik bura qədər, burda dayanaq,
Burda əl verək də, burdan ayrılaq.
Deyirəm, durmayaq, hələlik gedək,
Gedək hərəmiz bir el istisinə.
Eyləyib dərdi bir şələlik gedək,
Əl tutaq isinək əl istisinə.
Gedirəm, bilirəm, dönəcəyəm mən,
Bir də buradakı havaya, suya.
Həmzə talasına enəcəyəm mən,
Sizdə enin burdan Qızılqayaya.
Gedək buralıqdır burda olanlar,
Onları aparaq ürəyimizdə.
Ürəyimizsiz heç yaşamaz bunlar,
İtirsək, taparıq ürəyimizdə.
Burda işıq, hava, su görüşümüz,
Saymaqla qurtarmaz heç gəlməz sana.
Son görüş olmasın bu görüşümüz,
Siz o yana gedin, mən də bu yana.
Dostluq qiymətlidir, girin qoynuna,
Heç nəyə verməyin yerini onun.
Deyib qaldırdı da saldı boynuna,
Bir qolunu bunun, birini onun.
Heç görməmişdilər Şamili belə,
Susub dinmədilər, bir lal oldular.

Ərkyanalığına Şamilin hələ,
Əşrəf də, Şamil də xoşhal oldular.
Ağlayıb tökmədi gözdən qanlı yaş,
Bu bir ilkdir də, bu bir sondur da.
Gəldi gözlərinə tək bir damla yaş,
Ağlamadı, ancaq ağlamsındı da.
Alışdırmaq üçün içdən özünü,
Çöldən quraqladı, qurağa atdı.
Bir göz qırpımında yumub gözünü,
O bir damla yaşı qırağa atdı.
Apar yerinə qoy yeri-yerini,
Ömrü ayrılığa çevrilən dostlar.
Ayrılıq gələndə biri-birini,
Həm kövrəldən, həm də kövrələn dostlar.
Heç də seçilmirdi bu bir nağıldan,
Ayrılmaq olmurdu, ayaq getmirdi.
Dəlilik eyləyər adam ağıldan,
Ürək olub dəlisayaq getmirdi.
Adam güc tapmalı, gücə dönməli,
Adamda bu gücə vec lazım idi.
Dönməli, ancaq ki necə dönməli,
Gücə dönməyə də güc lazım idi.
Özünü toplayıb özündə yenə,
Tapdı ən birinci bu gücü Şamil.
İldırımlar qopdu gözündə yenə,
Oldu hava gücü, su gücü Şamil.
Deyiləcək sözə nə qulaq asdı,
Bir göz qırpımında aşdı o qaşdan.
Əvvəlcə onları bağrına basdı,
Əl verib ayrıldı iki qardaşdan.

Ətrini almışdı burda hər gülün,
Ona doğma idi hər qaya, hər daş.
Durub arxasınca ancaq Şamilin,
Baxa-baxa qaldı bu iki qardaş.

Qaçaqlığa son

Qaçaqlar üç gündü üzə çıxmışdı,
Sözü çoxalmışdı kəndin – kəsəyin.
El söz yarışına, sözə çıxmışdı,
Göylərə çatmışdı səsi səs-küyün.
Yoxdur, danışmağa çətinlik heç bir,
Get-gedə söz demək asanlaşırdı.
Çəkilib qırağa iki-bir, üç-bir,
Hərə orda-burda xısınlaşırdı.
Deyildi ağzının sözünü bilmiş,
Özü qulaq asır, özü deyirdi.
Çoxu göstərirdi özünü bilmiş,
Çoxu bilmədiyi sözü deyirdi.
Bilmirdilər günü nə vaxt əyildi,
Günəş səhər doğur, axşam yaxırdı.
Danışılan sözlər eyni deyildi,
Qısası hər dildən bir söz çıxırdı.
Olub da maraqda tutuşduranda,
Yalan danışırdın baxıb göz-gözə.
Aparıb qıraqda tutuşduranda,
Uyğun gəlməyirdi bu söz o sözə.
Hərə oynayırdı öz havasına,

Biri kamandaydı, biri sazdaydı.
Başlarını qatıb söz havasına,
Adamlar hərəsi bir avazdaydı.
Gözünü göyərdib yalan-gerçəyə,
Hələ olurdu da sözə gələnlər.
Qulaq verib hər bir ağzıgöyçəyə,
Baş da bulayırdı tək-tək bilənlər.
Çapırdı elə bil ac da qılınca,
Gedib toxunurdu toxun daşına.
Dolanırdı bu söz o söz dalınca,
Söz-söhbət almışdı kəndi başına.
Şamilə baxırdı bir gözlə hamı,
Dərs alırdı bir çox uşaq Şamildən.
Şamildən deyirdi bir sözlə hamı,
Danışırdı hamı Qaçaq Şamildən.
Qaralırdılar, həm ağarırdılar,
Deyirdilər, dərdi deyil törəmə.
Kökünü, soyunu çıxarırdılar,
Uşaqlar aparıb Qaçaq Kərəmə.
Birdən də o uşaq ürəklərində,
Başlayırdı yeni aşıq dünyası.
Qalsın da qoy bu cür istəklərində,
Həmişə var olsun uşaq dünyası.
Ağladıqlarında, güldüklərində,
Təmiz ağlayırlar, təmiz gülürlər.
Bir çirkinlik yoxdur bildiklərində,
Uşaqlar hər şeyi təmiz bilirlər.
Qaçırlar qalmırlar əldə, qolda da,
Qalırlar sevgilər dənizliyində.

Paslı daxmada da, tozlu yolda da,
Uşaqlar qalırlar təmizliyində.
Göy bir sevgidəndir, yer bir sevgidən,
Var məşuq sevgisi, aşiq sevgisi.
Bu sevgi ucadır hər bir sevgidən,
Adına deyirlər uşaq sevgisi.
Heç də qınamasın aşıqlar məni,
Düşmədim düzlərə aşıqlar kimi.
Burda bağışlasın uşaqlar məni,
Mən sevə bilirəm uşaqlar kimi.
Bir soyada soyad, bir ada adam,
Hələ uşaqlığa aşıq qalıram.
Çöldən görünürəm yekə adamam,
İçimdə hələ də uşaq qalıram.
İndi gəl özünü seç uşaqlıqdan,
Doydumu dastandan, nağıldan hamı.
Bir danışan yoxdur heç uşaqlıqdan,
Danışır hər yerdə ağıldan hamı.
Dastanla bir yerdə, nağılla birgə,
Biz də dastanlanır, nağıllanırıq.
Hər gün yol getsək də, ağılla birgə,
Elə bilirik ki, ağıllanırıq.
Ağladımı, bil göz yaşı Şamildi,
Nə olsun, dünyada göz yaşı çoxdur.
Sözünün ayağı, başı Şamildir,
Şamildən deməyən bir uşaq yoxdur.
Özünə çəkirdi doğmanı, yadı,
Sözü bağlanırdı, bostanlaşırdı.
Get-gedə dillərdə Şamilin adı,
Dastana dönürdü, dastanlaşırdı.

Dərdini özünə nə yük edirdi,
Əmələşdirirdi söz igidini.
Böyüdüb böyükdən böyük edirdi,
Bu kənd böyüdürdü öz igidini.
Ocağı, odu da qaçaqlaşmışdı,
Göstərilirdi o barmaqla indi.
Çevrilib adı da qaçaqlaşmışdı,
Adlanırdı Qaçaq Şamilin kəndi.
O duran üzbəüz qarşı kəndlərdə,
Sevgi salınırdı adamlarına.
Olurdularsa da, qonşu kəndlərdə,
Hörmət olunurdu adamlarına.
Açmırdı bu bəzi künd adamları,
Özünü danırdı, kəndi danırdı.
Ancaq elə bağlı kənd adamları,
Bununla daha da qürurlanırdı.
Qucağı boşalır, dolur hər elin,
Kişidən də olar elin anası,
Neyləmək olar ki, olur hər elin,
İçində bir-iki axsaq danası.
Hər şeyi özünə layiqləşdirir,
Salmaqda ustadır baş üstünə daş.
Daşı daşdan çəkib soyuqlaşdırır,
Heç qoymaq istəmir daş üstünə daş.
Bilmirsən özündən özü kor olur,
Olmaq da istəmir yaxşı bir kişi.
Gördümü o anda gözü kor olur,
Kor gözü götürmür yaxşı bir işi.
Hələ çıxmamışam göyə bilmərəm,
Bəlkə, onun orda dağı, düzü var.

Dünyanın özünü deyə bilmərəm,
Dünyada hər şeyin iki üzü var.
Tək cütdən seçilmir, cüt də təkdən heç,
Cütü üzlülükdür, təki üzlülük.
Oğulsan, onları bir-birindən seç,
Dünyanı bürüyüb ikiüzlülük.
Göyə çıxıb göydə yerdən danışıb,
Üz də çevirməyib hərdən xeyirə.
Ağzını açanda şərdən danışıb,
Bir xeyir gəlməyib şərdən xeyirə.
Yerində xeyir-şər özü-özüdür,
Ona xoş sevgidir, kim nəyi sevir.
Bu kəndin həmişə ana sözüdür,
"Ay Allah, sən özün xeyirə çevir"
Hər şey xeyir olsun, xeyirdən gəlsin,
Hamı xeyir görsün, içində də biz.
Qoy hamı oynasın, danışsın, gülsün,
İştirakçı olaq üçündə də biz.
Sanki yaranıb da bir tək idilər,
Hər yaxşı, hər pis ad eldə çəkilər.
Bu cür düşüncəyə malik idilər,
Belə düşünürdü bu kənddəkilər.
Şirin dadır barı könüllərdədir,
Bir bağdır, bostandır Şamilin kəndi.
Çalır sazı, tarı könüllərdədir,
Dillərdə dastandır Şamilin kəndi.
Adını çox məşhur edib çıxıbdır,
Üç yox, say hamı bir, iki də bilir.
Adı gör haraya gedib çıxıbdır,
Adını Moskva, Bakı da bilir.

Eşidəndə olub Bağırov dəli,
Beyninə qan sızıb, korşalıb yadı.
Eşidən olmasın, deyirlər, bəli,
Hələ Stalin də bilir bu adı.
İstər dərin, istər üz başa düşün,
Ürəklərdə yanan bu od məşhurdur.
Məni, ay uşaqlar, düz başa düşün,
Bütün ittifaqda bu ad məşhurdur.
Anında haqq deyib haqlamırlar ki,
Udub unudurlar qəhrəmanları.
Heç vaxt azadlıqda saxlamırlar ki,
Onsuz da, tuturlar qəhrəmanları.
Bu bir ədalətdən, bir haqdan gedir,
Yandırır bir ancaq özünü için,
Məhkəmələr əldən-ayaqdan gedir,
Onlara zindanı göstərmək üçün.
Getdiyi yoldan da əyləyə bilməz,
İnanan inanır candan onlara.
Eyləməz, heç nə də eyləyə bilməz,
Ancaq bilmirlər ki, zindan onlara.
Baxıb göyə-yerə düşünürdülər,
Bir bulaq başında uşaqlar belə.
Düşünür, bu cürə düşünürdülər,
Səkkiz-on yaşında uşaqlar belə.
Elə yaşlı yoxdu sıralarında,
Amma boy-buxun var, qamət var idi.
Oruc, Yəhya vardı aralarında,
Qiyas, Cahan, Kamal, Hümbət var idi.
Hər toyun-düyünün yeniyetməsi,
Gör ki düşünürdü nə dərin onlar.

Hələki bu günün yeniyetməsi,
İgidləri idi səhərin onlar.
Dünyanın gör ayrı harasındadır,
Asırğaldan olan əl qamçıları.
Bir, iki onların arasındadır,
Babəkin sabahkı davamçıları.
Saxlayıb yadında davam eyləyir,
Qazanılan çətin qəhrəmanlığı.
Yazılıb adında davam eyləyir,
Olur bu millətin qəhrəmanlığı.
Nə yol kəsəndirlər, nə xaindirlər,
Durudur durudan, arı arıdan.
Uşaqlar o qədər arxayındılar,
Nigaran deyillər Şamil sarıdan.

Məhkəmə

Məhkəmə yerində yox idi hələ,
Tutmuşdu salonda hərə yerini.
Biri belə gedir, o biri elə,
İstilənənlər var, silir tərini.
Başdan-ayağadək salon dolmuşdu,
Atırdın iynəni düşmürdü yerə.
Artıq keçən keçmiş, olan olmuşdu,
Gələnlər çox idi Şamilə görə.
Biri yorulmuşdu əməlli-başlı,
Piyada yolunu tutub gəlmişdi.

Uşaq ümidinə qoyub az yaşlı,
Çoxu iş-gücünü atıb gəlmişdi.
Çoxu aparmışdı üzündə kədər,
Heç belə saraya girməmişdilər.
Axı nə məhkəmə, indiyə qədər,
Bir məhkəmə-filan görməmişdilər.
Yatıb görməmişdi yuxuda, Vallah,
Gördükləri yerdir, bir də ki göydür.
Bura gələnlərin çoxu da, Vallah,
Bilmirdi məhkəmə nə olan şeydir.
Gəliblər çoxdular, on, on beşdilər,
Gəlibsən, ay adam, yerində otur.
Bilmirdilər, ancaq eşitmişdilər,
Məhkəmə hökm edib adamı tutur.
İstəsələr, yığar bir eli bura,
O təslim olmayıb axı heç gücə.
Nə vaxt gətirəcək Şamili bura?
Onu tutacaqlar harada, necə?
Yox, yox onu, deyən, tutmayacaqlar,
Heç tutmaq olarmı Qaçaq Şamili?
Zindanlar küncünə atmayacaqlar,
O igid, o cəsur, qoçaq Şamili.
Göy yağış yağdırmaz, ağlar, neyləyər?
Dağ-daşı axıdan öz igidinə,
Bir də o tutulsa, dağlar neyləyər?
Göz yaşı axıdar öz igidinə.
Olanda deyirlər hər gülə olur,
Olur elə qoyur adamı düzdə.
Deyirlər məhkəmə, bu necə olur,
Olur ədalətli, ədalətsiz də.

Açıq sinəsinin yaxasında bir,
Göy ədalətindir, yer ədalətin.
Hara olur-olsun arxasında bir,
Ədalətsizlik var hər ədalətin.
Kimi atudandır, onundur həyat,
Kimi pis gündədir fağırlığından.
Alışıb-yanacaq sanki bu saat,
İçəri havanın ağırlığından.
Gəlmirdi, ilişib harada qaldı?
Niyə başlamırdı, görən, məhkəmə?
Bu anda məhkəmə zəngini çaldı,
Bu zəng sökənmişdi sanki yüz hökmə.
Sakit olun, sakit məhkəmə gəlir,
Salon birdən-birə durdu ayağa.
Bu gün son hökmüdür, son hökmə gəlir.
Hamı yerdən-yerə durdu ayağa.
Öz yerini tutdu məhkəmə öncə,
Prokuror gəldi, vəkil də gəldi.
İttihamçı gəldi, o isə, məncə,
Gəldi, ancaq ayrı şəkildə gəldi.
Gəldi də hamı öz yerini tutdu,
Yer-yer oturdu da, yer-yer əyləşdi.
O bunu, bu da ki bunu unutdu,
İki-üç gəldi də bir-bir əyləşdi.
Təkcə gözləyirdi öz adamını,
Müttəhim kürsüsü hələ boş idi.
Gözləyirdi hər bir göz adamını,
Deyəsən, gözləmək ona xoş idi.
Burda göy yoxdur ki, baxasan göyə,
Nə qədər baxasan bu yad damına.

Müttəhim kürsüsü nə üçün, niyə?
Niyə darıxmırdı öz adamına.
İçindən çıxdı da, adam, acığın,
Doğmayamı gəldi, yadamı gəldi?
Burda hər kürsünün, oturacağın,
Özünə görə də adamı gəldi.
Gəldi ağ gələnlər, qara gələnlər,
Hamısı qapıdan dolanlar idi.
Hələlik gələnlər, bura gələnlər,
Yəqin azadlıqda olanlar idi.
Yüküdür gələnlər dərd çəkisinin,
Sayarsan tapılar olmayan az ad.
Görən, Allah bilir bir-ikisini,
Göstərmək olarmı içində azad?
Yuxarıda gedən bəhs eşidilir,
Qutu şəklindədir, salon bir qutu.
Birdən yuxarıdan səs eşidilir,
Məhkəmənin səsi pozur sükutu.
Gətirin vaxtıdır, vaxt itirmədən,
Gətirin müttəhim tutsun yerini.
Minnət götürmədən, haqq götürmədən,
Tərləsin, utansın, silsin tərini.
Qoy bir də qanasın yarasından o,
Qanasın da qanı axsın salona.
Dəmir barmaqlıqlar arasından o,
Baxsın da özünə, baxsın salona.
Götürsün burada köz gözləriylə,
Gerçək gerçəklikdən od alan şeydir.
Qoy görsün burada öz gözləriylə,
Anlasın azadlıq nə olan şeydir.

Çəkdi bu salona bir qan Şamili,
Bir kəsi dinləyib, nə qulaq asdı.
Öz doğması kimi bu an Şamili,
Müttəhim kürsüsü bağrına basdı.
Burda nə bir idi, nə də dərd iki,
Yox idi salonda onun üçün yad.
Əyləşib salonda, bir də gördü ki,
Öz əmisi qızı balaca Savad.
Sayılsa, onuncu məhkəməsidir,
Gedirəm, ay arvad, məni yola sal.
Şamilin sonuncu məhkəməsidir,
Sal, yola sal, qiblə yönü yola sal.
"Ay ata, məni də apar", – deyəndə,
Səsinə o ünlü Ədil kişinin.
"Aparsan dünyamı qopar?", – deyəndə
Kövrəlmişdi könlü Ədil kişinin.
Ata da, bir sözlə, əlindən tutub,
Gətirmişdi onu özüylə bura.
Bu balaca qız da dilində tutub,
Gəlmişdi çox şirin sözüylə bura.
Bəs niyə dayanıb Şamil o yanda,
Ordan çıxa bilər o özü ancaq.
Vaxt tapıb onunla görüşən anda,
Şamilə deyəcək bu sözü ancaq.
Ürəyim istəyir indi onu tək,
Niyə oturdublar Şamili yalqız?
Öpmək istəyirdi, bu anda öpmək,
Nədənsə Şamili bu balaca qız.
Çıxardı səsini bu an məhkəmə,
Ayağa dur görüm, müttəhim Şamil.

De görüm, arxayın olubsan kimə,
Öyrədib bu yolda səni kim, Şamil?
Qıraqda gəzibsən o var günündə,
Qan da tökməyibsən heç bir bıçaqlıq.
Sovet dövlətinin bu dar günündə,
Eyləyibsən ona qarşı qaçaqlıq.
Çöldə qalsan, ancaq quşlara yemsən,
Səndən Koroğluya dəlimi olar?
Axı söylə görüm, axı sən kimsən,
Səndən Nəbi, Kərəm, Alımı olar?
Dayanıb dünyanın gör harasında,
Olmaya-olmaya hələ bir tozun.
Ola-ola iki dağ arasında,
Haradan gəlirdi çörəyin, duzun?
Dərədən təpəyə keçməyin bəlli,
Aşanda o yalı qaşmı yeyirdin?
Haçan susayanda içməyin bəlli,
Acanda ağacmı, daşmı yeyirdin?
Düz deməsən, işin əngəlləşəcək,
Yaran qövr eyləyib göz-göz olacaq.
Düz desən, işin də yüngülləşəcək,
Həm də ki bu sənə son söz olacaq.
Söz həmin sözə düz yanaşanındır,
Yalan olmasın bu sözün fikirləş.
Bir də deyiblər söz danışanındır,
İndi söz sənindir, özün fikirləş.
Çıxırdı bayırın lalından cınqır,
Ağlar göz yaşını gözlər qusmuşdu.
Çıxmırdı məhkəmə zalından cınqır,
Bir dinən yox idi, hamı susmuşdu.

Bir-iki dəqiqə sükutdan sonra,
Pozdu bu sükutu Şamilin səsi.
"Bizim hamımızı yaradıb Tanrı,
O verib bizlərə canı, nəfəsi.
Sinəmizdə vuran ürəyə görə,
Hamımız bir ancaq ona borcluyuq.
Yediyimiz duza, çörəyə görə
Bir də bizdə olan qana borcluyuq.
Günah eyləyəndə günah olacaq,
Ona bağışlayıb qalan hər şeyi.
Bu gün verdiyini sabah alacaq,
Odur verən, odur alan hər şeyi.
Biz hara getsək də, o gedir öndə,
Biz gəldi-gedərik, osa qalandır.
Yalandır yaşanan ömür də, gün də,
Tanrıdan savayı hər şey yalandır.
İstəsə, yetəcək dada, olacaq,
Yatsa, yuxusuna girir adamın.
Tanrı ürəyini görür adamın,
Qismətində nədir, o da olacaq,
Tanrı qismətini verir adamın.
Sizin qismətiniz, yoldaş məhkəmə,
İndi bu gün üçün orda oturmaq.
Buyur hökmünü de, hazıram hökmə,
Mənim qismətimdir burda oturmaq.
Nə ölü çıxacaq, nə diri məndən,
Lazımdır nə ölüm, nə dirim mənə.
Heç kim ala bilməz bu yeri məndən,
Bu gün çox əzizdir bu yerim mənə.
Nə çatmaz, nə yetməz bir hökmə adın,

Gah olar, insanın ən yüksəyi, ən.
Əlindən alınar məhkəmə adın,
İşləyə bilməzsən, mən olmasam sən.
Mənim ölüm, sənin dirin mübarək,
Sənin hökm yerindir, mənim söz yerim.
Bu gün oturduğun yerin mübarək,
Mənim də bəsimdir mənim öz yerim.
İstər gündə kef çək, ya çək ah yaşa,
Ya ağ donu geyin, ya qara donu.
İstər nökər yaşa, istər şah yaşa,
Onsuz da, ölümdür hamının sonu.
Qanadı bir olur, qolu bir olur,
Necə gedir getsin, barı yol gedir.
Bu yöndə hamının yolu bir olur,
Hər kəs bir ölümə sarı yol gedir.
Necə yaşayırdın, çöldə deyirsən,
Ölüm də öldürmür öl adamını.
Çöl öz yediyindən verir, yeyirsən,
Çöl özü yemləyir çöl adamını.
Quşlar özü sənə verir salığı,
Yaddaşından çıxır ev heyvanları.
Yeməyinə dönür çayın balığı,
Yeməyinə dönür ov heyvanları.
Söylə bu nə sözdür, bu nə deməkdir?
Ora gedib çıxsan, ordan qopmazsan.
Salıbsan araya bu nə yeməkdir,
Ordakı yeməyi burda tapmazsan.
Bax bir də orada olan azadlıq,
Yoxdur, bu dünyanın heç bir yerində.
Yalandır, doğrudan, qalan azadlıq,

Çünki orda nə var kökü dərində.
Kökü olduğutək otun, ağacın,
Kök salıb, kökünə köklənib hər şey.
Heç bir dərdi yoxdur toxun, nə acın,
Özünə bağlanıb yüklənib hər şey.
Adi bir ağacın iki budağı,
Ayrı-ayrılıqda azad yaşayır.
Ya bir daşı götür, ya bütöv dağı,
Azaddır, azad bir həyat yaşayır.
Burda azadlıqda olmayan quş yox,
Sən də azadlığı o quşda bulsan.
Yox, başın üstündə ayrı əl-baş yox,
Özünə həm ağa, həm də ki qulsan.
Burda qoyulursan elə bağa ki,
Olmur azad sözü demək də elə.
Qurbanam ordakı azadlığa ki,
Yadına düşməyir yemək də elə.
Elə gün olur ki, baxır gününə,
Adamı çəməni, düzü saxlayır.
Gün də olur, gülür, çıxır gününə,
Çiçəyinin gülər üzü saxlayır.
Eldə adam yaxşı ad qazananda,
Ürəyində olur hər gün toy elə.
Qiymətindən düşür söz uzananda,
Sözü uzatmayım mən də qoy elə.
Söz var adamını yoldan eyləmiş,
Elə söz deyərsən, birdən boş olar.
Nizami babam da belə söyləmiş:
“Hər sözü az demək daha xoş olar”.
Çox yemək eyləyər adamı azdan,

Çoxun çoxluğu var, azın azlığı.
Sözünü az üstə deməyə sazlan,
Az de, saz de olsan sazın sazlığı.
Bilirəm, özümü yoruram hədər,
Hökmünüzü deyin, hazıram hökmə.
Burda qurtarıram, sözüm bu qədər,
Son söz sizinkidir, yoldaş Məhkəmə".
Göz gəzdirib süzdü zaldakıları,
Sonra altdan-altdan Şamilə baxdı.
Baxdı prokrora, vəkilə sarı,
Könlündən dilinə bir fikir axdı.
Fikrini dilində sözə çevirdi,
Ürəyi çırpındı, canı qaynadı.
Məhkəmə bu anda zalı devirdi,
Bir anlıq Şamilə qanı qaynadı.
Üz tutub Şamilə məhkəmə bu an,
Müraciət etdi: yoldaş deyə o.
Dili də büdrədi, olmasın yalan,
Az qaldı, Şamilə qardaş deyə o.
Xoş gəlmişdi ona Şamilin sözü,
Məhkəmə olsa da, o da insandır.
Gərək insan olsun, insanın özü,
İş verib, iş kəsmək çox, çox asandır.
Danışmaq istədi, ancaq döndü də,
Məhkəmə söz verdi prokurora.
Durdu prokuror zala indi də,
Danışdı sözünü o dura-dura.
"Ona bu dediyim yenə də azdır,
Şamilə on beş il iş istəyirəm."
Katib bu sözləri kitaba yazdı,

Sonra doğru yola mən səsləyirəm.
Baxıram o dəmir qəfəsə burdan,
Dayanıb, hazırdır müttəhim hökmə.
Deyirəm tək bircə nəfəsə burdan,
Son qərar sizindir, yoldaş məhkəmə.
Bayırda ağaclar tökdü barını,
Yarpaqlar rəngini sarı toxudu.
Məhkəmə də verib öz qərarını,
Deyib son sözünü, on il oxudu.

Dustaq Şamil

Məhkəmə on il oxudu,
Şamil getdi on illiyə.
Ömür dediyin yuxudur,
On düşdü son illiyə.
Geyir hər gündə bir don il,
Həyatın atın üstünə .
Gətirdi beş il ,ya on il,
Həyat həyatın üstünə.
Pəncərədən daş gəldikcə,
Yer yer olur,yer-yer artır.
Yaş üstünə yaş gəldikcə,
Ömrün, günün bir-bir artır.
Yaşayırsan bir marağa ,
Ömrə, günə can verirsən.
Özündən çıxır qırağa,
Hərdən həyəcan verirsən.

Elə bil ki, nə ürəkdə,
Nə bir canda yaşayırsan.
Bulunursan bir istəkdə,
Həycanda yaşayırsan.
Bəri başdan nə biləsən,
Ömrü, günü bilmək olmur.
Gərək yaşayıb öləsən,
Yaşamadan ölmək olmur.
Nə ağlın var, nə başın var,
Bu ağılda, bu başdayam.
Hələ mənim nə yaşım var?
İyrimi yeddi yaşdayam.
On il də burda yaşasam,
Olacaq düz otuz yeddi.
Hər necə harda yaşasam,
Yadımdadır Otuz yeddi.
Aparıb alıb elimdən,
Aparıb mənim atamı.
On yaşda olan əlimdən,
Qoparıb mənim atamı.
Beş günlük özümdən qopam ,
Özümdən azadlıq hörəm.
Gəlmişəm ki, onu tapam,
Bəlkə, buralarda görəm.
Hələ qanım qaralar da,
Kimin gəlib özü bəri.
Tapam, kim var buralarda,
Pirverdidən üzübəri.
Adam var elində quldur,
Onunladır mənim davam.

Görəm, nə işlə məşğuldur,
Burda Alısəfər babam.
Həsrət ,kədər daşıyırmı?
Vətən deyib ağlamır ki?
Arıları yaşayırmı?
Yenə arı saxlamır ki?
Elinin oğul, qızları,
Sevgidən, görüşdən gəlir?
Qoyunları, quzuları,
Malları örüşdən gəlir?
Görən olsa, qınayacaq.
Tapsam onu buralarda,
Görsə, məni tanıyacaq?
Orda onun üçün solub,
Rüstəm babam, Cəfər babam.
İgid olub, ərən olub,
Mənim Alısəfər babam.
El dərdini daşıyırmış,
Ağıl yoxmuş, ağlı kimi.
Təmiz ada yaşayırmış,
Pirverdinin oğlu kimi.
Bu işığa, qaranlığa ,
Layiqdirmi, görəm onu?
Ötəricə bir anlığa,
Burda tapam, görəm onu.
Ürəyimi, çəni bu an,
İsladırmı, üşüdürmü?
Bu səsimə məni bu an,
Görən, Allah eşidirmi?
Bir həsrətə, bir dərdədir,

Oynamayım öz havamla.
Bəlkə, elə bir yerdədir,
Məhəmmədəli babamla!
Girməyim qəmin altına,
Göy yaşayır, yer yaşayır.
Girib bir damın altına,
İkisi də bir yaşayır.
Durur o çaldığı saz da,
Bilirəm, çoxdur yaşları.
Olur qışda, olur yazda,
Bir yerdə yaşayışları.
Çox kədərli anlarında,
Oxuyurlar aşıq kimi.
Bəlkə, gəzir yanlarında,
Atam Salman uşaq kimi.
Özünə ağlayıb-gülüb,
Bəlkə, öz canlarındadır.
Pirverdi babam da gəlib,
Ruhuyla yanlarındadır.
Göy yerə, yer göyə bağlı,
Yəqin, enib göy də gəlib.
Kərbəlayı Cəfər oğlu,
Əmiraslan bəy də gəlib.
Yiyə çıxıb göy adına,
Göyün də öz göyü olub,
Layiq olub bəy adına,
O bəylərin bəyi olub.
Alıb göyləri başına,
Yerində yerə yanaşır.
Yığıb bəyləri başına,

Yenə bəylikdən danışır.
Hələ yanır işıqlar da,
Yerdən deyir, göydən deyir.
Saz döşündə aşıqlar da,
Əmiraslan bəydən deyir.
Alıb damını başına,
Başınamı gəlib hava.
Yığıb hamını başına,
Ruhuyla Pirverdi baba.
Nəsli yarı bölənlərin,
Ahına nağıl danışır.
Öl adına ölənlərin,
Ruhuna nağıl danışır.
Bu sözünə üşənirdi,
Hər kimsədən qoçaq Şamil.
Görəsən, nə düşünürdü?
Dustaqlıqda Qaçaq Şamil.
Eşitməyə bir səs yoxdur,
Düşün getsin lap bir era.
Danışmağa bir kəs yoxdur,
Kamerası tək kamera.
Saymaqla da, gün, ayı say,
Əli hara çatmalıdır?
Deyiblər ki, üç ay, beş ay,
Hələ belə yatmalıdır.
Tək verəndə, tək alanda,
Tək içməli, yeməlidir.
Tək sözünü tək qalanda,
Tək özünə deməlidir.
Yaraşırdı yüksəkliyə,

Həm də ki yüksəklik ona.
Öyrəndikcə o təkliyə,
Öyrənirdi təklik ona.
Tezcə başa vurmalıydı,
Düzülsə, günün sırası.
Tək oturub durmalıydı,
Bu günlə beş ay arası.
Yüz bulaqdan su içibdir,
Dönüb də suyuna baxır.
Axmaqda suyu keçibdir,
Günlər ki su kimi axır.
Gedim-gəlim arasında,
Bir savaşdır, bir barışdır.
Doğum, ölüm arasında,
Ömür özü bir qarışdır.
Bir ora qaç, bir bura qaç,
Aralıqdan bir çay keçdi.
Gözünü yum, gözünü aç,
Bir də gördün beş ay keçdi.
Yaman gündən soruşaram,
Bir yaxşı gündə çıxaram.
Adamlara qovuşaram,
Təklikdən mən də çıxaram.
Bir belə baxanda hər şey,
Nə var, hər şey, Vallah, təkdir.
Başımız üstündə o göy,
O göydə də Allah təkdir.
Yaş kimi gözümdən çıxım,
Su kimi axmağa gedim.
Bir gün də özümdən çıxım,

Təkliyə baxmağa gedim.
Kimi var ki, kimə desin,
Gərgin oldu, gərgin belə.
Gün olmadı, düşünməsin,
Ha düşündü hər gün belə.
Bir az güldü bir orada,
Yazı, nə yayı gözlədi.
Oturdu da kamerada,
Burda beş ayı gözlədi.
Şamil gözləməkdə olsun,
Beş ay keçdi, on ay keçdi.
Ürəyinə ümid dolsun,
Axır gəldi, son ay keçdi.
Beş yol gülüb çıxardılar,
Beş aylıq qalıq evindən.
Onu gəlib çıxardılar,
Tək kameralıq evindən.
Beş ay mehr saldığı ev,
Beş aylıq mehrini aldı.
Başqasından aldığı ev,
İndi başqasına qaldı.
Nə danışdı, nə də dindi,
Nə danışsın birdən-birə.
Gətirdilər onu indi,
Ən çox adam olan yerə.
Bağlayıbmı dəstə Şamil?
Baxmadan gözsüz bilirdi.
Tutulub nə üstə Şamil,
Dustaqlar, sözsüz, bilirdi.
Bircə yanlış söyləməyib,

Nə danışıb, düz danışıb.
Bir satqınlıq eyləməyib,
Kişi kimi söz danışıb.
Oxuyub qaldığı məktəb,
Can dərmanı, can həbidir.
Onun dərs aldığı məktəb,
Bir kişilik məktəbidir.
Boy verib, boy kökündən də,
Özü açıb, özü solub.
Deyirlər, soy kökündən də,
Hələ tutulanlar olub.
Viran olub döndərilib,
El-oba bilərbilməzə.
Bir neçəsi göndərilib,
Gəlməyib, gedər-gəlməzə.
İstəyirdi bir haqların,
Özlərini nə öyürdü.
Yaxşısına dustaqların,
Çoxu Şamildən deyirdi.
Elə-belə, söz-söhbətdən,
Demirdilər dildə bunu.
Gözlərdəki məhəbbətdən,
Duyurdu Şamil də bunu.
Çox ürəkdən, canla-başla,
Verdi öz qiymətlərini.
Göstərirdi bir baxışla,
Şamilə hörmətlərini.
Şamil bəribaşdan dustaqlardan da,
Özünə doğmalıq, istilik gördü.
Bunu çox görmüşdü dostdan, yardan da,

Gəldi burada da üstəlik gördü.
Dedilər, güldülər, aşıb-daşdılar,
Ey dost, xoş gəlibsən, neçə səs dedi.
Bir anın içində qardaşlaşdılar,
Burda da Şamilə çoxu dost dedi.
Biri Zirəddindir, biri Musadır,
Birinin də adı Molla Ələmdar!
Biri ucaboydur, biri qısadır,
Hərənin özünə görə yeri var.
Yalan deməyəsən, danışmayasan,
Ürək bağlayasan dost dediyinə.
Çevrilib yalana yanaşmayasan,
Hörmət saxlayasan dost dediyinə.
Atıb bizi bizsiz götürüb bura,
Biz bizsiz adamıq, çoxu biz burda.
Bizi taleyimiz gətirib bura,
Tale dostlarıyıq axı biz burda.
Elə bilməyin ki, quru sözük biz,
Özümüz bir sözük sözdən savayı.
Hamımız bir yerdə bizik, sizik biz,
Bizim bizimiz yox, bizdən savayı.
Könlümüzə sevgi yatırmamışıq,
Yaraşmır o bizim boş günümüzə.
Öz xoş ömrümüzə oturmamışıq,
Bura gəlməmişik xoş günümüzə.
Bizdə yox dövlətə elə təhlükə,
Dərindən gəzəndə biz həqiqəti.
Bizə dedikləri bir qara ləkə,
Yoxdur, çoxumuzun bir cinayəti.
Gülün, qəh-qəh çəkib gülün tarixə,

Xəyanətdir bizə xəyanətkarlar.
Adımızı yazaq gəlin tarixə,
Günahsız tutulan cinayətkarlar.
Hələ qabaqdadır on ilin qəmi,
Bir də keçirdiyim bu son on beş il.
Gətirib veriblər hədiyyə kimi,
Çoxumuz almışıq on il, on beş il.
Elə yaşamadı, yaşa dolmadı,
Bu xəstə canımla, bu xəstə ömrüm.
Uşaqlığı çıxsaq, azad olmadı,
Gəlirəm, görürəm üst-üstə ömrüm.
Ağdan çıxmadım, hey qaradan çıxdım,
Belə də baxanda mən nə olacam.
Tutaq ki, yaşadım buradan çıxdım,
Buradan çıxanda mən nə olacam.
Artıq ağrılara dözə bilməyən,
Bunu da deyirdi bir xəstə dustaq.
Öz ayağı üstə gəzə bilməyən,
Həmişə o gəzən əlüstə dustaq.
Bu an dustaqlardan biri də dindi,
Düz deyirsən, qardaş, elə bax indi.
Burada hamımız bax bir günlüyük,
Yolumuz eynidir, biz bir yönlüyük.
Yatdı da, yatdı da neçəmiz xəstə,
Axırda buradan çıxdı can üstə.
Xəbər etmədilər ata-anaya,
Guya apardılar xəstəxanaya.
Ayırdılar bizi ikiyə bölüb,
Eşitdik oraya çatmamış ölüb.
Buna qaralsa da, hərdən qanımız,

Bütün bədənimiz, bütün canımız.
Birənin günündə, bitin günündə,
Dustaqlar yaşayır itin günündə.
Biz ki bir canlıyıq, biz ki bir qanlı,
Hamımızın birdir aranı, dağı.
Özümüz olsaq da, azərbaycanlı,
Adımız adlanır Sovet dustağı.
Bunu düşündükcə sinəm odlanır,
Özünə kiçik ol, səhv et əsgəri.
Biz cəhənnəm, deyin, niyə adlanır?
Niyə əsgərimiz Sovet əsgəri.
Elə bil yerimiz, öz göyümüz yox,
Özümüzün olsun, göyümüz varsa.
Elə bil biz heçik, heç nəyimiz yox,
Sovetə məxsusdur, nəyimiz varsa.
Ağlar gözümüzün yaşında duran,
Bizi ağladan da odur-Sovetdir.
Əslində hamının başında duran,
Özü Rusiyadır, adı Sovetdir.
Bunu bir-iki yox, hər gün eyləyən,
Özü Allahdır da, dindir də Sovet.
Bizi tutuqlayan, sürgün eyləyən,
Öncə Rusiyaydı, indi də Sovet.
Sinəmdə ürəyim yatmaqdan doyub,
Gedir özümüzə, atır rahatca.
Hamı sovet adlı yastığa qoyub,
Başını qaldırmır, yatır rahatca.
İnanmıram daha oyanmağına,
Yuxusu dönübdür daş yuxusuna.
Ayı yuxusunun dayanmağına,

Çünki çoxu gedib qış yuxusuna.
Seyidli, mollalı, hacı, axundlu,
Dedi dediyini, dayanmadı bu.
Dedi Mirzə Cəlil, dedi Axundlu,
Sabir qamçıladı, oyanmadı bu.
Vallah, avaradan avarayıq biz,
İnanmıram, kökə qayıdacağıq.
Onların yanında nəkarəyik biz,
İndi bizmi bunu oyadacağıq.
Çəkmirəm, qorxuram, çəksəm, yüz olar,
Özüm öz çəkdiyim aha doymuşam.
Özünü tanımır, desəm, düz olar,
Vallah, bu millətdən daha doymuşam.
Hamı söz danışdı, hamı söz dedi,
Hamını diqqətlə dinlədi Şamil.
"Bilirəm, nə dedi, hamı düz dedi",
Sözü başqa səmtə yönlədi Şamil.
"Qardaşlar, tarixə səyahət etsək,
Biz bilmədiyimiz nələr görərik.
Bir az da, bir az da o yana getsək,
Yazıq anaları mələr görərik.
Tarixin özünə lap aydın olar,
Nə qədər dağılıb binələrimiz.
Görərik, bizə də apaydın olar,
Nələr, nələr çəkib nənələrimiz.
Urvatı olmayıb çörəyimizin,
Düşmənimiz mələr görünüb üzdən.
Yuxalılığından ürəyimizin,
Düşmən güclü olub həmişə bizdən.
Heç kəs ağa deyil, heç kəs qul deyil,

Yergöyə haqq olan bir Allah haqdır.
Zər deyil, var deyil, nə də pul deyil,
Gücsüzlük düşməni tanımamaqdır..
Tutub ürəyini döyünməyəsən,
Görsən bir gözəldə işvə, qəmzəni.
Koroğlu olsan da, öyünməyəsən,
Gərək tanıyasan Keçəl Həmzəni.
Gərək tanıyasan ağlı çaşanı,
Gərək tanıyasan yeri, göyü də.
Gərək tanıyasan Hasan Paşanı,
Gərək tanıyasan Bolu bəyi də.
Ehtiyyatsızlıq da pisdir düşməndən,
Bir də ki bir işi görmək əlüstü.
Güclülük seçməkdir dostu düşməndən,
Yaxşı tanımaqdır düşməni, dostu.
Olurdu az qala saat on iki,
Şamil öz fikrinin zəngini çaldı.
Özündən ayrılıb dustaqlar sanki,
Hərəsi bir yanda xəyala daldı.
Heçində-köçündə gəzdirirdi də,
Teltək darayırdı azadlığını.
Həmişə içində gəzdirirdi də,
Hər an qoruyurdu azadlığını.
O kürsüyə and da içəcək indi,
Burada tapmışdı yeni bir kürsü.
Fikrində sabah da keçəcək idi,
Onlara özünü tanımaq dərsi.
Bir ucun ucuna uc olduğundan,
Yer-yer bağlanır, uc olur yerinə.
Artıq dustaqlar da gec olduğundan,

Keçdi yatmaq üçün bir-bir yerinə.
Eylədi çətindən çətin otağı,
Yata bilməyənlər qaldı başına.
Elə çox keçmədi bütün otağı,
Xorultu götürüb aldı başına.
Yuxusu getmişdi sanki yoxluğa,
Neylədi bir yuxu tuta bilmədi.
Öyrənmədiyinə Şamil çoxluğa,
Nə qədər eylədi yata bilmədi.
Yatmırdı, yuxusu hələ yox idi,
Yuxu uydururdu özündən, deyən.
Bir çimir yuxusu belə yox idi,
Oğurlamışdılar gözündən, deyən.
Birdən də durdu da, devrildi xeyli,
Yığıldı canında can canı üstə.
O üzə, bu üzə çevrildi xeyli,
Gah arxası üstə, gah yanı üstə.
Kim bilir sabahı sabahdan başqa,
Gecəni nə yaman yuxuya gedib.
Bir kimsə bilmədi Allahdan başqa,
Özü də nə zaman yuxuya gedib.
Sonuna getsə də dustaqlığının,
Şamil keçirirdi dustaq həyatı.
Gözü yaşda idi Şişdağ, Bozdağın,
Onu gözləyirdi eli-elatı.
Dərdini sərmişdi dustaqlığına,
Neçə gündüz keçmişdi, gecə keçmişdi.
Könlünü vermişdi dustaqlığına,
Bilməmişdi illər necə keçmişdi.
Olmuşdu qürubda bu taleyiylə,

Özünü çox zaman qərib görmüşdü.
Baş-başa verib də bu dustaqlıqla,
Doqquz il altı ay ömür sürmüşdü.
İlini, ayını demirəm hələ,
Günü günlərinə daşınılmışdı.
Ömrünə qarışıb onunla belə,
Yüz igidin ömrü yaşanılmışdı.
Gedəni nə geri dönən olmuşdu,
Dərdi ürəyindən olmuşdu sürgün.
Elə bil ki bunlar dünən olmuşdu,
Sanki yaşamışdı bunlar, bir gün.
Güldünmü gülən də heç nə deyildi,
Ağlaşan dünyanın bir ucu idi.
Üst-üstə gələndə heç nə deyildi,
Bir yerdə bu günlər bir acı idi.
Çıxarıblar əldən bir ucunu da,
Yiyədir bir dərdə gör neçə nəfər.
Əslinə qalanda bu acını da,
Çəkibdir bir yerdə gör neçə nəfər.
Sevinc görünməyib gözündə heç vaxt,
Onlar üçün göydü, yerdi paylaşma.
Saxlaya bilməyib özündə heç vaxt,
Həmişə edirlər dərdi paylaşma.
Gözü baxmamışdı göz yaşlarına,
Göz yaşı gözündə çaylaşmamışdır.
Görən olmamışdır yoldaşlarına,
Şamil bir dəfə dərd paylaşmamışdı.
Dərdinin başını buraxmaq gəldi,
Sevinci səslədi elə bu anda.
Könlünə elə bil darıxmaq gəldi,

Darıxmaq istədi elə bu anda.
Göydən boylananlar, yerdən görənlər,
Dərd üstünə gəldi, yerdən darıxdı.
Özünü göstərdi birdən görənlər,
Darıxmayan kimi, birdən darıxdı.
Yandı ürəyindən alov, köz keçdi,
Axdı gözlərindən gizli bir çay da.
İlk dəfə könlündən belə söz keçdi,
Gəlib keçsə idi bu altı ay da.
Gendimi yanından aslan duruşu?
Onu səkkizə vur, hesab səksəndi.
Çıxdımı özü öz fikrinə qqarş?
Özü öz sözündən qəfil səksəndi.
Qurbandır o dağda çənə altı ay,
Başını gətirdi, dumana qatdı.
Dinməzcə keçirsən, sənə altı ay,
Şamil, altı gündür, altı saatdır.
Keçəcək gün, ay, il əvvəlki kimi,
Gedəcək hər iş öz yerini alıb.
İşində ol, Şamil, əvvəlki kimi,
Yenə də başını aşağı salıb.
Çay axmaq işini dənizə vermir,
Yanır külə dönür, köz işindədir.
Yer göyün, göy yerin işini görmür,
Dünyada nə varsa, öz işindədir.
Ürək, göz, baş-ayaq, dodaq, ağız, dil,
Ölər bir bədəndə bir can olmasa.
Anlardan yaranır gün, həftə, ay, il,
Onlar ola bilməz, bir an olmasa.
Bircə yol baxıbmı gözün bu sözə,

Bildiyinə ötür, bir dil deyirsən.
Fikrini salıb da özün bu sözə,
De də, bax ağzında on il deyirsən.
Yoxsulluq çəkməyib sözdən ulular,
Biz nə daş deyilik, nə dəmir, Şamil.
Bu sözü də deyib bizdən ulular,
Yüz fikir bir borcu ödəmir, Şamil.
Görəcəksən, Şamil, heç fikir etmə,
Gələcəyinin də güləcəyini.
Fikrində elə də uzağa getmə,
Binadan otur, qur gələcəyini.
Elə də çox fikir etmə,
Qaçaq Şamil, dustaq Şamil.
Hanı döşək, varmı yorğan?
Başın altda yastıq, Şamil!
Bu dəmir, bu daş zindanlar,
Bu soyuq, bu yaş zindanlar.
Hər saraydan baş zindanlar,
Oldu sənə dəstək, Şamil.
Yerini alıb sinəndə,
Gəlib kök salıb sinəndə.
Yaxşı ki qalıb sinəndə,
O sevgi, o istək, Şamil!
Dərd oyubsan, dərd eşibsən,
Gör neçə dərdi deşibsən.
Buna səs kimi düşübsən,
Çıxacaqsan səstək, Şamil!
Öz davana davalan da,
Öz yuvana yuvalan da.
Arada bir havalan da,

Öz yelinə əs tək, Şamil!
Gəl bir gedək, gəl obana,
Güldən də gül, gül obana.
Gedəcəksən el-obana,
İndi ayrı kəstək, Şamil!
Söyləyirsən sözünü tək,
Yandırırsan közünü tək.
Yaşadırsan özünü tək,
Neyləyirsən, bəs tək, Şamil?

On illik ayrılığın sonu

Gün həftə, həftə ay oldu altı yol,
Bir göz qırpımında altı ay keçdi.
Şamilin ürəyi doldu altı yol,
Üzündən sel axdı, gözü çay keçdi.
Buraxılacaqdır, bəlkə, indicə,
Ya bir-iki günə, bəlkə də, sabah.
Heç kimsəyə deyil, ürəyindəcə,
Bu gün də olarmış, – dedi, – ay Allah!
Zalım ayrılığın solacağına,
Sevinmək olardı, pis demirdi də.
Birdən belə günün olacağına,
İnanmaq istəyir, istəmirdi də.
Ana qayğısına qayğılanırdı,
Haldan – hala düşür, bihal olurdu.
İsti duyğularda duyğulanırdı,
Özü özlüyündə xəyal qururdu.
Taleyin işinə nə deyəsidir,

Bir də ki deməyə nə dil-ağzı var.
Tay-tuşları indi ev yiyəsidir,
Yəqin, onun boyda oğlu-qızı var.
O da heç kimsəni qınamayacaq,
Etməyəcək də heç elə söz-söhbət.
On-on beş yaşlılar tanımayacaq,
Bir cür baxacaqlar ona bir müddət.
Ensən yerə, çıxsan göyə mən belə,
Tanıyacağammı doğma yurdumu?
Yox, yox, düşünürəm niyə mən belə,
Eşidə bilərlər mənim adımı.
Öz yaman adımı daşımasam da,
Ən yaxşı adımı o el daşıyır.
Özüm cismən orda yaşamasam da,
Qaçaq Şamil adı mənlə yaşayır.
Bir yada satmayıb, verməyib məni,
Necə ki bu ömrüm-günüm adımı.
Tanıyır üzümü, görməyib məni,
Tanımayanlar da mənim adımı.
Saysan, başın itər hər sayda kəndin,
Düzdür, bax igidi, çox qoçağı var.
Çox deyil elə də o boyda kəndin,
Tanıyarlar, ancaq bir qaçağı var.
Başa düşəcəklər bir sözdən məni,
Elələri də var, qınayacaqlar.
Tanımasalar da, üz – gözdən məni,
Adımı deyəntək tanıyacaqlar.
Üz-üzə, göz-gözə baxmayacaqlar,
Baxacaq, qapıya çıxacaq qızlar.
Utanıb qarşıma çıxmayacaqlar,

Boylanıb arxamca baxacaq qızlar.
Ömrümə vurulan hər balta günə,
Cavab qaytarmışam, mən bir dırnaqla.
Kənddə sağlıq olsun beş-altı günə,
Göstəriləcəyəm yenə barmaqla.
Şirinim tək odur, qeyri nə bal-qənd,
And olsun damarda axan qanıma.
Burdan and içirəm, and içəcək, and,
Kənd başdan-ayağa mənim canıma.
Mən nahaq da olsam, ya haqq da olsam,
Suyuma, havama bağlı adamam.
Mən qaçaq da olsam, dustaq da olsam,
Elimə, obama bağlı adamam.
Birdən çıxır, gedir yadı özündən,
Özündə olmayır adamın yadı.
Heç vaxt soruşulmur adı özündən,
Eldən soruşulur adamın adı.
A Şamil darıxma, darıxdın, öldün,
De, sən səni səndən hara daşıdın?
Gözündən saldımı, buraxdı, öldün,
Adamı el tutur, oba yaşadır.
Açmışdı, bax solur gül dustaqlığın,
A igid, a cəsur, a qoçaq Şamil!
Əz başını bu gün gəl dustaqlığın,
Qoy sənə desinlər, ay Qaçaq Şamil!

Azad Şamil

Hamının köməyi olsun qoy Tanrı,
Qürbət dar olmasa, yurd gen olardı.
On il içəridə qalandan sonra,
Şamil eşikdəydi, on gün olardı.
Çölündə oxuyur, aşıqlaşmışdı,
Oxuduğu nəğmə yetmirdi sona.
İçində nəyi var, işıqlaşmışdı,
Azadlıq günəşi dəymişdi ona.
Allah da gülürdü o gülən günü,
Qucaqladı isti bir yuva onu.
Elə bil toy idi o gələn günü,
Xoşca qarşıladı el-oba onu.
Yatmırdı bir kimsə elə bil kənddə,
Neçə bayram oldu, neçə toy oldu.
Hamının evində, hələ bil kənddə,
Gündüz bayram oldu, gecə toy oldu.
Çəmənin gülüylə bəzədildi də,
Sevincə açıldı əli-ayağı.
Qız-gəlin əliylə bəzədildi də,
Bu kənd başdan – başa bayramsayağı.
Bu yaşamalı gündə, bu diri gündə,
Əldə şirin şərbət, şirin cam oldu.
Sabah da olacaq, o biri gün də,
Düz on gün, on gecə toy-bayram oldu.
Hamı bir-birini bəh-bəhə çəkdi,
Çağladı, qaynadı, adamlar getdi.
Ürəkdən güldü də, qəh-qəhə çəkdi,

Danışdı, oynadı, adamlar getdi.
Gülüb beş bacıyla, gülüb beş qardaş,
Yan-yana durdular, başda da Şamil.
Qiyas, İsfəndiyar, Kamal, Zal yoldaş,
Hamısından böyük yaşda da Şamil.
Burda bir qardaşın əlacı hər əl,
Arzular, istəklər bir ələ doldu.
Beş barmaq üstündə beş bacı bir əl,
Beş qardaş bir əldə beş barmaq oldu.
Özünə çatmışdı bu gün butalar,
Bu gün butalılar vecli idilər.
Tək əldən səs çıxmaz deyib atalar,
İki əldə onlar güclü idilər.
Elə çağlayırdı, qaynayırdı ki,
Aşıqlar oxuyur, yorulmayırdı.
Oynayanlar elə oynayırdı ki,
Sinədə ciyəri yarılmayırdı.
Görən, qoçaq varmı, qoçaq Şamildən,
Asta-asta deyir, tez oxumurdu.
Aşıq oxuyurdu Qaçaq Şamildən,
Daha Stalindən söz oxumurdu.
Üzə bilirsənsə, sən də baş vurub,
Üz bu başda, çıx ha, süz o başından.
Bu anda kim isə ayağa durub,
Səsləndi məclisin düz o başından.
-Ay aşıq, incimə qoy bir söz deyim,
Burada sən saxla, qadasın alım.
Bizim bir aşıq var, gözünü yeyim,
Onu da bir yoxla, qadasın alım.
O adam kimdisə deyib sözünü,

Ayağa qaldırdı İsfəndiyarı.
Bu balaca aşıq yığıb özünü,
Yeridi bu başdan məclisə sarı.
Saz dilləndi, birdən ağzını açdı,
Oxudu, gur səsi məclisi tutdu.
Oxudu özü də səsində uçdu,
Uddu, "Baş Sarıtel" qəlbini uddu.
Oxudu xan Kərəm yandı köçündə,
Bilmədi, heç bu səs onun səsidir.
Oxudu bu qədər adam içində,
Nə olsun, bu onun ilk məclisidir.
Niyə oxumasın, oxumalıdır,
Oxuyur burada qardaş eşqinə.
Səsinə sevgilər toxumalıdır,
Özü də bağlıdır birbaş eşqinə.
Bu an qovuşmuşdur dağ öz daşına,
Xoşbəxtdir dünyanın sevən kəsləri.
Almışdı məclisi bu an başına,
Əhsən, aşıq, sənə, əhsən, səsləri.
Uzağa gedirdi havaları da,
Səsindən hər yana düşürdü işıq.
Bənzərsiz edirdi havaları da,
Teztez dəyişirdi balaca aşıq.
Var idi səsinin şipşirin ətri,
Sevinc üzdə idi, qəm tutub için.
Kimi ağlayırdı "Dilqəm" dən ötrü,
Kimi darıxırdı Koroğlu üçün.
Ya Ələsgər olsun, ya aşıq Alı,
Hamısından deyir, söz toxuyurdu.
Hamını acdırır səsinin balı,

Bu aşıq hər şeyi bal oxuyurdu.
Sözü dərindəydi, səsi dərində,
Dərində göynədi, dərində coşdu.
Qaçaq qardaşına elə yerində,
Həvəsə gəldi, də bir söz də qoşdu.
Elə bil sözdən bir toxucu idi,
Elə yerindəcə toxudu onu.
Danışdı, birinci əzbərdən dedi,
"Şahsevəni" üstə oxudu onu.
"Gəldim, canlı qaçaq gördüm,
Qaçaq Şamil, Qaçaq Şamil.
Onu igid, qoçaq gördüm,
Qoçaq Şamil, qoçaq Şamil.
Sən bir qaçaq, mən bir aşıq,
Gəl eyləyək biz barışıq.
İşıq olaq, elə işıq,
Saçaq Şamil, saçaq Şamil.
İsfəndiyar, var da meydan,
Əgər olsa, harda meydan.
Burda meydan, orda meydan,
Açaq Şamil, açaq Şamil!
Adına ən yaxşı söz başladı da,
Oxudu yenidən məclisdən sarı.
Məclis başdan-başa alqışladı da,
Həmin an balaca İsfəndiyarı.
O gün qazancını qazandı o gün,
O gün qurulmuşdu toyu Şamilin.
Bir az da böyüdü, uzandı o gün,
Boyuna boylandı boyu Şamilin.
Bu eldə iki gün toy – düyün keçmiş,

Oynayan oynayıb, gülən gülmüşdü.
Bu məclis olandan iki gün keçmiş,
Üçüncü gün idi, Şamil gəlmişdi.
O məclisdən keçən bu yeddi gündə,
Hələ də var idi gəlib – gedənlər.
Bu günə, bu ana, bu dəqiqəyə,
Mübarək deyənlər, təbrik edənlər.
Kiminin olurdu, işi gedirdi,
Kimi də gedirdi bir hay dalınca.
Gəlir bir dəfəyə, beşi gedirdi,
Hey gəlirdi qonaq, qonaq dalınca.
Dostları çoxdan da çoxdu, çox idi,
Düşmüşdü onlardan aralı Şamil.
Baş da qaşımağa vaxtı yox idi,
Olmuşdu qonaqlı-qaralı Şamil.
Qardaşları ona hər yerdə başdı,
Ondan ayrılmırdı bacıları da.
Getmişdi canından heç qalmamışdı,
Tamam ağrıları, acıları da.
Özünə acıdır, baldır dünən də,
Yerdə bəndələrdir, göydə Allah var.
Dünən hər nə oldu, qaldı dünəndə,
Bu gün də bu gündür, hələ sabah var.
Dünəni vurmuram ağacla, daşla,
Hələ yaşayıram Allaha sağlıq.
Ürəkdən deyirəm ürəklə, başla,
Bu günə mübarək, sabaha sağlıq!
Özüm etməliyəm özümə Buta,
Məcnun olmalıyam, nə də ki dəli.
Ata sanmalıyam, özümə ata,

Ata sanmalıyam əmim Ədili.
Qulaq asmalıyam hər bir sözünə,
Əməl etməliyəm dediklərinə.
Ağ olmamalıyam heç vaxt üzünə,
O an getməliyəm dediklərinə.
Şər deyər xeyirə ayaq basmayan,
Şər verənlər şər də alar deyiblər.
Ulunun sözünə qulaq asmayan,
Ulaya-ulaya qalar deyiblər.
Gedərsən-gəlməzsən ayrı heç cürə,
Qalarsan bir quyruq bulamaq üçün.
Ulaya bilməzsən ayrı heç cürə,
Gərək qurd olasan ulamaq üçün.
Qurdluğa həsrətdir, çoxdan həsrətdir,
Qurdluğa həsrətdir bu oba, bu yurd.
Bu yurda hörmətdi, kökə hörmətdi,
Gərək qurd olasan, özü də Bozqurd.
Bir tapmaca de də, özün tap burda,
Şamil öz – özünə çağlama, coşma.
Nə yerinə düşər, desən lap burda,
Alırza babamın dediyi qoşma.
Gətirib qoymuşam ürəyimdədir,
Qarası dağların, ağı dağların.
Könül dağlanıb da, sən də dağ çəkmə,
Bəs edər özünə dağı dağların.
Yıxıblar, yıxılan yolunda mənəm,
Tutmuşam, qaldıram, qolunda mənəm.
Görən var, durmuşam, solunda mənəm,
Görünmür dumandan sağı dağların.
Qaçıb doğmaları, yox bir höyürü,

Yadlarla doludur yanı-böyürü.
Qalıb nə bir quşu, nə bir cüyürü,
Axırına çıxıb yağı dağların.
Yeyiblər nəyi var, bir uc qarışıq,
Ot, qaya, daş-torpaq, ağac qarışıq.
Qıraqdan baxmışam mən ac qarışıq,
Qalmayıb bir yerdə sağı dağların.
Bir yanı Karaman, bir yanı Xar-xar,
Söyüdlü gölündən sonalar qalxar.
Nehrə dərələri çən – duman çalxar,
Alınmaz, Alırza, yağı dağların!

Epiloq

Yol gəldim haradan-haraya qədər,
Cızdım öz yolumu, cızdım yalnız mən.
Olandan-qopandan buraya qədər,
Eşitdiklərimi yazdım yalnız mən.
Bacardığım qədər qoymadım olsun,
Yazdıqlarımın da bircə yanlışı.
Yanında soyadım, nə adım olsun,
Araladım göycə, yercə yanlışı.
Çoxu dosdoğmadır, bir yad da yoxdur,
İstəyi ürəyə dolan adamlar.
Adlarında yanlış bir ad da yoxdur,
Hamısı tarixdə olan adamlar.
Deyirlər, kef çəkir kefinə şişən,
Deyirlər, yamanı yoldaşın, yarın.
Hərəsi tarixə bir cürə düşən,
Canlı bir tarixdir bu adamların.
Bunlar özümüzdə, elə lap bizdə,
Danışan olandır, dinən olandır.
Çox da uzaqda yox, tariximizdə,
Dünən yaşayandır, dünən olandır.
Hey var, hey dayanıb dizdə hələ ki,
Deyən, güclülərin sırasındayıq.
Səhərə getsək də, biz də hələ ki,
Dünənlə bu günün arasındayıq.
Toxuna yan gedən acına gələr,
Boyuna işıq da, kölgə də, çatar.

Əli əlimizin ucuna gələr,
Uzatsaq, əlimiz, bəlkə də, çatar.
Danışım, danışsın, danış, olarıq,
Var yox günümüzdə, var günümüzdə.
Əlindən tutarıq, tanış olarıq,
Əlimizdən tutaq dar günümüzdə.
Min ildə, min gündə bizimlə olar,
Ahdan ah, ahları qoruyar bizi.
Dar gündə, gen gündə bizimlə olar,
Ən azı ruhları qoruyar bizi.
Cavandan cavandır, qocadan qoca,
Hər bir cavandadır, qocadadırlar.
Yenə də dururlar ucadan uca,
Yenə də çoxundan ucadadırlar.
Sudurlar bulağın gözündən olan,
Zor çatmaz zoruna, zor kişilərdir.
İşığı, ocağı özündən olan,
Bunlar nur adamlar, qor kişilərdir.
Harada olublar, olublar öndə,
Gəzib hər şəhəri, kəndi də elə.
Elə bu görkəmdə, elə bu yöndə,
O zaman olublar, indi də elə.
Mən hər birisini, hər bir anını,
Elə ki, qələmi əlimə aldım.
İstər kişisini, ya qadınını,
Sevdim, sevə-sevə qələmə aldım.
Baxmaqdan doymadı gözü əlimdən,
Çəkdi özünə dağ-dərə, düşmədi.
Yapışdı qələmin özü əlimdən,
Bir yol da əlimdən yerə düşmədi.

Yandı bu yol üçün, sönmədi közüm,
Sevincim sinəmdə bir aləm oldu.
Çalışdıq bir yerdə ürəyim, özüm,
Bir də bir qələmim, bir əlim oldu.
Görünmür, çölündən, düzündən gedib,
Qayıtsın, çölünə, düzünə gəlsin.
Bir tarix çoxdandır özündən gedib,
Yazdım ki, qaytarım, özünə gəlsin.
Öldüm, ölən yerdə ölümdən tutdu,
Hər dərdimə soldu qəhrəmanlarım.
Ruhları şad olsun, əlimdən tutdu,
Mənə kömək oldu qəhrəmanlarım.
Cız-cız cızıqladım, cızdım bir əsər,
Özümü onunla qoşa gətirdim.
Yazdım, yaxşı-yaman yazdım bir əsər,
Ayağından tutub başa gətirdim.
O göyün göyünü quşa çəkdirdim,
Bu yerin yerini daşda oturtdum.
Bəlkə də, mən onu başa çəkdirdim,
Bəlkə də, mən onu başda oturtdum.
O işıq olacaq, nə kölgə, kölgə,
Niyə söyləyirsən xəlvətdə bunu?
Ay Sahib, düşübsən, nə bəlkə, bəlkə,
Bunu edəcəksən, əlbəttə, bunu.
Belədən də elə aparacaqsan,
Vətən göylərində süzdürəcəksən.
Mütləq özün ilə aparacaqsan,
Avropadan belə gəzdirəcəksən.
Göyərərsən, üzə çıxarsan yenə,
Torpağı özünsən, dəni bu əsər.

Yerə oturdublar çoxdandır səni,
Göyə qaldıracaq səni bu əsər.
Yerini bilirsən, yerin ordadır,
Özün qovuşarsan əbədiyyətə.
Bu əsərin yeri elə burdadır,
Bu əsər qovuşar ədəbiyyata.
Ömrü işıqdandır, dandandır onun,
Yaşayar özünün qovuşuğunda.
Canı söz adlanan candandır onun,
Uyuşar sözünün qovuşuğunda.
Kef ilə gəzərsən gündə dünyada,
Göyün göyü, yerin yeri olarsan.
Şairliyin olar, sən də dünyada,
Beş-altı şairdən biri olarsan.
Düşündüm ki, bəlkə, sözü doyuram,
Bu sözdən o sözə keçdim hücuma.
Mənim şərəfimdir, şərəf duyuram,
Hesabat verməyi öz oxucuma.
Gözünün önündə əgər olubsa,
Bu ilkin, həm sonun hesabatıdır.
Bir günün günündə əgər olubsa,
Bir sözü də onun hesabatıdır.
Onsuz, yaranmağı xoşuna gəlir,
Əsərə çevrilib gəlib bir sözdən.
Yığılıb bir sözün başına gəlib,
Ya ağlayıb, ya da gülüb bir sözdən.
Baxışına baxıb, göz gözü çəkir,
Adam şair olur körpələşəndə.
Söz sözü gətirir, söz sözü çəkir,
Cümləyə dönür söz körpüləşəndə.

Birtəhər keçəcək özü körpüdən,
Çalışıb, sözündə yıxılmayasan.
Elə keçirəsən sözü körpüdən,
Sözünlə özün də yıxılmayasan.
Heç yerdə tanınmaz, səni tanımaz,
Biraz olar buna üzdən sıxılmaq.
Göydən yıxılarsan, burnun qanamaz,
Ağır yıxılmaqdır sözdən yıxılmaq.
Ocaq kül olanda közündən enir,
Kirpik, qaş qalxanda gözü qaldırır.
Özünü endirən özündən enir,
Özünü qaldıran sözü qaldırır.
İki cür danışıq var danışanda,
Sözün qalxan ucu, enən ucu var.
Mənə xoşdan xoşdur hər danışanda,
Sözün susan ucu, dinən ucu var.
O onun haqqıdır, buludlar dolur,
Haqqına vuruşur haqq da var haqda.
Adamına baxır, danışsan olur,
Sözü uzatmaq da, uzatmamaqda.
Sənsiz oturacaq özü yerinə,
Yansın, külünədək köz uzanmasın.
Bir də qoya bilək sözü yerinə,
Elə eyləyək ki, söz uzanmasın.
Söyləyib edərsən sonsuz da onu,
Danışan əyilir söz əyiləndə.
Başa düşən düşür, onsuz da, onu,
Bir kəlmə deyilir söz deyiləndə.
Neyləyim, mən aza fikir vermədim,
Çox kəlmə işlətdim mən bu əsərdə.

Birini bitməyən, ancaq görmədim,
Səpdikcə göyərdi dən bu əsərdə.
Səpdikcə səpilir, gördüm ki, bitir,
Mən də göyərtdikcə göyərtdim onu.
Heç mənsiz olmadı tək bircə sətir,
Dərs keçdim, birbəbir öyrətdim onu.
Bu başa gəldim də, o başa getdim,
Sözə oldum da bir bəndə, öyrəndim.
Hər sözü özümə müəllim etdim,
Öyrədə-öyrədə mən də öyrəndim.
Düşdüm mən, özümdən yerə qopdum da,
Döndərəndə gördüm sözün tərsini.
Hər kəsə yaraşan sözlər tapdım da,
Söz boyu öyrəndim tarix dərsini.
Onlarla açıldım, onlarla soldum,
Uca başım oldu qəhrəmanlarım.
Harada oldular, orada oldum,
Yol yoldaşım oldu qəhrəmanlarım.
İlki, soyu, kökü onlar öyrətdi,
Onu da daşımaq necə olursa.
Mənə əsər boyu onlar öyrətdi,
Mənəvi yaşamaq necə olursa.
Yoldaşıq, varlığa yar aramızda,
Tarixi tarixə daşıyanları.
Bu gün də var hələ, var aramızda,
Qəhrəmanlarımın yaşayanları.
Hansını saydırım, hansını sanım,
Ən çətin anının yoldaş yoldaşı.
Elə biri mənim qəhrəmanımın
Öz həyat yoldaşı, öz baş yoldaşı.

Biri canda durdu, biri də qanda,
Hər şeyi gördülər qırx beş ildən çox.
Bir yerdə oldular ən çətin anda,
Ömür-gün sürdülər qırx beş ildən çox.
Oldu ömrü boyu Qaçaq Şamilin,
Qoşması, təcnisi, qəzəli Savad.
Yanından gözəllər keçsə də min-min,
Oldu ona dünya gözəli Savad.
Başa-baş qoydular, ağıla-ağıl,
Oğul böyütdülər, qız böyütdülər.
Qıza qız dedilər, oğula oğul,
Hər birini sağlam, saz böyütdülər.
Dönük çıxmadılar sevgilərinə,
Saxladılar gözdə, ürəkdə sevda.
Qarışıb da halal axan tərinə,
Böyüdü üç oğul, dörd qız bir evdə.
Öz el-obasından dönmədi biri,
Təmizdən də təmiz tər oğulları.
Zahid, Vahid, Şahin oldu hər biri,
Yurdun igid, cəsur, ər oğulları.
Könlümdə yeri var, xüsusi yeri,
Tanınır könlümün hər başında da.
İgidim olmuşdu onlardan biri,
Birinci Qarabağ savaşında da.
Yoxdur mənim kimi söz dəlisinin,
Yoxdur ucalıqda sözdən ucası.
Birgə Şamil-Savad ailəsinin,
Şirin son beşiyi, ən balacası.
Hörmətlə yanaşdı hər bir qadına,
Ana gözlərinin şehinə döndü.

Çıxdı, yiyə durdu Şahin adına,
Getdi, Qarabağda Şahinə döndü.
İlk gündən atıldı savaş oduna,
Döyüşdən-döyüşə bir od götürdü.
Layiq oldu Qaçaq Şamil adına,
“Babək qırx dörd”ə şərəf gətirdi.
Vurdu sağa-sola, genişləndirdi,
Böyütdü yolunu Qaçaq Şamilin.
Öldürdü ölünü, sındırdı dərdi,
Yaşatdı olunu Qaçaq Şamilin.
Elə həmin andan bir Şahin adı,
Öz adına uyğun yayıldı eldə.
Olub da hər biri Şamil övladı,
Zahid də, Vahid də sayıldı eldə.
Sayılıb, yenə də sayılacaqlar,
Yenə sayılırlar, sayıldı nədir.
Hələ sevgilərlə duyulacaqlar,
Yola bax, yoldadır, hamı yol gedir?
Adı yol olsa da, yönü ayrıdır,
Yol var, kəndə gedir, yol var, şəhərə.
Özünə görə ömrü, günü var,
Biri axşamadır, biri səhərə.
O aya, ulduza baxın axşamdan,
İşığına dua edəndən olun.
Adamlar, çalışın çıxın axşamdan,
İşığa, səhərə gedəndən olun.
Eyləməyək şərə şər eybimizi,
Məşuq olan yerdə aşıq yaxşıdır.
Qaranlıq örtsə də hər eybimizi,
Yenə qaranlıqdan işıq yaxşıdır.

Otur, salma, uşaq, uşaqlığına,
Yerində uşağın uşaq yeri var.
Bir işıq düzələndə işıqlığına,
Deyirlər, bir azca işıq yeri var.
Yanırıq, görürsən,haqqı görünür,
Qurum, tüstümüzdə işığın haqqı.
Haraya getsək də, haqqa bürünür,
Gəzir üstümüzdə işığın haqqı.
Özümdə tapmışam aşığını da,
Özümdəndir sazım-sözüm, aşığam.
Özümdən salmışam işığını da,
Mən bu əsərimə özüm işığam.
İşığa, çənə də qayıdacağam,
Gününə üç, nə beş, nə on demirəm.
Bilirəm, yenə də qayıdacağam,
Hələlik deyirəm, mən son demirəm.

İçindəkilər

Şeirimizin Sahib Camalı.....5

Proloq 15

Savaş 26

Səs 47

Acı soraq 66

Şamil 95

Düşüncələr 119

Elin Qaçaq Şamili..... 135

Vətən gülü, Vətən daşı 144

Pıçıltı..... 150

Qaçaqlar Göyçədə 162

Balıq ovu 169

Döyüş 180

Tədbir 196

Məhəmməd oğlu Alırza 201

Əsir Camal 206

Şamil qayası 216

Axtarış 224

Şamil, qaya və beş daş..... 232

Qaçaq Şamilin Camalı azad etməsi 234

Qanıqaralıq 248

Əşrəfin sıxıntısı 255

Yuxu..... 259

Əşrəfin yanlışlığı..... 263

Özbaşınalıq 272

Camalın üzə çıxması 282

Qaçaqlığa son..... 288

Məhkəmə 294

Dustaq Şamil..... 304

On illik ayrılığın sonu 321

Azad Şamil 324

Epiloq 331

Sahib Camal

QAÇAQ ŞAMİL

Çapa imzalanmışdır: 23.08.2021
Formatı 60x84 1/8.
Həcmi 23 / Sifariş № 566
Tiraj: 500